Nurəddin Ədiloğlu

MƏNİM BAĞDAGÜL NƏNƏM

BAKI - 2018

60 illik yubileyim münasibətilə işıq üzü görən bu kitabı nənəm Bağdagül Əsədullah qızının, atam Məşədi Ədil Həmid oğlunun, anam Aminə Qəhrəman qızının unudulmaz xatirələrinə ithaf edirəm.

Ön sözün müəllifi:
professor Qulu Məhərrəmli
Redaktor:
Gülmürə Ramazanqızı
Korrektor:
Xumar Hüseynova
Rəssam:
Ehtiram Məmmədov

Nurəddin Ədiloğlu. "Mənim Bağdagül nənəm".
(Publisistik məqalələr, esselər, oçerk və hekayətlər)
"OL" NPKT. Bakı. 2018. Səh. 284.

Tanınmış yazıçı-publisist Nurəddin Ədiloğlu ölkənin qələm əhli arasında parlaq istedadı, fakt və hadisələrə fərqli yanaşmaları, peşə dəyərlərinə münasibəti, sözünün və xarakterinin bütövlüyü ilə seçilir. Zamanın nəbzini tutan, toplumun dərdlərinə işıq salan, yaradıcılığında müasir insanın düşüncə və qayğılarını gündəmə gətirməyi bacaran söz sahibidir. Müəllifin oxuculara təqdim etdiyi bu kitabında toplanmış bədii-sənədli hekayətləri yarıməsrlik bir dövrü əhatə edir. Həyatın özündən qaynaqlanan, el-obanın, torpağın dərdini, cəmiyyətin qayğı və problemlərini dürüst əks etdirən bu publisitik əsərlər yaxşı poeziya və nəsr nümunəsi kimi məyusluğa və ruh düşkünlüyünə qalib gəlməkdə oxucuya kömək edir.

Ön söz

Zamanın yaddaş kodları

Bu gün ətrafımızda cərəyan edən mürəkkəb hadisələri vicdanla qələmə almaq, həqiqətə sadiq qalaraq yaşadığımız dövrün gerçək salnaməsini yazmaq, bu fonda müasirlərimizin portretini cızmaq hər bir vicdanlı jurnalist üçün mənəvi ehtiyacdır. Yazdıqlarını toplayıb kitab halına gətirmək isə artıq dövrün ab-havasını kağıza hopdurmaq, onu bir növ əbədiləşdirmək, gələcəyə cığır salmaq, zamanın yaddaş kodlarını yaratmaq deməkdir. Tanınmış yazıçı-publisist Nurəddin Ədiloğlunun bu kitabda toplanmış və təxminən yarıməsrlik bir dövrü əhatə edən bədii-sənədli hekayətlərini oxuduqca beynimdən keçən bu fikirlərin dəqiqliyinə bir daha əmin oldum.

Ölkənin qələm əhli arasında parlaq istedadı, fakt və hadisələrə fərqli yanaşmaları, yorulmaq bilmədən axtarışlarda olması, peşə dəyərlərinə münasibəti, sözünün və xarakterinin bütövlüyü ilə tanınan N.Ədiloğlu yetkin qələm sahibidir, 20-yə yaxın publisistik və bədii kitabın müəllifidir. Zamanın nəbzini tutan, toplumun dərdlərinə işıq salan, yaradıcılığında müasir insanın düşüncə və qayğılarını gündəmə gətirməyi bacaran söz sahibidir.

Onun adını ilk dəfə məşhur "Bulaq" verilişində eşitmişdim. Onda yaşadığı Masallı rayonunda eşit-

diyi-bildiyi folklor nümunələrini, el əhvalatlarını yazıb bu verilişə göndərirdi. Daha sonra onun barəsində bir yazıçı kimi rejissor dostum Rövşən Almuradlı mənə danışmışdı. Böyük rejissor hələ 15-20 il əvvəl N.Ədiloğlunun "Azərnur" romanını oxuyub vəcdə gəlmişdi, "kino üçün əla dramaturji material var bu romanda, vəsait tapılsaydı əla film çəkərdim" demişdi. Onun sözü ilə "Azərnur"u ("Qanlı ocaq") tapıb oxumuşdum və insanın özündənkənar baş verən hadisələrin bilavasitə onun mənəvi dünyası ilə ruhi bağlılığını magik realizm üslübunda təsvir etmiş müəllifin ədəbi istedadını çox bəyənmişdim. Maraqlı hadisələrlə oxucunu cəlb edən bu romanda yazıçının bir obanın timsalında bəşəri əxlaq problemini qabartması onun bədii təfəkkürünün dərin qatlarından xəbər verirdi. Sonralar N.Ədiloğlunun postmodernist üslubda yazdığı və ötən əsrin qaynar 90-ci illərində Bakıda, döyüş bölgələrində baş verən olaylardan bəhs edən "Qara sarmaşıq" romanını oxuyanda da eyni zövqü aldım. Əsərdə humanizmi təbliğ edən müəllif, siyasi intriqalardan əziyyət çəkən, haqsızlıqlara üsyan edərək öz haqqı uğrunda mübarizə aparan bir xalqın dolğun bədii obrazını yaratmağa nail olmuşdu.

Bədii düşüncənin gücü ilə çoxsaylı hekayə, povest, roman, hətta dram əsərləri yazmış N.Ədiloğlu, ilk növbədə jurnalistdir, dövrün salnaməsini yazan, insan psixologiyasını dərindən bilən, bu insanın cəmiyyətlə birmənalı olmayan münasibətlərini qələmə alan, əsrin tələtümləri fonunda onun duyğu və düşüncələrini yazılarında təsbit edən istedadlı pub-

lisistdir. Nurəddin əmək fəaliyyətinə də elə mətbuatdan başlayıb, 42 ildir ki, bu sahədə külüng çalır, qəzetdə korrektor kimi də çalışıb, bölgə müxbiri də olub, müstəqil qəzetə baş redaktorluq da edib. Yazdığı tənqidi məqalələrə, həqiqəti üzə çıxarmaq üçün apardığı jurnalist araşdırmalarına görə bəzən təqiblərə də məruz qalıb. Yəni o, həyatını həsr etdiyi jurnalistikanın acılı-şirinli bütün üzlərinə bələddir. Bu kitabda toplanan yazılar da, məhz N.Ədiloğlunun jurnalist qələminin, onun iti müşahidələrinin, publisistik yaradıcılığının məhsuludur. Təbii ki, jurnalist fəaliyyəti, həyatda üzləşdiyi ağlı-qaralı hadisələr həm də onun bədii yardıcılığı üçün zəngin həyat materialı verib.

Mənim fikrimcə, istənilən qələm sahibi, o cümlədən yazıçı publisistikada bir xarakter kimi daha aydın və şəffaf görünür. Yəni hər hansı problemə münasibətdə yazıçı bədii əsərdəki obrazların arxasında gizlənə, mövqeyini pərdələyə bilər, amma o, publisistikada açıq meydanda, göz qabağındadır, gizlənməyə də yeri yoxdur. Əslində spesifik "sosial təcrübə" olan publisistika, həqiqətin əks etdirilməsi üsulu kimi elə müəllifdən öz vətəndaş mövqeyini ortaya qoymasını, əhəmiyyətli problemlərə toxunmasını tələb edir. Bu mənada N.Ədiloğlu iti müşahidəsi, yüksək hissiyatının gücü və intellektual bəsirəti ilə mövcud ictimai həyat məsələlərini işıqlandırır, ortaya aktual ictimai prosesləri ehtiva edən yazılar qoyur, bu və ya başqa problemlərə münasibət bildirir.

Kitabda toplanmış yazıları nəzərdən keçirdikcə oxucu N.Ədiloğlu publisistikasında, məhz bu dediyimiz məqamların izini görür. Burada ən müxtəlif mövzulara, hətta başqalarına mübahisəli görünən problemlərə belə müəllifin aydın baxışı vardır. Bu baxımdan kitabda yer almış "Qəlbimizi şumlayan dərdlər" silsiləsi daha xarakterikdir. Burada Azərbaycan tarixinin ən həssas dövrlərinə milli düşüncə baxımından yanaşan müəllif, həm də bizlərə bu tarixi öyrənməyin və ondan ibrət götürməyin vacibliyini aşılayır. Tarixdən ibrət götürməyəndə müəllifin real qəhrəmanlarından olan Zülfi kişi kimi fərdin də taleyi millətin taleyi kimi dözülməz cəhənnəm əzabına çevrilir. Şərə boyun əyməmək, həqiqətin təhrif olunması ilə barışmamaq, düşmənin məkrini vaxtında anlamaq, milli ləyaqət uğrunda mübarizə aparmaq fikrinin bir çox esselərdə vurğulanması son dövr hadisələrinin məntiqi ilə təbii bir şəkildə səsləşir. Bu fikirlər müəllifin Qarabağ problemi, xüsusən Xocalı qətliamı ilə bağlı məqamları işıqlandıran yazılarının da canına hopub.

Bu kontekstdə N.Ədiloğlunun "Bəşəri xəcalət" adı altında "Qəlbin yaddaşı" kitabının müəllifi, rus şairi Aleksandr Fomenkova yazdığı məktub çox təsirlidir. A.Fomenkov 1999-cu ildə Bakıda Şəhidlər Xiyabanını ziyarət edərkən gördüklərindən çox təsirlənib. Azərbaycan analarının solğun çöhrələrinə baxıb və **"bizi (yəni rusları-red.) bağışlayın**!" deyib. Sonra da "**indən belə nə qədər yaşayacağımı bilmirəm, bircə onu bilirəm ki, ruhən rus olsam da, qəlbən son nəfəsimədək bakılı olacağam"**-deyə

poetik and içib. Təbii ki, belə bir insani məqam parlaq yazıçı təfəkkürü olan N.Ədiloğlunun diqqətindən yayınmır və o, öz yazıçı həmkarına ilahi sözün qüdrəti ilə müraciət edir. "***Əziz Saşa, sənin bir insan kimi vətənində öz məişət qayğılarının bitib-tükənmədiyi bir vaxtda, köksündə gəzdirdiyin rus qəlbinin həm də bu gün Azərbaycan naminə şövq ilə döyünməsi və yorulmadan bütün ruhuyla insanlıq və həqiqət uğrunda çarpışması məni riqqətə gətirir. Aydındır ki, Allah bizim hamımızı xoşbəxt etmək niyyətində olmayıb, ancaq istəyib ki, biz hamımız dost olaq və haqqı-ədaləti müdafiə edək. Dünyanın hansı güşəsində yaşamasından asılı olmayaraq hər bir insanda sülhsevərlik diləyi ədalət hissiylə bağlıdır".*** Əslində N.Ədiloğlunun qandan, gendən, milli əxlaqdan və təbii ki, həm də islamdan gələn bu kövrək insani yanaşması bir daha onu göstərir ki, söz və fikir adamları əl-ələ verib istənilən siyasi şərin qabağını kəsə, haqsız qanların axmasını dayandıra bilərlər. Amma bunun üçün dünyadakı bütün vicdanlı insanların birləşməsi, bir müqavimət qalxanı yaratması çox vacibdir. Belə olmasa, daim aqressiv separatizm, müharibə qorxusu və terror təlaşı keçirən bəşəriyyət həmişə təhlükələrlə üz-üzə qalacaq, bir ailənin dərdi, bir xalqın faciəsi bütün dünyanın faciəsinə çevriləcəkdir.

Kitabdakı yazıların əksəriyyəti müasir publisistikamız üçün xarakterik olan portret-oçerk janrındadır. N.Ədiloğlu bu oçerklərdə gördüyü, tanıdığı dəyərli şəxsiyyətlər, elm və təhsil xadimləri, söz və sənət adamları, bir sözlə millətin ruhunu ifadə edən dəyərli insanlar haqqında sevgi ilə söz açır. Bu ba-

xımdan onun milli yaddaşımızda ayrıca yerləri olan Oljas Süleymenov, Sabir Rüstəmxanlı, Məmmədağa Sultanov, Əhmədağa Muğanlı, Zeydulla Ağayev, general Ənvər Aslanbəyov, partiya və dövlət xadimi Zəbi Quliyev, Qaçaq Mozu, tarixçi alim Musa Quluzadə haqqında yazıları həm faktik materialların cazibəsi, həm də müəllifin yazı üslubu baxımından çox maraqla oxunur. Onun sənət adamları haqqında, xüsusən böyük səhnə ustası, xalq artisti İlham Əsgərov, şair Qiyas Həmid, məşhur qarmon ifaçısı Abutalıb Sadıqov, istedadlı jurnalist həmkarımız Zöhrab Əmirxanlı haqqında yazılarını da həyəcansız oxumaq mümkün deyil.

Kitaba "Masallının söz boxçası" adı altında vaxtilə "Bulaq" verilişində getmiş bəzi bədii nümunələri, el-oba əhvalatları da daxil edilib. Mən bunu bir az rəmzi mənada qavradım. Belə anladım ki, müəllif oxuculara belə fikri təlqin etmək istəyir ki, ən böyük yaradıcı güc xalq təfəkkürüdür, ən işıqlı fikirlər, ən böyük hikmətlər xalqın tükənmək bilməyən söz və fikir xəzinəsindədir. Təbii ki, "söz boxçası" kitaba ayrıca bir hava verir, oxucunu bir az fərqli düşüncə qatlarına aparır.

Əslən polyak olan Amerika esse ustası və şair, Nobel mükafatçısı Çeslav Miloş vaxtilə deyirdi ki, vicdanın məzəmmətinə cavab verməyin yeganə yolu həqiqəti yazmaq, insanların nədən narazı qaldıqlarını dilə gətirməkdir. Gürünür, yaradıcı adamların bir çoxunun *"ona görə yazmağa başladıq ki, narazıyıq..."* (A.M. Matute) deməsi təsadüfi deyildir. Bu mənada publisistikanın bir missiyası da cəmiyyəti

narahat edən problemləri gün işığına çıxarmaq, insanları düşündürən suallara cavab verməkdir.

Əli daim həyatın nəbzi üstündə olan yazıçı-publisist Nurəddin Ədiloğlunun bu kitabda toplanmış məqalələri, esse və oçerkləri göstərir ki, yazılanlar həyatın özündən qaynaqlanırsa, el-obanın, torpağın dərdini, cəmiyyətin qayğı və problemlərini dürüst əks etdirirsə, həm də müəllif düşüncəsindən süzülüb bəlli bir formada cazibədar əsərə çevrilirsə oxucunun qəlbini oxşaya bilir. Məhz belə parlaq publisitik əsərlər yaxşı poeziya və nəsr nümunəsi kimi məyusluğa və ruh düşkünlüyünə qalib gəlməkdə oxucuya kömək edir.

Qulu Məhərrəmli,
Filologiya elmləri doktoru, Bakı
Dövlət Universitetinin nprofessoru,
Azərbaycan Respublikasının
Əməkdar jurnalisti.

VƏTƏN AŞİQİ

(esse)

Ön söz yerinə ...

... Qarabağlı Zülfi kişini neçə illərdir ki, tanıyırdım. Hər dəfə ağrılı-acılı olsa da, söhbətimiz tuturdu. Şuşadan, İsa bulağından, Cıdır düzündən söz düşəndə: "Yaralı qəlbimə toxunma, qardaş!" - deyərək, harasa tələsdiyini söyləyib, kövrək addımlarla məndən uzaqlaşardı da. Baxan deyərdi ki, Zülfi kişinin nəyi xəstədir? Maşallah, sapsağlam kişidir. Ancaq əsgər qiyafəsində get-gedə qocalan bu kişi həqiqətən də xəstə idi - VƏTƏN XƏSTƏSİ... Ürəyində yara gəzdirirdi - ŞUŞA YARASI...

Həmişə əsgər olduğu ilə öyünən Zülfi kişinin sorağı bir gün doğurdan da xəstəxanadan gəldi... İdarə etdiyi köhnə "Jiqili"maşınını böyük Nil ağacına çırparaq, bərk əzilmişdi. Xəstəxanaya ziyarətinə gedəndə gördüm ki, həyat yoldaşı Həqiqət xanımla oğlu Ceyhun başının üstünü kəsdirib. Nədənsə qəribə hissələr keçirdim. Elə bil Zülfi kişi maşınını çırpdığı irigövdəli, qollu-budaqlı Nil ona bir vaxtlar Şuşada kölgəsində oturub dincəldiyi

hansısa ağacı xatırlatmışdı. Və Zülfi kişi bir anlıq hər şeyi unudub, o ağacı qucaqlayıb, bağrına basaraq öpmək istmişdi. Qəza da elə bu an baş vermişdi...

Məni çarpayısının yanında görəndə dərindən köks ötürüb, Şuşa haqqında elə qəmli söhbətə başladı ki, kövrəldim. Elə bil mənə söylədiyi bu daxili monoloqu illərlə qəlbində gəzdirməkdən daha bezib-usanmışdı...

Monoloq...

- Mən əsgərəm qardaş! Qaçqın sözü arıma gəlir, bağrımı dəlir, mən didərginəm! Demə ki, əsgərin didərgini olmur. Olur, qardaş, olur, bu haqqı nahaqqa verən dünyada nə desən olur. Hər dəfə Şuşa yuxularıma girir, göz yaşlarım balıncıma süzülür, qardaş!.. Xan lələmin səsi gəlir qulaqlarıma: "O dağlar kimə qaldı?!" İsa bulağının suyunu kim içir, İlahi?!. Əgər o torpaqlara nə vaxtsa dönəsi olsaq, Şuşa oz dağlarının havasını, çeşmələrinin suyunu, meşələrinin cənnət güşəsini bizə HALAL edərmi görən?!. Vətən həsrəti çəkirəm, qardaş! Ağrıyıb-sızıldayan köksümdə YURD itkisinin acısı adlı bir kitablıq sözüm-söhbətim yatır!..

Anam qərblikdə xəstələnib yatağa düşəndə hiss etdim ki, Qarabağ qədər mənə müqəddəs və əziz olan varlığı da itirirəm... Anam Qarabağsız öləcəkmi, ay Allah?!- deyə fəryad etdim.

...Vətəndən vətənə həsrətlə baxmaq bizimmi qismətimizə düşüb elə?! Bu necə alın yazısıdı, qardaş?! Taleyin bizimlə qəsdi nədir?!

...Masallıda Şır-şır bulağının suyunu içəndə həmişə ağlayıram. İsa bulağını xatırlayıram. Azərbaycanın başqa güşələrinə sığınmış didərgin qohumlarım mənə baş çəkməyə gələndə Şır-şıra aparıram. Şuşa bulaqlarını yada salır, Masallıdakı İstisuyun qoynunda çağlayan irili-xırdalı bulaqlar...

Şuşanın işğalından gör nə qədər keçib!.. Hər ilin mayında qəzetlər ürək ağrıdan yazılar dərc edir. İşğalın ildönümündə yaralı qəlbimə təsəlli verəcək ən kiçik bir yazını belə böyük ümidlə oxuyuram. Kaş bir gün bütün qəzetlər qırmızı hərflərlə: "BİZ ŞUŞAYA QAYIDIRIQ!" yazaydı! Torpaq olmayandan sonra bizim varlığımız nəyə gərəkdi, qardaş? Özü də hər an əmrə müntəzir bir qoca əsgər söyləyir, a bunu... Şair demişkən:

Yüz oğul yoxluğu bilinməz, qardaş,
Bir ovuc torpağın yoxluğu qədər...

Düz sözə nə deyəsən?! Nə qədər dost, silahdaş, qohum-əqraba itirmişəm. Vətən uğrunda vuruşan dəyərli oğulllar gəlib-gedib... Eh, qardaş, Şuşanın işğalından üzü bəri nələr görüb, nələr eşitməmişəm ki... Dərdimin üstünə dərd gəlib elə... Özü-özü ilə döyüşən, öz içindən günahkarlar, özgələrin içindən dost axtaran vətən qardaşlarımın sevgisinə, səbrinə, hövsələsinə mat qalıram hərdən! Qarabağsızlıq ovqatı nə vaxtacan belə davam edəcək, axı?! (Susur)

Dərdimizin zirvəsində...

Yaddaşıma ilişir Zülfi kişinin ürək parçalayan kəlmələri. Şəhid silahdaşlarının ruhu qarşısında özünü borclu bilən bu ahıl kişinin gözləri yaşla dolur. Ətrafa Azəri qızı Günelin ürək ağrısıyla oxuduğu "COCUQLARIN GÜNAHI NƏ..." şərqisi yayılır. Hər ikimizin gözləri önündə Şuşasız doğulub- böyüyən qarabağlı uşaqlar canlanır. Doğma yurd yerlərindən didərgin düşmüş o uşaqlar dərdlə uyudular, dərdlə gəzdilər, dərdlə ortaq olub böyüdülər. Indi oğul-uşaq sahibi olan həmin "saqqalı uşaqlar" yaddaşlarından ölənədək silinməyən müharibə dəhşətlərini nə kinoda görüblər, nə də yuxuda. Onların gözləri qarşısında bacı-qardaşları, valideynləri azğın erməni faşistlərinin gülləsinə canlı hədəf olub... Xatırladıqları o qanlı səhnələr kinoya, kitaba dönüb: Qarabağ həqiqətlərindən danışır. Dünya isə o qədər erməni yalanı həzm edib ki, xarab mədəsi Azərbaycanın neftindən savayı heç nəyini qəbul etmir! Daha doğrusu, torpağımızın altındadkı sərvətimizi sömürür, torpağımızın üstündəki Qarabağ boyda dərdimizi "görmür".

Monoloqun davamı...

- Yaralarımız qaysaq bağlamır ki, qardaş! Mənim taleyimə qəribə qəriblik düşüb!.. Xidməti işimlə bağlı yerimi dəfələrlə dəyişiblər. Mən əsgərəm, qardaş, buyruq quluyam. Bir əsgərin necəliyi verilən

əmrə onun münasibətindən aydın olur. Düzdü, Azərbaycanın hər qarış guşəsi mənim üçün əzizdir. Elə təzə-təzə insanlara isinişdiyim məqamda sərəncamla başqa bir yerə göndərirlər. Hər şeyi yenidən başlamalı olursan, gəldiyin yerə, onun təbiətinə, insanlarına öyrəşməlisən... Qurban olum xalıqma, qədirbilən-di... Olduğum hər eldə, obada yaxşı insanlar görmüşəm, mənəvi korluğum olmayıb... Necə deyəllər, Allah eldən razı olsun!.. Sizin camaatdan da ömrüm boyu incikliyim ola bilməz!

Ancaq...

Sonra Zülfi kişi yenə DƏRD danışır. Qulaqlarımda ölməz Füzulinin məşhur kəlmələri "Həbibim fəsli DƏRDDİR bu" kimi səsələnir. Bu dərdi yazmaq olmur... Qulaq asdıqca da dərd üstünə dərd calanır. Şəhər cümə məscidinin minarəsindən avazla oxunan AZAN sədasını eşidib, bir anlıq susur. Azan səsi ucaldıqca ucalır. Sanki bu səs yatmış vicdanları oyatmaq istəyir. Yoxsa, işğal altındakı torpaqların və o torpaqlarda uyuyan müqəddəslərin ruhundan qopan harayı Allaha çatdırır?! Bu məmləkətdə diriykən ürəyi ölmüş, vicdanı yatmış o qədər insanlar var ki!.. Onlar nə o azan səsini eşidə bilirlər, nə də Zülfi kişini duyurlar. Deyir:

... Bəzən nəfəsim çatışmır, qardaş! Udduğum hava haram olur mənə, elə bil gedib ciyərlərimə çatmır. Deyirəm, bu da axırı!... Gör ha, doğulduğum yerdən nə qədər uzaqda öləcəyəm... Şuşanı azad görmək arzum da mənimlə öləcək! Öz doğma dədə-baba torpağının qoynunda ölə bilməmək də faciədir, qardaş!

53 yaşında dünyasını dəyişib atam... Mən ondan da çox ömür sürdüm. Amma nə fayda?! Eh! Qardaş, dərd çıxmır, ah çəkməklə adamın içindən... Mən vətənin sıravi əsgəriyəm. Ən yüksək vəzifəyə belə nə ürəyim, nə də ayaqlarım gedər!.. İnsan oğlu gərək bacardığı işin qulpundan tuta, qorxuram elə bu əsgər qiyafəsində təqaüd vaxtm yetişə, ancaq nə olsun, yenə də əsgər olaraq qalacam, yenə QƏLƏBƏ eşqiylə yaşayacam...

Eşitdim ki, keçmiş silahdaşlarından birini yüksək posta təyin ediblər. Hələ üstəlik general rütbəsi də veriblər... Çox yaxşı dedim, bəlkə mən də bir təbrik teleqramı göndərim?! Yazım ki, "MƏN SƏNİN ƏSGƏRİNƏM, heyranı olduğum dərrakənə güvənirəm, yığ bizi başına - bütün didərgin əsgərləri yığ, torpağımızı azad edək, axı sən generalsan... Qərib bir insanmı yazım imza yerinə?! Yoxsa ürəyi yaralı "qoca əsgər?!." "Qaçqın" sözü çox ağır gəlir mənə... İnan, əgər desəm, bu illəri gözüm yolda, qulağım səsdə qalıb! Adımın “yardım” qeydiyyatına alınmasına belə etiraz etmişəm... Qaçqın sözü mənə ağır gəlir,

…Ancaq nolaydı ki, kaş qapımızı döyəydilər: "Artıq zaman yetişib," deyəydilər, "Qarabağ uğrunda irəli!" əmrini verəydilər.

Mən döyüşə hazıram, qardaş! Axı, nə vaxtacan QƏLƏBƏ həsrətiylə qovrulacağam?! Şuşamı yuxularımda görəcəyəm?!

...Qismətimə düşən bu Masallı da mənim QƏRİB və DİDƏRGİN yuxularımın şəhəri olacaqmı?!. Yox, axı bu dünyada hər şeyin əvvəli olduğu kimi SONU da olur.

...son söz yerinə

...Zülfi kişi, bu sözləri çoxdan - bir yay günü xəstəxanada söyləmişdin mənə. Bəli, sən yüksək mənəviyyatı olan, öz daxilində olduğu kimi görünən ƏSGƏRSƏN qardaş!.. Vətən aşiqisən! Ancaq aradan çox illər ötüb, sorağını ala bilmirəm. Masallıdan səssiz-səmirsiz ayrılıb, hara getdin, Zülfi kişi! Ürəyində gətirdiyin, illərlə orabura gəzdirdiyin DƏRDLƏ vidalaşmadan bu vətənin hansı guşəsinə üz tutdun, "qoca əsgər"?!. Bəlkə son görüşümüz zamanı yaralı qəlbinə toxundum, Zülfi kişi, didərgin düşmüş ruhunu incitdim?! Axı o DƏRD təkcə sənin deyil, hamımızın dərdidir - mənim, sənin, onun... Bütün vətən oğullarının - vətən əsgərlərinin dərdidir, Zülfi kişi! Həmişə olduğu kimi qəlbimdən gələn ən səmimi hisslərlə sənə KİŞİ deyirəm: Zülfi kişi! Görəsən, hər addımbaşı kişilikdən dəm vurub, lüks imkanlarını gözə soxan, "Şuşa" restoranında dəmlənib, "Laçın" kafesində şellənən, "Xarı bülbül"də su sonası kimi qızların başına şabaş səpən, "Xan qızı"nda ləzginka oynayan bığburma cahıllarımızın xətrinə dəymədim ki?! Hələ qürbətdə ömür-gün çürüdə-çürüdə "qocalan" dağ cüssəli ərənlərimizi demirəm... Demirəm, ya da deyə bilmirəm! Çünki qaçqın, ya da sənin dediyin kimi, DİDƏRGİN təkcə yurdu-yuvası düşmən işğalı altında qalanlar deyil ki, Zülfi kişi!.. Qürbətdə yada-yabançıya dönüb illərlə öz ata-babasının məzarının ziyarətinə gəlməyən, ana-bacısının gözlərini yollarada qoyan, oğlu – qızı “ata” deyib, “Səni axtarıram”da fəryad edən vətən oğulları da didərgindirlər...

“Persona. az” 30.12.2015

DƏNİZ, VƏTƏN, MƏN...

(“Qəlbimizi şumlayan dərdlər” silsiləsindən)

Kompüterin arxasında oturmaqdan bezib-usanmışdım. Barmaqlarımın ucu ilə gah tez-tez alnımı övuşdurur, gah da soyuducudan götürdüyüm mineral sudan qurtum-qurtum içirdim. İçimə elə bil qaynar qurğuşun tökülmüşdü. İnternetdə oxuduğum son xəbərlər ruhumu didik-didik eləmişdi. Yenə cəbhə bölgəsində qanlı savaş olmuşdu... Yeni itkilər ürək ağrıdırdı. Videogörüntülərdə övladları həlak olan günahsız analar göz yaşları içində nalə çəkirdilər. Düşmənin atəşə tutduğu toy çadırı yasa dönmüşdü... “İlahi, bu qan-qada nə vaxta qədər davam edəcək?!”

Qəm dəryasında qərq olub, bir xeyli yerimdəcə vurnuxdum. Sonra birtəhər ayağa qalxdım, gün eynəyimi, çantamı da götürüb, ofisdən çıxdım. Yorğun, ağır addımlarla küçədə gedə-gedə könlümdən sakit bir güşəyə çəkilib dincəlmək keçirdi. Bir az əvvəl oxuduğum qaynar xəbərlərdən, baxdığım videogörüntülərdən və avqust günəşinin hənirtisindən nəfəsim təntişirdi. “Nənəm əbəs yerə avqusta qorabişirən ay demirdi ki...” Dədəli-nənəli qayğısız günlərimi xatırlayıb şirin xəyallara daldım. Elə xəyalların qanadında səsli-küylü şəhərdən nə vaxt uzaqlaşdığı-

mın fərqinə varmadım. Bir də gördüm Bilgəhdə mavi dənizin sahilindəyəm. Qəlbimi yandırıb-yaxan acılara sanki Xazərdən məlhəm umurdum.

...Ayağıyalın qumlu sahildə gəzə – gəzə içimdən keçən qəmli duyğuları dənizlə bölüşür, ciyərdolusu nəfəs alıb ləpələrin pıçıltısını dinləyə-dinləyə, qağayıları seyr edirdim. Göydən – qatar-qatar sonsuzluğa qədər uzanan ağ bulud karvanlarının arasından süzülən günəşin zərrələri dənizin sularında bərq vururdu.

Dəniz də sanki mənim gəlişimə dost-doğma ana kimi sevinib, qol-qanad açmışdı. Yenə gümüş telli ləpələr tarixin səhifəsi kimi aram-aram vərəqlənirdi...

- Xoş gəldin, insan oğlu, - dənizin dalğaları şahə qalxdı. Dupduru, göz yaşı kimi damlalar üzümə çırpıldı. Elə bil diksinib yuxudan oyandım.

- Xoş gördük, ey hər dərdimizdən hali olan mavi gözlü Xəzərim, - deyə pıçıldadım, - nə yaxşı ki sən varsan!.. Sən Tanrının Odlar yurdumuza bəxş elədiyi misilsiz ərmağansan, bərəkət və ruzi töhfəsisən! Bu torpağın gözü sənsən, keçmişimin aynasısan, uluların ulususan mənim ulu Xəzərim!..

Dəniz getdikcə coşurdu, şahə qalxan qoşun-qoşun dalğaları qumlu sahillərə sarı atını çapırdı... Mənə bir anlıq elə gəldi ki, o dalğaların səsində əcdadlarımın ruhu pıçıldayır. Qulağıma qərinələrin o üzündən savaş atları kişnəyən polad dəbilqəli cəngavər babalarımızın səsi gəldi:

- Dənizi olan məmləkət basılmaz qaladır, ay oğul! Amma siz özünüz bu dənizi mühasirəyə alıb, onu əsarətdə saxlayırsınız... Niyə özünüz öz nəfsinizin

qulu-köləsi olmusunuz? Elə bil yad ananın yad bətnindən doğulmusunuz. Bölük-bölük bölünmüsüz. Axı ana dediyiniz təbiətə, təbiətin cəmiyyətə bəxş etdiyi gözəlliklərə divan tutan əməllərinizdən necə həzz ala bilirsiniz?!

Başım aşağı susdum. "Dənizi olan məmləkət basılmaz qaladır... amma siz bu dənizi əsarətdə saxlayırsınız" ifadələrin təkrar-təkrar pıçıldayıb yenə xəyala daldım. Bir vaxtlar mən bu dənizin sahilində balıqqulağı toplayan bapbalaca uşaq idim. Bağdagül nənəm dənizə baxanda hər dəfə salavat çevirərdi. Yaradana dənizin verdiyi nemətlərinə görə topladığım balıqqulaqlarından da çox şükr edərdi. Nənəm deyərdi ki, müharibə və aclıq illərində bizi ölümün pəncəsindən Xəzər qurtardı, bala!.. Xəzər bizə pasiban oldu... Xəzər bizə arxa-dayaq oldu, dədəlik elədi...

Çox sonralar oxduğum kitablardan öyrəndim ki, dəniz təkcə balığıyla, quşu ilə sahilində yaşayan adamları deyil, həm də neftiylə İkinci Cahan savaşında uzaq Avropanın böyük-böyük şəhərlərini faşizmin əsarətindən xilas edib...

İndi mən xilaskar dənizin bugünkü halına baxıb günahkar kimi nə deyəcəyimi bilmirdim. Gözümü dənizin qoynunda görünən neft buruqlarına dikib:

- Mənim qəhrəman Xəzərim! – dedim, - sən indi də Avropadan öz səxavətini əsirgəmirsən... Qoca və hiyləgər Avropa isə sənin illərdi ki, qara cövhərini sömürür, amma əfsus ki, haqqı nahaqqa verir, mərdi namərdin qabağında məğlub qoyur...

Dənizin dalğaları narahatçılıqla pıçıldadı:

-Bilirəm, bunun da günahı özünüzdədir! Sərvəti-

min sorağına qərinələr boyu dünyanın hər yerindən gəlirlər bura. Gəlirlər, görürlər, ağız dolusu tərifl ər, təntənəli sözlər deyirlər. Siz insanlar özgələrin, gəlmələrin quru vədlərinə tez uyursunuz. Hətta onların təsiri altına düşməkdən məmnun da qalırsınız. Bir də ayılıb görəcəksiniz ki, mənim neftim də tükənib, balığım da... Tanrı mənim nemətlərimi sizə verdi, siz isə...

* * *

...Gənclik çağlarımda bir dəfə balıq ovundan yorğun qayıtmışdım evə, nənəm tutduğum balıqlara baxıb, dedi ki, maşallah, maşallah, göz dəyməsin Xəzərə, hələ neçə-neçə nəsilləri barındıracaq barıyla-bərəkətiylə!

Elə bil o an yorğunluğum canımdan yavaş – yavaş çıxdı. Nənəm mənə uşaq vaxtı danışdığı nağılı təzədən danışdı. Mənə elə gəldi ki, həmin nağılı Bağdagül nənəm özündən uydurmuşdu. Nəql edirdi ki, qədim zamanda bu yerlərdə qağayı adlnda bir quş suya təşnə imiş... Yeri-göyü Yaradanın hökmü ilə iti dimdiyini torpağa vurur. Susuzluqdan dad-həzər edən quş torpağı o qədər döyəcləyir ki,yerin tərkindən bulaq daşdanır. Sonra o bulağın suyu artıb-çoxalır, axırda gölə dönür. Bax, beləcə ulu Xəzər yaranıb. O vaxtan qağayılar bu dənizin hüsnünə heyran olublar. Onlar da quş dili ilə Yaradanın verdiyinə şükr edib, nəğmə deyirlər. Dəniz də mehriban ana kimi ləpələrin dili ilə göz işdədikcə uzanan sahillərində yaşayan sakinlərinə şirin-şirin laylalar çalır...

Mən narahatçılıqla çırpınan dənizə təsəlli verməyə çalışdım:

- Mənim bəstəkar Xəzərim! Səni vəsf edən oğullar-qızlar adından ad, gözəlliyindən ilham alıblar. Xəzər, Xəzri, Eldəniz, Dərya, Dənizxan, Dəniz təxəllüslü nə qədər nəğməkar övladların var! Mənim nəğməkar dənizim, anamız Azərbaycanın möcüzəli su dünyası! Deyirlər, zaman-zaman şəhid analarının acı göz yaşları qarışır suyuna, ona görə suyun belə duzludu... Kim bilir, bəlkə də Tanrı bəd nəzərə gəlməyəsən deyə, min illərdir ki, sənin başına duz çevirir? Ey mənim şöhrəti dünyaya sığmayan vəfalı Xəzərim, suyun duzlu olsa da, şəfalıdır. Sahilindəki narın qumların can məlhəmidir. Buruqları göylərə boy atan dənizim, dərinliyindən çıxan qara neftinlə, qara kürünlə dünyada yurdumuzun üzünü ağardan Xəzərim!..

Dənizin bağrından ah kimi qopan külək səsimi eşidilməz etdi. Sanki üzümə tərs şillə kimi çırpılan külək:

- Kəs səsini!-dedi, - dəniz siz insanlar kimi tərifi, məddahlığı sevmir...

Mən susdum. Ləpələri vərəqləndikcə vərəqlənən dənizin üzərində isə ağ qağayılar qanad çalırdı. Mənim xəyalım da sanki dənizin hüsnünə məftun olan bu quşlara quşulub göylərdə pərvaz edirdi. Neft daşlarını göydən seyr edib düşündüm: "Bax, bu möcüzələr adası yurdumuzun alin yazısına bənzəyir"

- Dəniz sevdalı xalqıma sədaqətli Xəzərim!-deyə pıçıldadım, - köksünün ən dərin qatlarından insanlara çörək verirsən! Çörəyin həmişə bol-bərəkətli olsun!..

Yenə xəyallarımın qanad açdığı səmadan boylandım dənizə. Hər yandan bir çay axırdı bura... Neçə-neçə böyük çayların görüş məkanı idi Xəzər. Bu çaylar ölkəsində hər çay öz dilində dənizə "mənimdir" deyirdi. Ana Kürlə Xan Araz səsini bir-birinə qataraq sanki nəğmə oxuyurdular: "Xəzər Odlar Diyarının dənizidir! Ağuşundan od-alov çıxır. Odlar yurdunun dənizi də özünə oxşayıb, səxavətlidir, əliaçıqdır, qonaqlı-qaralıdır bizim Xəzər!.."

Mən düşünürdüm: Gündüzlər dünyanı isidən Günəş qızılı saçlarını dənizin mavi sularında yuyurdu. Gecələr Ay zərli yelkənini Xəzərin qoynunda açıb süzəndə, göydəki ulduzlar da dənizə qonaq gəlirdi. Bakının rəngbərəng işıqları ulduzlarla birlikdə dənizin neft qoxuyan sularında sayrışırdı.

* * *

Dəniz sakitləşmişdi. Mənə elə gəldi o da fikrə gedib nəsə düşünür.

- Ey mənim Ana Xəzərim! Bəzən dalğaların şahə qalxır, bəzən dalğın, səssiz olursan. Sən də bu günlər mənim kimi çox narahatsan! "Qarabağ şikəstəsi" hər dəfə səslənəndə sən də düşüncələrə, fikrə dalırsan! Sən də "dənizdən-dənizə" çığırıb, hay-küy salan xain düşmənin taptağı altında qalan Qarabağımızın dərdini çəkirsən! Anam Xəzər, sonam Xəzər, sən də atəşkəs dövründə şəhid olan gənc əsgərlərimizə yas saxlayırsan!

Dəniz:

-Ey insan oğlu, bu yurdun dərdi mənim də dər-

dimdi, uğuru mənim uğurumdu. Bir az öncə ləpələrimin pıçıltısında əcdadlarının səsini eşitdin... "Dənizi olan məmləkət alınmaz qaladır!" Amma sənin başbilən, səlahiyyətli müasirlərinin tamahı ucbatından özümü qəfəsdə hiss edirəm. Sahilboyu uzanan o hasarları görürsənmi?!. Dünyanın harasında dənizi belə hasara alırlar, ay oğul? Gözəlliyin də qarşısına Çin səddi çəkərlər? Mən sizdən heç nəyimi əsirgəmirəm, bəs siz niyə məndən aldıqlarınızı bir-birinizdən əsirgəyirsiniz? Niyə qazancınızı havaya fişəng şəklində atırsız, süni güllərə, ağaclara çevirirsiz? Heç torpağı əsarətdə olan xalq da ilboyu bu qədər bayram edər? Heç torpağı düşmən tapdağında qalan xalqın məmurları da əcnəbi ölkəlrdə villalar alar? Neftdən əldə etdiyiniz hər manat qədrini bilin! İsrafçılıq etməyin. Axı, atəşfəşanlıqlar, şit reklamlar, bayağı seriallar, səhərdən axşamacan əyləncəli-gülməcəli televiziya verilişləri, torpağa düşmən tapdağında qalan xalqa heç yaraşmır...

Sonra dalğalar sanki nalə çəkdi:

-Sizin aqibətinizdən çox narahatam, çox... Mən içimə axıtdığınız çirkablardan qurtulmağa çalışıram, qoynumdakı zir-zibilləri qoşun-qoşun dalğalarımın pəncəsiylə sahillərə tullayıram.. Siz isə hər il ətək-ətək pullar töküb Həcc ziyarətinə gedirsiz... Sanki öz aranızda yarışırsız!.. Qoy sizin Məkkəniz Şuşa, Mədinəniz Xankəndi olsun! Əgər cəm olub hərəyə bir daş atsanız, Şeytanın nökərləri Qarabağdan gəldikləri yerəcən qaçarlar...

Mən daha dənizə nə cavab verəcəyimi bilmirdim. Könlünü ovutmaq üçün sahildə gəzə-gəzə hələ də

pıçıldayan dalğalardan nəsə sabaha ümüdverici sözlər umurdum. Uşaq vaxtı nənəmin dəniz haqqındakı nağılına qulaq asanda elə bilirdim ki, Tanrı dağı Savalanın arxasında gecələyən Günəş hər səhər Xəzərin köksündən qalxıb dünyanı nura qərq edir. Sübh çağı – dan yeri sökülən üfüqlərdə təndir çörəyi kimi qızaran Günəşi görəndə mənə elə gəlirdi ki, dünya da uşaq kimi sevinir... "Bu cahan mülkünə sülh yaraşır..."

Qulaqlarıma Yalçının yalçın qayalarda əks-sada verən səs gəldi:

Qayıdıb xoş güzərdən,
Günəş qalxır Xəzərdən.
Sevgilim keçən yerdən,
Bütün şəhər yeriyir
Bakı, sabahın xeyir!

Nənəm deyərdi ki, dənizi olanın gözü-könlü tox olar, bala. Vay halına, dənizi olmayan xalqın, acgözlükdən pis niyyətlərə düşər, "bura mənim, ora mənim" deyib aləmi qatıb-qarışdırar. Paxıllıqdan, həsəddən başlarına hava gələr. Bizim millətsə əsib-coşmağı da, Xəzərdən öyrənib, saxavətli, əliaçıq olmağı da! Ürəkgenişliyini, dərin düşüncələrə dalmağı da...

Mən qeyri – ixtiyarı dənizin önündə diz çöküb:

-Mənim vəfalı Xəzərim, qoynu səfalı Xəzərim! – dedim, - Bağışla bizi... Bağışla ki, bəzən dərdinə dərd qatırıq. Fəqət, biz sənin varlığınla hər zaman öyünürük! Nemətlərini, sahilboyu gözəlliklərini, istirahər güşələrini bizlərə halal et! Odlar yurdu Azər-

baycandan səxavətini, mərhəmətini əsirgəmə, ey Ana Xəzərim!

Xəzər ləpələrin səsiylə pıçıldadı:

- Halal xoşunuz olsun, İnsan oğlu!

- Halal xoşun olsun, Odlar yurdu!

-Qoy indiyə kimi itirdiklərinizin ağrı-acısına bundan sonra geri alacaqlarınız məlhəm olsun!.. Qoy Məkkəniz Şuşa, Mədinəniz Xankəndi olsun!...

...Xəyalım bu dəfə Şuşanın səmasında qanad açdı.

Qədim qala bürcündə üçrəngli bayrağımız dalğalanırdı.

Dəniz xəyalımdan keçənləri hiss edirdi, dalğaların dili ilə mənə dedi:

- Əgər bundan sonra təbiətin səsini eşitsəniz, içinizdəki çirkablardan qurtulsanız, özünüz özünüzü dəyişsəniz, sadə xalqın taleyini düşünsəniz, o şirin xəyallarınız tezliklə gerçək olacaq, insan oğlu!..

03.08.2015. Bilgəh.

“GÜNƏŞ LƏKƏ GÖTÜRMƏZ”

“Azərbaycan” qəzetinin 20 noyabr 2013-cü sayında Milli Məclisin deputatı, yazıçı dramaturq Hüseynbala Mirələmovun “Günəş ləkə götürməz”yazısını ürək ağrısıyla oxudum. Məncə, bu məqalə Azərbaycan ictimaiyyəti arasında nüfuzlu ziyalılar tərəfindən geniş müzakirə olunmalı və son illərdə ölkəmizdə nəşr olunan Güntay Gəncalpın “Səfəvilər”, İsgəndər Palanın “Şah və Sultan”, Reha Çamuroğlunun “İsmayıl” kimi kitabların və “Möhtəşəm yüz il” kimi teleseriallarının yayımlanmasına kəskin münasibət bildirilməlidir.

Bu gün böyük qərb dövlətlərinin Şərqə - İslam dünyasına münasibətdə apardıqları siyasətin xristian amilinə söykəndiyi bir vaxtda İsamda iki nüfuzlu təriqət arasına müsəlman olaraq bizim özümüzün qarmaqarışıqlıq salmağa haqqımız yoxdur! Əgər nicatımız türk dünyasının birliyindədirsə, onda milli –dini hissiyata toxunan bu cür əsərlərin nəşri və serialların yayımı qətiyyən yolverməzdi. İçımızdə İsam sevgisi

ilə türk sevgisi vahid müstəvidə olmalı, hər iki qardaş ölkənin qələm sahibləri bu amala xidmət etməlidir. Unutmaq olmaz ki, İslamın sünni-şiə təriqətləri əsrlər boyu Azərbaycanın və Türkiyənin mənəvi-əxlaqi dəyərlərinin əsasını təşkil edib.

"Qanun" nəşriyyatının Azərbaycan oxucusuna təqdim etdiyi "İsmayıl" romanında xalqımızın qürur mənbəyi olan, Azərbaycan türkcəsini dövlət dilinə çevirən, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafı üçün böyük işlər görmüş, klassik Azərbaycan şairi Şah İsmayıl Xətai kimi qüdrətli bir simaya müəllifin öz soy adına sadiq qalaraq qərəzlə ÇAMUR atması, doğurdan da, indiki zamanda millətimizə, dini etiqadımıza qarşı hörmətsizlik və sayqısızlıqdır. Amma gəlin görək, bu, milli-dini hesiyyatımıza toxunan ilk əsərdimi? Bundan öncə "İsgəndər Pala məgər "Şah və Sultan" əsərində Şah İsmayıla az çırkab atmışdımı? Yaxud, çox savadsızcasına və başdansövdu qələmə alınmış "Səfəvilər" kitabında Güntay Gəncalp oxucuya Şah İsmayıl Xətaini və qızılbaşları adam əti yeyən vəhşi kimi təqdim etməsi hansı amala, ideoloji xəttə, mədəni inkişafa, "iki dövlət, bir millət" prinsipinə xidmət edir? Xətai təxəllüsü ilə gözəl və incə ruhlu şeirlər yazan, qəsidələrində Allahı, peyğımbəri, on iki imamı vəsf edən, heca vəznini Azərbaycan ədəbiyyatına gətirən, "dili şəkərdən dadlıyam, Murtəza Əli zatlıyam" deyən bir şair necə ocür qəddar ola bilərdi?

İxtilaflara yol açan, mənəvi gərginlik yaradan bu çür uydurma əhvalatları yuxarıda adı çəkilən nəşrlərdə qabartmaq bu gün İslam dünyasına qənim kəsilən düş-

mənlərin dəyirmanına sü tökmək deyil, bəs nədir?

Şübhə etmirəm ki, "Möhtəşəm yüz il" serialında səfəvi hökmüdarlarının, xüsusilə I Şah Təhmasibin ünvanına çox ağır təhqiredici ifadələrin yer alması da eyni nifrətdən, ideoloji qəzəbdən qaynaqlanır. 1566-ci ildə Sultan Süleymanın vəfatı münasibəti ilə Osmanlı sarayına göndərdiyi məktubda onun Avropada qazandığı zəfərlərdən söz açaraq öz sevinc hissini gizlətməyən, eyni zamanda II Səlimin canişin təyin olunmasını ökəsində təntənəli bayram elan edən bir hökmüdarın ünvanına filimdə bu qədər nalayiq ifadələr Azərbaycan tamaşaçısına həqarət deyilmi!

Azərbaycan Tarix Institutunun direktoru, akademik Yaqub Mahmudov böyük Türk hökmdarı Sultan Süleymanın həyatından bəhs edən bu serialda tarixi hadisələrin kəskin təhrif olunduğunu vurğulayaraq, əbəs yerə onu Türk tarixi üçün "zəhərli film" adlandırmır! Türkiyənin Baş naziri Rəcəp Tayyib Ərdoğan da bu "Möhtəşəm yüz il"i tənqid edərək, onun tarixi faktları təhrif etdiyini bildirib.

Bir sıra Avropa ölkələrində, Ukrayna və Rusiyada bu filmin nümayişi dayandırılıb, İranda isə "Möhtəşəm yüz il" serialını fars dilinə dublyaj edən bir qrup şəxs həbs olunub.

* * *

Biz tez-tez bu gün iki olkə arasında əməkdaşlıqdan fəxrlə danışırıq. Amma görünür, mədəniyyət tariximiz - azərbaycan-türk tarixçilərinin, sənət dünyasının əməkdaşlığı hələ də lazımı səviyyədə deyil.

Əgər bu əlaqələr yaxşı olsaydı, dünən də, bu gün də müəllifi Azərbaycan bəstəkarları olan onlarca mahnı Türkiyənin rəsmi kanallarında tamaşaçıya anonim təqdim olunmazdı. Şübhəsiz ki, bu kanalları dünyada yaşayan 50 milyon azərbaycanlı da seyr edir. "Ay mənim Arzu qızım", "Dilbərim", "Reyhan", "Gülüm naz ilə baxma", "Daşlı qala" və s. kliplərin subtitirində "söz və muzik anonim" yazılması sözsüz ki, hər bir Azərbaycan türkünü təəssüfləndirir. Və ya "Sarı gəlin" eynən Akif İslamzadə tərzində ifa edib ona "erməni möhrü vurmaq" məgər BÖYÜK qardaş dediyimiz türk sənətçilərinin mədəniyyətimizə hörmətsizliyi deyil? Niyə Mikayıl Müşfiqin "Sən Müşfiqin yanında qalginən sənə qurban" misrasından şairin adını çıxardardıb təkcə Türküyənin özəl deyil, dövlət kanallarında da özünküləşdirirlər?.. Əlbəttə, bu kimi problemləri şişirtmədən müəllif hüquqları və ya hər iki dövlətin aidiyati qurumları yoluna qoya bilərlər...

Lakin kommunist rejiminin tüğyan elədiyi 37-ci illərdə Azərbaycanda yüzlərcə din alimi repressiyaya məruz qalsa da, Moskvada nə etiqadımıza çirkab atan bir kitab nəşr olundu, nə də bu və ya digər müsəlman respublikalarında sünnü-şiyə ayrı-seçkiliyinə rəvac verildi. Əgər elə nəşrlər rusca var idisə, ziyalılarımız onu ana dilimizə çevrmədilər. İndi özümüzə tolerant xalqıq deyə-deyə milli hisslərimizə toxunan belə əsərlərim müəlliflərinə təşəkkürmü etməliyik?!

Taxt - taca görə öz doğma atasını zəhərləyib öldürən, sülaləsindən bütün kişilərin öldürülməsinə əmr verən, qardaşlarını, qardaşı oğlanlarını qətlə

yetirən Sultan Səlimi oxucuya romanda Şah İsmayıldan daha üstün düşüncəyə, təfəkkürə, hərbi siyasətə malik sərkərdə kimi təqdim etməsi Reha Çamuroğlunun nə qədər dar düşüncəli, qərəzkar, ixtilaf salmağa meyilli, V əsr bundan öncə olan ədavəti yenidən qızışdıran qələm sahibi olduğunu sərgiləyir. Məgər R. Çamuroğlu bilmir ki, Sultan Səlim olduqca qəddar, qaniçən və qisasçı bir şəxs olduğuna görə Yavuz (qorxunc) ləqəbi almışdı. Atası Bəyazidin Səfəvilərlə sülhpərvər davranışı və Şah İsmayıla sevgi ilə yanaşması Səlimi hələ taxt-tac sahibi olmazdan öncə qəzəbləndirərdi. Ona görə Sultan Səlim hakimiyyətə keçən kimi qızılbaşlara qarşı hərəkətə keçdi. Və şiəliyin kafirliklə eyni tutulması ilə bağlı şeyxülislamın fətva verməsini tələb etdi. Sultan Səlimin əmri ilə təkcə Qaramanda 40 mindən artıq şiə öldürüldü. Qətliamda yeniçərilər iştirak etmədilər. Çünki onların yetişdirildiyi Bəktaşi təkkəsi şiəliyə yaxın məzhəb hesab olunurdu.

(Yeri gəlmişkən, dünyada ən çox izlənilən "Qurdlar vadisi" teleserialının yaradıcıları Şaşmaz qardaşları bəktaşilərdi. Filmin ilk serialarının daha uğurlu alınmasın səbəbi də məhz Həzrəti Əlinin fəlsəfəsi üzərində qurulması və filmin baş qəhrəmanı Polad Ələmdarın İmam Hüseynin haqq və ədadlət uğrunda mücadiləsini özünə örnək seçməsidir).

Məhz ordusunun əsas hissəsi Orta Asiyada olan Şah İsmayılı müharibəyə təhrik edən, Çaldırana gedən yolun başlanğıcını qoyan da qardaş qanı tökmək üçün susamış Səlim oldu. Bəs onun təhqiramiz farsca yazdığı məktublara türkcə cavab yazan və iki

dövlət arasında məsələni sülh ilə həll etməyə cəhd edən Şah İsmayıl Xətaini "İsmayıl" romanında alçatmaqla, qızılbaşlara küfr yağdırmaqla müəllif müasir oxucuya nə deməyə çalışır? Çamuroğlu və qeyriləri niyə əsərlərində Osmanlı - Səfəvi münasibətlərini gərginləşdirən və iki qüdrətli türk imperatorluğu arasında müharibəyə rəvac verən beynəlxalq amilləri önə çəkib qabartmır?

Niyə yazmırlar ki, 150 minlik osmanlı ordusu ilə 50 minlik qızılbaş ordusunun 1514-cü ildə Çaldıran-dakı savaşı tarixçilərin təbirincə desək, əslində artıq bitən orta əsrlərin sonuncu cəngavərlik nümunəsinin qətlı oldu. Bu qardaş savaşı doğrudan da, müasirliklə keçmişin sonuncu savaşıydı. Və bu savaşın əslində qalibi olmadı. "Orta əsrlər Orta Şərqdə başladığı kimi, Orta Şərqdə bitdi" (A.Qaramanlı).

Bəli, əgər o zaman qərb siyasəti iki qüdrətli türk dövlətini bir-biriylə savaşmağa sövq etməsəydi, bu gün Türkiyə Avropa birliyənə qəbul olunmağa deyil, Avropa dövlətləri Türk Birliyinə üzv olmağa can atacaqdı... Bü gün də Şərqdə tökülən günahsız insanların qanına eyni beynəlxalq amillər səbəb deyilmi?

Axı vicdan deyilən daxili bir hakim də var içimizdə. Sözsüz ki, heç bir ölkə kimi Azərbaycan da adsan, şöhrət naminə cəmiyyətin etiqadına, taleyinə biganə insanlardan sığortalanmayıb. Əgər bir insan mənsub olduğu dini sarsıdan "yaradıcılıqla" məşğuldursa, onun doğma vətənə hansı sevgisindən, V əsr adı Azərbaycanla qoşa çəkilən Şah İsmayıl Xətai kimi dahi şəxsiyyətə hansı sayğısından danışmaq olar?! Çox təəssüf ki, bu gün bəzi gənc yazarlar və

naşirlər arasında Reha Çamuroğlu kimi qərəzli qələm sahiblərinin əsərlərini təbliğ etməkdən sanki həzz alırlar. Belələri "mən də varam" deyə gündəmdə bu cür bəsit, araqızışdıran, şou xarakterli əməllərlə qalmağı üstün tuturlar. Şah İsmayıl da, Qanununi Sultan Süleyman da, Sultan Səlim də, Nadir şah Əfşar da türk dünyasından boy verən möhtəşəm simaları olublar. Sonuncunu hətta avropalı tarixçilər Asiyanın "Makedoniyalı İsgəndəri" adlandırıblar...

Bu gün tarixin yaddaşını ələk-vələk edib ortaya çox iddihamnamələr çıxarmaq olar. Lakin elə gerçəklər var ki, onun üzərindən əzəli-əbədi qardaşlığımız, etiqadımız, İslam dini, türk birliyi naminə sükutla keçməliyik.

Son olaraq, xalqımızın qürur qaynağı olan Şah İsmayıl Xətai haqqında qərəzli əsərləri yazanlara, qızılbaşlar tayfaları adamyeyən adlandıranlara, Türküyədə nəşr olunan belə kitabları Azərbaycan türcəsinə uyğunlaşdıranlara və onun böyük həvəslə ölkəmizdə yaymağa vaxt və vəsait ayıranlara üzümü tutub deyirəm: mənəvi birliyimiz, sağlam gələcəyimiz naminə İslamda məzhəb və təriqət ayrı-seçkiliyi salmayın. Sizsiz də bu ideyanı meydana atıb, onu hər cür vasitələrlə həyata keçirən, müsəlmanlar arasında ixtilaf salıb ədavəti qızışdıran xarici kəşfiyyat orqanları yetərincədir.

BayMedia. az 30 Noyabr 11:08

MƏTBUT TARİXİMİZDƏN SƏHİFƏLƏR

№ 1. 31 Maj 1932 il (3 k.)

„ЈЕНІ-НӘЈАТ"

A. K. (b) F. Masallı rajon F. və icraiyyə Komitələrinin turq və tahçeə hakkada bir çıkan organıdır.

Kolxozçy jolduşlar

Bütün elqalarin proletarlara bölüşünüz

Idarənin ünvanı: Masallı „Jeni-Həjat" tel. 76

Nəbiyat kollektiv təbiiqatçı, təqvigatçı olmasdan əlavə kollektiv rəqqilaçı dəxi olmaldır.

Kolxozdaqa rəhbərəti qarda kadrəən məhqəm qarda hokkada

I. K. (b) T. M. Masallı məjəməsi 10 da 1932 sər tərkinə kərəriş.

Bu gün ... Masallı rajon F. və icraiyyə Komitələrinin turq və tahçeə hakkada bir çıkan organıdır.

Sosjalizmi sürətlə qənd həjatı kyrən

Mərkəzim, tərbiyəsi ogrynda bəjəq bolşevik Mübarizəsi qi bi çətin və məhumin vəzifə tərdən ibarət olacaqdır.

„Jeni həjat" bujun səhmət qəş qurtumuzun ofqar ymymiləsini rəjonəmizdə əsəqən əyrəsdə əsərəmizdə olan təsərrufat Sijasi kompaniyalari sərəfində cəb, zorbəçiliq, əsəqəq, ictimaja əjəjəq və ikiqada yəyalarini dərinləşdəryb

MASALLЬ RAJON FIRKƏ KOMITƏSININ TƏBRIQI.

Sosjalizm bolşevik məsəyrə cəbhəsi bujunda qəsəqən mübarizə sürəti olacaq „Jeni həjat" gəzetəsinə bolşevik təbriqatlarini

Sosjalizm kyran şyrələr olçəsinin, bir hissəsi olan Masallı rajon bu qun əktiyəbir və əprəl inkilabi səmərə və şəhəri nəticəsində səhmətqəş qəfləsi azad proletar məsəyrəsinə—həqim olmuşdur. Masallı rajony, — firkəmizin milli sijasəthi sərpəsdən bəjəq bir qadiskla „Jeni həjat" gəzetəsi olmuşdur. „Jeni həjat" rajonun təsərrufat-

Mətbyat, firkəmin ən qəsən silahdır.

Mərkəzim proletar əsəqəqəsinin jəqyəqəsi Bolşevik Mübarizəsi olacaqdır. Vəsəqəsi təsərrufat kompaniyalarini, kəmsəmolyn, ienizmi—Marksizm, tərbiyəsi ə silahlanmasa ogrynda „Jeni həjat" gəzetəsi qələcəq də daha qəniş əmeli işlər qərəsəqdur. Rajon kəmləsi „Jeni-həjat" gəzetəsini əsəm edəriji Lenin kəmsəmolynyn və Bütün əməqçi Bitərəf qəncləran ofqar umymiləsini „Jeni-həjat" gəzetəsi ətrafinə təplələrəq bu

31 may 1932-ci ildə Masallıda “Yeni həyat” qəzetinin nəşrə başlaması rayonun ictimai-siyasi həyatında ən mühüm hadisə sayılırdı. Ötən əsrin keşməkeşli otuzuncu illərindən bu günümüzə körpü olan qəzetin Masallının inkişafında, mədəni həyatında rolu danılmazdır.

Rayon firqə və icraiyyə komitələrinin orqanı kimi nəşrə başlayan “Yeni həyat” qəzeti Masallıda mətbəə olmadığından Lənkəranda – “Qızıl Talış” qəzetinin mətbəəsində 600 - 800 tirajla çap edilirdi.

İlk sayı ağ kətan parçanın üzərində nəşr olunan qəzetin redaktorluğunu 1930-1933-cü illərdə Masallı rayon firqə komitəsinin birinci katibi vəzifəsində çalışan İlya Mişiyev (Bakı şəhəri) öz öhtəsinə götürmüşdü. Milliyyətcə yəhudi olan İlya Mişiyev Azərbaycan dilini mükəmməl bilirdi. Qeyd edim ki, 1930-1932-ci illərdə rayon icraiyyə komitəsinə Müseyib Kərimov (Musakücə kəndi) sədrlik edib.

Öz nəşrinə başlaması münasibətilə Masallı rayon firqə komitəsinin təbrikini və kolxozçulara müraciətini ilk sayında dərc edən "Yeni həyat"ın bu gün Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasının arxivində saralıb-solmuş ilk nüsxələri qorunub saxlanılır. ADU-nun jurnalistika fakültəsini bitirdiyim il (1984) "Yeni həyat"ın nəşrinə və 50 illik fəaliyyətindən bəhs edən diplom işimə qəzetin ilk sayının şəklini də əlavə etmişdim. Müdafiə komissiyasının üzvləri Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi (sonralar ittifaqın sədri) Hacı Hacıyev, "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru Nəsir İmanquliyev başda olmaqla müəllimlərimizdən Qulu Xəlilov, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Famil Mehdi, Seyfulla Əliyev (elmi rəhbərim), Tofiq Rüstəmov, Əliş Nəbili, Nəsir Əhmədli ilk tədqiqat işimi təqdir elədilər. Və mənə 1935-ci ildə "Yeni həyat"a ilk rəsmi təsdiq olunmuş redaktor Məmmədağa Sultanovla (Bakı şəhəri) görüşməyi tövsiyyə etdilər.

Filologiya elmlər namizədi, əməkdar mədəniyyət işçisi Məmmədağa Sultanovun xatirələri diplom işimi çox zənginləşdirdi. 26 il Respublika Əlyazmalar

Fondunun (İndi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu) direktoru vəzifəsində çalışan Məmmədağa müəllim 1947-ci ildə masallılı Mircavad bəy Talışxanovun qızı Badisabah xanımla ailə həyatı qurmuşdu. (Peterburqda hüquqşünaslıq təhsili almış Mircavad bəy Mirabdulla bəy oğlu (1876-1937) otuz yeddinci ilin qurbanlarından biridir-N.Ə)

"Yeni həyat"da çox vaxt M.Soltan imzazı ilə çıxış edən Məmmədağa Sultanov elmi təşkilatı işlərlə yanaşı, Azərbaycan, Yaxın və Orta Şərq klassiklərinin qiymətli əsərlərini fars dilindən ana dilimizə tərcümə etmişdir.

Qeyd edim ki,otuzuncu illərədə qəzetin cəmi iki şöbəsi var idi. Və bu şöbələr yalnız ictimai əsaslarla fəaliyyət göstərirdi. Bunlardan biri kütləvi işlər şöbəsi idi. Şöbənin yazıları adətən, "Firqə quruluşu" rubrikası altında dərc olunurdu.

Qəzetin digər şöbəsi də "Mədəni-maarif" adlanırdı. Bu şöbə materialları, əsasən, "Savadsızlığın ləğvi uğrunda" rubrikası altında dərc edirdi. Hər il əhalinin savad kurslarına cəlb edilməsi haqqında rayon maarif şöbəsi məlumat cədvəli tərtib edirdi."Yeni həyat" öz növbəsində həmin cədvəli qərc edərək artımı izləyir, rayon əhalisinə – fəhlə və kəndlilərə rəqəmlərin dili ilə bu sahədə aparılan işləri təbliğ edirdi.

"Tədrisin yüksək dəyəri uğrunda" (10 oktyabr 1932-ci il), "Savadsızlıqla mübarizə cəbhəsinə qoşulmalı" (15 oktyabr 1932-ci il), "Kolxozçu qadınların savadsızlığına fikir verməli" (16 mart 1933-cü il) və s. məqalələrdə qəzet rayon müəllimlərini savadsızlıqla mübarizəyə səsləyirdi.

1933-cü ildə Masallıda MTS-in siyasi şöbəsi yaradılandan sonra burada "Kolxoz bayrağı" qəzeti nəşrə başladı. Həmin ilin iyununda ÜİK (b) P MK-nın göstərişinə əsasən siyasi şöbə qəzetlərinə redaktor ştatı ayrıldı. "Kolxoz bayrağı" qəzetinə redaktorluğa sonralar "Yeni həyat" qəzetinin məsul katibi və redaktoru olan, qəzetin fəal kəndli müxbiri Oruc Əliyev (Digah kəndi) göndərildi. 1934-cü ildən etibarən "Yeni həyat" Lənkəranda deyil, Masallıda çap olunmağa başlayır.

Rayonun Köhnə Alvadı kəndindən olan Səfər Hüseynov 6 aylıq mətbəə işçisi kursunu bitirəndən sonra qəzetin ilk çapçısı və mürəttibi işləyib. Qəzetin ilk çapçılarından Tağı Cəfərov (Masallı), Sahib Nəcəfov (Ərkivan), İbrahim Gözəlov (Masallı) həftədə bir dəfə 600-800 tirajla nəşr edilən qəzetin materiallarını əllə yığır, sonra "amerikanka" adlanan maşında çap edirdilər.

Otuzuncu illərdə haqqı yazan, əyri əməl sahiblərini tənqid atəşinə tutan müxbirlər təqib olunduğundan yazılar çox vaxt gizli imzalarla dərc edilirdi. "Biçinçi", "Hərif", "Tək səbir", "Hərdəmxəyal", "Qızıl Avarlı", "Gəzən" və s. imzaların müəllifi olan fəhlə-kəndli müxbirləri öz yazılarında övladlarını məktəbə buraxmayan valideynləri, kolxoz ambardarları ilə əlaqəyə girib taxılı satan şura (sovet) sədrlərini ciddi tənqid atəşinə tuturdular.

1934-cü ilin oktyabrında Azərbaycan fəhlə-kəndli müxbirlərinin III qurultayı keçirilir. Həmin qurultayın nümayəndələrindən biri də ərkivanlı Nemət Nemətov idi. "Yeni həyat" qəzetinin səhifələrində

"Xəzərli", "Günəşli", "N. Nəzir" və "N.Nəzirzadə" imzaları ilə çıxış edən Nemət Nemətov 1935-1936-ci illərdə Ərkivanda 200-400 tirajla çap olunan "Bolşevik yolu" çoxtirajlı qəzetinin redaktoru, sonra uzun müddət "Yeni həyat"ın məsul katibi və redaktoru işləmişdir.

1936-cı ildə "Yeni həyat" qəzetinin səhifələrində qadın müxbirlərin imzası görünməyə başladı. Onlardan biri də qızılavarlı Yaqut Rəmətova idi. 20 avqust 1936-cı il nömrəsində o, Qızılavarda məktəb binasının təmirində çalışan gənclərdən söhbət açırdı.

Masallıda və Lənkəranda bir çox rəhbər vəzifələrdə çalışmış Cəbrayıl Məmmədov (Boradigah) 1938-ci ildə bir müddət "Yeni həyat" qəzetinin müvəqqəti məsul redaktoru olmuşdur(Tanınmış şair Rafiq Məmmədin atası-N.Ə)

30-cu illərin SSRİ məkanında qapı-qapı əsib-dolaşan acı repressiya küləkləri Masallıdan da yan keçməyib. Rayonun onlaraca tanınmış elm adamlarını, Nəcəfdə təhsl almış nüfuzlu və hörmətli din xadimlərini, zədagan nəslindən olan imkan sahiblərini Sibirə sürgün edib, bir çoxunu məhkəməsiz güllələyiblər.

İkinci Cahan Müharibəsi ərəfəsində, 1939- cu ildə Masallıda əhalinin sayı 60 min nəfərə çatmışdı. Faşist Almaniyası ilə müharibəyə gedən 10914 nəfər Masallının vətənpərvər oğullarının 5 mindən çoxu həlak olub, 1573 nəfəri itkin düşüb. Aclıq-səfalət dolu müharibə illərində Masallı arxa cəbhələrdə 17 mindən çox dinc sakinini itirdi.

Müharibə illərində "Yeni həyat" arxa cəbhədəkilərin ən çətin sınaqlar dövründə təsəllisi, usanmayan

dostu, faşizmin süqutundan soraq verən müjdəçisi oldu. Bu zaman vətənpərvərlik duyğularının aşılanmasında qəzetə rayon radio qovşağı var qüvvəsi ilə kömək göstərirdi.

Müharibənin ilk günü keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi, Masallıda da ümumrayon mitinqi keçirildi. Mitinqdə rayon icraiyyə komitəsinin sədri, ordenli Qurbanqulu Ağababayev, rayon partiya komitəsinin katibi Kamran Həsənov, hərbi komissar, baş leytenant Məmmədov və başqaları çıxış etdilər. Mitinqin materialları rayon qəzetinin 26 iyun 26-cı nömrəsində dərc olundu. Qəzetin növbəti sayında diqqəti cəlb edən "Kolxozçu qadınlar, traktoru öyrənin, cəbhəyə gedən traktorçuları əvəz edin!" başlığı altında geniş məqələ dərc olundu. "Yeni həyat" rayonda keçirilən mitinqin iştirakçılarından biri, Türkoba kənd sakini Qəmər Ağayevanın çıxışından belə misal gətirirdi: "Qoy traktorçu, kombaynçı ərlərimiz, oğlanlarımız və qardaşlarımız müqəddəs və toxunulmaz vətənimizin müdafiəsinə getsinlər... Alçaq düşmənin zərbəsinə ikiqat zərbə ilə cavab versinlər. Biz bu gündən... polad atlara minərək onları əvəz edəcəyik. Mən bu şərəfli iş uğrunda bütün traktorçu qadınları mübarizəyə çağırıram" ("Yeni həyat", 5 iyul 1941-ci il).

Sonra qəzet həmin mitinqdə traktorçu qadınlardan Səkinə Abbasova, Badisəba Rzayeva, Xeyri Ağaməmmədova və başqalarının çıxış edərək yekdilliklə qətnamə qəbul etdiklərindən bəhs edir. Bu və digər nömrələrdə dərc olunan "Ananın cavabı", "Çağrışçılar hərbi biliyə yiyələnirlər" sərlövhəli məqlələrdə cəbhələrdə

vuruşanların qələbə çalması üçün rayon camaatının əzmlə çalışdığı təsvir olunur.

Müharibə dövrü materialları qəzetdə bir qayda olaraq "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!", "Cəbhəyə məktub", "Cəbhədən məktub" rubrikaları altında dərc olunurdu.

40 - cı illərin əvvələrindən "Yeni həyat"ın redaktoru vəzifəsində çalışan Zülfüqar Fərəcov (Ağdam) həm də gözəl publisistik məqalələr müəllifi kimi tanınmışdır. Onun "Yeni həyat"da Abbasoğlu imzası ilə dərc etdiyi "Düşmən məhv ediləcək", "Biz qalib gələcəyik", "Ananın məktubu", "Gənclərin ürək sözü" və başqa məqalələrində masallıların ön və arxa cəbhələrdə şücayəti bədii boyalarla, təsirli dillə qələmə alınmışdır.

Ölkədə kağız ehtiyatının azlığı ilə əlaqədar bir çox rayon qəzetləri kimi, "Yeni həyat"in da nəşri müvəqqəti olaraq 1942-ci ilin martından dayandırıldı. Qısa fasilədən sonra qəzet 1943-cü ilin oktyabrında yenidən oxucularla görüşdü. 29 fevral 1944-cü il 5-ci nömrəsində qəzet Korsun-Şevçenko ərazisində mühasirəyə alınmış faşistlərin darmadağın edilməsi haqqında xəbərlə yanaşı, həmin hadisənin rayonda doğurduğu əhval-ruhiyyədən də söhbət açırdı.

Ali Baş Komandanlığın müharibə illərində tank istehsalı üçün 447 min manat pul, 276 min 670 manatlıq istiqraz vərəqi toplayıb vermış Masallı camaatına təşəkkür məktubu "Yeni həyat"ın 17 fevral 1945-ci il nömrəsində çap olunmuşdur. Müharibədən sonrakı illərdə və 50 –ci illərin əvvəllərində

qəzetdə dərc olunan materiallardan məlum olur ki, rayonda kənd təsərrüfatı sürətlə inkişaf edir, elektrik xətləri çəkilir, sənaye ocaqları yaranır, tikinti və abadlıq işləri uğurla aparılırdı.

Ş. Səfərli, Y. Əlizadə, A. Mikayılov və başqa müxbirlərin yazılarında günün vacib məsələləri işıqlandırılırdı. Yeri gəlmişkən, rayon partiya komitəsinin tövsiyyəsi ilə rayon prokurorluğu fəhlə-kəndli müxbirlərin qəzetdə dərc olunan tənqidi yazılarına diqqətlə yanaşırdı.

"Yeni həyat" qəzetinin məsul katibi Münəvvər Əhmədova, çapçı qızlardan Cəvahir Axundova, rayonun fəal qadınlarından həkim Məsməxanım Hacıyeva, Nəziyə Əfəndiyeva, Səkinə Ələkbərli, RPK-nın qadınlarla iş aparan şöbəsinin müdiri Fatma Baxşiyeva və başqaları redaksiyanın keçirdiyi tədbirlərdə iştirak edirdilər. Bu illərdə qəzetdə "Dalğa" satirik güşəsi təşkil olundu. Əyintilər, geridə qalmış təsərrüfatlar satirik yazılarda tənqid olunurdu. Bəzən belə məzmunda yazılar "Kirpi guşəsi" rubrikası altında dərc olunurdi. Məmməd Kazım, Şulduz Tarıverdiyev, Beytulla Əliyev, Novruz Abdullayev (Novruz Xoşbəxt), Adəm İzzətoğlu, Əyyub Xankişiyev, Xudakərim Fərzəliyev (Xudakərim Məftun), Əsgər Zahidov və başqaları tez-tez qəzetin səhifələrində maraqlı məqalə və şeirlər ilə çıxış edirdilər.

50-ci illərin sonunda qəzetin redaksiyasında yazıçı Salam Qədirzadənin və şair Bəxriyar Vahabzadənin oxucularla görüşü keçirildi. Belə görüşlərin Masallıda ədəbi mühitin formalaşmasında müsbət rolu vardı.

1962-ci ilin may ayında "Yeni həyat"ın nəşri da-

yandırıldı. 1965-ci ilin ortalarına kimi Lənkəranda çap olunan "Leninçi" rayonlararası (indiki dildə desək, regional) qəzeti kimi fəaliyyət göstərmişdir. Azərbaycan KP MK-nın 6 aprel 1965-ci il bürosu bütün rayonlarda 1 iyul tarixdən yerli qəzetlərin nəşrə başlaması haqqında qərar qəbul etdi. Masallı rayonunda da "Çağırış" adlı qəzet həmin ilin avqustun 18-dən nəşrə başladı. İctimai-siyasi orqan kimi fəaliyyət göstərən "Çağırış" öz sələfi "Yeni həyat"ın ənənələrini uğurla davam etdirirdi. (redaktor İnqilab Babayev)

60 –cı illərin ortalarında Xırmandalı kənd orta məktəbinin tarix müəllimi Əsgər Zahidov qəzetdə "Abidələrimizi öyrənək" məqaləsində Masallının zəngin maddi-mədəniyyət abidələrinin olduğunu bildirərək, həmin mədəniyyət nümunələrinin toplanması, rayon mərkəzində tarix diyarşünaslıq muzeyinin yaradılması təşəbbüsünü irəli sürdü. "Çağırış" qəzeti "Abidələrimizi öyrənək" rübrikası altında geniş müzakirə keçirdi. 6 aya yaxın davam edən müzakirələrə qəzet "Abidələrimizi öyrənmək və qorumaq vacib məsələdir" sərlövhəli məqalə ilə yekun vurdu. Məqalə müəllifi o vaxt Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspirantı Əjdər Ağayev Əsgər müəllimin təşəbbüsünü bəyənərək yazırdı: "Hər bir rayon mərkəzində tarix, ölkəşünaslıq muzeyi yaratmaqla qədim insan ürəyinin döyüntülərini eşitməkdə, elmin, mədəniyyətin və incəsənətin inkişafı üçün nəhəng və münbit zəmini öyrənmək sayəsində xeyli faydalı iş görmək olar".

1968-ci ildə ən yaxşı tərtibatına görə qəzet Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl Qələm", 1970-

ci ildə Ostrovski adına Ümumittifaq mükafata, 1982-ci ildə 50 illik yubileyi münasibəti ilə Respublika Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına layiq görülmüşdür.

İstedadlı şair Vaqif Hüseynovun redaktorluğu ilə nəşr olunduğu illərdə qəzet xeyli populyarlıq qazanmışdı. Həftədə 3 dəfə nəşr edilən və ən yüksək tirajı 14 mindən artıq olan "Çağırış" rayonun ərazisində mövcud olan tarixi abidələrdən, "El-obanın söz boğçası" rubrikası altında ağız ədəbiyyatının toplanmasından tutmuş, elm, maarif, musiqi tarixi, tənqidi və satirik yazılaradək mənəvi tərbiyə mövzularını əhatə edirdi.

70-ci illərdə redaksiyanın nəzdində fəaliiyyət göstərən "Gənc qələmlər" onlarca istedadlı qələm sahiblərini, ştatdankənar müxbirləri öz ətrafında birləşdirmişdi.Qəzetin İctimai əsaslarla fəaliyyət göstərən "Ədəbiyyat və incəsənət" şöbəsinə bu gün çağdaş Azərbaycan ədəbiyyatının yorulmaz tədqiqatçısı, tanınmış tənqidçi, "Əməkdar mədəniyyət işçisi", Beynəlxalq Rəsul Rza və Məmməd Araz ədəbi mükafatı laureatı, filologiya elmlər doktoru Vaqif Yusifli rəhbərlik edirdi.

"Çağırış"ın öz əməkdaşlarından savayı Mirəziz Seyidzadə, Əhməd Səmədli, Həsən Sani (Əhədov), Əvəz Nəbioğlu, Ramazan Əliyev (sonralar qəzetin redaktor müavini və redaktor əvəzi), Novruz Novruzov, Aydın Əliquliyev (sonralar qəzetin redaktor müavini) Heybət Əhədov, Rəsul Rzayev (sonradan qəzetin məsul katibi) Zahir Əmənov, Zahirə Əliyeva, Aslan Həsənli, Musrza Mirzəyev, Rahid Ulisel,

Arif Fərzəli, Muxtar Gənciyev, Xankişi Xankişiyev, Rafiq Məmməd, Beytulla Əliyev, Aşıq Atabala, Xanəli Ağayev, Tofiq İlham, Nurməmməd Ağa, Qəni Abdullayev (Qəni Bəxtəvər), Yavər Əliyev, Zahid Qasımov, Əlizaman Nəcəfov, Ədalət İsayev, Tahir Hüseynli, Nəhmət Adıgözəlov, Zəbulla Məmmədov, Tofiq Əzizov, Camal Abdinov, Şakir Həsənov, Əlhüseyn Şükürov (hazırda "Yeni həyat"ın redaktoru), Şahin Səmədli, Asif Abbaszadə, Məhbubə Şahbazova, Zərifə Həsənova, Cabir Nəsirov, İsa Hüseynov, Cavad Cabbarov və onlarca başqa imzalar 70-80 ci illlərdə qəzetin oxucularına yaxşı tanış idi.

Vaqif Hüseynovdan sonra qəzetə uzun müddət İbrahim İbrahimov redaktorluq etmişdir. 1994-cü ildə qəzetin nəşri dayandırıldı. Onun əvəzinə bir müddət "Yeni qəzet" fəalliyət göstərdi. Qəzetin ilk baş redaktoru vəzifəsində çalışmış Rahid Ulusel hazırda Azərbaycanın tanınmış filosofu, kulturoloqu, fəlsəfə elmləri doktoru, professordur. Lakin " Yeni qəzet" rayon İcra hakimiyyətinin təşəbbüsü ilə yaransa da özünün titul səhifəsində Masallıda mətbuat tarixinin 1932-ci ildən başladığını əks etdirmirdi.

1992-ci ilin oktyabrindan nəşr olunan "Masallı" müstəqil qəzeti 1995-ci ildən başlayaraq rayonun mətbuat tarixini başlığında əks etdirdi. O vaxt rayonda fəaliyyət göstərən Demokratik Qüvvələr Birliyinin (daha sonra Masallı ZiyalılarCəmiyyəti) təmsilçisi kimi çıxış edən "Masallı" qəzeti kəskin radikal mövqeyi ilə seçilirdi. Qəzetin ilk redaktoru Zahir Əmənov1993-cü ildə "Masallı xəbərləri" qəzetini təsis edəndən sonra bu qəzetə gəyəçöllü şair Məmmədhüseyn Şükürlü (1993-

1994), sonra isə Nurəddin Ədiloğlu (1995-2000) rəhbərlik etdi. "Yaşayaq, yaşadaq, qoruyaq yurdu" devizi ilə nəşr olunan "Masallı" qəzeti 1998-ci ildə Milli Mətbuat günü "RUH" Jurnalistləri Müdafiə Komitəsinin "Ən mübariz əyalət qəzeti" adına layiq görüldü. Bir neçə il sonra"Masallı xəbərləri" qəzeti də həmin diplomla təltif olundu.

90-cı illərdə Masallıda "Qala", "Masallı xəbərləri", "Azadlıq yolu", "Bizim yol" qəzetləri və "Ditdili" satirik məcmuəsi, 2000-ci ilin əvvələrində "Fidan" və "Masallı ziyası" qəzetləri , daha sonralar "Göy qurşağı" ədədi jurnalı nəşr olundu. Bu gün maliyyə çətinliyi ucbatından onların əksəriyyətinin nəşri dayandırılıb. 1993-cü ildən "Masallı xəbərləri" adı ilə nəşr olunan qəzet isə 2003-cü ildən bu günə kimi"Cənub xəbərləri" müstəqil regional qəzeti kimi öz fəaliyyətini davam etdirir. Bir çox media mükafatları ilə təltif olunan qəzetin (baş redaktoru Zahir Əmənovdur) redaksiyası Masallıda yerləşir.

Çox sevindirici haldır ki, 2003-ci ildən başlayaraq Masallı Rayon İcra Hakimiyyətinin təsisçiliyi ilə "Yeni həyat" qəzetinin nəşri bərpa olundu.

Milli Mətbuatın 135 illik yubleyi münasibəti ilə qəzetin o vaxtkı baş redaktoru Əyyub Mehdiyev "Tərəqqi" medalı ilə təltif edildi. Bu gün rayonun ictimai-siyasi həyatının güzgüsü olan 85 yaşlı qəzet ilk növbədə, oxuculara əsasən, Masallıdakı rəsmi yenilikləri təqdim edir. Sözsüz ki, qəzet müasir dövrdəki fəaliyyətini bununla məhdudlaşdırmır. Digər mətbu orqanlar kimi, "Yeni həyat" da mədəniyyət, səhiyyə, təhsil, idman və rayon həyatının digər sahələrinin işıqlandırıl-

masında özünəməxsus rol oynayır. Lakin 30-cu, 40-cı, 50-ci illərdə nəşr olunan "Yeni həyat"la, 60-cı, 70-ci, 80-ci, 90-cı illərdə oxuculara təqdim olunan "Çağırış"la müqayisədə bu gün qəzetin səhifələrində tənqidi yazılara çox nadir hallarda yer verilir.

Yeri gəlmişkən qeyd edim ki, bu gün "Yeni həyat" qəzeti Bakı şəhərində yerləşən poliqrafiya müəssisələrində çap olunur. 15-20 dəqiqəlik yerli radio verilişləri redaksiyası isə öz faliyyətini 20 ildən çoxdur dayandırıb. Bu gün bölgələrdəki sosial və mədəni inkişafdan söhbət gedəndə bu qənaətə gəlmək olar ki, gündən-günə gözəlləşən Masallıda nəinki yerli radio verişlərini bərpa etmək, hətta yerli televiziya verilişləri redaksiyası yaratmaq belə mümkündür. Rayonda çox səriştəli operatorlar, video-mühəndislər, rejissorlar və aparıcılıq qabiliyyəti olan gənc aktyorlar var. Masallıda çəkilən "Rabitə dünyası"(1999), "Masallı XX əsrdə" (2000) "Seyid Sadıq aləmi"(2002), sənədli filmlərinin yaradıcı heyəti də məhz yerli ssenarist, qurulişçu rejissor və operatorlardan ibarət idi.

Fikrimcə, bu gün 1994-cü ildən üzü bəri yerli müəlliflərin dram əsərlərini uğurla səhnələşdirən Masallı Xalq Teatrının yaradıcı heyəti də bu sahədə böyük töhfələr verə bilər.

"Persona. az" 30.03.2017

M.SOLTAN KİM OLUB?!

O, 25 yaşında Masallıda nəşr olunan "Yeni həyat" qəzetinin redaktoru, 37 yaşında Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutu əlyazmaları şöbəsinin müdiri idi. Öz taleyini, Masallıda dünyaya göz açmış, 37-ci illərdə repressiya qurbanı olan "xalq düşməni"nin qızı ilə bağlamışdı.

Ədəbi fəaliyyətə ötən əsrin iyirminci illərinin sonunda başlayan, Xaqani, Nizami, Füzuli, Əssar Təbrizi, Fələki Şirvani, Heyran xanım, Fatma xanım Kəminə, Abbasqulu ağa Bakıxanov kimi Azərbaycan Ədəbiyyatı klassiklərinin əsərləriylə yanaşı, İran, tacik, hind klassik ədəbi abidələrinin ana dilimizdə səslənməsində böyük xidmətləri olan Məmmədağa Sultanov 1910-cu ildə Cənubi Azərbaycanın ən böyük elm və mədəniyyət mərkəzlərindən biri sayılan Ərdəbil şəhərində dünyaya gəlmişdi.

İbtidai təhsilini mədrəsədə fars dilində alan M.Sultanov 1921-ci ildə ailəsi ilə birlikdə Bakıya

köçərək sənət məktəbində təhsilini davam etdirib, APİ-də aspiranturada oxuyub. Seyid Hüseynin rəhbərlik etdiyi Ədəbiyyat dərnəyinin fəal üzvlərindən biri olub. "Sənət məktəbi" adlı ilk şeiri 1926-cı ildə "Gənc işçi" qəzetində işıq üzü görüb. Sonralar "Hücum" ədəbiyyat məcmuəsində fəhlə-yazıçı kimi əməkdaşlıq edib. 1932-ci ildə həmin məcmuənin məsul katibi vəzifəsinə irəli çəkilib.

...Mənim Məmmədağa müəllimlə tanışlığımın qəribə tarixçəsi var. Jurnalistika fakültəsinin son kursunda "Rayon qəzetinin nəşri tarixi" barədəki diplom işimlə əlaqədar arxiv sənədlərini araşdırırdım. Öyrəndim ki, 1933-cü ildə MTS-lərdə siyasi şöbə yaradılanda Kürdəmirdə "Bolşevik" qəzetinin redaktoru vəzifəsində çalışan Məmmədağa Sultanov həmin şöbələrin (yəni, MTS-lərin) rayon partiya komitələri ilə birləşdiyi vaxtlarda (1935-ci ildə) Masallıya - bizim rayonda çıxan"Yeni Həyat" qəzetinə redaktor göndərilib. (Qəzetin ilk sayı 31 may 1932-ci ildə işıq üzü görmüşdür - N.Ə.) Diplom müdafiəsi ilə bağlı ilkin söhbətlərin birində müəllimlərim Qulu Xəlilov, Famil Mehdi, Seyfulla Əliyev, Nurəddin Babayev, dövlət imtahan komissiyasının üzvləri Hacı Hacıyev, Nəsir İmanquliyev və başqaları rayon qəzetinə M.Soltan imzasıyla redaktorluq etmiş Məmmədağa müəllimin adını eşidəndə mənə onunla görüşməyi məsləhət bildilər. Hətta o günəcən M.Sultanovu yaxşı tanımadığıma görə məni qınayanlar da oldu.

Bəy nəslinə mənsub olan ömür-gün ortağı Badisəbah xanımla M.Sultanov 1947-ci ildə ailə həyatı qurmuşdur. (Badisəbah xanımın atası Mircavad bəy

Talışxanov Rusiyada ali təhsil almışdır; bir neçə dil bilirdi. Masallıda sadə camaat tərəfindən sevilsə də, haqsız olaraq "xalq düşməni" kimi 37-ci ildə güllələnmişdir.)

..."M.Soltan" imzası ilə klassik irsimizdən çevirmələrini həvəslə oxuduğum Məmmədağa müəllimlə 80-ci illərin ortalarındakı görüşlərim yaddaşımda silinməz izlər qoydu. (Onun Masallı ilə bağlı maraqlı xatirələrini "Ruhani dünyası" kitabıma daxil etmişəm. Bu xatirələri oxuyanda ötən əsrin 30 –cu illərinin rayon həyatı göz önündə canlanır).

O zaman Respublika Əlyazmalar Fondunun (indi Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutu) elmi ekspozisiya şöbəsinin müdiri vəzifəsində çalışan Məmmədağa müəllim elə gənclik həvəsi ilə yazıb-yaradır, tərcüməçilik fəaliyyətini davam etdirirdi.

İndi Fondda mühafizə olunan yazılı abidələr həm də Azərbaycanın kitab mədəniyətinin əsas bazasını təşkil edir.

Fondun təşkilində, əlyazmaların toplanmasında, nəşrində, mətbuatda işıqlandırılmasında Məmmədağa müəllimin misilsiz xidmətləri olmuşdur. Uzun illər burada (26 il Əlyazmalar Fondunun direktoru vəzifəsində çalışmışdır) ədəbi abidələrin oxucu kütləsinə çatdırılması yolunda böyük bir missiyanı uğurla yerinə yetirən Məmmədağa Sultanov həm də Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, faşizmə qarşı mübarizə aparmışdır. Ordudan tərxis olunandan sonra ADU-da ədəbiyyat nəzəriyəsi, İran ədəbiyyatı tarixi və fars dilindən dərs demişdir.

Hələ müharibədən qabaq - 1939-cu ildə dahi Nizaminin 800 illik yubileyinə hazırlıq ərəfəsində M.Sultanov həm istedadlı şair, həm də fars dilnn gözəl bilicis kimi S.Vurğunun diqqətini cəlb etmişdir. Onun yüksək tərcüməçilik bacarığını görən S.Vurğun, sonra Mehdi Hüseyn Məmmədağa Sultanova həyatını Azərbaycan klassiklərinin farsca yazılmış əsərlərini ana dilimizə nəzmən tərcümə işinə həsr etməyi tövsiyyə etmişdilər.

Şərqin müdrik söz ustası Sədi Şirazinin "Gülüstan", bütün nəsillərdən olan oxucular üçün maraq doğuran "Kəlilə və Dimnə" əsərlərinin, "Mehr və Müştəri"nin poetik lövhələri onun səriştəli tərcümələrinin bəhrəsidir.

N.Gəncəvinin "Xosrov və Şirin", Əhvədi Marağayinin "Cami-cəm" əsrələrini, Məhsəti Gəncəvinin rübailərini redaktə və şərh edən Məmmədağa müəllim ciddi elmi təhlili ilə seçilən bir çox tədqiqatların müəllifidir. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov çox haqlı olaraq mənəvi irsimizin təbliğində olan xidmətlərinə Məmmədağa Sultanovu akademik səviyyəli alim adlandırır.

Haşiyə: M.Sultanov "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri işləyən zaman Azərbaycanın farsdilli klassiklərinin əsərlərini ana dilimizə tərcüməsinə çox qayğı və həssaslıqla yanaşırdı. bu işə təsadüfi adamları deyil, səriştəli sənətkarları cəlb edirdi. müəyyən səbəblərə görə Azərbaycanın görkəmli qəzəlxanı mətbuatdan uzaqlaşdırılmışdı. Məmmədağa müəllim Ə.Vahidin sənətkarlığına yaxşı bələd olduğundan Xaqaninin

qəzəllərinin bir qisminin tərcüməsini ona tapşırmışdı. heç yerdə işləmədiyindən ehtiyac içində olan Vahid bir gün Məmmədağa müəllimdən soruşur: - Xaqaninin kitabı nə vaxt çapdan çıxacaq?

Məmmədağa müəllim cavab verir ki, "Əliağa, Allah qoysa, şanı çıxana qədər kitab da çapdan çıxar!"

Amma nədənsə kitabın nəşri xeyli yubanır. Günlərin bir günü Vahid narahat halda Məmmədağa müəllimin yanına gəlir və bədahətən deyir:

Xaqani deyirdim çıxacaq, şanı çıxınca,
Canım cıxacaqmış, demə, Xaqani çıxınca...

(Bu xatirə həmin hadisənin iştirakçısı olmuş, prezident təqaüdçüsü, şair-publisist Cavad Cavadlının yaddaşından qələmə alınmışdır).

Fars dilində yazıb-yaradan Azərbaycan klassikləri haqqında tədqiqatları, Xəqaniyə həsr etdiyi maraqlı monoqrafiyası, A.Bakıxanovun ədəbi və elmi yaradıcılığını geniş oxucu kütləsinə təqdim etməsi göstərir ki, M.Sultanov çoxşaxəli maraq dairəsinə və elmi fəaliyyətə malik alimlərdən biri olub.

Yaxın Şərq ölkələrinin bir sıra xalqları ilə ədəbi əlaqələrinə aid araşdırmalar apararaq, Firdovsi, Sədi Şirazi, Əmir Xosrov Dəhləvi, Əlişir Nəvai və başqalarının Azərbaycan ədəbiyyatı ilə əlaqələri barədə bir sıra maraqlı məqalələrin müəllifi kimi tanınan M.Sultanov mətnşünaslıq sahəsində də əvəzsiz və yaddaqalan xidmətlər göstərmişdir.

AMEA-nın Respublika Əlyazmalar Fondunda vaxtilə hazırladığı "Əlyazmalar Kataloqu"nun birin-

ci və ikinci cildləri Məmmədağa müəllimin rəhbərliyi ilə tərtib olunub, işıq üzü görmüşdür.

N.Tusi, İbn Sina, T.Fikrət kimi ədəbi simalar, eləcə də nadir əlyazmalar haqqında yazdığı elmi əsərləri M.Sultanovun şərqşünaslıq elminə töhfə verdiyi dəyərli nümunələrdəndir.

Klassik farsdilli poeziyamızın 20 mindən artıq beytini dilimizə çevirib nəşr etdirən Məmmədağa müəllim ömrünün ahıl çağında son işlərindən biri Nizami ədəbi məktəbinin davamçısı, XIV əsrin görkəmli mütəfəkkir şairi Əssar Təbrizinin məşhur "Mehr və Müştəri" dastanının Əlyazmalar İnstitutunda saxlanılan ən nadir və mükəmməl nüsxədən - orijinaldan bədii tərcüməsidir.

Dörd min beytlik bu əsər nəfis şəkildə tərtib olunmuş, kitaba miniatürçü rəssam Fəxrəddin Əliyevin çəkdiyi rəngli şəkillər daxil edilmişdir.

Əfqan şairlərinin əsərlərindən ibarət "Könül tərənələri" və "Zəfər tərənələri" adlı şeir topluları zəhmətkeş tərcüməçi-alim Məmmədağa Sultanovun təşəbbüsü və iştirakı ilə Azərbaycan oxucusuna ərməğan edilmişdir.

"Əməkdar mədəniyyət işçisi" kimi fəxri ada layiq görülən, tərcüməçilik istedadı ilə ədəbi abidələrə əbədi həyat bəxş edən Məmmədağa Sultanov özü də möhtəşəm söz xəzinəsinin bələdçisi kimi daim xatirələrdə yaşayacaqdır.

Ruhu şad olsun!

"Persona. az"12.04.2016

USTADINI YAD ETMƏK İBADƏTDİR

Görkəmli nasir və kinodramaturq Əhmədağa Muğanlının xatirəsinə

Əhmədağa Qurbanov və ya Əhmədağa Muğanlı... Həmişə bu ad çəkiləndə ilk növbədə "Dağlarda döyüş", "Od içində vahə", "Atları yəhərləyin", "Doğma sahillər" bədii filmləri, "Şəhriyar əfsanəsi", "Ömürdən yeddi yarpaq", "Dağ dağa söykənər" kitabları yada düşür. Eləcə də milli kino tariximizdə "Dağlarda döyüş" filmindən söz düşəndə Əhmədağa Muğanlının işıqlı, nurlu siması onu tanıyanların gözü önündə canlanır.

...Bizim tay-tuşlarımızın çoxu hələ orta məktəb illərində "Dağlarda döyüş" filminə dəfələrlə baxmışdı. Filmin qəhrəmanı Fərruxun qaçaqmalçılıq edərək dövlət sərhədini pozan doğma atası ilə əlbəyaxa olması, ona güzəşt etməməsi və əqidə naminə cəsarətli qərarı, dürüstlüyü hamını heyran qoymuşdu. Xü-

susilə, bu bədii film doğma vətənin keşiyində ayıq-sayıq durmağı, hərbin nə qədər məsuliyyətli və şərəfli iş olduğunu aşıladığına görə çağırışçı gənclər arasında böyük maraq doğururdu. İlkin məlumata görə o zaman SSRİ məkanında 22-23 milyondan çox tamaşaçı bu filmə baxmışdı.

Çox sonralar öyrəndim ki, Əhmədağa müəllim gənc yaşlarında sərhəd qoşunlarında hərbi xidmətdə olub. "Dağlarda döyüş" də elə onun hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığı "Tikanlı məftillər" povesti əsasında ekranlaşdırılan ilk kino-ssenarisidir... Yetmişinci illərin ortalarında Əhmədağa Muğanlının yalnız bir əsərini - "Şəhriyar əfsanəsi" povestini oxumuşdum. Etiraf edim ki, bu povest məndə ədəbi yaradıcılığa böyük həvəs yaradan əsərlərdən biri olub.

Hərbi xidmətdən sonra universitetin jurnalistika fakültəsinə daxil olanda Əhmədağa Muğanlı ilə yaxından tanış olacağımı xəyalıma da gətirməzdim. Bakıda yaşayan həmkəndlimiz, atamın xalası oğlu Sosialist Əməyi Qəhrəmanı, Əməkdar inşaatçı Məmməd Hüseynovun (biz hamımız ona Ağa deyə müraciət edərdik) Əhmədağa müəllimlə çox möhkəm dostluq əlaqəsi vardı. Onların hər ikisi dəfələrlə Bakı şəhəri Oktyabr rayon XDS-nə deputat seçilmişdi. Günlərin bir günü Ağa mənim mətbuatda çap olunan yazılarımın bir-iksini gözdən keçirəndən sonra Əhmədağa müəllimə zəng elədi: "Mənim bir xalam nəvəsi var, xahiş edirəm yazılarını oxuyub ona düzgün istiqamət verəsən..."

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının həyətində Əhmədağa müəllim məni çox səmimi və mehriban qarşıladı. "Ağanın (yəni Məm-

məd Hüseynovun –N.Ə) özünün də maraqlı həyat hekayəsi var" –deyib bir anlıq fikrə getdi. O an Əhmədağa müəllimin ürəyindən nələr keçdiyini deyə bilmərəm.Amma hiss etdim ki, Ağa dediyimiz Məmməd Hüseynovla dostluqlarının mayasında HALAL yolla qazandıqları duz-çörəyə xətir-hörmət dayanır. O gün Əhmədağa müəllim mənim utana-utana təqdim etdiyim "Yandırılmış ürəklər" adlı kino-povestimin əlyazmasını çantasına qoydu. Sonra ev telefonunu və ünvanını yazıb mənə verdi: "Bir – iki günə oxuyub fikrimi bildirərəm"dedi.

Böyük həyəcan keçirirdim: "Görəsən, Əhmədağa müəllim yazım barədə nə fikir deyəcək?". Kino-povest adlandırdığım yazımı orta məktəb yoldaşlarım Zülfiyyə, Səfər və Şəkinin əziz xatirəsinə həsr etmişdim. Məktəbi bitirər-bitirməz onların bir-birinin ardınca qəfil ölümü çoxumuzun ürəyini yandırıb-yaxmışdı. Mən də bu hadisədən çox təsirlənmişdim, hərbi xidmətdə olduğum müddətdə imkan tapandan-tapana"Yandırılmış ürəklər"i yazmışdım...

Bir həftədən sonra Əhmədağa müəllimə zəng elədim. Salam-kalamdan sonra o, məni evinə dəvət etdi. Bir xeyli söhbət etdik. Əhmədağa müəllimin səmimi təbəssümü, sadə həyat tərzi, qayğıkeşliyi və səbirli KİŞİ obrazı səsiylə-söhbətiylə birlikdə yaddaşıma əbədi həkk oldu. Yazım barəsində yalnız bunu dedi: "Görünür, bu mövzunu işləyəndə baxdığın hind filmlərininin təsirindən çıxa bilməmisən..." O, bu fikri yaşıl qələmlə əlyazmamın bir qırağına da yazmışdı. "Çalış, əvvəlcə kiçik həcmli hekayələr yaz!" - deyə məsləhət və tövsiyyələri ilə mənən ruh verdi.

Əhmədağa müəllimin o "bir saatlıq yaradıcılıq dərsindən" sonra hekayələr yazdım. Üç sənədli filmin ssenari müəllifi oldum. Hətta aradan bir müddət keçəndən sonra ustadın "Ağanın da maraqlı həyat hekayəsi var" fikrindən bəhrələnib dostu Məmməd Hüseynov haqqında "Bizim Ağamız" kitabını, "Halal adam" sənədli povestini də yazdım. Onların hər ikisi mayın 10-da dünyaya göz açmışdı və hər ikisi də 2001-ci ildə - Ağa 74, Əhmədağa müəllim 75 yaşındabu dünyaya vida etdi.

Əhmədağa müəllim cəfakeş qələm sahibi kimi çox dəyərli keyfiyyətlərə malik sənətkar idi. Onun istər kinematoqrafiya, istər ədəbiyyatdakı yaradıcılığında elə bir əsəri yoxdur ki, orada vətənərvərlik, torpağa məhəbbət, insanın yaşadığı el-obaya fayda vermək kimi keyfiyyətləri önə çəkilməsin. Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin təbirincə desək, ömrünü milli kinomuzun inkişafına həsr edən Əhmədağa Muğanlı "qələminin fəhləsi olub, şəxsiyyəti ilə yaradıcılığı vəhdət təşkil edirdi". Bəli, şəxsiyyətlə yaradıcılıq vəhdəti hər əhli-qələmə nəsib olmayan mənəvi ucalıqdır.

46 il kinostudiyada ssenari şöbəsinin redaktoru, Xronikal-Sənədli və Elmi-Kütləvi Filmlər Birliyinin baş redaktoru vəzifələrində çalışan Əhmadağa müəllim bir çox Azərbaycan filmlərinə, o cümlədən "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Koroğlu", "Böyük dayaq", "Əhməd haradadır?", "Dədə Qorqud", "Xoşbəxtlik qayğıları", "Sevinc buxtası". "Arxadan vurulan zərbə", "Babək", "Qızıl uçurum", "Nizami", "Əlaqə" bədii fil-

mlərinin, çoxlu sayda sənədli filmin və dövrü kinojurnalların redaktoru olmuşdur.

Xalq şairi Süleyman Rüstəmlə birlikdə yazdıqları ssenari əsasında ekranlaşdırılan, el qəhramanı Qaçaq Nəbidən bəhs edən "Qanlı zəmi" ("Atları yəhərləyin") tarixi-macəra filminə görə Dövlət Mükafatına layiq görülmüşdür.

Əməkdar mədəniyyət işçisi fəxri adı da Əhmədağa Muğanlının halalca haqqı idi, çünki o, həmişə gənc nəslə, özünün mənəvi varislərinə milli kimliyimizi, tariximizə, klassik ədəbiyyatımıza, musiqimizə yorulmadan sevgi hissi aşılayan böyük RUH yiyəsi idi. Bu gün onun yaradıcılıq yolunu oğlu Araz və nəvəsi Nigar xanım davam etdirir. Araz Qurbanov tanınmış araşdırmaçı – jurnalist, elmi işçidi, Nigar Rzayeva isə Azərbaycan televiziyasında (Az.Tv - də) redaktordu.

Araz Qurbanov həm də gözəl müsahibdir. Azərbaycan ədəbiyyatını fransızdilli xarici ölkələrdə təbliğ edən mərhum tərcüməçi –alim Əziz Gözəlsoyla onun dəfərlərlə maraqlı söhbətlərinə şahid olmuşam. O vədələrdə Araz səhv etmirəmsə, Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidmətinin rəhbəri idi. Əziz müəllimin böyük oğlu Nasir Qarabağ uğrunda döyüşlərdə – Daşaltı əməliyyatı zamanı itkin düşmüşdü. Hər dəfə görüşəndə, itkin əsgərlərdən, əsirlikdə olanlardan söz düşəndə, Nasir barədə xatirələrimiz dil açardı... İllər sonra bu qəmli söhbəti Qarabağ müharibəsində itkin düşmüş Azərbaycan əsgərlərinə, o cümlədən Nasirə həsr etdiyim romanımda belə təsvir etdim:

"Yazıçı Əhmədağa Muğanlının yas mərasimində Ziya ilə birlikdə iştirak etdilər, Əziz müəllim həm mərhumla, həm də onun jurnalist oğlu Arazla möhkəm dost idi. Məşhur "Dağlarda döyüş" filminin ssenari müəllifi olan yazıçının şəhər qəbiristanlığındakı məzarı önündə kövrək xəyala dalan Əziz müəllim qeyri-ixtiyarı pıçıldadı: -Kaş Nasirin də bu dünyada bir məzarı olaydı, qurbanlar kəsib, ehsanlar verərdim. Bu, mənə ən böyük təsəlli olardı... - Sonra Arazla Ziyanın uca boy-buxununu süzüb, - Nasir də sizin kimi ucaboydu. Siz lap qədim Muğan cəngavərlərinə bənzəyirsiniz. Bizim xırmandalılar tayfasının adamları Şah İsmayıl Xətainin qoşunlarının ən cəsur döyüşçüləri olublar.

...Qırxdan sonra birlikdə oturub xeyli dərdləşmişdilər." ("Qara sarmaşıq" kino-romanı" səh 251, Bakı, "Nurlan" -2008-ci il)

Anadan olmasının 90 illiyi ərəfəsində ustad sənətkarımız, yazıçı və kinodramaturq Əhmədağa Muğanlını bu kiçik yazımla xatırlamağı özümə mənəvi borc bildim. Şəxsiyyəti hallallıqla süslənmiş belə insanları tez-tez xatırlayıb YAD etmək, yaşatmaq da ibadətdir. Şübhəsiz ki, Əhmədağa Muğanlı öz sənəti ilə - nəsr əsərləri, ssenariləri üzrə çəkilmiş filmlərlə milli kinomuzun tarixində özünə əbədi yaşamaq haqqı qazanıb...

Ruhuna və şəxsiyyətinə böyük ehtiramla,

"Palitra" qəzetinin 24 noyabr 2015 –ci il sayında "Ustad" başlığı ilə dərc olunub.

“RÜŞVƏT ALSAYDIM, ZƏBİ QULİYEV OLMAZDIM...”

Haqqında söhbət açdığım Zəbi Quliyevin ömür yolu bu gün təbiətin və cəmiyyətin taleyinə biganə qalan, vəzifədən yalnız özünəxidmət vasitəsi kimi istifadə edən milli dovlət məmurları üçün bir örnək və əsl kişilik məktəbi ola bilər...

... Zəbi 1910-cu ildə Masallının Hacıtəpə kəndində dünyaya göz açmışdı. Atası axund Əhəd dövrünün ziyalısı və din xadimi kimi tanınmış, Ərdəbil şəhərində orta, Nəcəfdə ali ruhani təhsili almışdı. O vaxt heç kimin ağlına gəlməzdi ki, ruhani ailəsində dünyaya gələn Zəbi Quliyev gələcəkdə tanınmış ictimai - siyasi xadim olacaq. Zəbi də yaşıdları kimi, ilk təhsilini molla yanında almışdı. Atası axund da olsa, oğlunun dünyəvi biliklərə sahib olmasına çalışırdı. 1924-cü ildə Zəbi doğma Hacıtəpə kəndində məktəb olmadığı üçün qonşu Xırmandalı kəndində yeddiillik, Masallıdakı Ağ məktəbdə isə orta təhsilini başa vurub.

... Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra təhsilli adamlara daha çox ehtiyac duyulurdu. Odur ki, 1928-ci ildə Zəbi Lənkəran Pedaqoji məktəbinə göndərilir. 1931-ci ildə Bakıda partiya-sovet məktəbini bitirən Zəbi Masallı gənclərinin firqə təşkilatlarında əmək fəailliyyətinə başlayır.

1931-ci ildən 1941-ci ilə kimi Zəbi Quliyev Göynükdə (indi Şəki rayonunun inzibati ərazisinə daxildir), Şəki, Masallı, Samux rayonlarında gənclər ittifaqının 1-ci katibi vəzifələrində çalışıb. 1941- ci ildə Azərbaycan KP MK-nın sərəncamı ilə Samux rayonuna RPKnın 1-ci katibi təyin edilib. Böyük Vətən müharibəsin ilk günlərində MK onu Tbilisi şəhərinə hərbi-siyasi məktəbdə təhsil almağa göndərdi. 1942-ci ilin aprelində Z.Quliyev 416-cı dviziyanın 1373-cü atıcı alayına siyasi rəhbər təyin olundu. Ağır döyüşlərin birində alay faşistlər tərəfindən mühasirəyə alındı. Uzun müddət 416-cı dviziyanın komandanlığı ilə əlaqə kəsildi. Bu zaman Azərbaycan rəhbərliyinə – şəxsən Mircəfər Bağırova Zəbi Quliyevin almanlara könüllü əsir düşməsi barədə əsassız məlumatlar göndərilir. Deyilənlərə görə, Bağırovun göstərişi ilə alayın siyasi rəhbəri olduğu üçün Z. Quliyevin Hacıtəpə kəndində 72 nəfər qohum -əqrabasını Sibirə sürgün etmək üçün NKVD əməkdaşları siyahıya alırlar.

Elə həmin ilin noyabrında Z.Quliyevin də rəhbər olduğu alay mühasirəni yarır. Z.Quliyev həmin döyüşdə başından yaralanaraq müalicə üçün Tibilisi hərbi hospitalına gətirilir. Müalicədən sonra Bakiya dönən Zəbi Quliyev M.Bağırovun göstərişi ilə bir

neçə günlük Masallıya – doğma kəndinə gedir. Əslində bu qısamüddətli səfər Zəbi haqqında camaat arasında dildə-ağızda gəzən yalançı söz-söhbətlərə son qoymaq xarakteri daşıyırdı.

Sonra Zəbi Azərbaycan KP aparatında işə başlayır. 1943-1952-ci illərdə Şəki şəhər partiya komitəsində 2-ci, Göyçay, Tovuz rayonlarında RPK-nın 1-ci katibi vəzifələrində əqidəsinə sadiq dövlət xadimi kimi ləyaqətlə çalışır. Dürüstlüyü, saflığı yenə ona havadar olurdu. Z.Quliyev qiyabi təhsillə APİ-nin tarix fakültəsini bitirəndən sonra 1952-c ildə Moskvaya Ali Partiya məktəbinə göndərilir. 1952-53-cü illərdə Gəncə vilayət komitəsində şöbə müdiri, 1953-63- cü illərdə Balakən və Şəkidə RPK-nın 1-ci katibi vəzifələrində işləyir.

1963-cü ildən təqaüdə çıxana qədər Azərbaycan Ali Sovetində çalışıb. Zəbi Quliyev onu tanıyanların xatirələrində öz xalqını, el-obasını sonsuz məhəbbətlə sevən, halal, təmənnasız, təmiz şəxsiyyət kimi canlanır. Söhbətlərdən məlum olur ki, Zəbi Quliyev Masallının İstisuyunu elmi əsaslarla tədqiq edib, alim, həkim, bəstəkar, şair Mir Kazım Aslanlıyla çox möhkəm dostluq əlaqələri olub. Masallı İstisuyunda kurort yaradılması hər iki vətənpərvər insanın arzusu idi. İstisuyun sanatoriya kimi təyinatında şəxsən Z.Quliyevin böyük rolu vardı. 50-ci illərin sonu o vaxt Azərbaycan KP MK-nın birinci katibi olan İmam Mustafayevi İstisuya gətirərək belə gözəl müalicə suyunun nə qədər böyük əhəmiyyətli olmasını ona inandırmışdı. Sanatoriya hazır olanda İ. Mustafayevi də dəvət etmişdi. Bəli, yalnız insanlıq adını,

vətən andını, duz-çörək haqqını uca tutan, mənəviyatca təmiz, əqidəcə saf olan şəxsiyyətlərin əhatəsində gözəl işlər görüb, həyata keçirmək mümkündür! İnsan həyatının mənası onun xalqa, Vətənə xidməti ilə ölçülür. Həyat da, vəzifə də insanlara xoş niyyətlə, xeyirxah əməllərlə xidmət edəndə daha mənalı olur... Zəbi Quliyev ömrü boyu vəzifəyə pul, rüşvət mənbəyi kimi baxmayıb, qeyrəti, təssübkeşliyi başına bəlalar, açsa da, öz yolundan dönməyib.

Kişi kimi bir sözü olub: "Rüşvət alsaydım, Zəbi Quliyev olmazdım!.." Zəbinin mərdanəliyi, heç kimə əyilməməyi, yeri gələndə sözünü özündən yuxarılara da kişi kimi deməyi onu tanıyanlar üçün örnək idi. Z. Quliyev səhvə görə öz doğma övladına belə güzəştə getməyən, haqqı, ədaləti təmənnalı dostluqdan üstün tutan bir şəxsiyyət olub.

Barəsində eşitdiyim söz-söhbətlərdən 3 fraqment:

1-ci fraqment: 30-cu illərdə Z.Quliyev Masallıda gənclər təşkilatının rəhbəri işlədiyi vaxtlar qız-gəlin qarşısında özünü açıq-saçıq (abırsız) aparan raykom katibinin üstünə silah çəkir: "Sən özündən başqalarını kişi saymırsan?" – deyə ondan rayondan rədd olub getməsini tələb edir. Özünün "müəmmalı" işlərinə Zəbinin əngəl olduğunu görən raykom katibi donosbazlıqla onu "NKVD"-nin zirzəmisinə saldırır. Mircəfər Bağırov qısa müddətdə işi araşdırır və Zəbinin haqlı olduğunu dəqiqləşdirərək onu azad edir, vəzifəsindən sui-istifadə edən günahkar katibi isə dərhal işdən çıxardır.

2-ci fraqment: Bir dəfə raykom katiblərinə

Mərkəzi Komitə xüsusi forma geyinmək üçün paltarlıq parça verirmiş. Mircəfər Bağırov parçalar paylandıqdan xeyli sonra anbardardan soruşur: "Sənə neçə nəfər raykomun borcu qalıb?" Anbardar deyir: "İki nəfərin!". M. Bağırov deyir: "Bilirəm, onun biri Zəbi Quliyev olacaq!.."

3-cü fraqment: Zəbi Quliyev Ali Sovetdə işlədiyi vaxtda oğlu Bakı Soveti İcraiyyə Komitəsində məsul vəzifədə çalışırmış. Deyilənlərə görə, bir gün oğlunun vəzifə başında etdiyi yaxşılığın qarşılığında bəxşiş aldığını eşidən Zəbi Quliyev həmin Bakı Soveti İcraiyyə Komitəsinin sədrindən (Əliş Lənbaranskidən) xahiş edir ki, onu dərhal işdən azad etsin. Oğlu Tofiq İK-də təlimatçı, sonra Respublika " Məsul" İdman Cəmiyyətində sədr müvini işləmişdir.

Zəbi Quliyevin dürüstlüyündən, vətənpərvərliyindən Azərbaycan Respublikası DTK-nın rəhbəri Heydər Əliyev də xəbərdar idi. O, Azərbaycan KPMK-nın birinci katıbi seçiləndən sonra, Zəbi Quliyev təqaüdə çıxsa da, onun ünvanına məktub yollayır. Ona etimad göstərərək MK aparatına işə dəvət edib deyir: "Biz sizi yaxşı tanıyırıq". Lakin qocaman partiya və dövlət xadiminə səhhəti işləməyə imkan vermir. Vətənə ləyaqətlə xidmətlərinə görə bir sıra orden və medallarla, fəxri fərmanlarla təltif olunan Zəbi Quliyev 1972-ci ilin sentyabrında 62 yaşında vəfat edib və Bakıda dəfn olunub. Respublika rəhbərliyinin, görkəmli dövlət və mədəniyyət xadimlərinin imzaladığı nekroloqda Zəbi Quliyevin xalqına necə sədaqətllə xidmət etdiyi, dürüst insan olduğu vurğulanırdı.

…“Çağırış” qəzetinin 1989-cu il 14 fevral sayında dərc edilən “Bir insan ömrü” adlı məqaləmdə yazmışdım: “Məncə, haqqında söhbət açdığımız adamları təkcə yaddaşlarda yaşatmaq azdır. Gələn il Z. Quliyevin 80 illiyi tamam olur. Yaxşı olar ki, Masallı şəhərində salınan yeni yaşayış massivlərindəki küçələrdən birənə Z. Quliyevi adı verilsin...” Təklif oxucular tərəfindən bəyənilsə də, uzun müddət arzu olaraq qaldı. Nəhayət, 2005-ci ildə Masallı şəhərindəki küçələrdən birinə Zəbi Quliyevin adı verildi. Doğma elinə ünvan olan əsl azərbaycanlı kişisinin adını daşıyan həmin küçədən təkrar-təkrar keçəndə, düşünürsən, həyatda təkrar keçiləsi mümkün olmayan bir yol var: ÖMÜR YOLU... Zəbi Quliyev bu yoldan şərəflə keçib-getdi!

"MODERATOR.az" 24/06/2015

QAÇAQ MOZU

Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,
Nə də ulduzlar kimi parlayıb sönməməkdir.
Bunun üçün ölümə bir atılış gərəkdir,
Atılandan sonra da bir daha dönməməkdir.

(Nihal Atsız)

1933-cü ildə Atsız soyadlı türk yazıçısı və şairi Ədirnədə "Qəhrəmanlıq" şerini yazanda Masallıda onun həmyaşıdı Qacaq Mozu kəhər atıyla kasıbların haqqını yeyən harınlara, əzazil sovet çinovniklərinə qan uddururdu. Onu Sibirdə sürgündə görənlər də olub. Deyilənə görə, cib yaylığında düyünçələdiyi bir ovuc Masallı torpağını müsəlman dustaqlara göstərib deyərmiş ki: "Mən öləndə bu torpağı qəbirimin üstünə səpərsiniz!"

Sibir soyuğu, sürgün həyatı Mozunun ömrünə son qoya bilmədi...

Masallının canlı ensiklopediyası kimi tanıdığım rəhmətlik Hüseyndadaş kişi (Hüseyn Əsədli) deyirdi ki, qaçaq Mozu Əfşarlar İmperiyasının qurucusu, böyük fateh Nadir şah Əfşarın Lənkəranda istehkam kimi tikdirdiyi, 100 il sonra(?) çar Rusiyasının, daha 100 il sonra Şura hökümətinin zindana çevirdiyi Qala dustaqxanasından qaçanda, NKVD-çilər onu yaxalayıblar... Dövrün "Qaçaq Mozu əfsanəsinə"

doğma vətəndə - Masallının yeddi ağaclığında - Xəzər dənizində birdəfəlik son qoyublar...

* * *

...O gün Qala zindanında məhbusluq həyatı yaşayan Qaçaq Mozuya dədə-baba yurdu Xoşçobanlı kəndindən gələn qohumları yekə bir qazan quşplov və başqa ərzaq sovqatı gətiriblərmiş... Pay-puşu məhbus yoldaşlarından gözə dəyən birinə verib:

- Bunu məhbuslara payla, qoy yeyib, qarınlarını doydursunlar. İnşallah, mən bu gün şam çağınacan öz evimdə olacağam... – desə də, bu arzusunun-niyyətinin ürəyində qalacağını ağlına belə gətirmirdi .

...El-oba bayram axşamına hazırlaşırdı. Bəs Mozunun Novruzunu qara gətirən kim idi? Mozunun qılığina girib əlinə fürsət düşən məqamda ona "arxadan zərbə" vurmağa cəsarət edən "kişi" kim idi? Kim idi zidanda isti aşına soyuq su calayan?Bəlkə son tikəsini böldüyü məhbus yoldaşı? Bəlkə bir qazan yeməyidüstaqlar arasında paylaşdırmağı həvalə etdiyi "qılaflı adam"?!

NKVD – nin içəriyə qəsdən dustaq kimi göndərdiyi milis xüsusi tapşırıq almışdı... "Gedər- gəlməz"dən qaçıb canın qurtaran Mozu burdan da qurtula bilər!" ...Dəniz tərəfə açdığı lağımdan çixıb qaçanda yaxaladılar Qaçaq Mozunu. Onu dənizdə boğub - ölüsünə də şər atırlar: "Qaladan qaçarkən dənizdə boğulub!"

* * *

...O gün Xoşçobanlıda uşaqlar "Atmindi" oyna-

yırdılar. Oyunun hakimləri öz aralarında məsləhət –məşvərət edəndən sonra birinci dəstəyə üz tutub soruşurdular ki:

- Tapın, atlarda kimin atı!

Dəstə düşünür, düşünür, at sahibini yada salmağa çalışırdı...

Hakimlərdən biri bu dəfə əlini "Şanapadərə"yə uzadıb,ikinci dəstədən soruşur:

- Atlarda ey, atlarda... Tapın görüm, kimin atı?

Bu zaman at sahibinin kimliyini him-cimlə,əl-qol hərəkətiylə başa salmağa çalışır. Tapançanı işarə verən sağ əlini yuxarı qaldıranda, ikinci dəstənin başçısı var gücü ilə qışqırır:

- Qaçaq Mozunun atı!

Sonra oyunun hakimləri bir ağızdan əmr edirlər:

- Get, min gəl!

Dəstə başçısı qaça-qaça birinci dəstəyə yaxinlaşır, birinci hakimin sualına dürüst cavab verməyən oyunçunun kürəyinə hoppanır, at kimi onu çapa-çapa öz dəstəsinə gətirir. Bu, Novruz çağı uşaqların oynadığı qədim xalq oyunu idi: "Atmindi"...

* * *

Dünyanın şər vaxtı çatmışdı... Mozununsa o bayram axşamı yoxluğu hamıdan əvvəl nişanlısının ürəyinə dammışdı. Ağzı dualı ağbirçəklər ona təsəlli verirdilər:

-Gedənin gəlsin, üzün gülsün!

Nişanlı qızın bayram əhval-ruhiyyəsinə elə bil matəm ab-havası çilənmişdi. Hərəkətsiz dayanıb tez-tez dərindən köks ötürürdü. Kənd yoluna dikilən

qəmli baxışlarından AYRILIQ həsrəti boylanırdı. Pıçıltıyla dedi:

Burdan bir atlı keçdi, Atın oynatdı keçdi. Gün kimi işıq saçdı, Ay kimi batdı keçdi.

...El qəhramanı Qaçaq Mozunun əsl adı Ağabba idi. Mauzer gəzdirdiyinə görə Mozu deyirdlər. Masallıda şura höküməti təzə-təzə qurulanda milisdə işləyirmiş. Bir dəfə milis komissarı idarəyə gələn şikayətçiləri söyüb, ağır təhqir edir: "Nakişilər... Kəndinizdə bir nəfər də olsun kişi yoxdur!"

Mozu da dözməyib rəisə: "Nakişi sənsən, biz kişiyik, al sənə bu da sübutu!" deyib bir güllə vurur. Beləcə "Şanapadərə" deyilən meşələrə çəkilib qacaq həyatı yaşayıb...

...Robin Qudun da əsl adı Volter olmuşdu. O da meşələrə çəkilib kralın zülm elədiyi kasıb-küsuba dayaq olur, qılıncıyla, oxuyla HAQQ-ƏDALƏT uğruda vuruşurdu. Robin Qud vətən haqqında vətəndaşlıq nəğməsini ingiliscə, Qaçaq Mozu Azərbaycan türkcəsində oxuyurdu. Pobin Qud Şervud meşələrini özünə etibarlı yer seçmişdi. Qaçaq Mozu Alvadı meşələrini. Hər ikisi varlı təbəqədən çırpışdırdığını kasıblara paylayırdı...

Xalq onun qayğısına qalan qəhrəmanlara balladalar, dastanlar qoşub.

Biz Koroğlunun qəhramanlığı ilə öyünürük... Ona heykəllər qoyuruq. Fəqət öz zamanəsində onu da "yuxarılar" - hakim dairələr sevmirdilər. Qacaq, quldur, oğru, yolkəsən adlandırırdılar. Amma xalqa zülm edən paşalara, xanlara qarşı mübarizəsı ona sadə camaat arasında misilsiz şöhrət qazandırmışdı.

Mozu da sovet hakimiyyətinin "işğalına məruz qalan" Masallının və ətraf rayonların Koroğlusu idi. Hətta onu Cənubi Azərbaycanda da tanıyırdılar. Elə orda da onu şah xəfiyyələri hiylə ilə tələyə salıb, iki məşhur iranlı qaçaqla dəyişərək, NKVD-nin ixtiyarına vermişdilər.

Sadə xalq Mozunu da öz qəhrəmani, xilaskarı kimi sevirdi. Xalqın qəlbi aynadır! O heç vaxt qulduru, canini, xaini sevməmişdir... Onun sevdiklərinə isə bütün zamanlarda çiyni paqonlu dövlət məmurları nifrət etmişdir. Mozunu əli-qolu bağlı zindana gətirəndə həbsaxana rəisi istehzayla: "Mozu, Mozu bu imiş?"-deyə onu acıqla süzür. Mozu deyir: "Qollarımı aç, Mozu olduğumu sənə göstərim!"

SÖZÜMÜN CANI və yaxud QAÇAQ MOZU HAQQINDA YAZIMA SÖZARDI:

Mozu haqqında bu gün də dildə-ağızda əfsanələr dolaşır. Haqqında roman da yazılır. Zaman və məkan dəyişsə də səmanın ənginliyində - dünyanın başı üzərində şəfəq saçan Günəş həmən Günəşdi elə. Geçələr dünyanı öz nuruna qərq edən Ay da elə həmin Aydır... Bəs kişilik, mərdlik,el qeyrəti, vətən təəssübü, vətəndaşlıq borcu və başqa insanpərvərlik anlayışları?

Bu fani dünyada hərə bir cür qaçaqlıq və QOÇULUQ həyatı yaşayır... Kimi xalqı talamaqla şan-şöhrət qazanır, kimi bu talançılarla, rüşvətxorluqla mübarizə apardığına görə... Əfsus ki, bu gün ikincilər QANUNU ələrində mum halına salan birincilərə "məğlub"

olurlar. Hətta adlarının qabağında fəxrlə "XALQ", "əməkdar" titulu gəzdirənlər də...

Məni son vaxtlar bir sual düşündürür: Görəsən, Koroğlu, Qaçaq Nəbi, Qoçu Məmməd, Qaçaq Mozu, Qaçaq Kərəm və başqa el qəhrəmanlarımız bu gün – XXI əsrdə insanları rüşvət bataqlığında boğan, şıikayətlərə məhəl qoymayan,sadə vətəndaşın, şəhid ailəsinin əmlakına təcavüz edən, öz vəzifə borclarını yalnız dəbdəbəli villalar, saraylar tikdirib, övladlarına və məşuqələrinə bahalı maşınlar hədiyyə etməkdə "görən" dövlət məmurlarına, bələdiyyə sədrlərinə, İH başçılarına qarşı mübarizə aparsaydılar, "Xalq QƏHRƏMANI" titulu qazana biləcəkdilərmi? Yoxsa QANUN "keşikçilərimiz" onların da cibindən narkotik maddə "çıxardıb" həbsxanalarda – "ölüm düşərgəsində" çürüdəcəkdilər?!!

Axı bu gün uşağın da, böyüyün də bildiyi ACI HƏQİQƏTLƏRİ qırmızıcasına necə danmaq olar? Ən azından yəni bu sualı güzgüyə baxa-baxa özümüz-özümüzə də verə bilmərik?! Axı "Yalan nə qədər QÜDRƏT sahibi olsa da, HƏQİQƏT ola bilməz." R.Taqor kimi əhli-qələmin bu dahiyanə fikri bir yana qalsın. Mənimsə gözlərim önündə həqiqət üzərində PARLAQ qələbə çalan YALANlara arxadayaq duran ixtiyar sahiblərinin siması canlanır. Böyük təəssüf hissiylə deyirəm:

- Ax, yazıq həqiqət, sən ixtiyar sahiblərinin qabağında necə də yetim uşağa, zəif, gücsüz və liluput bir varlığa bənzəyirsən...

P.S: Hə, mənim əziz vətən qardaşlarım, harınlıq, riyakarlıq, saxtakarlıq – yüksək VƏZİFƏ sahiblərinin bəd və qudurmuş itləridir. HƏQİQƏTİgörüb, duyub, dərk edənin və dilə gətirən hər kəsin üstünə istəsə, qısqırda bilər.

Ona görə çoxumuz hələ də HƏQİQƏTİN yanından gözüyumlu ötüb-keçirik.

MANERA.AZ 27-10-2015

ƏNVƏR PAŞANIN ADAŞI

(sənədli film üçün ssenari)

Qədim Viləş çayı... Dağlardan axıb gələn çayın hər iki sahilində bir-birini əvəz edən və göz oxşayan təbiət mənzərələri görünür.

- Ulu Tanrı dədə-babalarımızdan miras qalan bu yurdu bizə Masallı adı ilə ərməğan edib. Ana təbiət ona füsunkar gözəllikləri, saf çeşməli bulaqları, zümrüd meşələri, İstisu kimi misilsiz şəfa ocağını töhfə verib. Dövrü-zəmanə bu yurdun taleyini yazan, xeyirxah əməlləri ilə onun adını zirvələrə qaldıran oğullar bəxş edib. Sorağı dünyanın böyük ölkələrindən, nəhəng şəhərlərindən gələn adlı-sanlı övladlarına uçuş meydanı olub bu torpaq! Başının üstündə neçə-neçə müqəddəs və unudulmaz şəxsiyyətlərin ruhu dolaşır ...

General Ənvər Aslanbəyov! Faşist hərbi düşərgəsindən 300 azərbaycanlı əsiri xilas etsə də, özü 50 il doğma dədə-baba yurduna həsrət qalmışdı…

Onun taleyi barədə mənə vaxtilə Qazaxıstana sürgün olunmuş Eldar adlı yaxın bir qohumu söhbət eləmişdi. Deyirdi ki, kimsə dediklərini qələmə də alıb! Eldar kişi oxuduqlarını da nağılı kimi danışmağı xoşlayardı. Və onun dasnışdığı gerçək nağıllar "Biri vardı, bir yoxdu"larla başlamırdı. O nağıllarda bəy övladları olan əmisi oğlanları - Mir Kazım Aslanlı, Ənvər Aslanbəyov vardı...

Və günlərin bir günü Eldar kişinin Ənvər paşanın adaşı barədəki nağılı ağ-qara kino lenti kimi gözümün önündə belə canlandı.

…1919-ci ilin Novruz bayramı ərəfəsidir. Masallının ən səfalı və axarlı-baxarlı gözəl təbiət güşəsində yerləşən İsi kəndinin sayılıb-seçilən nüfuzlu simalarından olan Mirmusa bəyin malikanəsində qələbəlik var. İsi bəyi Azərbaycanın xilaskarı olmuş iki qardaşın - Nuru və Ənvər paşaların şərəfinə böyük bir ziyafət verir. Beş yaşına yenicə qədəm qoymuş Ənvər atasının ali qonaqlarının general qiyafəsinə uşaq marağı ilə baxıb, tez-tez onları sorğu-suala tutur. Mirmusa bəy oğluna deyir:

-Ənvər, möhtərəm qonaqlarımızı çox yorma, get bayırda uşaqlarla oyna!

Ədirnə fatehi və hürriyyət qəhramanı Ənvər paşa bir an duruxur və üzünü ev sahibinə tutaraq incik halda soruşur:

-Bəy, siz mənim ismimin Ənvər olduğunu bilə-bilə nədən cocuğunuzu Ənvər deyə çağırdınız?

Mirmusa bəy mehribancasına gülümsünərək deyir:

- Paşam, əvvala, şanlı-şövkətli isminizi oğluma

qoymağım əbədi dostluğumuzun nişanəsidir. Bir də arzum budur ki, mənim bu balaca Ənvərim böyüyəndə sizin kimi dostlarımın adına layiq bir igid olsun!

Sonra o, kitab dolabında saxladığı "Azərbaycan" qəzetinin dörd ay əvvəlki sayını götürüb, orada Azərbaycan xalq təhsili naziri Nəsib bəy Yusifbəyovun hərbi məktəbin ilk buraxılışında iştirak edən Ənvər Paşanın və Nuru Paşanın atası Hacı Əhməd Paşaya xitabən dediyi sözləri ucadan oxuyur: «Zatı-aliləri, sizin şanlı oğullarınız Ənvər Paşa və Nuru Paşanın adları nəinki təkcə Azərbaycanın, eyni zamanda bütün türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır…"

Paşalar maraqla ev sahibinə qulaq asırlar. Mirmusa bəy sözünə davam edib deyir:

-Öz balaca tay-tuşalrı ilə həmişə dava-dava oynayanda bizim Ənvərin də böyüyəndə hərbiçi olmacağını düşünürəm. Kim bilir, bəlkə elə mənim oğlum da gedib həmin hərbi məktəbdə oxuyub, sizin kimi komutan olacaq!

Nuru paşanın üzünə xəfif təbəssüm qonur:

- İnşallah, - deyib böyük qardaşına baxır. Ənvər paşa da başını razılıqla tərpədib, qonaq otağının pəncərəsindən həyətə boylanıb gülümsünür.

Ordan balaca Ənvərin səsi gəlir: "Urra!.. İrəli!.. Atəş!.."

* * *

Aradan illər ötüb keçəcəkdi. İlk təhsilini atasının dostu, milliyyətcə alman müəllimindən almış Ənvər bəy yeniyetmə yaşlarında alman dili ilə yanaşı rus, ingilis, fransız dillərini də mükəmməl danışacaqdı...

...Hələki Ənvər öz uşaq dünyasını yaşayır. 1920 – ci il aprelin 28-də rus ordusu Azərbaycana daxil olur. Çox çəkmir ki, ordu hissələri bölgələri də ələ keçirir. Yeni hökümət adlı-sanlı adamları, nəsilli-nəcabətli zadəganları, görkəmli ziyalıları, din xadimlərini təqib edir, onları tutub həbsxanalara salır, Sibirə, Qazaxıstana və başqa uzaq yerlərə sürgünə göndərir

. Otuzuncu illərdə - kolxoz quruculuğu dövrü NKVD-nin Lənkəranda Arakelyan soyadlı zabiti Cənub bölgəsində bəyləri ailəliklə xalq düşməni elan edib, el arasında "gedər-gəlməz" deyilən sürgünə yollayır. Qohumlarının, ata-anasının, bacı və qardaşlarının ardbaard sürgün olunduğunu görən Ənvər böyük çətinliklə təqiblərdən yayınaraq Bakıda yaşayan bibisigilə üz tutur...

* * *

İkinci Dünya Müharibəsinə kimi Cavadzadə soyadı altında yaşayan Ənvər Aslanbəyov Dövlət Plan Komitəsinin sədr müavini vəzifəsinəcən yüksəlir. Lakin NKVD əməkdaşları izinə düşüb, keçmişini araşdıraraq onu yenə təqib edirdilər. Belə təqiblərdən yaxa qurtarmaq üçün Ənvər könüllü olaraq müharibəyə getməyi qərara alır

Qanlı-qadalı müharibə… Stalinqrad cəbhəsində ağır döyüşlər gedir. Ənvər öz alayının sağ qalan bir neçə zabiti ilə düşür. Onu sorğu-sualdan sonra Almaniyaya göndərirlər. Əqli üstünlüyünə, fiziki bacarığına, yüksək rütbəli zabit olduğuna, həm də alman dilini bildiyinə görə ona türk əsilli sovet əsirləri ilə məşğul olan xüsusi şöbədə vəzifə verirlər.

Bu zaman Türkiyədə Turançı hərəkata gizli dəstək verən Nuru paşa Ankaradakı Almaniya səfiri Frans von Papen və Almaniya Xarici İşlər Nazirinin məsul məsləhətçisi Ernst Voerman ilə danışıqları və təklifləri Almaniyada Şərqi Türküstan alayının qurulmasında mühüm rol oynayır. Anlaşmaya görə Almanlar türk əsilli sovet əsirlərindən ordular təşkil edərək onları Türkiyənin tabeçiliyinə verməli idi.

…Beləliklə, müharibənin sonuna yaxın çalışdığı şöbənin rəisi təyin olunan Ənvər 300-ə yaxın azərbaycanlı əsiri 1945-ci ilin baharında İsveçrəyə keçirəndə artıq general-leytenant rütbəsində idi. Əsirlik həyatından xilas olub Avropanın müxtəlif ölkələrinə səpələnən sovet əsgərləri və zabitləri geri döncək "vətən xaini" kimi Sibirə sürgün olunurdular.

Belə bir zamanda Amerikanın 32-ci prezidenti Ruzveltin həyat yoldaşı Anna Eleanora Ruzveltin (1884- 1962) köməyi ilə Ənvər Aslanbəyov 100-dən artıq azərbaycanlı ilə Türkiyəyə yola düşür. (Bu ictimai fəallığının məntiqi davamı kimi Amerkanın birinci ledisi sonralar ABŞ-ın BMT-dəki təmsilçisi oldu və "İnsan Haqları Bəyannaməsi"nin müəlliflərindən biri kimi tarixə düşdü. –N.Ə)

...Nuru paşa Türkiyədə mühacirət həyatı yaşayan Məmmədəmin Rəsulzadə ilə birlikdə Ənvər bəyin rəhbərliyi altında Almaniyadan gələn türk əsilli əsirləri qarşılayır. Siyasi savadına, cəsarətinə görə M. Rəsulzadə Ənvər bəylə yaxından maraqlanır. Onun Masallıdan olduğunu biləndə soruşur:

– Masallıda Mirmahmud bəy Mirzə Cavadbəy oğlu Əmiraslanbəyovu tanıyırsanmı?

– O, mənim doğma əmimdir, – deyə Ənvər bəy cavab verir, – mən Mirmusa bəyin oğluyam.

Mirmusa bəyin adını eşidən Nuru paşa söhbətə müdaxilə edir:

– Yoxsa sən bizim gördüyümüz həmin dörd-beş yaşlı balaca Ənərsən?

– Bəli, sizin gördüyünüz həmin balaca Ənvərəm. Atam həmişə deyərdi ki, onun və dostlarının adına layiq olmalıyam.

Söhbət əsnasında özünün də general-leytenant olduğunu dilə gətirən Ənvər bəy Aslanbəyov Almaniya diktatoru Adolf Hitlerin həm heyranlıqla, həm də təəssüflə ölkəsinin Ənvər paşa kimi generallarının olmadığını barədə qaləmə aldığı bir fikri sitat gətitir.

Hitlerin məğlubiyyəti ilə Böyük Turançılıq ideyaları iflasa uğrayan Nuru paşa "bilirəm" deyir: "Amma o, lovğa və özündənrazı diktator bu fikri Birinci Cahan Savaşında söyləmiş, Kayzer Almaniyasının məğlubiyyətinin günahını o zamanki generallarında görmüşdü. Fəqət, cənnətməkan abim, Ənvər paşa kimi generallarının olmaması ucbatından İkinci Cahan Savaşı da Hitler Almaniyasının məğlubiyyəti ilə sonuclandı…"

Beləcə, Ənvər bəylə Nuru Paşa və M.Ə. Rəsulzadə arasında dostluq başlayır. Bir-iki ildən sonra Ənvər bəy "Azərbaycan kültür dərnəyi" yaradan Rəsulzadənin köməkçisi olaraq fəlliyyət göstərir. Ənvər bəyin Masallıda yaşayan yaxın qohumlarının dediyinə görə, Məmməd Əmin Rəsulzadə yaxın dostu və məsləkdaşı Ə. Aslanbəyovun toy mərasimində yaxından iştirak edib, hətta xeyir-dua verdiyi bu məclisin ağsaqqalı olub.

* * *

...1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edir. Elə həmin ildə, yəni 50 ildən sonra Vətənə gələn Ənvər Aslanbəyov Masallıdakı qohum-əqrabası ilə görüşür, ötən əsrin yetmişinci illərində Viləşçay dəryaçasının tikintisi ilə əlaqədar olaraq köçürülmüş ata – baba yurdunda tək-tük ev qalan İsi kəndini gəzib-dolaşır, dünyasını dəyişmiş əzizlərinin məzarlarını ziyarət edir. Belə əzizlərindən biri də Viləşçayın sahilindəki qəbiristanlıqda uyuyan adlı-sanlı həkim, alim, bəstəkar, Sarəng təxəllüsü ilə şeir və qəzəllər yazan Mir Kazım bəy Aslanlıdır. Ənvər bəydən 3-4 yaş böyük olan və 1975 –ci ildə dünyasını dəyişən əmisi oğlu – Mir Kazım bəy Aslanlı otuzuncu illərin dəhşətli repressiyasından böyük Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin sayəsində xilas olmuşdu. Bəy nəslindən olan digər qohumlarının çoxu otuzuncu illərdə yollandıqları sürgündən geri dönməmişdilər. Sağ qalanların sorağı Qazaxstandan gəlirdi…

* * *

Xatirələrin qoynunda 60 - 65 il öncə yaşadığı ağrılı-acılı günlərinə qayıdan Ənvər bəy 75 yaşına qədəm qoysa da, çox sağlam və gümrah görünürdü. Lakin elə həmin il Türkiyəyə qayıdan kimi dünyasını dəyişir. Sanki o, Azad Azərbaycana, doğma Masallıya, ata-baba ocağı İsi kəndinə vida görüşünə gəlmişdi…

Qeyd: Ssenari müəllif tərəfindən "Masallı - cənnət misallı" kitabına daxil edilmiş "General Ənvər Aslanbəyov" məqaləsindəki faktlara istinadən yazılmışdır.

Persona.az 24.12.2016

ÖLÜM HAQQ OLSA DA…

Vaxtsız ölümünə heyfsləndiyimiz çox tanınmış insanlar var ki, aradan aylar-illər ötsə də, həmişə aramızda yerləri görünür, tez-tez xatırlanır, yad olunurlar. Onlardan ikisini - filologiya elmləri doktoru, professor Zeydulla Ağayevi və xalq artisti İlham Əsgərovu Azərbaycanda kim tanımırdı ki?! Və təkcə Azərbaycandamı? Çalışdığı sahələrdə hər ikisinin istedadı, zəhmətsevərliyi, humanistliyi, əxlaqı keyfiyyətləri çoxlarına bəlli idi...

Sanki Allah-təala onların hər iksinə yaşlarından xeyli gənc görünməyi ürəklərinin saflığına, düzlüyünə görə mükafat olaraq vermişdi. İlham Əsgərovun "qəfil" ölümü barədə ilk dəfə "Persona Az" saytında yayımlanan "Mənəvi terrorun qurbanı" yazımda ətraflı bəhs etmişəm. Hətta 30 ildən çox çiyin-çiyinə çalışdığı sənət yoldaşlarına onunla səhnədə vidalaşmağı belə çox gördülər...

İki il əvvəl professor Zeydulla Ağayevə qarşı edilən haqsızlıqlar silsiləsi də 68 yaşlı görkəmli alimin, gözəl insanın, cəfakeş müəllimin, mehriban atanın,

sevimli babanın ömrünə son qoydu. Ölüm xəbəri onu yaxından tanıyanları sarsıtmışdı. Hələ qırxı çıxmamış "BayMediya" informasiya agentliyində "Alimin alimə zülmünü Allah da bağışlamaz!.." adlı yazım yayımlanıb, sonra qəzetdə dərc olundu. O yazını ürək ağrısı ilə qələmə alsam da artıq gecikmiş etiraz idi... Çox təəssüflər olsun ki, paxıllıq, vəzifə hərisliyi, mənəm-mənəmlik yenə öz işini görmüşdü, nahaq haqqa qalib gəlmişdi, yalan doğrunu əsir alıb, haqsevərliyi vələm-yesir eləmişdi və Zeydulla Ağayevin əzizlərini yasa batırmışdı, dostlarını, həmkarlarını bərk sarsıtmışdı. Dəfələrlə cəhd etsəm də, sağlığında ona edilən haqsızlıqdan nəinki bir kəlmə yazmağı izn vermədi, hətta bu haqda danışmağı belə xoşlamazdı. Ona görə çox sirrləri özü ilə axirət dünyasına apardı.

Bu günəcən Zeydulla müəllimin vaxtsız ölümü hamını, o cümlədən, onun alim dostlarını, dərs dediyi tələbələri, qohum-qardaşını, ən çox da ailəsini yandırıb-yaxır. Və inanıram ki, bu yanıb-yaxılmalar hər birinin ölən gününə qədər davam edəcək!.. Yazıqlar olsun ki, o cür saf insanın, görkəmli alimin ömrünü qayçılayan da, ölümünü tezləşdirən də elə alim həmkarlarından biri olmuşdu!..

Alimin də sən demə, zalimi olurmuş...

Bəli, böyük mərifət yiyəsi, əxlaq sahibi olan Zeydulla müəllimin incə ruhu, həssas qəlbi ətalətsizliyə, haqsızlığa tab gətirmədi və tab gətirə bilməzdi də... Zaman bizdən keçcə də, Zamanə çox adamları dəyişmişdi. Qədim yunan filosofu Demokritin təbirincə desək, şərait dəyişəndə, çox zəiflər və nadanlar

zəka sahiblərindən önə keçir, qüdrətli şəxslər geridə qalır...

Azərbaycanın adını onun hüdüdlarından uzaqlarda zirvəyə qaldıran cəfakeş elm adamı, vətənpərvər ziyalı, filologiya elmləri doktoru, professor Zeydulla Abdulla oğlu Ağayev 1945-ci ildə Masallının Qəriblər kəndində dünyaya göz açmışdı. Orta təhsilini Masallı şəhərində alıb, 1968 - ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunun ingilis dili fakültəsini uğurla bitirmişdir. Həmin təhsil ocağında 1969-cu ildən 1983-cü ilədək çoxtirajlı "Bilik" qəzetinin redaktoru, 1983-cü ildən 1994-cü ilədək Azərbaycan Dillər Universitetində tərcümə kafedrasının müəllimi, baş müəllimi, dosenti, sonra professoru, 2000-ci ildən 2005-ci ilədək Azərbaycan Dillər Universitetində elmi işlər üzrə prorektoru, 2007-2009 – cu illərdə Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri vəzifələrində çalışmışdır Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü idi.

Zeydulla müəllimin yazıçı kimi imzası ötən əsrin 80-ci illərindən Azərbaycan oxucusuna "Məhəbbət nəğməsi", "Beş günün intizarı", "Yenilməzlik", "Dünyanın düz vaxtı" və s. nəsr kitablarından çox yaxşı tanış idi.

Öz orijinal nəsr əsərləri ilə yanaşı, o, həm də gözəl mütərcim idi. Tərcümə ədəbiyyatında sahəsində də böyük uğurlara imzasını ataraq, Cek London, Artur Konan Doyl, Teodor Drayzer, Ernest Heminquey, Ayra Levin, Somerset Moyem, Ayzek Əzimov, Artur Heyli kimi dünyaşöhrətli böyük yazıçıla-

rın əsərlərini dilimizə çevirib, çap etdirmişdir.

1988-ci ildə "Yazıçı" nəşriyyatında çapdan çıxmış tanınmış ABŞ yazıçısı Artur Heylinin "Aeroport" romanı milli ədəbiyyatımızın tarixində birbaşa ingilis dilindən Azərbaycan dilinə tərcümə edilmiş ilk əsərdir. On il sonra Züydulla müəllim oxuculara Ayra Levinin "Ölümqabağı öpüş" romanını (Bakı, Hərbi nəşriyyat, 1998) təqdim etdi. Zeydulla müəllim mənimlə söhbətlərində deyərdi ki, tərcüməçi əsər müəllifinin TALE söykəncidir.

Zeydulla Ağayev həm də Azərbaycan-ABŞ əlaqələrinin yorulmaz, fəal tədqiqatçı idi. Bu sahədə xidmətlərinə görə ABŞ-ın Luiziana ştatının Fəxri vətəndaşı adına layiq görülmüşdü. Dəfələrlə ABŞ-da elmi ezamiyyətlərdə olan alim iki il ərzində Vaşinqton və Kaliforniya Universitetlərində çalışaraq elmi araşdırmalar aparmışdı. Los-Anceles Universitetində dərs demişdi.

Zeydulla müəllim dünya şöhrətli Ayzek Əzimov, Artur Heyli, Stiven Kinq kimi məşhur yazıçılarla məktublaşmış, hətta Ayzek Əzimovun sağlığında Nyu-York şəhərindəki evində şəxsən qonağı olmuşdu. Səmimi söhbət zamanı Ayzek Əzimov Zeydulla Ağayevə etiraf etmişdir ki, o, əslən Azərbaycanın Quba rayonundandır.

Amerika səfərindən sonra Zeydulla müəllim öz həmkarları ilə söhbətlərində soykökü Quba yəhudilərindən olan Ayzek Əzimov kimi nəhəng şəxsiyyətlərdən Azərbaycan həqiqətlərini dünyaya yaymaqda istifadə etməyin necə əhəmiyyətli olduğunu vurğulayırdı.

Bədii ədəbiyyat tərcüməsində kamil sənətkar zir-

vəsinə yüksələn Zeydulla müəllim Azərbaycan yazıçılarının hekayə və pyeslərini ingilis dilinə çevirib "Modern Azerbaijan Prose" (Bakı, Azərnəşr, 2003) kitabını çap etdirmişdi. Bu kitaba İsmayıl Şıxlı, Anar, Elçin, Sabir Əhmədli, Yusif Səmədoğlu və başqalarının əsərlərindənndən ingilis dilinə tərcümə etdiyi nümunələri daxil etmişdir.

Onun rəhbərliyi və təşəbbüsü ilə Səmyel Uimzin "Ermənistan - terrorçu "xristian" ölkəsinin gizlinləri". (Bakı, Azərnəşr, 2004) ingiliscədən tərcümə olunaraq rus dilində böyük tirajla çap edilmiş, MDB məkanında olan ölkələrdə yayılmışdır. Yeri gəlmişkən qeyd edək ki, bu kitabda erməni millətçiliyinin iç üzü tutarlı faktlarla ifşa olunur...

2005-ci ildə Zeydulla Ağayevin ingilis yazıçısı Somerset Moemin "Qisas" povesti əsasında yazdığı "Haray" faciəsinin Azərbaycan Dövlət Gənclər Teatrında tamaşası göstərildi. Bakıda və Masallıda 60 illiyi ərəfəsində nümayiş etdirilən bu yeni səhnə əsəri tamaşaçılar və teatr mütəxəssisləri tərəfindən çox rəğbətlə qarşılandı. Bu faciə əsəri Faşist Almaniyası üzərində QƏLƏBƏNİN 60 illiyinə həsr olunsa da, bu çağımızla səsləşir, "Qara bağrımız nə vaxt NİCAT tapacaq?" deyə haray çəkən qadın qəhrəmanı sanki Azərbaycanın erməni faşizminin işğalı altında Qarabağı azad etməyə çağırır... Zeydulla müəllim özü də etiraf edirdi ki, bu səhnə əsərində baş verən hadisələri Qarabağla bağlamaq məqsədi güdüb...

...Zeydulla müəllimin 45 yaşı olanda ondan "Qala" qəzeti üçün aldığım müsahibəyə belə bir sualla başlamışdım: "Dünyanın düz vaxtı" kitabının müəl-

lifi dünyanın əndişəli çağında nə fikirləşir?" Cavab: "Dünya yaranandan düz vaxtı olmayıb! Hətta tarixçilərin dediyinə görə müharibəsiz, qansız-qadasız dünya cəmi-cümlətanı 280 gün "ömür sürüb". Dünyanı əndişəli eləyən insandır. İnsan –yer üzünün məhsuludur. Yer üzü nahamvardı, girintili-çıxıntılıdır. İnsan da öz təbiəti etibarı ilə yer kürəsinə bənzəyir. Baxın, kosmosu insan kəşf edir, yerin tərkini insan öyrənir, gəl ki, heç vaxt özünü öyrənib qurtara bilmir və görünür bilməyəcək də... Bir mahnıda deyildiyi kimi: Dünya köhnə dünyadı... Təzələnənsə insanlardı, yaşayış tərzimiz, sosial qayğılar, ədəbi mühütimiz, maddi və mənəvi durumumuzdu..."

Bu müsahibən iki il sonra - 1992-ci ilin payızında mənim təşəbbüsümlə Masallıda keçirilən həkim, alim, bəstəkar Mirkazım Aslanlı -Sarəngin 80 illik yubileyində görüşdük. Sarəngi yaxından tanıyan və onun tərcümələrini vaxtilə redaktor olduğu "Bilik" qəzetində dərc edən Zeydulla müəllim çox maraqlı çıxış elədi. Həmin çıxışın lent yazısı indi internetdə yer alıb.

Zeydulla müəllim 2005-ci ildə Sarəngin həyat və yaradıcılığı haqqında qələmə aldığım "Yarımçıq qalmış şikəstə" kitabıma rəy verib, "Doğma yurda övlad məhəbbəti ilə..." başlıqlı ön söz yazdı. Və təkcə rəy verib ön söz yazmadı, həm yazdığı əlyazmanın üstünə 100 dollar qoyub: "əlim yüngüldür dedi, bu kitab tez nəşr ediləcək", - dedi, - "Sənin xoşbəxtliyin ondadır ki, öz məhdud maddi imkanlarına və gözəl qələmin, qəlbin olmasına baxmayaraq, daimi iş yeri axtara-axtara ünvanlar dəyişdiyin bir vaxta bu mü-

qəddəs işin qulpundan yapışmış və bu kitabı bizim mühakiməmizə ərmağan etmisən!"

Zeydulla müəllim deyərdi: "Məncə şöhrət naminə vətəndən, onun dərd-sərindən üz döndərmək, yazmamaq elə vicdanın səsini eşitməmək kimi bir şeydir..."

Sağlığında Bakıda və Masallıda 60 illiyi təntənəli şəkildə qeyd olunan professor Zeydulla Ağayevin 70 illiyinin üstündən sükütla keçirildi. Yazıçı dostum, vaxtilə Zeydulla müəllimin tələbəsi olmuş Kamran Nəzirli demişkən, belə bir şəxsiyyətin Azərbaycan ədəbiyyatı, tərcümə sənəti, elmi qarşısında böyük xidmətlərini heç kəs dana bilməz...

Allah rəhmət eləsin! Adına, şəxsiyyətinə, universal yaradıcılığına və əziz ruhuna böyük etiramla,

MANERA.AZ. 20-05-2016,

İLHAMIN ÖLÜM XƏBƏRİ ŞİRİN XƏYALIMIN QOL-QANADIMI SINDIRDI...

Xalq artisti İlham Əsgərov haqqında xatirə-esse

Səsiylə-sədasıyla Azərbaycanımızın dünənindən bu gününə körpü salan, boy-buxununda doğulub boya-başa çatdığı Masallımının Dəmbəlov dağının ucalığını, səsində Viləşçayın coşqunluğunu, Şır-şır bulağın həzinliyini yaşadan sənətkar idi İlham. Barəsində duyğularımı ipə-sapa düzüb, sağlığında dövrü mətbuatda ("Cənub xəbərləri", "Kaspi", "525-ci qəzet"), "Masallı-cənnət misallı" kitabımda dərc etdirmişəm. Amma indi o, bu dünyada olmayanda yazdıqlarıma baxıram və düşünürəm İlham haqqında nə qədər yazılsa yenə azdır.

...Özüm də bilmirəm, İlham barədə həmişə düşünəndə nədənsə məhz onu ali məktəbə qəbul imtahanına gələndə Sahil bağında – tənha bir skamyada səhəri açan ağ köynəkli abituriyent obrazında görürəm.

Niyə?! Bəlkə o vaxt aktyor olmaq arzusuyla yaşayan sadə bir kəndli gəncin abır-həyası, qanacağı ona şəhərdə yaşayan qohum-əqrəbasının qapısını döyməyə mane olmuşdu?... Bəlkə o gecə İlham gələcəkdə böyük səhnədə tənha və doğmalar arasında qərib bir insanın obrazını oynayacağı rolu məşq etmişdi?!

Deyəsən, o zaman belə hissləri bizim həmyaşıdlarımızın çoxu yaşayıb axı? Yəni İlham öz müasirlərinin canlı obrazını erkən yaşlarından həyat səhnəsində oynayan bir sənətkar idi...

* * *

Biz hər ikimiz Masallıda – mərhum yazıçı Rafiq Tağının "Muğan tərəflər" dediyi yamyaşıl zəmiləri olan qonşu kəndlərdə doğulsaq da Bakıda tanış olmuşduq.

Masallının el ağsaqqallarından olan Samı Kəlbiyevə hər ikimizin dərin rəğbəti vardı. O Samı Kəlbiyev ki, vaxtilə Rəsul Rza, Qılman İlkin, Lütvəli Abdullayev, Süleyman Rüstəm, Hüseyn Əliyev, Zeynal Xəlil və Azərbaycanın başqa görkəmli şəxsiyyətləri, sənət adamları onun dostu və qonağı olmuşdular ...

İlham tele-müsahibələrində tez-tez el ağsaqqalının adını çəkirdi, sinif yoldaşlarını, uşaqlıq dostlarını unutmurdu. Yaxın qohum-əqrəbalarının təbirincə desək, İlham hələ lap uşaq çağlarından "oyun", "teatr" çıxardırdı. Bəlkə bu "oyun", "teatr" çıxarmaq hissi onda Samı kişigildə xalq artisti Lütvəli Abdullayevi görəndə, onun məclisdə zarafatyana dediyi sağlığın Muğan elində dildə-ağızda gəzdiyini eşidən

andan yaranmışdı? Ölməz sənətkar Lütvəli Abdullayev Samı kişinin şərəfinə öz sağlığını belə ifadə etmişdi: "Həzarat, mənim Azərbaycanda kolxoz sədri vəzifəsində işləyən çox dostlarım var. Bəziləri mənə toyuq göndərəndə dəni vermirlər, dən göndərəndə toyuğu. Amma Samı dostum həm toyuq verir, həm də dən..."

* * *

İlk dəfə ali məktəbə daxil olmaq cəhdi daşa dəymişdi İlhamın... Şirvanda (o vaxtkı Əlibayramlı şəhərində) çilingər, tikintidə fəhlə işləmişdi. Həyat və əmək təcrübəsi qazanmışdı. Amma SƏHNƏ onunçun həyatın bir parçasıydı. "Müqəddəs ocaq" adlandırdığı səhnədə ilk uğurlu addımlarını atıb, teletamaşalarda müxtəlif rollarda oynamışdı...

Deyirdi ki, səhnədə ölüm səhnəsi yaratmaq kinodakından qat-qat müşküldü. Lal obrazını yaratmaq isə ondan da çətindir. Hüseyn Cavidin "İblis" dramında səhnədə oynadığı lal ərəb roluna görə tamaşanın rejissoru Mehdi Məmmədov kollektiv çəkdirdikləri şəklin arxasına bu sətirləri yazmışdı: "İlham, lal dilində gözəl danışdığına görə səni təbrik edirəm!.."

* * *

Sonra səhnədə sərkərdə, xan, xaqan, kral, böyük siyasi xadim də oldu: Bəxtiyar Vahabzadənin "Dar ağacı"nda Sabutay, İlyas Əfəndiyevin "Hökmdar və qız"nda Məhəmməd xan, Şekspirin "Kral Lir"ində Fransa kralı, Əli Əmirlinin "Mesenat"ında Nəriman Nərimanov, Mövlud Süleymanlının "Fatehlərin divanı"nda

Bilgə xaqan obrazlarına səhnə ömrü verdi İlham...

Akademik teatrın ən populyar tamaşalarında iştirak etməklə yanaşı, İlham Azərbaycan dövlət radiosunun məşhur "Bulaq" verilişinin aparıcılarından biri idi. Çox incə qəlbli, həssas insan idi İlham.

Əməkdar artist Əli Salahlı haqqında "Sonuncu monoloq" kitabımı oxuyandan sonra mənə telefonla minnətdarlığın bildirdi. Mənə elə gəldi ki, İlham əyalət teatrlarında çalışan və dünyasını dəyişən sənətkarların yad olunmasına bərk kövrəlmişdi... ***(Əli Salahlı 12-13 yaşlarında ilk dəfə çıxdığı səhnədə 59 yaşında Yetim Əlabbasın monoloqunu deyərkən dünyasını dəyişmişdi-N.Ə)***

Bir il ö neçə il öncə "Həzrəti Yusif" teleserialında Yaqub peyğəmbərin rolunu səsləndirirdi İlham. Sanki təkcə səsləndirmirdi, həm də həmin rolu oynayırdı. Səsi ayrılıq həsrətindən təşnə olan ürəklərə sərinlik yayırdı… Amma İlham etiraf edirdi ki, dublyaj zamanı mətni oxuyarkən bəzi məqamlarda özü də bərk kövrəlib, hətta ağlayıb da...

* * *

Bir də nədənsə xanəndələr həmişə "Apardı sellər saranı" mahnısını oxuyanda, "Gedin deyin Xançobana, gəlməsin bu il Muğana!" sözlərini eşidəndə, gözümün önündə Xalq artisti İlham Əsgərov canlanır. İlhamın Muğan toylarında əlində mikrofon, Dədə Qorqudsayağı səsiylə, əzəmətiylə bəylə-gəlinə xeyirdua verməyinin az şahidi olmamışam. "Xançoban" söz-sövqatıyla hər il Muğana gəlirdi... İnana bilmirəm. Təəssüf ki, doğma kəndi Xoşçobanlının da,

Muğanın da, Azərbaycanın da toy-büsatları söz-sənət aşiqi İlhamsız qaldı!.. İlham xeyir-duasıyla sanki müdrik, ağsaqqal babaların ruhunu yaşadırdı...

* * *

...Səhnədə Elçin Həşimovun tarı cuşə gəlir… Xanəndə Məsumun səsi pərdə-pərdə yüksəlir. İlham da qəzəl deyir. Dünyanın gözəlliklərindən zövq alır insan. Dağların hüsnünü örtmüş buludlar aram-aram seyrəlir. Dəmirağac meşəsinə haray düşür, ün düşür: "Dünya yaşamalı dünyadır, qardaş!" misraları ruhlara sığal çəkir.

İlhamın səsi neçə-neçə səs dalğasında öz ahəngi, öz rəngi, avazı ilə tanınır... Bu səs çalarında neçə-neçə ölməz ustad sənətkarın, cəngavərin obrazı göz önündə canlanır. Yaddaşlara qətrə-qətrə hopur Babək qüruru, Nizami zirvəsi, Füzulinin qəm karvanı, Nəsimi dəyanəti, Xətainin qılınc və söz sərkərdəliyi... İlham, obrazlı tərzlə desək, ta qədimdən üzü bəri yaranan poeziyamızın vuran nəbzi, döyünən qəlbi idi...

* * *

İlhamlı günlərdə-hər dəfə onu səhnədə, efirdən səsini eşidəndə şirin xəyala dalırdım... Günlərin bir günü Kazım Ziya sənətini yaşadan xalq artisti İlham Əsgərov Dədəm Qorqudsayağı səsiylə elimizə - obamıza QƏLƏBƏ müjdəsi verəcək... İlahi, zəfər tələnələri ilə süslənən Azərbaycan İlhamın qələbə müjdəli səsiylə necə də möhtəşəm görünərdi.... Taleyin və tarixin min cür sınağına sinə gərən Qarabağ eli

bayram libasına bürünərdi. Pərən-pərən düşmüş insanlar yurd yerlərinə dönərdi. İlhamın səsi AZADLIQ meydanına nur çiləyərdi: "Gözün aydın, Azərbaycan!.."

Amansız ölüm xəbəri şirin xəyalımın qol-qanadı sındırdı...

* * *

Tarixçilərin yazdığına görə qədim Muğan cəngavərləri boylu-buxunlu olublar. İlham səhnədə də, həyatda da mənə o qədim cəngavərləri xatırladırdı:

- Ehey, siz niyə belə cırlaşmısınız? - deyir, - Niyə bir-birinizdən aralı düşmüsünüz? Çiyinlərinizi birbirinə söykəyin, qardaşlar, bir olun! Yurdumuzun nicatı bizim birliyimizdədir...

...Yaradıcılığının otuz illik gecəsində dostlarından biri ona Məkkədən üzük gətirmişdi. Bəlkə o üzük mənim barmağımda elə də parlaq görünməzdi, amma "İncəsənət qvardiyasının sərdarı", söz sərkərdəsi İlham Əsgərovun barmağına yaraşırdı. İlham bütün vücudu ilə, ululara xas səsi ilə səhnədə daha əzəmətli, daha məğrur görünürdü.

Qəribə də olsa, son vaxtlar mən onu istər kinoda, istər teatr səhnəsində yalnız özümün arzuladığım rollarda görmək istəyirdim: Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Qaçaq Mozu... Sonuncunu tanımadınız yəqin! Qaçaq Mozu elə qaçaq Nəbi kimi bir igid olub bizim Muğan tərəflərdə. İlhamın həmkəndlisidir. Ona öz zəmanəsinin Robin Qudu da demək olar.

* * *

Nə isə... Son vaxtlar həyat səhnəsində qəfil itirdiklərimiz o qədər çoxdur ki! Ölüm mələyi nə ad-sana baxır, nə də yaşa. Dünən axarlı-baxarlı Viləş sahilində gəzib-dolaşarkən eşitdim ki, ÖLÜM çağırılmamış qonaq kimi İlhamın da ünvanını tapıb. Və sanki Dəmbəlovdan əsən sərin meh də onun ölməz səsini yayırdı hər yana. İlhamın ruhu isə Sarəngin bu misralarını pıçıldayırdı.

Ax Viləş, qəlbimdə qanlartək, fəğanlartək, Viləş!
Ax Viləş, gərdişi-dövranda zamanlartək, Viləş!

Hey axırsan naz ilə, avaz ilə, dəmsaz ilə,
Ruhuma lay-lay çalan sənsən, kamanlar tək, Viləş!

Uca Rəbbimizdən sənə qəni-qəni rəhmət diləyirəm, İlham!

Sənin sənətinə, şəxsiyyətinə və ruhuna ehtiramla.

Lent.az 07.09.2015.

.

NOVRUZ XOŞBƏXT



Ötən əsrin 70- illərindən tanıdığım "Xoşbəxt" təxəllüsü ilə şeirlər yazan Novruz müəllim (Abdullayev Novruz Məmmədəli oğlu) əsl şairə xas olan bütün keyfiyyətlərə malik idi; yeriyəndə, söhbət edəndə, nəsihət verəndə belə poeziya ilə nəfəs alardı:

Şeirlərim su içib
Ürəyimin qanından.
Onları vicdan əhli
Tapdalamaz heç zaman.

Və yaxud:

Bülbül nəğməsindən məst olur bağlar,
Qızılgül başına qızıl tac qoyur.
Söhbət elədikcə yaşıl yarpaqlar,
Ürəyim ən ülvi bir şeir duyur.

Novruz Xoşbəxt anadan olduğu 1932–ci ildə Masallıda "Yeni həyat" qəzeti nəşrə başlamışdı. Rayonun ictimai-mədəni həyatında mühüm rol oynayan qəzetin bir çox müasirləri kimi onda da bədii yaradıcılığa yeniyetmə yaşlarından maraq oyatmışdı. İlk oxucusu olduğu, sonralar isə məqalə və şeirlərinin çap olunduğu bu mətbu orqanın nəzdində ədəbiyyat dərnəyi fəaliyyət göstərirdi. 50-ci illlərdə Məmməd Kazım, Şulduz Tarıverdiyev, Beytulla Əliyev, Adəm İzzətoğlu (Qızılbaşlı), Əyyub Xankişiyev, Xudakərim Fərzəliyev (Xudakərim Məftun) və başqalarının şeirləri qəzetin şənbə səhifələrində dərc olunurdu. Novruz Xoşbəxtin "Çayçı qızlar" adlı ilk şeiri 1957 -ci ildə "Yeni həyat" qəzetində çap olunanda tələbə idi. 1961-ci ildə BDU-nun filologiya fakültəsini bitirdikdən sonra əvvəl Masallının Sərçuvar, sonra doğma kəndi Musaküçədə dil-ədəbiyyat müəllimi işləyə-işləyə "Yeni həyat"la, 1965-ci ildən isə nəşrini "Çağırış" adı davam etdirən rayon qəzeti ilə sıx əməkdaşlıq etdi, ştatdankənar müxbir kimi fəaliyyət göstərdi.

"Çağırış" qəzeti 60-70-ci illərdə rayonun qələm sahibləri arasında ünsiyyət yaradan gözəl bir mətbu orqana çevrilmişdi. O vaxt qəzetin redaktoru tanınmış şair Vaqif Hüseynov idi. Mən hələ orta məktəbdə oxuyanda bu qəzetdə məqalə və şeirləri dərc olunan müəlliflərin çoxunu imzası ilə tanıyırdım. Əslində buna qiyabi tanışlıq da demək olardı və o zaman müəliflərin şəkilləri qəzetdə dərc olunmadığına görə küçədə rast gəlsəydin belə heç birini üzdən tanımazdın.

Bir dəfə "Çağırış"da Novruz müəllimin "Günəşin övladları" adlı maraqlı bir məqaləsini oxudum. Yazı

zəhmət adamlarından – tərəvəzçi qızlardan bəhs etsə də, müəllif onu çox poetik üslubda qələmə alınmışdı. O vaxtacan qəzetdə mənim kiçik həcmli bir neçə yazılarım dərc olunmuşdu. Bu yazı ilə tanış olanda qəlbimdən bir istək keçdi. "Görəsən mən də belə geniş, həm poetik məqalə yaza bilərəmmi?!"

Hərbi xidmətdən qayıdandan sonra universitetin jurnalistika fakültəsinə qəbul oldum. Novruz müəllimlə əyani tanışlığım da həmin vaxtlardan başladı. Məsafəsindən asılı olmayaraq onunla Masallıda piyada gəzib-dolaşdığımız günlər yadıma düşür... Belə məqamda o, çox maraqlı şöhbbətlər edər, sinədən şeirlər söyləyərdi. Bəzən elə olurdu ki, mən Novruz müəllimi uzaqdan seyr edərdim. Kimi ona şair, kimi müəllim deyə müraciət edər, salam verib, hal-əhval tutardı. O isə könlündə qanad açıb, pərvazlanan misralarını sanki hürkütmək istəmir, sakitcə salam alıb, tək-tənha yoluna davam edərdi...

Elə də olurdu ki, mənim yanımdan sakitcə ötüb-keçirdi. Amma mən onu öz dünyasından-söz dünyasından ayırmağa cəsarət etmirdim. Sadəcə, gözdən itənəcən onu müşahidə edər, canlı bir şair obrazını yaddaşıma köçürərdim.

Bir dəfə küçədə başını qaldıranda mənim ona necə dinməzcə baxdığımı gördü. Mərkəzi Əmənət Kassasının qabağında dayanmışdım. Soruşdu ki, sən burada işləyirsən? Dedim, nə edim, ixtisasıma uyğun iş tapa bilmirəm. O, mənə "sən bura aid deyilsən, gül kimi qələmin var"-dedi. Və diqqətlə "bizim idarəyə" baxdı. Bu zaman inkassator bankdan gətirdiyi pul kisələrini maşından götürüb içəri aparırdı. Nov-

ruz müəllim pul kisələrinə baxıb, başını buladı, bir olan Allah bilir, qəlbində o an kimi nəzərdə tutaraq, bədahətən bu rübaini dedi:

Sən yığ, sandığına var qucaq-qucaq,
Mən şer çinləyim sandığa ancaq.
Görək hansımızın yığdığı sərvət,
Bu dünya durduqca çox yaşayacaq?!

Kommunist partiyasının necə deyərlər, lap "büro-büro" vaxtlarında Novruz müəllim bir ziyalı kimi sabaha ümidini itirmədi, mübarizlik əzmindən əl çəkmədi. Satirik şeirlərində o zamanənin antipodlarını tənqid atəşinə tutdu, əliəyrilərə həcvlər yazdı. Bir vətəndaş şair kimi insanların laqeydliyi ilə üzləşən təbiətin, ətraf mühitin taleyindən narahat idi. Bu narahatçılıq onun şeirlərində hiss olunurdu:

Meşədə tüfəng atma,
Turac səksənə bilər,
Kəklik perikə bilər,
Ağac diksinə bilər...

Novruz müəllim 54 il ömür sürdü. Amma sözü də bu gün yaşayır, özü də xatırlanır... Əgər mənə sual etsələr ki, 70 - 80 – ci illərin əyalətdə yaşayan əsl şair obrazını necə təsəvvür edirsən? Mən deyərdim ki, məhz o illərin əsl şairlik "qiyafəsi" Novruz müəllimin boyuna biçilmişdi, şairlik onun taleyinə həm ağrıynan-acıynan, həm də şərbətnən, südnən yazılmışdı. Şeirdən -sənətdən söz düşəndə deyirdi : "Səməd Vurğun şeir aləmində

nəhəngliyinə görə Kür çayına bənzəyir, biz isə kiçik Viləş çayıyıq. Amma hamımız poeziya adlı BÖYÜK bir ümmanda qovuşuruq..."

Ömrünün 40 ilini bədii yaradıcılığa həsr edən Novruz müəllim sağlığında çox arzulasa da şeirlərinin kitab halında nəşrini görmək ona nəsib olmadı. Oğlu İlham Novruzoğlu atasının - Novruz Xoşbəxtin 70 illiyi ərəfəsində "Arzumun çiçəkləri" kitabını nəşr etdirib, təqdimat mərasimini keçirdi. Həmin kitabdan bir şeiri oxuculara təqdim edərəm:

Aslanı meşədə, mərdi meydanda,
Qaya dözmünü dəli tufanda.
Ceyran sürüsünü Mildə, Muğanda,
Şeiri qara xallı yanaqda axtar.

Əsən küləklərin dili var imiş,
Kükrəyən çayların seli var imiş,
Hər işdə zamanın əli var imiş,
Payızı saralan yarpaqda axtar.

…Qürbətdə qalsan da Füzuli kimi,
Vətənlə səslənsin qəlbinin simi.
Gəzib dolansan da əgər aləmi,
Özünü bu doğma torpaqda axtar.

Və sonda Allahdan Novruz Xoşbəxtin böyük ehtiram hissi ilə andığım ruhuna şadyanalıq və rahatlıq diləyirəm...

QƏRİBİN BƏNZƏRİ...

Şair Qiyas Həmidin xatirəsinə

O, Masallıda – Böyük Xocavar kəndində dünyaya göz açmışdı. Sumqayıtda yaşayıb-yaratdı, ev-eşik sahibi olub, həyatını burada qurdu. Amma iyirmi ildən çox idi ki, Kazan şəhərində ailəsinin ruzusunu qazanırdı. Elə oradaca, 2008-ci ildə 54 yaşında son şeirini mobil telefonun yaddaşına yazaraq dünyasını dəyişdi. Özünün dediyi kimi, ağrısının-acısının adı da bilinmədi:

Uzağa düşdünmü atam, bil ki sən,
Ağrının-acının adı bilinməz...
Uzağın çörəyi şirin gəlsə də -
Evinə çatanda dadı bilinməz!..

İmzasını coxdan tanısam da, düz 10 il əvvəl Kazanda tanış olduğum Qiyas Həmid 1982-ci ildə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin mədəni-maarif fakültəsini bitirmişdi. "Çiçəklər solmaya kaş" (1997), "Hacı Mirheydər ağa" (1998) kitablarının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü idi...

Amma istər vətəndə yaşasın, istər qürbətdə, bir qələm əhli kimi öz taleyindən uzağa qaça bilmirdi Qiyas... Ruhu bir an da olsun rahatlıq tapmırdı. Kazan bazarında alver etdiyi kiçicik bir güşəni (piştaxtanı) həm də özü üçün "yazı masası" eləmişdi.

Tatarstan – Azərbaycan ədəbi əlaqələrinin inkişafında az rol oynamamışdı, həm bir araşdırmaçı, həm də şair – tərcüməçi kimi tanınmışdı.

Gecəli-gündüzlü Sizif əməyi kimi ağır zəhmətə qatlaşaraq müasir Azərbaycan şairlərinin seçmə şeirlərini tatarcaya çevirirdi. Tatar dilində "Araz aka, yanqa kaqa" (Kazan-2003) kitabının nəşri Qiyasın böyük uğuru idi.

İki ədəbi mühit arasında əlaqələrin möhkəmləndirilməsində göstərdiyi xidmətlərinə görə Tatarstan Respublikasının Prezidentinin fərmanı ilə "Kazanın 1000 illiyi" medalı ilə təltif olunmuşdu. O, Xəlil Rza Ulutürkdən sonra ikinci Azərbaycan şairi idi ki, ötən əsrin əvvələrində yaşayan Abdulla Tukayın 40-a yaxın şeirini ana dilimizə tərcümə etmişdi. Çəmi 27 il yaşamasına baxmayaraq, tatar ədəbiyyatına böyük ədəbi xəzinə qoyan Abdulla Tukay Mirzə Ələkbər Sabiri tatar dilinə ilk tərcümə edən şair idi. Qəribə də olsa, Qiyasın yaradıcılıq gecəsi ilk və son dəfə Abdulla Tukay adına mədəniyyət sarayında keçirilmişdi. "Qəribliyin hər qarışı doğmalıq"

deyə-deyə gəzib-dolaşdığım Kazan şəhərində tanış olduğum həmyerlimiz, iş adamı Talıb Talıbovun (o, həm də tarixçi-alimdir) rəhbərliyi və orada fəaliyyət göstərən Azərbaycan diasporunun fəal nümayəndələrinin sayəsində Qiyasın yaradıcılıq gecəsi Kazanda çox möhtəşəm, həm də təntənəli keçmişdi...

2002-ci ilin qarlı bir qış günündə Qiyasla birlikdə Kazanda 24 millətin nümayəndələrinin qərargahları yerləşən "Xalqlar dostluğu evi"nə yollandıq. Soydaşlarımız 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirə ciddi hazırlıq görürdülər. Qiyas təklif etdi ki, gəlin, əsas tədbirdən sonra məsciddə şəhidlərimizin ruhuna ehsan verək, hər millətdən nümayəndə dəvət edək!.. Qürbətdə bir ağsaqqal kimi, ziyalı kimi sözü ötürdü Qiyasın.

Sonra küçəyə çıxdıq, Kazanın Kremlini gəzdik, Musa Cəlilin heykəli önündə şəkil çəkdirdik. Qayıdanda məni mərhum şair Malik Fərruxun Kazanda yaşayan qardaşı Fərhad İbrahimovla tanış etdi. Demək olar ki, şəhərdə hər qarışda azərbaycanlı ilə rastlaşırdıq. Qiyas Həmid özünəməxsus şəkildə köks ötürüb:

Bu dünyanın üstü bazar,
altı məzar...

- dedi, - bu gördüyün cavanların hamısı bazarda çalışır. Və elə özü də məndən ayrılıb yorğun addımlarla Sultaniyyə məscidinin yanındakı bazara üz tutdu. Onu orada ətriyyat piştaxtası gözləyirdi. Çörəyini qürbətin boranında-çovğununda qazanan Qiyas o yanvar günü mənə verdiyi şeirdə bazarlarda özü özü-

mə, gözü gözümə, üzü üzümə bənzər adamların, bəlkə elə özünün də barəsində belə yazırdı:

Qəribin bənzəri olmur həyatda,
Qəribin adı da QƏRİBDİ elə,
O, elə yol gedir, DƏRD bölə-bölə...

Özlərini "çörək" ağacından asıb, Vətən həsrətiylə qovrulanlara, vaxtını qürbətdə boş keçirən cavanlara ərklə "qayıdın vətənə, qayıdın kəndə" deyirdi Qiyas:

Qısılıb hərəniz öz arzunuza,
Ümidsiz baxmayın sabaha sarı.
Kənddə iş olmasa, dərhal da durub,
Amandı, gəlməyin şəhərə sarı.

Qayıdın cavanlar, qayıdın kəndə,
Aman, keçirməyin ömrüzü hədər,
Bütün yer üzünü dolansanız da,
Sizə şirin olmaz kəndiniz qədər!

Deyirdi ki, əvvələr kəndimizə gedəndə çox sevincək olurdum, cavanları görəndə ürəyim yaz çiçəyi kimi açılırdı. İndi onların çoxu kənddən uzaq düşüblər. Bəzilərinin sorağı uzaq Kamçatkadan gəlir. Məlum məsələdir ki, elə orada da evlənib qalacaq. Həm də dilini, dinini tanımadığı bir millətin qızı ilə! Oğlunun üzünə illərlə həsrət qalan Məmmədəli kişi demişkən, uzağın xeyri budursa, azarım o uzaqlığa! Qiyas qəlbini sızladan belə duyğuları publisistik yazılarında da qələmə alırdı. Yazırdı ki, kənddə yaşı ötmüş atalar mollaya yasin pulunu,

Quran pulunu əvvəlcədən verir ki, öləndə bu məsələdə çətinlik yaranmasın. Bir də, axı nə bilmək olar kim dünyasını daha əvvəl dəyişəcək? Qürbətdə baş girləyən cavan oğul, yoxsa onun geri dönəcəyinə ümidini itirmiş qoca ata?!.

Çünki qürbətdən vətənə qara tabutlarda "qayıdan" neçə-neçə cavanın aqibətindən hali idi Qiyas! Bəlkə, elə bu misralar da qəlbində elə yaslı-matəmli çağların birində vəsiyyətə dönmüşdü:

Ömür-gün heçdən deyil,
Qocalıq yaşdan deyil,
Bu köç o köçdən deyil,
Gedənə qoşun məni!

Dünyadan vaxtsız köç edən şairlərin cərgəsinə qoşulan Qiyasın ölümündən sonra "Bu köç o köçdən deyil" (Bakı-2010) adlı kitabı işıq üzü gördü.

...Hər dəfə Masallıya gələndə, dan yeri sökülməmiş qocaman Dəmbəlo dağına boylanıb:

Salam a Dəmbəlo, sabahın xeyir,
Salam a Dağ dədəm, salam Dağ babam!

deyən şair Qiyas Həmid qürbətdə dünyasını dəyişsə də, öz təbirincə desək, ölənəcən yuvasına sadiq qalan qartal kimi ömür yaşadı. Zirvədən zirvəyə uçdu. Çox böyük uğurlara imzasını atacaqdı...

Fəqət gözəllik, yaşayıb- yaratmaq, SÖZ anlayışı kimi ölüm də sərhəd, qoca-cavan tanımır...

Allah dərgahında yerin behişt olsun, Qiyas Həmid!

"Kaspi" qəzeti, 17-19 noyabr, 2012, s.20.

"DOST GEDIB, ÖZÜMƏ GƏLƏ BİLMİRƏM..."

Mahir qarmon ifaçısı
Abutalıb Sadıqovun əziz xatirəsinə

Təbiət başdan-başa ilahi incəsənət toplusudur. Cəmiyyətdə bu ilahi gözəlliyin ahəngini duyan, zamanın və məkanın ritmini tutan mahir sənətkarlardan kimi onu firçasıyla, kimi poetik fikirlə, kimi musiqi alətlərinin dili ilə izhar edir və elə Allahın yer üzünə bəxş etdiyi bu ilahi nemətləri xalqın yaddaşında əbədiləşdirir.

Qarmonu ilə musiqinin poeziyasını yaradan Hacı Abutalıb Balakişi oğlu Sadıqov da belə mahir sənətkarlardan idi… Qarmonun neçə yaşı var? Harda yaranıb? Kim icad edib? Deyə bilmərəm. Amma Hacı Abutalıb ötən əsrin 60-70 -ci illərində öz istedadı və ritmik imporovizasiyaları ilə qarmonun həm də Azərbaycan xalqının müsiqi aləti olduğuna öz möhürünü vurdu. Ustad sənətkar könül verdiyi sənət

TAXTGAHının keşiyində həm əsgər, həm də sərkərdə kimi dayanaraq, Azərbaycanın tanınmış incəsənət xadimləri cərgəsində yer aldı.

…Bu sətirləri qələmə alanda mən bir daha Hacı Abutalıbın ölməz sənət dünyasına təşrif apardım. Ən yaxşı bələdçim isə unudulmaz sənətkarın internet saytlarında video-görüntülərlə yer alan bir-birindən gözəl ifaları oldu. Yazımın son nöqtəsini qoyanacan onun barmaqlarından nur parçası kimi qopub ruhumu cilalayan təranələrinə qərq oldum. Və Abutalıb Sadıqovun qarmonunun havasına yaddaş saxlancımda mühafizə olunan uşaqlıq xatirələrim oyandı.

…Düz yarım əsr öncənin bərli - bəzəkli, allı-güllü, xalı-xalçalarla süslənmiş kənd toyxanaları gözlərimin önündə canlandı. Aşıq Pənah sazıyla meydan suladı, Rəşidin qara zurnasının səsi kənd-kəsəyi başına götürdü, xanəndə İsrafil toyxana dalındakı utancaq, abrına-həyasına qısılmış gözəlləri süzə-süzə gözəlləmələr oxudu. Uşaq düşüncəsiylə gözləri barmağında olduğunu zənn etdiyimiz bəcrəvanlı Kor Balayar da qarmonunu bağrına basıb "Xancobanı"nı dilləndirdi...

Doğrudan da, biz o zaman elə bilərdik ki, toy-düyündə qarmonçalan Kor Balayarın barmağında gözü var. Bu məsum uşaq "müşahidəsini" illər sonra tanınmış şair Saday Şəkərli "Kor Balayar" poemasında belə qələmə aldi:

Neçə qızın, gəlinin,
neçə bəyin yadında
bir qarmonçu yaşayır,
Kor Balayar adında.

... Uşaqlar inanmışdı
(kimin buna sözü var?)
güya Kor Balayarın
barmağında gözü var.

…Qarmonuyla el-oba şənliklərində, toy-büsatda, qastrol səfərlərində görkəmli Azərbaycan sənətkarlarını, xalq artistlərini müşayət edən Hacı Abutalıb da özünəməxsus, əvəzsis və professional ifası ilə gənc yaşlarından uşağı-böyüyü ovsunlamışdı. Həmyerli olsaq da, mən onu ilk dəfə Azərbaycan televiziyasındakı solo konsertlərindən tanıyırdım.

2000 - ci ilin sonunda (dekabrın 29-da) Masallının rayon mərkəzi kimi təşkil olunmasının 70 illik yubleyi keçirilirdi. Rayonun rəhbərliyi məclisi aparmağı o vaxt "Lider" telekanalında (hazırda Mədəniyyət və Turizm Nazirliyində mətbuat xitmətində) çalışan Zöhrə xanım Əliyevaya ilə mənə həvalə etmişdi. "Mübarək" şadlıq sarayının geniş salonunda cənub diyarının naz-nemətiylə süslənmiş bayram süfrələrinin başında Bakıdan dəvət olunmuş, millət vəkilləri, tanınmış alimlər, hüquqşünaslar, incəsənət xadimləri və rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar əyləşmişdilər. Ssenariyə uyğun olaraq hər iki-üç çıxışdan sonra xanəndələr və sazəndələr çalıb-oxuyurdular.

Mən Abutalıb müəllimi qeyri-ixtiyarı xalq artisti kimi təqdim etdim. O, xəstəhal olsa da, ayağa qalxıb salonu gəzə-gəzə qarmonda gözəl muğam ifa etdi, ardınca da "Ayşadı", "Qars", "Naxçıvan yallısi" havaları ilə məclisə rövnəq verdi. Sənət fədaisi gözlərini yumub

çalğısı ilə elə bil, özü də şux gəncliyinə qayıtmışdı. Qırx ildən çox könül verdiyi sədəflə işlənmiş qarmonu isə qos-qoca kişilər kimi dil açıb Böyük Azərbaycandan danışırdı, cənub diyarından, doğma Masallının təbiətindən, qonaqpərvərliyindən bəhs edirdi…

Bu zaman millət vəkillərindən biri məni çağırıb dedi ki, "sən siyasi səhvə yol verdin!" Soruşdum niyə? Dedi ki, Abutalıb Sadıqov xalq artisti deyil axı, sən niyə onu xalq artisti deyə təqdim etdin?

Susdum və dönüb heyrətlə Abutalıb müəllimə sarı boylandım. O, möcüzə yaradan musiqisiylə məclis əhlini ovsunlayaraq sanki ayrı bir dünyaya aparmışdı. Çalğısıyla qəlblərin hisini- pasını silərək, kinə – küdurətə, qəzəb hissinə, paxıllığa divan qurmuşdu. Qarmonun körüyünü açıb- yığdıqca ,barmaqlarının yaratdığı ecazdan vəcdə gələn Hacı Abutalıb bu məqamda insana sevgi, yurda dinclik, cahana sülh, əmin-amanlıq yaraşır deyirdi. Melodiya zəngiliyi, metro-ritmik xüsusiyyətlər, xalqın hiss və duyğuları, temperamenti, təbiətin rəngarəng çalarları Hacı Abutalıbın batini dünyasından, ruhundan qopan incilər kimi könüllərə süzülürdü. Qarmonun kəhraba dilçiyi onun barmaqlarının təmasından sanki mum kimi əriyirdi. Bu hər sənətkara xas olmayan SƏNƏT eşqinin sufilik məqamıdır! Yalnız öz istedadı ilə xalqın sevgisini qazanan, fəqət dövlətdən, hökümətdən təmənna güdməyənlər bu ali -dərvişanə məqama yüksələ bilərdi. Məhəbbət, hörmət, sənət EŞQİ olan yerdə doğmalığın aurası, gözəlliyin haləsi yaranır.

Sürdü Məcnun növbəsin, indi mənəm rüsvayi –eşq,
Doğru derlər, hər zaman bir aşiqin dövranıdır.

…Abutalıb müəllim ifasını bitirəndən sonra salonda alqış sədaları ucaldı. Mən də bundan sui-istifadə edərək "siyasi səhvimi düzəldim". Dedim ki, düzdür, xalq artisti adı hələ Abutalıb müəllimə rəsmən verilməyib, amma bu alqışlar bir daha sübut edir ki, o elə xalqın artıstıdır! "Xalqın gözü tərəzidir" məsəli əsrlərin, qərinələrin sınağından çıxan ən müdrik kəlamlardandır. Ona görə də əsl sənətkara qiyməti elə gözü tərəzi, qəlbi ayna kimi şəffaf olan əbədi və əzəli xalqımız verir.

Hacı Abutalıb el-oba məclislərində, toyda-düyündə, ekranda-efirdə şəxsən özünün sənətkarlıq yanğısıyla bəstələyib və qarmonda ifa etdiyi "Rahimi", "İlkini", "Aybənizi", "Təranə", "Nəzrini" və başqa havalarında Məcnunsayağı İlahi eşqin və insan sevgisinin sonsuzluğuna can atırdı, RUHLARA toy tuturdu!..

İncəsənəti köksünün altında daş-qaya gəzdirən siyasətçilər deyil, bəşəri hisslər yaşadan ürəklər, doğulduğu torpağa, insana və insanlığa hörmət, sevgi bəsləyənlər yaradır. Hətta Lavrenti Beriya kimi siyasət cəlladı minlərlə günahsız insana ağır işgəncələr verəndən sonra Kremldə öz kabinetinə çəkilib Şestakovicin İLAHİ HARAY kimi səslənən simfoniyalarını dinləyə - dinləyə hönkürtüylə ağlayarmış. İncəsənətin fəziləti, qüdrəti, fəlsəfi siqləti siyasətin qabahətinə - ürəklərə vurduğu yaralara, iztirablara məlhəm qoyur.

...Fəzilət sahibi Hacı Abutalıbın kamil İNSAN kimi bir təvözokarlığını da deməyi özümə borc bilirəm. Könüllərin məlhəmi, toy-bayramların bəzəyi olan İran təranələrinə ilk dəfə qarmonda özünəməxsus tərtibatla, sevə-sevə qol-qanad verən məhz Hacı Abutalıb olub! Az sonralar mahir qaboy ustası, Azərbaycanın xalq artisti Kamil Cəlilov bu melodiyadan böyük ilhamla bəhrələnərək, onun ahənginə qaboyla özünəxas qürur və məğrurluq çalarları qataraq "Azərbaycan təranələri" kimi yeni nəfəs verdi. Və hər iki sənətkar sözün əsl mənasında bir-bir ilə KÖHNƏ KİŞİLƏR kimi hörmətlə rəftar edib. Çünki indi telekanallarda nəinki qadın "sənət"çilər, hətta kişi müğənnilər bu və ya digər mahnıları ilk dəfə ifa etdiklərinə görə bir-birlərinin ünvanına nalayiq sözlər yağdırırlar.Tele-məkanı söyüş və döyüş meydanına döndərməyin özü də çılızlıq əlamətindən savayı bir şey deyil. Özlərinə müxtəlif "ad", "titul" verən belələrinə baxanda, indi düşünürəm ki, Hacı Abutalıb da, Kamil Cəlilov da buxara papağı ağayana, kişi kimi daşıyıblar!..

Mən yaşıma görə Abutalıb Sadıqovla çox az ünsüyyətdə olmuşam. Bakıya köçəndən sonra onu tez-tez Vahid Poeziya Evinin yerləşdiyi Azərbaycan Dövlət Flarmoniyasının bağında məşhurlarla bir arada görürdüm; unudulmaz kaman ustası Habil Əliyev, mərhum xanəndələr Sabir Mirzəyev, xalq artisti Səfa Qəhrəmanov, tanınmış nağara ifaçısı, xalq artisti Sadıq Zərbəliyev, xanəndə Həbib Rəhimov, əməkdar jurnalist Zakir Abbas və başqaları çay içə-içə söhbət edər, bəzən də nərd oynayardılar.

Hacı Abutalıb dadlı-duzlu söhbətləri ilə təkcə mənə yox, həmsöbət olduğu hər kəsə köhnə, qədim-qayım sinədəftər kişiləri xatırladardı. Təsadüfü deyil ki, pedaqoji elmlər doktoru, professor Fərahim Sadıqovun "Masallı folkloru" kitabında Hacı Abutalıbın şəbədələri, zarafatları, gülməcələri, atmacaları da yer alıb.

Hacı Abutalıb böyük sənət dünyasına qeyrətlə vətəndaşlıq edirdi. Ölümündən sonra yaşamaq hər adama nəsib olmayan səadətdir. O, nəinki sənət dostlarının, əzizlərinin, doğmalarının xatirəsində yaşayır, hətta bu gün internetdə qarmonuyla dünyanı fəth edir .

...Budur, Hacı Abutalıbin möcüzə yaradan barmaqları qarmonun kəhrəba dilçikləri üzərində gəzir, onun böyük həvəslə müşaiyət etdiyi xalq artisti Könül Xasıyeva çox kövrək və həzin bir səslə "Əziz dostum"u oxuyur:

Çaldığım o sazı gətirin mənə,
Görün ki, çalmaqda necə mahirəm.
Əlim dəyən kimi bircə telinə
Simlər haray çəkib qırılır o dəm.

Necə nəğmə qoşum, necə dillənim,
Dost gedib özümə gələ bilmirəm.
Elə bil əllərim yox olub mənim,
Gözümün yaşını silə bilmirəm...

Bu nəğmənin sözləri Dağıstanın görkəmli oğlu Rəsul Həmzətovun, musiqisi Azərbaycanın ölməz və dəyərli sənətkarı Qulu Əsgərovundur. Hacı Abutalı-

bın qarmonda müşaiyətiylə onu çox kişi xanəndələr oxuyub. Və o kişi xanəndələrin çoxu dünyasını dəyişib. Könül xanımın ifasında bu mahnı indi mənim də tək-tənha qaldığım və çoxlu dost-həmdəm itirdiyim bu çağlarımda ayrı cür səslənir. Elə bil, Rəsul Həmzətovun, Qulu Əsgərovun, Hacı Abutalıbın ruhları Könülün mələhətli səsinə qoşulub PULUN baş rolda olduğu bu fani dünyada səmimi dostluğun, sevginin qıtlığını, dünyasını dəyişən yaxşı və KÖHNƏ kişilərin, etibarlı dostların yerinin göründüyünü xatırladıb, İZHAR edir...

Bəli, dost gedib, həmdəm gedib mən də özümə gələ bilmirəm!..

Ruhuna ehtiramla

"Persona. az" 13.11.2015

TÜRKÜN NƏHƏNG OĞLU

Azərbaycanı Qazaxıstan qədər özünə doğma bilən, "Bakı dünyada sevdiyim iki şəhərdən biridir"deyən görkəmli qazax şairi, yazıçı, alim və ictimai xadim Oljas Süleymenovun may ayının 18-də 80 yaşı tamam olur.

Vaxtilə "Az-Ya" kitabı ilə keçmiş SSRİ-ni silkələyən, qəlbində tükənməz türk sevgisi bəsləyən Oljas Süleymenov 1990-cı ildə Sovet İmperiyasının Azərbaycana qarşı törətdyi cinayətə etirazını Moskavada yüksək kürsülərdən söyləmiş, çox sonralar mətbuata verdiyi açıqlamada bunu ilk növbədə qardaşlıq və insanlıq borcu adlandırmışdır. Qan-

lı Yanvar hadisələrindən bizi illər ayırsa da, Oljas Süleymenov xalqımızın yaddaşına o mərdanə, cəsarətli çıxışıyla əbədi həkk olub...O, dəfələrlə Bakıya gəlib, Azərbaycan xalqının kədərinə, sevincinə şərik olmuş, ədəbiyyat barədə maraqlı çıxışlar etmişdir.

...Bu şəkil onun təqribən 10 il öncə Bakıya gəlişi zamanı Azərbaycan Yazıçılar Birliyinin foyesində çəkilmişdir.Yadımdadı, Natavan klubunda çıxış edəndə Oljas Süleymenov Nizamiyə,Nəsimiyə, Füzuliyə, Sabirə sevgisini dilə gətirdi və Tolstoy barədə belə fikir söylədi: "Tolstoy əsərlərində yaratdığı qəhrəmanlarına Allahın öz bəndəsinə baxdığı nəzərlərlə baxırdı, o, fərq qoymurdu ki, bu xristiandı, bu müsəlmandı və ya buddistdi..." Böyük sənətkarın fikrincə, müasir dövrdə ədəbiyyatda həqiqi ustad adını qazanmaqüçün əsərlər lazımdır...

Sözü ilə zamanın və məkanın sərhədlərini aşan, türk xalqlarının taleyi ilə bağlı həqiqətləri dünyaya da təbliğ edən və "Mən Azərbaycanı özümə ikinci Vətən bilirəm" söyləyən Oljas Süleymenova ulu tanrıdan sağlam və uzun ömür arzulayırm.

Adına və türk sevdasına böyük hörmət və ehtiramla,

"Ulu Çinar" jurnalı,may-iyun 2016, № 4. s.68

SABİR BULAĞI,
yaxud XALQIN ŞAİRİ, HAQQIN NASİRİ

Sabir Rüstəmxanlının
70 illiyinə essevari fraqmentlər

...Çoxdan tanısam da, dəfələrlə görüşüb duz- cörək kəssək belə xalqın şairi, haqqın nasiri, Türkün gör-kəmli oğlu Sabir Rüstəmxanlı haqqında ilk dəfədir ki, əlimə qələm alıb yazıram. Bu gecikmiş yazıya görə, özü olmasa da, onu dəfələrlə sayılıb-SEÇİLƏN ölkə ziyalıları arasından millət vəkili SEÇƏNLƏR

və türk dünyasına səs salan əsərlərinə görə sevənlər məni bəlkə də qınayacaq. Amma burası da var ki, çox vaxt qələm əhli özünə doğma bildiyi şəxsiyyətlər haqqında yazmaqda çətinlik çəkir. Yaddaşımın saxlancında Sabir bəylə bağlı o qədər faqmentlər var ki, hansından başlayım, özüm də bilmirəm...

Birinci fraqment: Tale elə gətirdi ki, 80-ci illərin sonu Sabir bəyin Masallıda müstəntiq işləyən qardaşı Əlövsət bəylə bir müddət qapıbir qonşu olduq. Bakıdan Yardımlıya gedəndə Sabir bəy həmişə yolüstü Əlövsətgilə baş çəkərdi. Milli ruhun oyanmasına təkan verən "Ömür kitabı"nın oxucular tərəfindən böyük maraqla oxunduğu vaxtlar idi.Bir dəfə necə oldusa, Əlövsətgil evdə olmadı. Sabir bəyi evə dəvət edib: "Mən də sizin qardaşınız, buyurun bizə"- dedim. O, gülümsünərək "çox sağ olun, yolçu yolunda gərək" dedi və dönüb getmək istədi. Bu zaman qapı ağzında üç yaşlı oğlum İsmayılın əlində ağ, qalın cildli "Ömür kitabı"nı görəndə ayaq saxladı. Və döş cibindən çıxardığı qələmlə avtoqraf yazıb mənə öz ömür kitabımı yazmağı dilədi.

İkinci fraqment və ya görüşümüz Almaniyada yaşayan və əslən Cənubi Azərbaycandan olan dostu İbrahim Əhrari ilə birlikdə Yardımlıya səfərimiz oldu. Bu, mənim həm də Sabir bəyin öz dünyasına sözün əsl mənasında, ilk ekskursiyam idi: Masallının qaynar İstisuyundan yuxarı - dağlıq əraziləri keçəndən sonra sakit təbiət qoynuna çəkilib, daşların-qayaların qoynundan süzülüb gələn dupduru çayın hövzəsində dəbdəbədən uzaq xudmani süfrə açma-

ğımız, təndir çörəyi, üzlü-gözlü motal pendiri, yüksək keyfiyyətli "Drezden" arağı və Sabir bəyin şirin söhbətləri... Gördüklərim -eşitdiklərim sanki öncədən hazırlanmış ssenaridə yazılmışdı .

Sonra Sabir bəy yaxınlıqdakı yoxuşu cəld və çevik addımlarla qalxaraq bizə qacaman palıdın dibində çağlayan bulağı göstərdi... İlahi, elə bil mən ondan yox, o, məndən on iki yaş gənc idi... O zaman Xəlil Rza Ulutürk "Sabir Rüstəmxanlı şəlaləsi" adlı şeirini yazmışdı. Mən də tövşüyə-tövşüyə, nəfəsimi güc-bəla ilə dərib adsız bulağa "Sabir bulağı" dedim və əyilib çeşməsindən su da içdim.Amma o dağlara çıxmağın yorğunluğu uzun müddət canımdan çıxmadı...

Mən Sabir bəyin sayəsində onun doğma kəndi Hamarkənddə adını eşidib üzünü görmədiyim başı qarlı Savalanın ilk dəfə uzaqdan seyr etdim. Və Xəqani Şirvaninin ulu Savalanı vəsf etdiyi bu misraları xatırladım:

Səadət qibləsi Savalan dağı,
Şərəfdə Kəbətək qazanıb şöhrət.

Kəbə yaşıl geyər, ağ bürünər o,
Çünki, ehram tutan geyər ağ xələt...

Üçüncü fraqment: Bir müddətdən sonra Yardımlıda tikdirdiyi yarımçıq evində olduq. Yenə dəbdəbədən uzaq süfrə açıldı, qarpız, pendir, deyəsən bu dəfə boyat bozartma da vardı... İkinci mərtəbənin hələ çərçivəsi salınmayanpəncərələrindən Yar-

dımlının möhtəşəm mənzərələri görünürdü. Dördkünc, eyni ölçülü-biçili o pəncərələrdən elə bil daş çərçivəyə salınmış canlı tablolar "asılmışdı". Sabir bəy sağlıq söyləyəndə dedi ki, rəhmətlik Səttar Bəhlulzadə sağ indi sağ olsaydı , burada oturub əziyyət çəkmədən bu mənzərələri kətana köçürərdi...

Dördüncü fraqment: 1990-cı il, Faiqin toy günü... Xudu kişinin öz əli saldığı bağda Yardımlı rayon partiya komitəsinin birinci katibi Fəzail Tağıyev başda olmaqla bir neçə yüksək vəzifəli şəxslər, Əlövsət bəyin Masallıda hüquq –mühafizə orqanlarında çalışan həmkarları ilə gözəl təamlar düzülmüş toy masasının ətrafında oturub Sabir bəyi dinləyirik. Mənimlə üzbəüz əyləşən "Salam dar ağacı" kitabının müəllifi şair Rüstəm Behrudini ilk dəfə yaxından görürdüm və nədənsə o an içimdən"Salam, çörək ağacı" adlı bir esse yazmaq keçdi. Sabir bəy o zaman bir il olardı ki, Azərbaycanda ilk müstəqil, demokratik ruhlu "Azərbaycan" qəzetini təsis etmişdi və onun baş redaktoru idi. İki il idi ki, milli azadlıq hərəkatının ilk təşkilatçılarından və liderlərindən biri kimi tanınırdı. Faiqin toy günü bəlkə də heç kim ağlına belə gətirmirdi ki, vur-tut bir neçə aydan sonra Sabir bəy Azərbaycanın Müstəqillik Aktının müəlliflərindən biri, 1991-ci ildə Mətbuat və İnformasiya naziri olacaq...

...O toy gecəsi Hamarkənddən Yardımlıya, ordan da dağlara qıvrıla-qıvrıla dolanan yolla Masallıya dönəndə Xəzər adlı ümmana can atan Vıləş çayına düşən dolğun və parlaq Ayın əksinə baxa-ba-

xa Sabir bəy haqqında düşünürdüm . Axı o da bu coşqun dağ çayına oxşayırdı: Hamarkənddən - ata ocağından götürdüyü nuru ürəyində tonqala çevirib Azərbaycan adlı ümmana, böyük Türk dünyasına işıq daşıyırdı.

O zaman 44-45 yaşlarında Sabir bəyin ən üstün cəhətləri nədə idi? Nəfsinə müxalifətçilik etməkdə, haqqa yar olmaqda, qılıncla qələmin birliyini yaratmaq amalı ilə yaşamağında... Əgər söhbət demokratik dövlət quruculuğundan gedirdisə, demək, vəzifədən istefa vermək,hər hansı mükafatdan imtina etmək adamdancəsarət və yüksək mədəniyyət tələb edir.

Məncə 92-də MM –in sədrliyinə namizədliyini geri götürməsi, 95-də nazir postundan istefa verməsi, 96-da Prezidentinin fərmanıyla təltif olunduğu "Şöhrət" ordenini almaqdan imtina etməsi Sabir Rüstəmxanlının ilk növbədə mənsub olduğu türk xalqına, Azərbaycan dövlətçiliyinə hörmət və ehtiramından qaynaqlanırdı. O, nazir olanda qapısı Azərbaycanın bütün bölgələrindən olan yazarların üzünə açıq oldu. Gəlin görək, indi hər hansı nazirin, komitə sədrinin,icra başçısının, heç şöbə müdrlərinin qəbuluna düşmək olurmu?!

Haşiyə:...Rəhmətlik Nüsrət Kəsəmənlinin Sabir bəyə ötənəsrin 70-ci illərində həsr elədiyi bir şeiri var: “Mənim bu şəhərdə kimim var axı, hər qapı döyməyə əlim gəlməyir...”Doğmalarının qapısının zəngini çalmağa qalxmayan o əllər Sabir bəyin qapısını ərklə döyə bilir. Niyə? Sabir bəyin ki, o zaman heç bir titulu, fəxri adı ki, yox idi! Çünki ürək genişliyi Sabir bəyə atadan-babadan, Rüstəmxan-

dan miras qalmışdı, layiq olduğu titulları da, fəxri adları da, oxucu sevgisini də onaQƏLƏM Xaqan qazandırdı ...

Əsas fraqmentlərdən biri: Bu məqamda mən Sabir bəyin və onun qardaşlarının xarakterində əsasrol oynayan Xudu kişi haqqında bir –iki kəlmə yazmaq istəyirəm. Xudu kişi ilə Ələvsətgildə çox həmsöhbət olmuşdum. Dünyagörmüş, zəhmətkeş kişi idi. Bir dəfə Masallıdan Yardımlıya getmək üçün bir taksiyə yaxınlaşır. Adətən, İsgəndərli körpüsündən aşağıda dayanan taksilər dörd nəfər sərnişin götürməmiş yola düşməzdilər. Özbəy adlı bir taksi sürücüsü Xudu kişini şəxsən tanıyır və qabaqda oturacağda oturan cavan oğlana deyir ki, sən keç arxada otur, bu kişi Sabir Rüstəmxanlının atasıdır, bir oğlu Ələvsət də Masallıda müstəntiq işləyir, qoy o, qabaqda rahat otursun!

Xudu kişi sürücüyə də, cavan oğlana da üzünü tutub deyir ki: - Ay bala, siz Sabirə, Ələvsətə görə yox, ağsaqqal olduğuma görə mənə hörmət edin!..

Bəli, çox gözəl ibrət dərsidir. Yəni hər ağsaqqalın ola bilər ki, Sabir Rüstəmxanlı, Ələvsət Əliyev, Şahbaz Xuduoğlu kimi oğulları olmasın, amma bu o demək deyil ki, sən o ağsaqqala hörmət etməyəsən!..

Bir dəfə də Ələvsətlə stadionda futbol oynayanda yüngülcə mübahisə etmişdik və ondan küsmüşdüm. Xudu kişi növbəti dəfə onlara baş çəkməyə gələndə necə oldusa, incik olmağımdan duyuq düşdü və Ələvsətə dedi: - Bala, sənin Yardımlıda böyük qardaşın Sadatdı, Sumqayıtda Mədətdi, Bakıda Sabirdi, Masallıda da Nurəddin...

Xudu kişidən bütün övladlarına - Sabir bəy başda olmaqla Sadata, Mədətə, Əlövsətə, Şahbaza, Faiqə, Dilavərə, Cəlala hazırcavablıqla bərabər, gözütoxluq, mərdlik, mətinlik kimi xüsusiyyətlər, dözümlülük, zəhmətsevrlik və haqq-ədalət uğrunda mübarizlik əzmi keçmişdi. Onu da qeyd edim ki,Sabir bəy atası Xudu kişinin son günlərini, psixoloji dəqiqliklə "Atamın Ruhu" romanında çoxmaraqlı və yaddaqalan ştrixlərlə qələmə almışdır.

90-cı illərin ortalarında baş redaktoru olduğum "Masallı" qəzetində respublikanın tanınmış ziyalılarına, xalq şairi və yazıçılarına ünvanlanan müraciətim böyük əks-səda doğurdu. Həmin müraciətə ilk münasibəti bildirən Sabir bəy oldu: **" ... Özünü ziyalı adlandıran şəxs respublikada bu gün baş verən proseslərdən kənarda qala bilməz! Bəzən deyirlər ki, yazıçı və şairlərin borcu ancaq yazmaq, yaradıcılıqla məşğul olmaqdır. Amma şair və yazıçı mücərrəd bir auditoriyaya müraciət etmir, hər bir əsərin konkret ünvanı var. Bu ünvanın adı Azərbaycan xalqıdır! Sevinirəm ki, bu müraciəti mənim millət vəkili seçilmiş olduğum bölgənin ziyalıları ediblər. Doğrudan da Masallı ziyalılar rayonudur..."**

Sabir bəy təkcə sözdə bu fikri demirdi,həm də dəfələrlə istər Bakıda, istər Masallıda ziyalılarla görüşürdü... O, bu gün də bir ağsaqqal qələm sahibi olaraq indiki çağda ziyalıların enerjilərini millətin inkişafına deyil, məhkəmələrə sərf etməsini yolverilməz hesab edir... Və çalışır ki, bir-birindən incik düşən ziyalıları barışdırsın!

Sabir bəyin bir gözəl kəlamı da var: "Dünyada yalnız xalqın sevgisinə bel bağlamaq olar! Ən etibarlı abidə də, ən toxunulmaz arxiv də xalqın yaddaşıdır!"

Hərçənd Napoleon Bonapart kimi sərkərdə "Yaratmaq məsələsində zor gücsüzdür" desə də, son zamanlar ZORUN bir çox yaradıcı adamlardan,vətənpərvər insanlardan güclü olduğuna az şahid olmamışıq. Mən "Qarabağa aparan yol" qəzetində redaktor müavini olanda bir müddət parlament müxbiri kimiMM-in iclaslarında iştirak etmişəm...Yadımdadır,bir dəfə cari məsələlər müzakirə olunanda deputatlardan biri tanınmış tele-jurnalistin anasının ünvanına nalayiq sözlər dedi, əslində jurnalistdən çox Azərbaycan qadını təhqir olundu. Yalnız Sabir bəy özündə cəsarət tapıb öz çıxışında həmin deputata etiraz elədi.

Yaxud Türkiyənin "Kanal 24" telekanalında Şah İsmayıl Xətai təhqir olunanda yenə Sabir bəy və həyat yoldaşı, "Azəri-Türk Qadınlar Birliyi"nin sədri Tənzilə Rüstəmxanlı öz etiraz səslərini ucaltdılar. Sabir bəy parlamentdə Azərbaycandan həmin kanala himayədarlıqda adı hallanan qurumdan məsələyə aydınlıq gətirməsini xahiş etsə də, demək olar ki, onun təklifinə laqeyd yanaşdılar. Görəsən niyə? Məgər millət vəkilləri Xətai Yurdunun - Şah İsmayıl Səfəvidən dili, Ali divan məclisi, ərazisinin yeddidə bir hissəsi miras qalan Azərbaycanda ən yüksək maaş aldıqlarının fərqində deyildilərmi?! Üstəlik deputatlar arasından da Şah İsmayılın ünvanına tənqidi fikirlər səsləndirənlər oldu və böyük qardaş dediyimiz Türkiyədə Şah İsmayılı aşağılayan kitablar nəşr olundu, "Möhtəşəm yüz il" serialında həm özü, həm oğlu Təhmasib şah yenə təhqir olundu...

Sabir Rüstəmxanlı çox haqlı olaraq bir şeirndə deyir: "**bir çiçəyin mehrinə sıxılıb ağlamayan məni anlamaz əsla!"** Sabir bəy ölüvaylığın, cəhalətin, cahilliyin, sərkərdə mundiri geymiş köləliyin əleyhinədir:

Yandır, şəhid qanı, bu daşı yandır!
Bu daşa çevrilən qardaşı yandır!
Ya tamam yox elə, ya da oyandır,
Bu uzun cəhalət uyğusu bitsin...

Dünən olduğu kimi bu gün də Sabir Rüstəmxanlının daxilində sönməyən Zərdüşt odu var. Sabir Rüstəmxanlının əlində Xətainin qılıncı kimi kəsərli qələmi var. Onun amalı "Əbədi sevda" və Ata yadigarı olan ruhla "Tonqal başında" Vətəndaş həmrəyliyinə xidmət etməkdir! Çünki Türk xalqının nicat yolu - Zəka qüvvələrinin birliyindədir, zəka qüvvələrinin vəhtəti isə Qılıncla Qələmin həmrəyliyindədir...

Son söz yerinə təbrik: Sabir bəy, dağ adamları binayi - qədimdən Allaha yaxın olublar. Bu gün düz otuz il öncə Sizinlə dağlara çıxıb – "Sabir bulağı"ndan su içdiyim günü xatırlayanda, ürəyimdən bu arzu keçdi: Qoy o uca dağlar, "Rüstəmxanlı şəlaləsi", "Sabir bulağı" 70 illik yubileyinizə ana təbiətin hədiyyəsi olaraq, ruhunuzu daha da cavanlaşdırsın!

"Bütöv Azərbaycan" qəzeti,
5-11 may 2016-cı il, səh.4.

BİZİM MUSA MÜƏLLİM

Tarix elmləri doktoru,
professor Musa Quluzadənin 77 yaşına

...Yeddi müqəddəs rəqəmdir. Qoşa yeddi isə bu müqəddəsliyə xüsusi çalar, müdriklik əzəməti verir. Müqəddəslik həm də doğru yol seçməkdir. Yetmiş yeddi yaşlı Musa müəllimlə həmyerli olsaq da, tanışlığımızın iyirmi yeddi illik tarixi var. Və bu iyirmi yeddi il ərzində istər Bakıda, istərsə də Masallıda görüşəndə bir dəfə də olsun onun nurlu simasını təbəssümsüz görməmişəm.

İlk dəfə sovetlər dönəmində paytaxtın Lenin muzeyində görüşdük; o zaman Musa müəllim həmin muzeydə direktor müavini vəzifəsində çalışırdı. (İndi ora Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Muzey Mərkəzi adlanır – N.Ə.) Bu görüşdən az sonra Musa müəllimin təşəbbüsü sayəsində və ssenarisi əsasında uzun illərdən bəri tədqiqatçısı olduğum alim, həkim, şair, bəstəkar Mirkazım Aslanlı –Sarəng haqqında ilk dəfə Azərbaycan Televiziyasında 40 dəqiqəlik film nümayiş etdirildi. 4 sentyabr 1992- ci ildə isə "Ədəbiyyat və İncəsənət" qəzetində Sarəngin həyat və yaradıcılığı barədə birlikdə qələmə aldığımız "Yol üstündə məzar" məqaləmiz dərc olundu.

Bu günəcən qələm dostum Əlişirin Şükürlü demişkən, ömrünün yetkin dövrünü yaşayan, istər zahiri, istər mənəvi-əxlaqi keyfiyyətləri ilə əsl Dədə Qorqud simalı professor Musa Quluzadənin çox adama göstərdiyi mənəvi köməyin, cəfakeşliyin, xeyirxah münasibətin şahidi olmuşam. 1995-2000-ci illərdə baş redaktoru olduğum "Masallı" qəzetinin redaksiya heyətinin üzvü kimi Musa müəllim ağsaqqal ziyalı kimi bizdən məsləhətlərini, bədii və publisistik yazılarını, bir sözlə, mənəviyyat işığını əsirgəmirdi!.. Onu da qeyd edim ki, professor Musa Quluzadə respublikada ilk olaraq «Dövlət və din münasibətləri» mövzusunda dissertasiya yazan alimdir.

...Ömrünün geridə qalan 77 ilini şərəflə, özünün dediyi kimi, alnıaçıq yaşayan görkəmli alim, tanınmış qələm sahibi - nasir, dramaturq, yığcam mənsur şeirlər müəllifi olan Musa müəllimi tanıyanlar yaxşı bilir, tanımayanların diqqətinə çatdırmaq istəyirəm

ki, o, 1939-cu il mayın 20-də Masallının Xıl kəndində zəhmətkeş ailəsində dünyaya göz açıb. Orta məktəbin yeddinci sinfini əla qiymətlərlə bitirib; əvvəlcə Lənkəran Kənd Təsərrüfatı Texnikumunda, daha sonra isə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) iqtisadiyyat fakültəsində təhsil alıb.

Ali təhsilini başa vurduqdan sonra bir müddət partiya-sovet orqanlarında müxtəlif vəzifələrdə çalışıb. Daha sonra Lenin muzeyində elmi işçi kimi fəaliyyətə başlayan Musa müəllim sonralar muzeyin elmi işlər üzrə direktor müavini vəzifəsinə irəli çəkilib. Elmi işi üzərində çalışa-çalışa ADU-da tələbələrə tarix fənnini tədris edib. Bir müddət "Bilik" cəmiyyətində sədr müavini işləyib, 1991-ci ildən Prezident yanında Dövlət İdarəçilik Akademiyasının (əvvəlki adı Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu) tarix kafedrasında dosent kimi fəaliyyətə başlayıb. Hazırda akademiyada aspirantura, doktorantura şöbəsinin müdiridir.

Tarix elmləri doktoru, professor Musa Quluzadə çoxşaxəli yaradıcılığa malik ziyalıdır. Elmi fəaliyyətlə yanaşı, o həm də yuxarıda qeyd etdiyim kimi, ədəbi yaradıcılıqla məşğul olur. 1960-cı illərdə uşaqlar üçün yazdığı kiçik hekayələrlə ədəbiyyata gələn Musa Quluzadə "Püstə" adlı kitabının işıq üzü gördüyü vaxtdan özünü ayrıca yolu olan orijinal fikirli qələm sahibi kimi tanıtmışdı. 1984-cü ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Musa müəllim bu gün artıq 15-dən çox bədii kitabın və bir çox elmi monoqrafiyaların müəllifidir. Əsərlərinin əsas qayəsini Vətən sevgisi, ana yurda bağlılıq, dədə-baba

adət-ənənələrinə hörmət, təbiətə, insana məhəbbət, cəmiyyətə saf duyğular aşılayan sədaqət hissləri təşkil edir. Musa Quluzadənin gənclərin həyatından bəhs edən pyesləri teatrlarda oynanılmış, televiziya və radioda səslənmişdir. Bundan əlavə, müntəzəm olaraq onun yeni-yeni əsərləri, mənsur şeir və esseləri dövri mətbuatda çap olunur.

1991-ci ildə Şeyxülislam Allahşükür Paşazadə haqqında yazdığı "Mərhəmətli və şəfqətli qəlb" bioqrafik povesti geniş oxucu kütləsinin ixtiyarına verildi. Bu, Azərbaycan şeyxülislamları barədə yazılan ilk qiymətli əsərdir. 50 min tirajla nəşr olunan sənədli əsər Azərbaycan Jurnalistləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl qələm" mükafatına layiq görüldü.

Musa müəllim həm də vətənpərvər bir ziyalıdır. 1989-91-ci illərdə dövlət radiosunda "Qan yaddaşı" verilişinin aparıcısı olanda xalqımızın üzləşdiyi müsibətləri, tarixi gerçəkləri, erməni həyasızlığını efir vasitəsilə açıq şəkildə ictimaiyyətə bəyan edirdi. 1993-cü ildə Lənkəranda baş verən separatçılığa qarşı mübarizə aparanların ön sırasında Musa müəllim də var idi. Onun həmin hadisələr zamanı necə fədakarlıqla çalışdığı və Azərbaycanı parçalamağa çalışanların təsiri altına düşən insanları düzgün yola istiqamətləndirdiyini bu gün Musa Quluzadə ilə çiyin-çiyinə çalışan alim yoldaşları və onu tanıyan hər bir kəs etiraf edir.

Musa müəllimin o zaman mərkəzi qəzetlərdə dərc etdirdiyi "Biz daha sıx birləşməliyik", "Vətən bölünməzdir", "İndi hansı yana əyilməliyik" kimi tutarlı məqalələri, televiziyada çıxışları, dəfələrlə cənub

bölgəsinə səfərləri, ziyalılarla görüşləri cəmiyyətdə böyük əks-səda yaradırdı.

Bu gün də o, ziyalıların cərgəsində Azərbaycanımızın tərəqqisi yolunda fəaliyyətini davam etdirir. Dəyərli alim olmaqla yanaşı, o həm də öz sözünü deməyi bacaran fəal ziyalılarımızdandır. Harada olmasından asılı olmayaraq Musa müəllim hər zaman azərbaycançılığı, öz vətəndaş mövqeyini yüksək səviyyədə nümayiş etdirir.

İki yüzdən çox elmi və publisistik məqalələrin müəllifi olan Musa müəllim qırx ildən artıqdır ki, ali məktəb auditoriyalarında tələbələr qarşısında mühazirələr oxuyur, pedaqoji fəaliyyət göstərir. Azərbaycanda təhsilin inkişafında səmərəli xidmətlərinə görə Respublikanın əməkdar müəlimi fəxri adı ilə təltif olunub.

Bu gün o, yenə böyük həvəslə Dövlət İdarəçilik Akademiyasında Azərbaycan tarixi və Azərbaycanın dövlətçilik tarixi fənlərini tədris edir. Dövlət və din münasibətləri mövzusunda keçirilən Beynəlxalq səviyyəli konvranslara dəvət olunur.

Musa müəllim səmimi dost, mehriban ata, sevimli babadır. Onun iki qızı BDU-un filologiya, oğlu Elçin isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kono rejissorluğu fakultəsini bitirib. İndi tanınmış rejissordur, 50-dən çox sənədli və bədii filmlərin ssenari müəllifi və rejissorudur. Azərbaycan Kinematoqrafçılar İttifaqının və Türkiyə Sənədli Filmçilər Birliyinin üzvüdür. Gənclər Nazirliyinin "İlin ən yaxşı kinorejissoru" (1999), Əl-Cəzirə Film Festivalı "Qızıl Müka-

fat"ının sahibidir (2006). "40-cı qapı" filmi Amerikada dörd festifalda iştirak etmiş və üçündən mükafatla qayıtmışdır.

Elçin həmçinin Musa müəllimin "Qarı və qartal" povesti əsasında "Nabat" adlı tammetrajlı bədii film çəkmişdir. Və bu film də Venesiya, Çikaqo və Tokio festivallarında uğurla nümayiş etdirilmişdir.

Professor Musa Quluzadə haqqında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Akif Bayramov "Xalq qəzeti"ində "Arxaya dönüb baxmağa dəyər", Milli Məclisin deputatı, Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov "Azərbaycan" qəzetində "Zirvədə duran alim" başlıqlı maraqlı məqalələr yazıb, onun 70 və 75 illik yubileylərinə ərmağan ediblər.

Qoy bu yazı da Musa müəllimin 77 yaşına bizdən töhfə olsun! Bizə daim örnək olan ağsaqqal, dəyərli və cəfakeş ziyalımıza Allahdan uzun ömür, möhkəm cansağlığı diləyirəm! Arzum budur ki, Musa müəllimin ömür səlnaməsinə öz sağlığında qoşa səkkizlər və qoşa doqquzlar yazılsın!

"BayMedia. az". 13 may 2016-cı il.

SÖZÜN MƏFTUNU

… Xudakərim Məftun! – Bu gəlimli-gedimli dünyada öz ünvanını şair və şairlər yurdu kimi tanıtdıran, «düzü düz, əyrini əyri» yazan, 74 yaşında haqq dünyasına qovuşan, özü gedən, sözü qalan kənd müəllimi…

Onun haqqında bildiklərim və düşündüklərim yaza biləcəklərimdən qat-qat çoxdur. Ona görə ki, mən Xudakərim müəllimin, onun qardaşı Kazım Fərzəliyevin şagirdi olmuşam. Və bir də ona görə ki, öz peşəsini sevən və eyni zamanda sevdirən bu insan xatirələrimdə təkcə müəllim obrazı kimi qalmayıb.

Həm də zəmanəsinin sayılıb-seçilən və bu seçimə rəğmən təvazökar, səbirli, yaradıcı qələm əhli kimi göz qabağında olub, yaddaşlarda qalıb. Tale hər adamı seçmir. Bəlkə, bu seçim elə İlahi qismət, Allahtəalanın təqdiri idi. Məhz ona görə də taleyinə hökm etmək bacarığı ilə seçilən adam öz talantı, məharəti ilə yaşadığı ömrün və dövrün çərçivəsinə sığmır - ölümündən sonra da yaşayır, yada düşür, xatırlanır.

…Tanrının söz çeşməsindən bəhrələnən, sözün hikmətini, qədir-qiymətini bilən, ustadlarına rəhmətlik oxutdurub, elə özü də sağlığında rəhmət qazanan Xudakərim müəllim çox güclü poetik düşüncələr yiyəsi və məftunu idi.

Məftun, söz kəhkəşanında yanar haqq ulduzu,
Parlamaz hər sözdə bir hikmət, ləyaqət olmasa…

Söz ucalığı, ululuğu, müqəddəsliyi hər zaman nəzmə çəkilib. Bəlkə, bu, hər şeydən öncə sözün yaranması hikməti və yaratmaq qüdrəti ilə bağlıdır?!

Tanrının «ol» kəlməsindən bərqərardır kainat,
Salma hörmətdən sözü, hər yerdə israr eyləmə.
…Söz geniş ümmandı, Məftun, et qənaət kəlməni,
Dəryadan bir damla olsun, amma təkrar eyləmə.

Bəli, Məftun sözü- sözdən seçən, sözün öz siqlətini, öz rəngini, ünvanını, UCA məqamını dəyərələndirən, ona təravət qatan bir şair idi.

Hələ 1948-ci ildə qələmə aldığı bu misralar onu özünə ustad bildiklərinin SÖZ dünyasına götürən məramdan və məramından soraq verir:

Aqil sözünə-söhbətinə meyl elə, Məftun,
Ruhun azad olsun, barı, nadanın əlindən.

Beləcə qəzəllərində, şeirlərində yaşadığı dövrün «dərd-sərini, duyuntularını ustalıqla qələmə almış» Xudakərim Məftun tənqidçi-alim, fəlsəfə elmləri doktoru, professor Rahid Ulusel demişkən, yarım əsr «vicdanı yatmışları» oyatmaqla məşğul olub. Mirzə Ələkbər Sabir məktəbinin layiqli davamçısı, klassik Azərbaycan ədəbiyyatında qafiyəli və axıcı nəsrlə yazılan gözəl bəhri-təvillər müəllifi kimi tanınan X. Məftun bədii yaradıcılığı yarım əsrdən çox bir dövrü əhatə etsə də, onun şair ömrünün fəsillərindən bir kitabı yadigar qalıb.

«Əlacı axtar özündə» (Bakı, «Təbriz» nəşriyyatı,1998) kitabına satirik janrda yazdığı şeir, bəhri-təvil və qəzəllərlə yanaşı, rübailəri, qəsidə və təmsilləri toplanmışdır. Amma «sinədəftər kişi» olan Məftunun böyük ilhamla qələmə aldığı, çox vaxt bədahətən dediyi şeirləri bir kitaba sığışan deyildi. Nərd haqqında qələmə aldığı bir qəzəli Xudakərim Məftunun söz sarıdan korluq çəkməyən bir şair olduğuna sübutdur:

Nərdin də bu dünyaya bir az bənzəri vardır,
Udmaq və uduzmaq kimi xeyri-şəri vardır.
…Zərdüştün adında «zər» ilə «dü» qoşa gəlmiş,
Bəlkə, o səbəbdəndir, iki Azəri vardır.
Tale yek atırsa, yek olan varlığa bağlan,
Ondan kömək um, haqda səbir səngəri vardır.

…İnsan həyatında, zaman-zaman hər şeyin dəyiş-

diyi dünyada X. Məftunun «Dəyişməz» adlı bir qəsidəsi var. Bu qəsidədən bir parçanı mən «Məftun dünyasını dəyişdi» adlı yazıma daxil edib, o vaxt baş redaktoru olduğum «Masallı» qəzetində dərc etmək istəyirdim. O ərəfədə rayon mərkəzində mərhumun oğlu, tanınmış şair Arif Fərzəli ilə rastlaşdıq. Arif saqqal saxlamışdı. Mən qohumluğumuzdan yana ərklə dedim ki, saqqalını qırxdır, deyirlər hüzürdə saçsaqqal saxlamaq heç də yaxşı əlamət deyil. Arif dedi ki, bir-iki günə atamın baş daşını qoyum, qırxını da yola verim, sonra... Mən «Dəyişməz» qəsidəsini nekroloq yazımın davamı kimi dərc eləyəcəyimi söyləyəndə Arif heyrətlə dedi ki, mən də elə o qəsidədən bir parçanı atamın baş daşına yazdırmışam.

Qəribə də olsa, bir-birimizdən xəbərsiz eyni parçanı mən qəzet üçün, o isə baş daşı üçün seçmişdik. Dedim, niyə təəccüblənirsən? O qəsidədən parça bizim yox, rəhmətliyin öz seçimidir. Məftunun ruhusənə də, mənə də ustad kimi yardım edib. Həmin parça budur:

Əsli olanın yaxşılıq ad-sanı dəyişməz,
Zahir dəyişər, fitrəti, ərkanı dəyişməz.

Hər şey dəyişər dünyasını vaxtı çatanda,
Vahid- Ədəbi Tanrıdır-ünvanı dəyişməz.

…Dünyanı duyan, dərk eləyən, arif olanlar,
Rütbə- vara dostluqdakı peymanı dəyişməz.

Kim sidq ilə desə- «Lailahə illalah»,
O, bütə, bütpərəstə Sahibi-dünyanı dəyişməz.

Tövrat da, Zəbur da, hələ incil də pür, ancaq,
Pürfən cəminə müshəfi- Fürqanı dəyişməz.

Məftun dəyişər dünyasını, miada qail,
Ruhu əbədi rövzeyi-rizvanı dəyişməz.

X. Məftunun «Qocalan deyil» şerini də poetik qüdrətdən yaranan şeirlər sırasına daxil etmək olar:

Qamətim qocalır, qamət can deyil,
Ruhi-Fəzilətim qocalan deyil.

…Torpağa can dedim babalar kimi,
Mənim bu xislətim qocalan deyil.

Müəllim sənətin seçdim əzəldən,
Peşə ləyaqətim qocalan deyil.

Vətəndir ünvanım- Azərbaycanım,
Vətənə xidmətim qocalan deyil.

…Adım Xudakərim, dillərdə Məftun,
Şerim, şeriyyətim qocalan deyil.

Şair təbiətinə xas olan incə yumoru, zarafatı xoşlayırdı Xudakərim müəllim. Bir gün kənd camaatı ilə yas mərasiminə gedəndə Əsəd kişidən soruşur ki, ay Əsəd, görəsən, bütün qocalar elə bizim kimi olur?

Yəni tez yorulur, təngənəfəs olur, xeyirdə-şərdə çox otura bilmir. Əsəd kişi Xudakərim müəllimdən yaşca böyük olsa da, cavab verir ki, vallah mən bilmirəm, sən onu qocalardan soruş!

Xudakərim müəllim də bu məqamda təzə qələmə aldığı «Qocalıq» şeirini söyləyir:

Zənn etmə, könül, var uca şöhrət qocalıqda,
Düşməz ələ gənclikdəki fürsət qocalıqda.
…Müdrikliyə, kamilliyə malik ola bilsən,
Xoşdur bu fəzilət, bu ləyaqət qocalıqda…

X. Məftunun «Papiros», «Deşdavar», «Rüşvətdi bu?», «Mane olma, məşğuldu kişi» satirik şeirləri, «Nankora lənət», «Qoltuğu portfelli əmi», «Beş aya, altı taya», «Dağ imiş guya günahım» və s. bəhri-təvilləri hələ mətbuatda işıq üzü görməmiş, dillərdə əzbər olmuşdu. Həmişə sinədən əzbər dediyi şeirlərini söyləməmişdən öncə məclisdəki adamları maraqlı söz-söhbətləri ilə onu dinləməyə hazırlayardı. O vaxtlar biz uşaqdıq. Yuxarı sinif şagirdləri bizim yaşımızdan çox-çox qabaq X.Məftunun yazdığı bir şeiri az qala xorla deyərdilər:

Əl çalın, siz də, uşaqlar, yolumuz daşlanacaq,
Doğru söz bilmirik, ancaq nə zaman başlanacaq.

Bunu tək mən demirəm, sübhi-xoruzlar da deyir,
Çayçıda «nər» kişilər, tarlada qızlar da deyir,
Yazılan çoxlu qərarlar və kağızlar da deyir,
Əl çalın, siz də, uşaqlar, yolumuz daşlanacaq.
Doğru söz bilmirik, ancaq nə zaman başlanacaq.

Yay olanda toz əlindən hünərin var, yola çıx,
Qış olanda dizəcən, qurşağacandır palçıq,
İncimə, başçı əmi, meydan açıq, tənqid açıq,
Söz gəzir dildə-agızda yolumuz daşlanacaq,
Doğru söz bilmirik, ancaq nə zaman başlanacaq.

Gəl bu kəndin sən özün görkəminə, halına bax,
Lehməsi, palçığı bol, ortası göl yoluna bax,
Yol gedib, yol gələnin palına-paltarına bax,
Söz gəzir dildə-ağızda yolumuz daşlanacaq,
Doğru söz bilmirik, ancaq nə zaman başlanacaq.
Nə zaman başlasalar, onda da alqışlanacaq.

Xudakərim müəllimin şagirdlərindən çoxu onun şeirləri ilə həmyaşıddırlar; 1952 –ci il «doğumlu» bu şeiri isə böyüklər də əzbər bilirlər. Ötən əsrin 50-ci illərində X.Məftun Masallıda «Yeni həyat» qəzetinin redaksiyasında fəaliyyət göstərən ədəbi məclisin tanınmış üzvlərindən biri olub, dövrü mətbuatda dərc olunan şeirləri oxucular tərəfindən böyük rəğbətlə qarşılanıbdır.

Füzuli dahi bir ustad, ilahi eşq-güdrətidir,
O qəlbə munisi-insan, o, bir aşiqi-xilqətdir –

deyən Məftun o vaxtlar bizim doğma Xırmandalı kəndinə ova gələn S.Vurğun, Z.Xəlil, S.Rüstəm və başqa şairlərlə görüşmüş, "Gənc qələmlər" ədəbi birliyində B.Vahabzadə və S.Qədirzadə ilə tanış olmuşdur.

Ötən əsrin 80-ci illərində mənə də Xudakərim Məftunun evində Vladimir Qafarov, Məmməd Kazım, Maarif Soltan, Camal Yusifzadə kimi şairlərlə tanış olmaq nəsib olmuşdur.

…1997-ci ildə Xudakərim müəllimin Masallıda 70-illik yubileyi çox təntənəli qeyd olundu. Onda mən öz müəllimimi təbrik edib, ona yeni nəşr olunmuş kitabımı – «Bakı açıq şəhərdi» romanımı hədiyyə etdim. Şagirdin öz müəlliminə bundan gözəl nə hədiyyəsi ola bilərdi ki?! Çox təəssüf edirəm ki, 75-ci yaş gününün tamamında ölüm onu bizdən ayırdı. Bəlkə, elə əziz müəllimimin dediyi kimi, haqdan gəlmişdi bu qisməti:

Ömrümün son fəslidir, son mənzilə ümidliyəm,
Qədr-qiymətdən düşər ömrə nəhayət olmasa…

…Məftundan sonra onun yurdunda yenə poeziya çeşməsi çağlayır. Çağdaş poeziyamızın tanınmış nümayəndələrindən olan oğlu Arif Fərzəli bu çeşməyə qaynarlıq qata-qata söz məftunu Xudakərim Məftunun ruhunu şad edir.

"Persona. az" 09.10.2015

ZƏMANƏ DƏRVİŞİ

Arif Fərzəlinin 60 yaşına



...On il əvvəl əyalətdə yaşayan şair Arif Fərzəlinin 50 yaşına həsr etdiyim yazımı "Varis" adlandırmışdım. Yazmışdım ki, bəlkə də "Azərbaycan müəllimi" qəzetində həmin yazım işıq üzü görəndə Arif dərsdən çıxıb, tozlu-torpaqlı kənd yolu ilə evinə gedəcək. Ya da Xırmandalı kəndinin günbatan tərəfinə xəlvət bir guşəyə çəkilib, adəti üzrə təkbaşına balıq ovuna çıxacaq! Qırmağına balıq gələcək-gəlməyəcək deyə bilmərəm, amma onu bilirəm ki, dilinin ucunda söz pardaxlayacaq: "Qoy könül dolusu göynəyim bir az" deyəcək. Və Arifin göynəltisi, ağrısı o an şeir misralarına çevriləcək..." Eyni bu sözləri çox cüzi dəyişikliklə rəhmətlik telejurnalist İslam Bəhluloğlunun Az. TV-də Arif barədə hazırladığı on-on beş dəqiqəlik ədəbi-bədii verilişdə də demişəm...

O vaxt yazımı "Varis" adlandırmağımın üç əsas səbəbi vardı: Birincisi, Arif müəllim ailəsində dünyaya göz açmışdı və özü də bu peşəni seçmişdi. Universitetin kimya fakultəsini bitirəndən sonra kənd məktəbin-

də pedaqoji fəaliyyətə başlamışdı. İkincisi, Arifin atası, mənim böyük xalamın oğlu Xudakərim Məftun şair idi. Arif də öz şagirdlərinə dərs deyə-deyə şeir yazdı, qiyabi yolla Moskvada Qorki adına Ədəbiyyat İnstitutunun poeziya şöbəsini bitirdi, "Toxuma həsrət torpaq", "Sizin dünya", "Yağışa düşən qərib" şeir toplularını və Masallının maarif fədaisi, uzun illər rayon təhsil şöbəsinə rəhbərlik etmiş Hüseynbala Əhədovun xatirəsinə həsr etdiyi "Ömür yarımçıq qalmır" publisistik kitabını nəşr etdirdi. Üçüncüsü, Azərbaycanda elə şairlər var ki, onları yaxından-uzaqdan görəndə Məhəmməd Hadi yada düşür. Bu mənada Arifi həm də Hadinin mənəvi varislərindən biri kimi nəzərdə tuturdum... Onun görkəminə, davranışına kənardan baxan nabələd adam da anlayır ki, bu adam təpədən dırnağacan şairdi.

İndi Arif Fərzəli rəhmətlik nənəm demişkən altımış yaşın busağası ağzındadır:

Doğulduğum il
Səməd Vurğunun baş daşında var.
Adım... yetənə qoyulur daha...
Ünvanım bir boz muğan kəndi,
Suyu qəndindən baha...

Və poetik sözünə davam edərək mənim bu dəfə başlığa çıxartdığım dərviş adını yaraşdırır özünə:

Bir biyaban dərvişiyəm,
Mənə şair deməyin ucadan.
Yazdıqlarıma görə
Qorxuram Allahdan,
bir də ustadım Fikrət Qocadan...

Xalq şairi Fikrət Qoca 30 il öncə Arifin üzünü görməsə də, şeirləri haqqında "Ulduz" jurnalında (1986, 6-cı say) öz fikrini yazıb və onu "özünü bacardığı qədər yonmuş, rəndələmiş... səriştəli şair" adlandırıb. Əslində bu fikir ədəbiyyat yolunda "səfərə çıxan" Arifə ustad şairin xeyir-duası idi. Ən qəribəsi, otuz il əvvəl də bu dünya müharibəyə hamiləydi. Və o vaxt Fikrət Qocanının özünün də dediyi kimi, "kefini kökəldən" Arifin "Belə getsə" şeri olmuşdu:

Elə bir cür davadır
bu dava qorxusu:
"Atam" deyirsən, atom düşür yadına,
"Nəvə" deyirsən, nüvə düşür yadına.
O gün dostum Pəriş yerinə,
çaşıb "Perşinq" deyib arvadına...

"Bu qədər ciddi bir mövzunu belə incə yumorla ancaq şair qələmə ala bilər"deyə gənc şairin yaradıcılığına həssaslıqla münasibət bildirən xalq şairi illər sonra da çox ağır, ölümcül xəstəliyə düçar olan Arifin insan kimi taleyinə də laqeyd qalmadı. Məhz Fikrət Qocanın sayəsində Arif Fərzəli Milli Onkologiya Mərkəzində xeyli güzəştlə əməliyyat olundu, labüd ölümün pəncəsindən qurtuldu.

İndi "Rayonda hamı Arif Fərzəliyə "Masallının Fikrət Qocası" deyir. Həm şairliyinə görə, həm də eynən ustadı kimi, səs telləri "incik" olduğundan bir az xırıltı ilə danışdığı üçün". Bu fikirləri də mənim tələbə yoldaşım, qələm dostum istedadlı şair-publi-

sist Əli Nəcəfxanlı "Xalq qəzeti"ndə dərc olunmuş məqaləsində yazıb: "Arif Fərzəli əyalətdə yaşayıb-yaratmaq qismətinə şükür eləyən, böyük şəhərlərin reklam işıqlarında gözü qalmayan şairlərdəndir. Amma adı paytaxt Bakının ədəbi mühitində yetərincə tanınır və tez-tez çəkilir"

Bəli, indi istəsəm də, istəməsəm də, yazın düzü dünyaya can verdiyi bu vədələrdə keçmişi xatırlamğa məcburam. Əslində bizim indi yaşadığımız gerçək zaman çərçivəsində bir sığınacaq tapdığımız məkanımız da xatirələrdi. Ariflə uşaq çağlarımızda futbol da oynamışıq, kəndimizin günbatan səmtində el arasında adına "Qızbatan" dediyimiz Ana İstildə çimmişik, mənə və ona doğma olan adamların ucbatından küsüşmüşük də... Hərdən xalam nəvələri Seyfullanın, Qənbərin və sinif yoldaşlarının Ariflə məzəli əhvalatlarını yada salıb gülürəm də...

...Keçən əsrin 80 - ci illərinin sonu Arif Fərzəli şair-publisist kimi Məmməd İsmayılın sayılıb-seçilən "Gənclik" jurnalının cənub bölgəsi müxbiri, 90-cı illərin əvvələrində Məmməd Kazımın baş redaktorluğu ilə nəşr olunan "Qala" qəzetinin redaktor müavini vəzifələrində çalışdı. Sonra rayon təhsil şöbəsinin təsis etdiyi "Masallı ziyası" qəzetinin baş redaktoru oldu.

...Səhv etmirəmsə, 2000-ci ilin əvvəli idi. Xalq artisti Könül Xasiyeva Masallının Səmidxan kəndində toya dəvət olunmuşdu. Demək olar ki, mağarda kənd ağsaqqaları çoxluq təşkil edirdi. Toy sahibi Hacı Eldar mikrafona yaxınlaşıb, nəvəsinin toyuna gələnləri və Könül xanımı salamlarkən təqribən belə

bir söz dedi: “Könül xanım, bu məclisdəkilərin hamısı səsinizin heyranıdır. Allahdan arzum budur ki, mən öləndə tabutumun arxasınca sizin oxuduğunuz “Segah” səslənsin!”

...Könül xanım segahı oxuyan zaman tanışlardan biri məsafəli mikrafonu mənə uzadıb: “sevdiyin şeirlərdən birini de, gəlsin!” dedi. Mən də Arifin tarzən Ramiz Quluyevə həsr elədiyi “Yetim segah” şerini əzbər bilirdim:

Mizrab toxunacaq, sim ağlayacaq,
Zili hönkürəcək, bəm ağlayacaq.
Gördüm məni ən çox kim ağlayacaq,
Qoy bir harayında itim segahın.

Bu nizə daşları keçən niyəzmiş,
Elə bu nizənin yönü bizəymiş...
Ağrısı-acısı hələ təzəymiş,
Yarası qədimdən-qədim segahın.

Simlər pərdə üstə yollardı - qoşa,
Gedən ölməzliyə gedib qovuşar.
Bir qaçıb obaya hay sal, ay uşaq,
Dədəsi tapılıb "Yetim segah”ın...

Az sonra Azərbaycan Dövlət Flormoniyasındakı solo konsertində Könül xanım çox böyük şövqlə Arifin bu şeirini muğam üstə ifa etdi. Ötən yay Masallının palıd meşəsinin “Nağıl dünyası” adlanan guşəsində böyük məclis qurulmuşdu, Xalq artistləri Aygün Bəylər, Könül xanım, Rəmiş, meyxana usta-

ları Mehman Əhmədli, Namiq Məna və başqaları toya gələnləri öz ifaları ilə feyziyab eləyirdilər. Bu dəfə mənə söz veriləndə, üzümü Könül xanıma tutub Arifin həmin şerini söylərkən son iki misranı belə dedim:"Gəlib Masallıya hay sal, ay Könül, anası tapılıb "Yetim segah"ın..."

...Arifdə əsl şairə xas qəribəliklər çoxdur, hərdən elə bil Allahın ona verdiyi istedada da xəsislik edir. Bəzən bədahətən dediyi misraları kağıza köçürmür, elə şeirləri var ki, kitablarına daxil etmir. Məsələn, bir dəfə mənə təqribən belə şeir dedi:

Xəncərə, quşuna qıymadılar ki,
Bizi "sevə-sevə" öldürdü dostlar.
Bizi Nəsimitək soymadılar ki,
Bizi öpə-öpə öldürdü dostlar...

Yaxud 23 aprel 2005-ci ildə ömrünün 59-cu baharında əməkdar artist Əli Salahlı Masallıda Mədəniyyət evinin səhnəsində monoloq söyləyərkən dünyasını dəyişəndə Arif için-için köynəyərək bu misraları pıçıldadı:

Daha alqışlardan uzaqdır əlim,
Əliyə heç gül də göndərmədilər.
Bu dəfə yalançı olmadı ölüm,
Bu dəfə pərdəni endirmədilər.

Arifin "Yağışa düşən qərib" adlı son kitabına daxil etdiyi eyniadlı şeiri mənə olmuş bir əhvalatı xatırlatdı. Lənkəran Dram Teatrının yaxınlığında bir

neçə maraqlı adam heykəlləri var. Bir heykəl "eynəyini gözünə taxıb"teatrın afişasına baxır, ondan aralı iki heykəl də baş-başa verib "dərdləşirlər". Yağışlı-çiskinli bir gündə teatrın yaxınlığından ötən və şəhərə nabələd bir adam baş-başa verib "dərdləşən" heykəlləri canlı zənn edib soruşur: "Deməsiz, vağzala necə gedim?" Arifin bu "olaydan" xəbəri var ya yox, deyə bilmərəm. Amma şeirdə sanki yağışa düşən həmin qəribin şəklini çəkir:

Nə evlərdən səs-səmir,
Nə küçədə kimsə var.
Gedəcəyi ünvanı
Heykəllərdən soruşar
Yağışa düşən qərib...

Ad günü ərəfəsində "Zamanə dərvişi"nə iştirakçısı olduğu bir gülməcəni hədiyyə etmək istəyirəm. Tanınmış tənqidçi Vaqif Yusiflinin bacısı oğlu Ülvinin toy məclisi başa çatar-çatmaz Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının aktyoru Əli Salahlı (Allah ruhunu şad etsin!) ilə Arif üz tuturlar meşəyə - Masallı İstisuyuna sarı. Təkkeçidə səmtindəki restoran-otelin bağında taleyinə qaçqınlıq düşən bir aşıq saz çalıb, oxuyur, həm də dolanışıq pulu qazanırmış. Ariflə Əli son manatlarını da verib bəs qədər aşıq havaları sifariş edirlər. Bir də görürlər hamı gedib, aşıq da yorğun-ağrın yır-yığış edir. Oteldə gecələməyə, rayona qayıtmağa pul da yox, maşın da... Qısası qalırlar meşədə. İki zamanə dərvişi böyük bir dəmirağacının altında- təbiətin "nömrəsiz

otel otağında" kürək-kürəyə verib yatırlar. Arada Əli müəllim Arifi dümsükləyib zarafatla deyir ki: -Ə, şair, insafın olsun, heç olmasa yorğanı üstümdən çəkmə də...

P.S: Son vaxtlar bir-birmizə ancaq bəd xəbərər veririk: Gözəlim DƏRD də bizə güzgü kimi baxır, gah içimizdə, gah da çölümüzdə güzgülənir.Arif arada zəng edib xırıltılı-boğuq səslə məndən həbsdə olan şair dostu Saday Şəkərlini soruşur. Saday da həbsə alınmamışdan iki-üç gün əvvəl zəng edib qorxulu yuxu görmüş adamlar kimi məndən Arifin kefini xəbər almışdı. Allah hər ikisinə və bu zamanənin nəbzini-ritmini tutmaq "istetadından" mərhum bütün istedadlı qələmdaşlarıma rəhm eləsin! Amin.

10-03-2016, MANERA.AZ ,

“YAXŞI”LARA ÜNVAN ƏLİ

“Payız prospekti” kitabı ilə xeyli üz-üzə, göz-gözə qalandan sonra yaddaşımın seyrələn dumanı arasından köhnə bir ünvan göründü, ruhum təzələndi.

Şair Əli Nəcəfxanlı ilə ilk tanışlığımın tarixçəsi 1978-ci ildə universitetin jurnalistika fakültəsinə qəbul imtahanları zamanına təsadüf edir. İmtahanqabağı həyəcanımızı “azdıraq” deyə ömrümüzün BAHAR prospektində sual-cavab edə-edə gəzib-dolaşdığımız andan bir-birimizə isnişdik. İşıqlı, nurlu simasından təbbəssüm əskik olmayan, gur saçlı, sakit təbiətli, gənc Əli

yaddaşımın kamerasına YAXŞI oğlan, yaxşı da abituriyent obrazı kimi yazıldı...

Tələbəlik illərində Əli hamımız üçün YAXŞI tələbə yoldaşı oldu. Səmimiliyi, təvəzökarlığı, istiqanlılığı ilə sayılıb-seçildi. Ali məktəbi bitirib jurnalist ixtisası diplomunu alanda Əli artıq YAXŞI jurnalist kimi tanınırdı; imzası qəzet səhifələrində, özü də tez-tez televiziya ekranlarında görünürdü.

Çalışqanlığı Əliyə YAXŞI telejurnalist olmaqla bərabər, YAXŞI publisist adı da qazandırdı... Bəzən onun maraqlı yazılarını oxuyanda özümü gözəl və mənə doğma olan cənub şəhərlərinin birində hiss edirəm. 90-ci illərdə Əlinin cənub bölgəsində gərgin jurnalistlik fəaliyyətinin canlı şahidi olmuşam.

Operativliyinə, peşəkarlığına söz ola bilməzdi. 7-8 rayonda baş verən yenilikləri yubanmadan televiziya tamaşaçılarına çatdırmaq üçün səylə çalışırdı. İndi həmin günləri xatırlayanda gözlərim önündə Əlinin timsalında fədakar, peşə etikasına əməl edən nümunəvi, YAXŞI müxbir obrazı canlanır. Əliyə təkcə müxbir deməzdim, o, həm də çoxlarından fərqli olaraq müsahibə aldığı adamlarla dostluq münasibətləri qurmağı bacaran YAXŞI diplomatdır. Uzaq yol gedəndə xeyli zarafatyana şeirlərını dinləmişəm. Misra-misra, beyt-beyt, yaranan şeirləri Cəlilabad, Masallı, Yardımlı, Lənkəran, Lerik, Astara, Biləsuvar, Neftçala yollarında onu mənzil başına çatdıran işığa, vəsiləyə, körpüyə, qanada dönüb... Bəzən ikilikdə istedadı cilovlayan məişət, iş qayğılarından danışardıq. (Arzu elədiyimiz gözəl şeylərin hakimi yox, qulu idik).

...Bir-birimizin övladlarından söz düşəndə Əlini

YAXŞI ata, cəfakeş ailə başçısı kimi kəşf etdim. Aylar-illər ötdü, övladlarımızın toyunda iştirak etdik. Sonra Əli nəvələrinə YAXŞI baba oldu. Amma bütün bu "YAXŞI" lar ünvanı cərgəsində onu ədəbi mühitə tanıtdıtan və yazımın mətləbinə ən çox dəxli olan YAXŞI, həm də mükəmməl bir şair obrazı da dayanır...

Düzü, əsl poeziya xiridarları Əlinin yaradıcılığı ilə tanış olanda onu "poetik təmaslardan kənar" dolaşdığına,"şairlik iddiası" olmadığına, "ədəbi aləmdə az göründüyünə", "öz yaradıcılığına biganə" qaldığına görə haqlı olaraq qınayırlar. Bütün bu müşahidələr, qınaqlar, məncə, Əlinin şairlik dünyasına yaxşı bələd olmaqçün elə 2-3 şeirlər toplusunun da kifayət etdiyindən soraq verir.

Qələm dostumuz Bahadır Şəfi yazır ki, "Mən Əli Nəcəfxanlının şeirlərində həm də onun xarakterini gördüm. "Şeir nədir" və "nə üçün yazıram" sualına cavabla tanış oldum". Bu gözəl fikirlərə "Ürəyimi döyən həvəs", "Payız prospekti" kitablarının oxucusu kimi, mən də Əlinin Tanrının insana sevgisindən yaranan ulu SÖZ nemətinə sadiq bəndə kimi canla-başla qulluq etdiyini əlavə edərdim.

Söz də elə sevgi kimi insanın insanlıq kimliyidir, ALIN yazısıdır. Bəzi söz adamları "mən əla yazıram", "məndən başqa şair yoxdur" - deyə hay-küy salanda, Əli əzəldən bənd olduğu sözün "sakitcə" nazını çəkirdi:

Vuruldum, oxşadım sözü o ki var,
Söz mənə Tanrıdı, mən sözə bəndə.
Balığınkı sudu, quşunku hava,
Sözdü mənimki də, mən sözə bəndəm.

"Payiz prospekti"nin Əli Nəcəfxanlı ünvanında oxucu qoşma, gəraylı, təcnislə yanaşı, təbiətə, uşaqlara yazılan şeirlərə də"qonaq" olur.

Sözün müqəddəsliyinə "and içib, sözün altından keçən" şair üçün "incisi", "mərcanı", "mirvarisi" olan İLAHİ SÖZÜN "hər qatı möcüzə"dir:

Nəbzim sözümdə vurur,
Gözümün işığı – söz..
Məndən, səndən yuxarı,
Allahdan aşağı – söz...

Öz xarakteri etibarı ilə hər bir insan genetik kodlarla bağlı olduğu torpağın təbiətinə bənzəyir. Əlinin də sözə sonsuz sevgisinin, poetik ruhunun əzəli, ilkinliyi Yardımlı və Laçın dağlarının saf havasından qaynaqlanır. Bəlkə elə ana dilinin keşiyində durmaq missiyası Əliyə fitrətən, təəssübkeş söz cəngavərliyi də qismətinə o əzəmətli dağlardan büta verilib? Çünki Əli Tanrı bildiyi sözə sadəcə bəndə deyil, həm də onu qorumağı bacaran YAXŞI əsgərdir. Bu baxımdan, "qəlbinin eşq adli valisinin qərarı" ilə sözlə həmdəm olan şairin bu misraları həm də onun kredosu kimi səslənir:

Yazmaram, əzəli peşəm deyilsə,
Sevdalı könüllər köşəm deyilsə,
Millətin yolunda məşəl deyilsə,
Demək, fəraridir mənim şeirim.

Bir dəfə onunla həmsöhbət olanda "bostan müqəvvası" ifadəsi işlətdim. Dedi ki, sən bu ifadəni öz türkcəmizcə de... Çox çalışdım. Nəhayət dedim: "uyuq". Əli elə sevindi ki... Sanki bu bir kəlmə sözü tapmaqla ona dünyanı vermişdim.

Əli eşitdiyi hər kəlməni, yazdığı hər misranı məharətlə, təmkinlə şair qəlbinin təhlil süzgəcindən keçirir.

Onun "Şəhidlər", "Şuşanı görmədim gözümdolusu", "Ürəyi gedən vətən", "Qaçqın", "Didərgin", "Bir evin min dərdi", "Əlimi kəs", "Sürüşür" şeirlərində milli dərdlərimiz, "Yuxarıdan Allah baxır", "Adamlara", "Dünyadı", "Tərsinə oxuyun alın yazımı", "Papiros", "Köhnə ağrılar", "Dünya üzümə baxmadı" və s. şeirlərində bəşəri və fərdi düşüncələri müasirlik baxımından poeziyanın ən dəyərli nümunələridir. Tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusiflinin təbirincə desək, "qafiyə seçimindən tutmuş sözünün orqanik şəkildə tamlığına qədər sənətə ciddi baxdığını ortaya qoyur" Əli.

Dünyada ağaclar çoxdur, hamısı da bar vermir. "Payız prospekti"ndə yarpaqları ilə vidalaşan belə ağaclarin seyrinə dalan Əli deyir:

"Xəzəlləri döşək-döşək ağaclar,
Çılpaqlaşan,
qəşəng-qəşəng ağaclar,
Yaxşı çəlik çıxar budaqlarından!

Əli bu şeiri ilə bahəm, "Nə istəyir", "Qocalmışam", "Ömür bu imiş", "Yaxşı ki...", "Vəssalam",

"Oynaya bilmirəm" şeirlərində ustalıqla bir ömrün payız fəslinin gerçək fraqmentlərini yaratsa da, kövrək duyğulara, nisgilə qərq oldum.

Bunu da etiraf edim ki, onun ustad şair "Məmməd Aslana məktub"unu, "Bu sevgi"sini, təcnislərini və "Gül balam-bülbül balam" silsiləsindən olan şeirlərini oxuyanda içimdə bir rahatlıq duydum, bir az da, Bahadır Şəfi demişkən, sabaha ümüdlə boylandım.

İrəlidə Əlini mənzil başına aparan uzun bir YOL var; bu yolda onun hələ çox şeirlər toplusu, poemaları işıq üzü görəcək. Çünki qocalıqdan çox erkən dəm vuran qələm dostumla hər görüşəndə, onda ömrümüzün eynən bahar prospektində ilk dəfə tanış olduğum Əlinin təptəzə ruhunu görürəm...

"Payız prospekti"ndən sonrakı yollarda yenidən görüşmək ümidi ilə:

525-ci qəzet.- 2012.- 20 dekabr.- S.7.

“MƏNİ AYAQLARIM YOX, GƏZDİRƏN SÖZÜM İMİŞ...”

(şair SADAY ŞƏKƏRLİNİdə öz misrasıylatəqdim edirik)

Bugünkü mizan-tərəziylə ölçüb-biçəndə Sadayla oxucuların ilk tanışlığı dünyanın DÜZ vaxtına təsadüf edir. O zaman nə dünya şairdən bezmişdi, nə adamlar sözdən usanmışdı... Elə sözün urvatı, kitaba marağın, qələm sahibinin xətir-hörməti olduğu həmin vədələrdə - 1985 - ci idə tələbəlik çağlarından bədii yaradıcılığa başlayan Saday Şəkərlinin "Məhəbbət ağacı" adlı ilk şeirlər toplusu Saratov şəhərində işıq üzü görmüşdü. Bir il sonra gənc şairinBakıda “Yazıçı” nəşriyyatında “Torpağa oğul sözü” kitabı nəşr edildi. Bu Sadayın böyük uğuru idi. Çünki onunla həmyaşıd qələm dostlarının çoxu ilk kitabının işıq üzünə çıxacağı günü həsrətlə gözləyirdilər. Kitabları işıq üzü görsə belə, yaradıcı adam üçün ömrün ən unudulmaz anlarından biri də oxucularla canlı görüşləridi.

“Bir gün Masallıda ayaq saxlayıb, söhbət etməliyəm Viləş çayıyla” deyən gənc Sadayın bizim də-

vətimizlə C.Cabbarlı adına Masallı şəhər Mərkəzi Kitabxanaya gəlişini və çoxsaylı oxucularla görüşünü yaxşı xatırlayıram. Həmin görüşdən yadigar qalan ağ-qara şəklini 25 ildən sonra ona göstərib, zarafatla soruşdum: "Bu cavan Sadayın şəklinə nə verərsən?" Dedi, "Mən elə indi də cavanam". Ömrünün 54 yaşının astanasında gənc görünən, şeir yazandaTanrının "sirrini açan", qürbətdə yaşayanlara adına "vətən deyilən qibləni" görməyi tövsiyyə qələm dostum Saday Əsəd oğlu Şəkərli -çağdaş ədəbiyyatımızın cəfakeşi, görkəmli tənqidçimiz Vaqif Yusiflinin təbrincə desək, tale şairidir. ***"Bütün şeirlərində onun həyatının, ömrünün-gününün bir parçası əks olunub. Amma bu əksolunmalar tərcümeyi-hal deyil, müasirimiz olan – Saday yaşında bir nəslin poetik düşüncələridir... SADAY ŞƏKƏRLİ MÜASİR AZƏRBAYCAN POEZİYASININ ÜNLÜ BİR ŞAİRİDİR. BİZ ONU SEVİRİK "***

Poetik ruhuna doğulub, boya-başa çatdığı qədim Bəciravanın ab-havası hopan, ilk dəfə DÜNYAYA Şolan dikindən boylanan Saday indi az qala yer üzünün yarıdan çoxunu gəzib-dolaşıb. Necə deyərlər, onun hər cikinə-bikinə bələddir. Rusiyada Saratov Kənd Təsərrüfatı Mexanizasiyası İnstitutunda təhsil alıb (1980-1985). 1984-cü ildə Gənc yazıçıların Moskvada keçirilən 8-ci Ümumittifaq seminar-müşavirəsinin iştirakçısı olub. 1995-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ufada başqırd dilində "Gümüş şamın şöləsi" (2000), Moskvada "Музыка дождя" (Новый век, 2010), İstambulda "Atamdan qalan payız" (2011),Ba-

kıda bir xeyli kitabları nəşr olunub. Şeir və poemaları İran, Amerika kimi ölkələrdə işıq üzü görüb. Azərbaycanın xalq artistləri Zeynəb .Xanlarova, Mələkxanım Əyyubova və başqaları sözlərinə yazılmış mahnıları bu gün də sevə-sevə ifa edirlər... Saday istər sərbəst şeirlərində, istərsə də xalq şeirinin və klassik poeziyanın müxtəlif formalarında yazıb-yaratdığı düşüncələrini aydın, obrazlı şəkildə ifadə edir...

Gözlərim bulaq şəklidi,
Dərd-kədər bölgəmdi bala.
Sulardakı dağ şəklidi,
Ya mənim kölgəmdi, bala?

Sadayın "Ömrün yorğun kölgəsi" (şeirlər və poemalar. Bakı: 2009, 328 səh)kitabında toplanan bədii-fəlsəfi könül əmanətləri rəngarəng olsa da, "bir əlin beş barmağı kimidir" (Allahverdi Məmmədli) Amma bu kitabda bir oxucu kimi mənim diqqətimi çəkən qürbət, qəriblik mövzusunda yazılan şeirlər oldu. "Qərib yurdun havaları..." "Qərib adamın göz yaşı..." "Qərib adama yuxu ver tanrı", "Qərib adamın sevinci", "Qərib adamın gözləri" və s.

Hara baxsın, nəyə baxsın,
Kimə baxsın, kimə qərib?
Qəribi də qəribliyə
Göndərən Allah göndərib..

Bu mövzuda qələmə aldığı şeirlərin bir-birindən maraqlı fikirlərlə zəngin olmasının səbəbi nədir? "Bəl-

kə ona görə ki, uzun bir müddət qürbətdə yaşayıb, ömrünün tarixçəsinə coğrafiyadan uzaqlaşaraq kənardan baxmaq imkanı qazanıb". (S. Babullaoğlu) Mənim fikrimcə, Saday Şəkərli dünyasında QƏRİBLİK daha çox bəşəri məna daşıyır. "Ömrün yorğun kölgəsi" kitabına yazdığı fikir həm də şairin mənsub olduğu ədəbi nəslin gercək və acı tale hekayətidir: "Bu kitab yaşamağa yer tapa bilmədiyim bu Yer üzündə, bu gəlimli-gedimli, duracaq yer olmadığını dərk elədiyim dünyada mövcud olmağımın (yaşamağımın yox!) əlli illiyi xatirinə nəşr elətdirdim.... Bu yaşa görə isə mənə təbrik yox, başsağlığı düşür". Doğma vətəndə qəriblik hissi cansıxıcı, nisgilli olsa da, əsl qələm əhlini mənən böyüdür. İndiki zamanda "dar ağacı" ilə üzbəsurat, göz-gözə, diz-dizə dayanmaq hər oğulun işi deyil:

Gözəlim, dar ağacı,
yarpaqla salxım-salxım,
ya sən aşağı əyil,
ya mən yuxarı qalxım

Sözlə canbir-qəlbbir olan şairin həyatda gördüklərini daxilində gedən zəngin yaradıçılıq prosesi nəticəsində şeirə, qəzələ, poemaya, publisistik düşüncələrə, qafiyəli hekayəyə,həzin nəğməyə çevrilir:

Bitməz, dənim daşa düşüb
Tuş gəlib qarğışa düşüb,
Qönçə güldür, qışa düşüb,
Açılmaz könlüm, açılmaz

Hər dərdə çatışmaz tabı,
Binədən qəmin yatabı, -
Yaman bağlanıb kitabı
Açılmaz könlüm, açılmaz.

Sadayın "Kor Balayar" poemasını oxuyanda qeyri - ixtiyarı uşaqlıq çağlarıma döndüm. Doğrudan da, biz o zaman elə bilərdik ki,toy-düyündə qarmonçalan Kor Balayarın barmağında gözü var: "Neçə qızın, gəlinin, neçə bəyin yadında.bir qarmonçü yaşayır Kor Balayar adında".

... Uşaqlar inanmışdı -
(kimin buna sözü var?)
güya Kor Balayarın
barmağında gözü var.

..."Yatırdı – hər yan gecə! Dururdu- hər gecə! Ona İŞIQ borcluydu , onu yaradan gecə!" Və Allah bu kor bəndəsindən bəsirət gözünü əsirgəmədi. Kor Balayarın "barmaqları tanışdı qarmonun hər dilinə- bəminə bəm deyərdi, zil deyərdi zilinə" Sadayın bu poetik əsəri mənim yadıma həm də bizim qızılağaclı kor dərvişi- Xəlildadaşı saldı. Bu qəbildən olan insanların QƏRİBƏ taleyini, Allahın onlara bəxş etdiyi fitri istedadə düşünəndə mən də "Gözləri görməyənə kor deməyin!" novellasını qələmə aldım. Ruh qardaşım, boy – buxunundan qədim Muğan cəngavərlərini xatırladan Saday Şəkərli haqsızlığa dözümsüzdü. Ancaq qılıncdan da iti sözlə savaşır. Buna görə Sadayı "acı həqiqət şairi" adlandıranlar yanılmırlar.

Şairəm, içimdə hər söz qığılcım,
alışsa, dünyanı yandıra bilər.
Dil açıb qınında susan qılıncım
fikrini söz ilən qandıra bilər.

"Min il qabaqlar məni bu dünyada görən olub, deyirlər..." deyən Sadayla ilk dəfə görüşən və ünsüyyətdə olan adama elə gəlir onu lap çoxdan tanıyır.

Saday xeyi-şər adamıdır... Dostcanlıdaır. Onda köhnə kişilərə xas təəssübkeşlik hissi var.

Qızı hamımızın Milli Azadlıq Hərakatından tanıdığımz haqq aşiqi, şair Abbasağa Azərtürkün ocağında gəlindi. Saday bu icdivaca qol qoyanda ustad şair artıq dünyada yox idi... Elçiliyə sanki onun əziz RUHU gəlmişdi.

...Bilmirəm, nədənsə Saday haqqında fikrimi yekunlaşdıranda acı içində . dəbdəbəli villalar, saraylar və göydələnlər ucalan məmləkətə boyalandım. Filosof dostumuz Rahid Uluselin "Bu malikanədə hər şey var – İnsandan başqa" fikrini xatırladım. Saday isə bu fikrə daha poetik don biçib:

Dərd içində boğulur,
And olsun bir Allaha, -
İndi insan doğulur
İnsan yaranmır daha...

"Cənub xəbərləri" qəzeti, 31 iyul 2013-cü il.

BƏŞƏRİ XƏCALƏT

"Qəlbin yaddaşı" kitabının müəllifi, rus şairi Aleksandr Fomenkova

Əziz Saşa, sənin bir insan kimi vətənində öz məişət qayğılarının bitib-tükənmədiyi bir vaxtda, köksündə gəzdirdiyi rus qəlbinin həm də bu gün Azərbaycan naminə şövq ilə döyünməsi və yorulmadan bütün ruhuyla insanlıq və həqiqət uğrunda çarpışması məni riqqətə gətirir. Aydındır ki, Allah bizim hamımızı xoşbəxt etmək niyyətində olmayıb, ancaq istəyib ki, biz hamımız dost olaq və haqqı-ədaləti müdafiə edək. Dünyanın hansı güşəsində yaşamasından asılı olmayaraq hər bir insanda sülhsevərlik diləyi ədalət hissiylə bağlıdır. Sən Azərbaycanı ikinci anan kimi sevirsən. Bu sevgi-

nin hardan qaynaqlandığı məni çox maraqlandırdı. Və çalışdım ki, bu sevginin əsl məbədini öyrənəm. Söz yox ki, internetdə şeirlərini oxuyanda bilirdim ki, düz 14 il əvvəl – 1999-cu ilin yanvarın 20 – də Şəhidlər Xiyabanını ziyarət edəndə muğamın qəmli səsləri altında Azərbaycan analarının solğun çöhrələrinə baxıb: "Bizi bağışlayın!"- deyə poetik and içmisən: –"İnnən belə nə qədər yaşayacağımı bilmirəm, bircə onu bilirəm ki, ruhən rus olsam da, qəlbən son nəfəsimədək bakılı olacağam, vəssalam!"

"Ax yanvar ayı! Bir bax. Sənin pəncərəndə mənim qəmim edam edilir!" Qabriel Qarsia Markesin "Patriarxın payızı" pomanında bu mahnını diktatorluğunun payızı çatmış qoca general oxuyur... 1990-cı il Bakıda 20 Yanvar – Şənbə gecəsinin Qanlı səhnələri də Sovet hakimiyyətinin "son qışından", onun axırıncı patriarxının qürub çağından soraq verirdi. O zaman sən – Aleksandr Fomenkov Rusiyada azadlıq uğrunda mübarizə aparırdın. Bakıda "Azadlıq", "Qarabağ bizimdir" deyən insanların SSRİ-nin sonuncu diktatorunun əmriylə amansızlıqla qətlə yetirildiyini yalnız mətbuat səhifələrində yazılanlardan bilirdin.

...İlk dəfə Bakıda Şəhidlər Xiyabanını ziyarət edəndən sonra sənin şair kimi ruhun insan kimi qəlbin sızıldadı. Axı bu xiyabanda uyuyanlar sənin doğma şəhərin Taqanroqu Böyük Vətən müharibəsində faşistlərdən azad edən igid Azərbaycan döyüşçülərinin nəvə-nəticələri idi!..

Bəlkə də elə o an daldığın qəmli düşüncələrdən təsirlənib "ruhən rus, qəlbən bakılı olacağına" söz verdin?! Ötən il aprelin sonu Masallıda tanış olanda,

sən mənə Taqanroq şəhərində 6 çap vərəqi həcmində "Qəlbin yaddaşı" kitabından bir neçəsini verdin. Sənin eyniadlı şeirində Taqanroqun alman-faşistlərindən azad etmək uğrunda döyüşən 416-cı Azərbaycan diviziyasının gənc əsgəri Zülfiqar deyir: "Deyirsən, bura Taqanroqdur? Çexovun şəhəri? O bizim olmalıdır!" Kimsə ona səngərdən: "Ay bala, Rusiya uğrunda ölmək axmaqlıqdır!" – deyə səslənir. Bu zaman Qafqaz titanı Zülfüqar ayağa qalxır, qəzəblə: "Ağzını yum, şeytan!" – deyir və faşistləri sağdan-soldan biçib-tökür. Deyilənlərə görə, (daha doğrusu, sənin yazdığına görə) Zülfüqar səngərdə "Zülmətə qarşı Alov" adlı kitab yazırmış. "Əgər güllə məni burada tapsa, abidəm sünbül kimi cücərəcək, qəlbim buğda dənələrində döyünəcək. Taqanroqlu qadın oğlu Aleksandrı, ya da Seryojanı ziyarətimə gətirəndə, ya da oğlunu bu sünbüllərlə çırpanda mənim qanım o oğlanın qəlbinə hopacaq..."

Heç bir hissə, mistikaya qapılmadan mən həmin oğlanın Aleksandr Sergeyeviç Fomenkovun - yəni, sənin özün olduğunu düşünürəm. Axı 11 yaşın olanda sənə qarapaltarlı azərbaycanlı ana "Zülfüqar" deyə əlini uzatmışdı. İndi həmin Saşa əlində qələm Qarabağ uğrunda mübarizə aparan 58 yaşlı əsgərdir!. Hətta müsahibələrində Qarabağ uğrunda yenidən savaş başlasa, qələmi silahla əvəz edəcəyini də bildirir. Zülfüqarların Taqonroqun azadlığı uğrunda əsirgəmədiyi canı sən də Qarabağ uğrunda qurban verməyə hazırsan. Saşa, əzizim elə sənin kitabın da zülmətə qarşı alov kimidir. O kitabın ilk səhifəsində bu sətrlər diqqətimi cəlb etdi: "Qəlbin yaddaşı" kitabı

hazırda Ermənistan Respublikasının indiki prezidenti Serj Sarkisyanın başçılıq etdiyi erməni millətçiləri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş kütləvi qətllər zamanı qurban getmiş DİNC İNSANların əziz xatirəsinə həsr olunur".

Sən ürəyinin başı qovrula-qovrula vicdanı susmuş dünyanın siyasət əhlinə, bütün bəşəriyyətə sual edirsən: "Məgər Sarkisyanın bu hadisə ilə bağlı açıqlamaları bunu birbaşa sübut etmir ki, onun özü bu qanlı qırğında şəxsən iştirak etməsə də, Dağlıq Qarabağın azərbaycanlılardan ibarət mülki əhalisinin fiziki cəhətdən məhv edilməsinə dair qərarın qəbul olunmasında birbaşa iştirak edib?

Məgər Sarkisyanın ifadələri onun Haaqada beynəlxalq cinayət tribunalına cəlb olunması üçün lazımı qədər əsas vermirmi?

Serj Sarkisyan: "Biz bu barədə susmağa üstünlük veririk. Lakin düşünürəm ki, əsas məsələ tamamilə başqa idi. Xocalıya qədər azərbaycanlılar belə fikirləşirdi ki, bizimlə zarafat etmək olar, onlar düşünürdü ki, ermənilər mülki əhaliyə qarşı əl qaldırmağa qadir deyil. Biz bu stereotipi sındırmağa nail olduq. Nəticədə baş verənlər bəllidir" (Tomas de Vaal, "Çernıy sad: Armeniya i Azerbaydjan mejdu mirom i voynoy", Moskva: "Tekst", 2005).

...Dünya siyasəti bu gün çox cansıxıcıdır. Eyni zamanda mədəni dəyərləri heçə endirən, insan taleyinə biganə qalan, yurd ağrısını "həzm" edən bir siyasətdir. Dünya siyasətinin bu gün ən çox dini amillərə söykəndiyi sirr deyil. Bəlkə buna görə də ABŞ, Rusiya, Fransa ermənilərin Xocalıda Azərbaycan

xalqına qarşı etdiyi cinayətlərə göz yumur?

Sənsə haqlı olaraq, öz ölkənin birinci şəxslərinin, özünün qeyd etdiyin kimi, nasist Ermənistanı ilə eyni hərbi-siyasi blokda olmasına etiraz edirsən: "İndiki Rusiya rəhbərliyi Sarkisyan Ermənistan ilə əməkdaşlığını bəyan edir. Mən Haqqada belə əməkdaşı görmüşəm. Bu əməkdaşlıq mənə – 1943-cü ildə 416-cı Azərbaycan atıcı diviziyası tərəfindən vətəni alman faşistlərinin zülmündən azad edilmiş, təpədən dırnağa Rusiya vətəndaşına təhqirdir. Rusiyanın rəhbərləri köçəryanlara, sarkisyanlara əl uzatmamalıdır. Rusiya rəhbərliyi çox gözəl bilir ki, Köçəryan da, Sarkisyan da cinayətkardır, Azərbaycan NATO- ya daxıl olmasın deyə, onların zəncirini əllərində saxlayır "

Bəli, qardaş, sən haqlısan. Qarabağ məsələsində Rusiya ilə siyasi həmfikir olan qərb dövlətləri – xüsusilə də Fransa Ermənistana "QAFQAZIN İSRAİLİ" ləqəbi qazandırıb!

...Ötən il Bakıya Xocalı soyqırımı abidəsini ziyarət etməyə gələndə sənin lə xeyli söhbət etdik. Dedim ki, neftinə görə Azərbaycanın başı əsrlər boyu qalmaqalda olub. Çörçil deyirdi ki, neft kraliçadırsa, Bakı onun tacıdır! Bu qiymətli TACa sahib "qara kraliça" bu gün Avropanı nura qərq edib, dünənsə onu FAŞİZMİN əsarətindən xilas edib. Kreml əzəldən haqqın tərəfdarı olsaydı, Faşist Almaniyası üzərində qələbənin lokomotivi olan qara qızılına görə Bakıya 1945-ci ildə QƏHRƏMAN ŞƏHƏR statusu verərdi...

Muqam! Sozvuçen tı KORANU!
Tı pesnya plamennıx serdets!
İz slov lyubvi k Azerbaydjanu
Poeziya pletyot venets.

Sən isə Azərbaycan musiqisinə – muğamına sevgisini belə dilə gətirərək bir arzuyla yaşayırsan: Taqanroqda "Azərbaycanın dostları" ictimai birliyini yaratmaq, Rusiyada Azərbaycanla bağlı daha böyük işlər görmək…. Bu niyyətlə ötən il martın əvvəllərində Bakı şəhərinin meri Hacıbala Abutalıbovun qəbulunda oldun. (Yeri gəlmişkən, qeyd edim ki, "Qəlbin yaddaşı" kitabının birinci nəşri Heydər Əliyev fondunun Rusiya nümayəndəliyinin dəstəyi ilə reallaşıb).

Keçirdiyin saysız-hesabsız mətbuat konfranslarında "Qarabağ Azərbaycan torpağıdır" –dediyinə görə SƏN internetdə ermənilər tərəfindən ən çox "təcavüzü"ə məruz qalan və təhqir olunan rus ziyalısısan. Və var qüvvənlə Taqanroqla Bakı arasında əlaqələrin rəsmiləşməsinə çalışırsan. Məhz sənin təşəbbüsünə 2002-ci ildə Taqanroq meri Serqey Şilo iki şəhər arasında əlaqələrin yaradılması barədə qərar qəbul etmişdi. Lakin lazımi sənədləri rəsmi qaydada imzalamaq üçün Bakıya səfəri ərəfəsində – 31 oktyabr 2002-ci ildə qətlə yetirildi və o vaxtdan bəri bu iş yarımçıq qaldı. Sənin kimi Azərbaycançı bir rus ziyalısının bu gün nəinki Taqanroqda, Rusiyada, dünyada fəaliyyətini genişləndirməyə dəstək vermək informasiya savaşında ölkəmizə uğur qazandıracaq həlli vacib məsələlərdən biridir.

SÖZARDI. Əgər Medvedyev, Putin özündən əvvəlki sələfləri... lap elə Birinci Pyotr kimi düşünürlərsə, Azərbaycana qarşı onların siyasətlərindən Allah da baş açmaz. Rus yazıçısı, şair və filosofu Dmitri Merejkovski (1866-1941) vaxtilə Avropanın radikal ruhlu filosoflarına müraciətlə yazmışdı: "Sizin üçün siyasət bilikdir, bizim üçünsə – din". Məncə, işğalçı Ermənistana münasibətdə nəinki Rusiyanın, eləcə də qərb dövlət başçılarının siyasətində Din ortaqlığı – qohumluğu əsas rol oynayır. Bir anlıq təsəvvür edək ki, ya Ermənistan müsəlman ölkəsidir, ya da Azərbaycanda yalnız xristianlar və yəhudilər yaşayır! Hər "iki" variantda Azərbaycan Qarabağ münaqişəsinin də, müharibəsinin də QALİBİ olacaqdı... İşğal olunmuş ərazilərin qeydsiz-şərtsiz boşaldılması haqqında BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə dərhal əməl olunacaqdı... Vəssəlam!

Bəli, bu gün hamı öz yaddaşını qınayır, bəzən yaxşılıqları belə unudur. Ancaq sən - Aleksandr Fomenkov nə özünün, nə də qəlbinin yaddaşından gileylənirsən. "Xocalı faciəsi" – "Qarabağ unutqanlığı" bəşəri xəcalətdir, deyə haray çəkirsən. Kaş dünyada SƏNİN harayına hay verən insaflı qələm sahibləri çox olaydı... Şair kimi, ziyalı kimi sənin Azərbaycan həqiqətlərinin təblığı ilə o qədər boyük arzuların var ki! Kaş, sənə bu arzuları gerçəkləşdirməkdə təkcə mənəvi deyil, maddi kömək göstərən soydaşlarımız çox olaydı...

"Qrabağa aparan yol" 26 aprel 2013.

SÜLH SAVAŞÇISI

...Çoxumuz orta məktəbdə bizə dərs deyən sevimli müəllimlərimizin adını fəxrlə çəkirik; sağ ikən özlərinə, dünyasını dəyişəndən sonra ruhlarına minnətdarlığımızı dəfələrlə dilə gətiririk. Hərbi mahnıların müəllifi həkim, bəstəkar Şahin Musaoğlunun pedaqoq atasının xatirəsini təkcə dərs dediyi şagirdləri deyil, bizim cənub bölgəsində onu tanıyanların hamısı əziz tutur. Musa müəllim çalışdığı orta məktəbdə olduğu kimi, ictimai yerlərdə də öz ziyalı borcunu yerinə yetirən, gənc nəsillərə vətən sevgisini aşılayan el-obanın hörmətli şəxsiyyətlərindən idi...

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qızılağacda dünyaya göz açan Şahinə də ilk VƏTƏN dərsini Musa müəllim keçmişdi,YURD sevgisi, elpərvərlik hissi aşılamışdı. Şahinin 1991-1994-cü illərdə könüllü olaraq Qarabağ savaşında - Ağdam, Ağdərə döyüş bölgələrində hərbi həkim – jurnalist kimi fəaliyyət göstərməsi məhz həmin vətən dərsindən, yurd sevgisindən qaynaqlanırdı.

"İgid əsgər, möhkəm dayan" adlı ilk mahnısını da

həmin illərdə yazıb. Azərbaycanın Levitanı adını qazanmış hərbi aparıcı Şəmistan Əlizamanlının ilk dəfə ifa etdiyi bu mahnını Şahin Musaoğlu Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin şəhid ruhuna həsr edib:

Ya azad ol, ya candan keç,
İki yoldan birini seç.
Azadlığın şərbətin iç,
İgid əsgər, möhkəm dayan!

Onu da qeyd edək ki, Yusif Mirzəyev yaralandıqdan sonra Şahin bəyin döyüş bölgəsində işlədiyi xəstəxanada müalicə alıb. Və sağlığında bu mahnının varlığından xəbərdar idi. Həmişə Şahin ona baş çəkəndə bu mahnıdan söhbət açar və zümzümə edərmiş. Həmin xəstəxanada Şəmistan Əlizamanlının Yusif Mirzəyevi ziyarət etməsi mahnının ekrana-efirə yol tapmasına səbəb olub. Mahnının mətni sonralar Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin 4-cü sinif üçün dərs vəsaiti olan "Ana sözü" kitabına daxil edilib.

Hazırda ehtiyatda olan zabit Şahin Musaoğlu çağdaş gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində böyük rol oynayan 30-dan çox hərbi-vətənpərvərlik mahnısının musiqisinin müəllifidir. Həm də bəstələdiyi əksəriyyət mahnıların sözləri onun özünə aiddir...

Şahin Musaoğlunun vətənpərvərlik ruhunda qələmə aldığı "İgid əsgər, möhkəm dayan" adlı şeirlər kitabı 2003-cü ildə "Adiloğlu" nəşriyyatında işıq üzü görüb. İki ilöncə isə Küveytdə fəaliyyət göstərən "Vətənsevər" Dostluq Cəmiyyətinin təşəbbüsü ilə həmin şeirlər kitabı ərəb dilində "Eyyuhəl cundiş şucaa qıf şəmixan!"adı ilə nəfis tərtibatla məşhur "Əl-Risalə" mətbəə

evində çap edilib. Şeirləri ərəb dilinə Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyinin əməkdaşı Babək Əhmədov tərcümə edib.

Şahin MusaoğlununŞəmistan Əlizamanlının ifasında səslənən "Ağ ümid", "Birinci batalyon", "Cənab leytenant" mahnıları da böyük uğurlar qazanıb. "Cənab leytenant" dünən şərəfli döyüş yolu keçmiş, bu gün vətəni göz bəbəyi kimi qoruyan, sabah isə bu yolu keçəcək bütün Azərbaycan zabitlərinə həsr olunub. Və təkcə Azərbaycanda deyil, xarici ölkələrdə təhsil alan soydaşlarımız da onu sevə-sevə, həm də böyük şövqlə ifa edirlər.

Bir neçə il öncə Kanadada Yusif adlı tələbənin universitet şəhərciyində təşkil olunmuş konsertdə "Cənab leytenant" mahnısını həvəslə ifa etməsi və yaxud Parisdə təhsil alan bir qrup azərbaycanlı gənclərin tonqal başında bu mahnını gitaranın müşayətilə xorla oxumaları xaricdə təhsil alan azərbaycanlı gənclərimizin bu mövzuda olan türkülərə marağının bariz nümunəsidir.

Hay ver, mənə, cənab leytenant!
Hay ver mənə, leytenant!
Xoş müjdəli bir savaşdan,
Pay ver mənə, leytenant!

Dörd il əvvəl "Eurovision" milli seçim mərhələsində iştirak edən Nadejda Mikayılova adlı gənc ifaçının da bu mahnı ilə çıxış etməsi və klip şəklində hazırladığı layihə də sosial şəbəkələrdə böyük populyarlıq qazandı.

Marş kimi səslənən "And içirəm", "Yol ver türkün

bayrağına", "Vətən çağırır", "Öncə vətəndir" və başqa mahnıların müəllifi olan Şahin bəyin fikrincə, hərbi vətənpərvərlik mövzusu ciddi mövzudur. İnsanların ruhuna, qeyrətinə, mənəviyyatına hesablanmış mövzudur. Bu mövzu Vətənə, Anaya münasibətdir... Coşqudur, ruhdur, qisasdır... Hər yeni mahnı yazmaq yeni nəfəs deməkdir... Hər yeni mahnı yeni səhifədir. Hər yeni mahnı - yeni səs, yeni söz deməkdir...

Şahin Musaoğlunun on iki əsəri Silahlı Qüvvələrin hərbi hissə və məktəblərində tədris edilir. Özünün qələmə aldığı nəzm parçalarından savayı, M. Şəhriyarın, ("Azərbaycan"), Əhməd Cavadın ("Bismillah"), Bəxtiyar Vahabzadənin ("Yurdum"), Ramiz Rövşənin ("Yalquzaq"), Hidayətin ("Torpaq"), Rüstəm Behrudinin ("Salam, dar ağacı"), Nizami Saraclının ("Türkün bayrağına") sözlərinə bəstələdiyi mahnılar Azərbaycan Teleradiosunun "Qızıl fond"una daxil edilmişdir. Eyni zamanda "Şahin Musaoğlunun müəllif mahnıları" adlı kompakt diskləri Azərbaycan və Türkiyə dinləyicilərinin ixtiyarına verilmişdir.

30 il əvvəl Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Dövlət Tibb Universiteti) müalicə-profilaktika fakültəsini bitirən Şahin Musaoğlu hazırda Bakıda "MedServis" özəl tibb mərkəzində poliklinika şöbəsinin və MedEra Hospital klinikasının dioqnostika şöbəsinin müdiri vəzifələrində çalışır. Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür, "Tibb xəbərləri" jurnalının baş yazarıdır. 2006-cı ildə Türkiyənin Başkənd Univeristetində diaqnostika mütəxəssisi kimi yüksək ixtisasartırma kursu keçmişdir. Dünya Tibbi Araşdırmalar Texnik və Etik Bilimlər Akademiyasının

(WAMBES) idarə heyətinin üzvüdür.

2016 –cıilin aprel ayında Şahin Musaoğluna Azərbaycan Yazıçılar Birliyinin Hərbi Vətənpərvərlik Komissiyasının sədri vəzifəsi həvalə olunub. Xatırladım ki, bundan öncə AYB –də Hərbi Vətənpərvərlik Komissiyasının sədri mərhum xalq şairi Zəlimxan Yaqub idi.

SON OLARAQ qeyd edim ki, aprelin əvvəlində baş verən qanlı savaşdan az sonra yenə Azərbaycanın TV məkanı çal-çağıra, şou-biznes adamlarının lüzümsuz dartışmalarına, bayağı mahnılarının meydanına döndü. Şahin bəyin öz dili ilə desək,telekanallar hərbi-vətənpərvərlik mahnılarını ilboyu yalnız müəyyən tarixi günlərdə, bayramlarda verməklə vəzifələrini bitmiş hesab etməməlidirlər. “Biz bir dəqiqə də unutmamalıyıq ki, barış istəyən gərək savaşa hazır olsun. Eynşteyn deyib ki, "Mən yalnız sülhsevər deyil, bir sülh savaşçısıyam. İnsanlar savaşa savaş açmadıqları müddətdə heç bir şey savaşları ortadan qaldırmayacaq". Ərazi bütövlüyümüzün sülh yolu ilə bərpasına ümid bağlamaq o qədər də inandırıcı deyil. Ona görə missiyamız hələ başa çatmayıb... Mən isə bu missiyanı yerinə yetirmək üçün nə bacarıramsa, onu da edəcəm!..”

Öz vətəndaşlıq missiyasını yerinə yetirmək amalı ilə yaşayan Şahin Musaoğluna böyük uğurlar diləyirəm. Və ən böyük arzum budur ki, Şahin bəy hamımızın səbirsizliklə gözlədiyi “Qələbə” marşının müəllifi olsun!

525-ci qəzet. 1 may 2016

“İLAHİ, SƏN MƏNƏ YİYƏ DURMADIN...”

Zöhrab Əmirxanlı ilə şəxsi tanışlığımız 25 il əvvəl “Millət” qəzetində çalışdığımız vaxtdan başlamışdı. Mən “Millət”in bölgə müxbiri idim, Zöhrab isə şöbə müdiri, həmdə necə dəyərlər, baş yazarlarından biri. Çox sərt, tənqidi məqalələri ilə yanaşı, könül oxşayan, lirik səpkili publisistik düşüncələr də yazardı. Onun Xəlil Rza Ulutürklə bağlı gözəl bir yazısı o zaman məni azadlıq mücahidinin ünvanına aparan bələdçi oldu.

O dövrdə ölkədə elə anlaşılmaz olaylar baş verirdi, sanki dünən xalqın içindən hakimiyyət pilləsinə yüksələnlər, orda duruş gətirməyinqəliz iş olduğuyla üzləşib, əvvəlki çağlarına dönmək üçün bir-birinin ardınca silsilə səhvələrə yol verirdilər. Belə bir vaxtda mən DİN-in cənub bölgəsində apardığı “subtropik əməliyyatı” barədə “Davam edir 37...” məqaləsi yazdım. Məqaləm dərc olunan gün İsgəndər Həmidov 3-4 “Boz qurd”la “Millət”in redaksiyasına hucum edib: “Hanı o narkoman?” deyə sor-

ğu-sual aparır. Baş redaktor Vilayət Quliyev redaksiyada olmadığından (deyilənlərə görə, İsgəndər bəyin ondan da narazılığı varmış) Zöhrab və başqaları deyib ki, axı o, heç siqaret də çəkmir, hardan narkoman oldu?

Sonralar Zöhrab mənə yarızarafat, yarıciddi deyirdi ki, anan namaz üstə olub o anda, əgər redaksiyada olsaydın, İsgəndər bəy qəzəbindən səni 7-ci mərtəbədən üzü aşağı atacaqdı.O vaxtlar, mən "Aydınlıq" qəzeti ilə də sıx əməkdaşlıq edirdim və Zöhrabın dostluq etdiyi Məmməd Nazimoğlu ilə də tez-tez görüşürdük. Əslində "Millət" qəzetinə mən"Aydınlıq" qəzetinin baş redaktoru Babək Hüseynoğlunun təqdimatı ilə işə qəbul olmuşdum...

...Zöhrabla ötən yay bir neçə dəfə sübh çağı dənizkənarı milli parkda görüşdük.O, günəşin dənizdə bərq vuran əksini, mən də "iş başındaykən" onun şəklini çəkdim.Gəzə-gəzə ötən günləri yada saldıq, elə odlu-alovlu, çılğıncasına danışırdı ki... Deyirdi, necə olur, axı o zaman jurnalistləri şapalaqlayan İsgəndər Həmidovu , TMR yaratmaq sevdasına düşən Ələkrəm Hümmətovu , qiyamçı Sürət Hüseynovu tərifləyib dağ başına qoyanların çoxu bu gün dövlət başçısının jurnalistlər üçün tikdirdiyi binadan mənzillə təmin olunur, amma əllərində top-tüfəng olan elə adamları tənqid edən jurnalistlər heç nəzərə alınmır?

Zöhrab jurnalist taleyindən lap çox küskün idi. İçində jurnalistikaya sevgisi sanki özündən çox-çoxqabaq ömüşldü. Deyirdim, ay Zöhrab, hər səhər yazdığın statusların o qədər lirik, şeiriyyət doludur ki,

gəlsənə onları toplayıb , yaxşıca bir kitab bağlayasan!Deyirdi, qardaş, bu təklifi, məsləhəti çox adam edir mənə, amma... Sonra söhbətin mövzüsunu dəyişib, Zakir Sadatlını, Məmməd Nazimoğlunu xatırlayardı və siqaret çəkə-çəkə kövrələrdi.

Mən ona Zakirin bir şeirini əzbər dedim,sanki Zakir Sadatlı o şeiri həm də içində yaşamaq-yaratmaq eşqi tükənmiş dostu Zöhrabın pərşan halı üçün yazmışdı:

İlahi, səni də dişimə vurdum
Yerdən göy çağırmaz, göydən yer məni
İlahi sən mənə yiyə durmadın,
Dədəmə, nənəmə apar ver məni!

Bir dəfə iki saata yaxın gəzdik,. Sahilboyu kişili-qadınlı adamların çoxu Zöhrabla salamlaşır, onunla hal-əhval tutub, Çarli adında itiylə oynayırdılar...Adətən,Zöhrab Amerkanın dövlət bayrağı olan köynək geyərdi. Sanki bununla Nyu-Yorkda rahat gün-güzaran sürən qızına, nəvəsinə görə Amerikaya içində minnət duyğusunu biruzə verərdi.

Evdən çıxıb dəniz sahilinə gələnəcən üzləşdiyi çox eybəcərliklərdən söhbət edərdi.

Bir dəfə baş redaktoru olduğu qəzetlərin birində hansı vəzifəli şəxs barədə dərc edəcəyi ətraflı yazının anonsunu verir, ertəsi gün bir diplomat çanta PUL gətirib qoyurlar Zöhrabın yazı masasının üstünə. Zöhrab əsəbləşib pul gətirən adma deyir: “Puluna da götür, get burdan!”

Bəli,Mətbuat Şurasının sədri, Millət vəkili Əflatun Amaşov Zöhrab Əmirxanlının vəfatı ilə bağlı özünün feysbuk səhifəsində çox doğru vurğulayıb ki: "Zöhrab iliyinə qədər jurnalist idi... Onun çılğınlığında, səmimilik və təmənnasızlıq var idi ki, bu da Zöhrab Əmirxanlı obrazını tamamlayır, bütövləşdirirdi."

İndiki zamanda bir çanta PULdan imtina etmək hər kişinin işi olmasa da, düşünürəm bəlkə o pulu alsaydı, Zöhrabın bütün dərdlərinə əlac tapılardı...

El arasında belə deyim var: "Qolsuzun dərdini qolsuz bilər!"Bizi birləşdirən daha bir ortaq dərdimiz vardı,hər ikimiz ömür –gün yoldaşımızı erkən itirmişdik. Son görüşümüzdə mən onunqürbətdə ailəsinə çörək pulu qazanan qardaşının Bakının mərkəzində şəraiti olan mənzilində yaşadığını nəzərdə tutub, dedim, bəlkə yenidən ailə qurasan ? Rəhmətlik Mehriban xanımla bağlı el xatirlər danışdıl ki, sual verməyimə peşman oldum..

... Zöhrab vətənpərvər, el dərdi, təəssübü çəkən vicdanlı jurnalist idi, onun yerinə hər kim olsaydı,çoxdan qürbətə - ya qardaşının, ya da qızının yaşadıqları ölkələrə üz tutardı... O isə vətən torpağını əziz tutdu və dünən ata-baba yurdunda uyuyan əzizlərinə, sevimli həyat yoldaşına qovuşdu.

Ruhun şad olsun, Zöhrab!

3 may 2017, "Müstəqil.az."

MASALLI BULAQLARI

Uluca – uluca bayatılarımıza, nəğmələrimizə hopub bulaq həzinliyi. Bir vaxtlar aşiqlər öz istəkililərini görmək üçün bulaq üstündə daşa, küzəyə, yarpıza, səhəngə dönməyi arzulayarmışlar.

Bulaqda buz olaydım,
Üstə yarpız olaydım,
Yar bulağa gələndə
Orda yalqız olaydım.

Qızlar da qismətlərini, gələcək ömür- gün ortaqlarını bulaq başındaca tapırmışlar. Bulaqlardan söz düşəndə "Sudan gələn sürməli qız" xalq mahnısı, Aşıq Ələsgərin "Çərşənbə günündə çeşmə başında, gözüm bir alagöz xanıma düşdü" rədifli qoşması və bir çox qədim rəvayətlər, əsatirlər yada düşür.

Əzizim baxar gedər,
Könlümü yaxar gedər,
Masallının köksündən
Bulaqlar axar gedər...

Və yaxud:

Əzizim Dəştivəndə,
Yol gedir Dəştivəndə.
Sərin bulaq istəsən,
Gedəsən Dəştivəndə[1].

Durnagözlü bulaqların da hər birinin öz taleyi, öz adı var.

Masallıda adla deyilən, yerin dərin qatlarından süzülüb gələn, suyu min illər və qərinələr boyu ürəkləri sərinlədən bulaqlar çoxdur. Hələ 1889-cu ildə Bakı quberniyasının Lənkəran qəzasındakı bulaqların və kəhrizlərin tərtib olunmuş xəritəsində təkcə Ərkivan dairəsində 10-dan çox bulağın olduğu göstərilirdi. Boradigahdan sonra qəsəbə statusu daşıyan Ərkivan demək olar ki, bu gün Masallı ilə çiyin-çiyinə, boy-boya dayanıb... Ərkivan bulaqlarının suyundan rayonun əksər kəndlərinin sakinləri istifadə edirlər.

SADAT BULAĞI: Ərkivanın Bədirli məhəlləsindədir.

MEHDİ BULAĞI: Keçmişin bu günə yadigar qoyduğu ən sərin çeşməli bulaqlardan biridir. Ərkivanın Ramazanlı məhəlləsindədir. Hələ çar Rusiyası zamanı Nikolayevka (indiki Kalinovka) kəndində yaşayan malağanlar saxsı kəmərlə buradan özlərinə su

[1] Dəştivənd, Daşvənd – Masallının Ərkivan qəsəbəsində ən qədim yer adı.

çəkmişlər. Eyni zamanda Masallının mərkəzində Bəyiş quyusu su mənbəyini buradan götürərmiş. Həmin saxsı kəmərlər torpaqqazan nəhəng texnikalar meydana çıxandan sonra laqeydliklə dağıdılıb. Mehdi bulağının qorunmasında məhəllə adamlarının köməyi böyükdür. Bulağın suyundan içən hər kəs: "Loğmansan, təbibsən, Mehdi bulağı!"- deyir. Bu sözlər "Dədə Qorqud" boylarında Qazan xanın sözünü yada salır: "Qara başım qurban olsun, suyum sana..."

Görəsən, Masallıda suyu loğman olan belə bulaqların sayı nə qədərdir?

RƏVAYƏTLƏRDƏN: Deyirlər ki, qədim zamanlarda Yanardağın döşündə bir bulaq varmış. Hər kim o bulaqda əl-üzünü yuyub çimsə və onun suyundan içsə gözəlləşərmiş... Amma o bulağa gedən yolu yeddibaşlı əjdaha kəsmişdi. El qızı Gülnar deyiklisi olan el oğlu Eldara söyləyir ki, hərgah sən əjdahanı öldürüb el-obanı susuzluqdan xilas etsən, mən sənin olacağam. İgidlər igidi Eldar da yaraq-yasağını qurşanıb əjdaha ilə savaşır və ona qalıb gəlir.

ŞAH SƏFİ BULAĞI: Ərkivanın Miyondi məhəlləsindədir. Boradigah qəsəbəsinə gedən yolun aşağı hissəsində, bağ-bağatlı, səliqə ilə müasir kənd memarlığı üslubunda tikilmiş evlərlə əhatə olunub. Rəvayətə görə, görkəmli Azərbaycan sərkərdəsi Şah İsmayıl Xətai Bakı qalasını alandan sonra qoşunu ilə Təbrizə qayıdırmış. Yolüstü Ərkivanda çadır qurub dincəlir. Və buradakı bulağın suyu ilə qoşunu sirab eləyir, bir müddətdən sonra yola düşür. Elə o vax-

tdan yerli camaat buranı müqəddəsləşdirərək ziyarətgaha çevirib. Bunun üçün niyyət tutub quyuya baxmaq lazımdır. Əgər niyyət tutduqdan bir neçə saniyə sonra bulaq qaynayıb coşursa, bu, niyət edən adamın qəlbindəki niyyətin hasil olacağından xəbər verir. Məhz bu zaman bulaq qəfil coşub çağlayır.

Başqa bir rəvayətə görə sufi dairələrində yeddinci İmam Museyi-Kazimın nəslindən hesab edilən Səfəvilər sülaləsinin banisi Şeyx Səfi əd-Din Ərdəbilinin (1252 -1334) - yəni Şah İsmayılın ulu babasının Lənkəranda - Şeyx Zahid Gilaninin (1215 – 1294) yanında müridlik edərkən 1274-cü ildə burada olduğu bildirilir.

Görəsən, müqəddəs yer sayılıb ocaq kimi ziyarət olunmasaydı, Şah Səfi bulağının ömrü bu qədər uzun olacaqdımı?

HAŞİYƏ: Suya sitayiş, etiqad qədim əcdalarımızın həyat tərzində, düşüncələrində mövcud olub. Hələ atəşpərəstlik dövründə bulaq başında, axar çay kənarında müqəddəs məbədlər tikib, su ilahəsinə qızıldan heykəllər qoyarlarmış. Su ilahəsi həm də təmizliyin, saflığın, paklığın rəmzi idi. Su qədimdən ilahi qüvvə hesab olunub. İndi də dilimizdə işlədilən "Su haqqı", "Suyun mehrinə and olsun" və s. ifadələr həmin inanclardan qalmadır. İnanca görə pis yuxunu suya danışmaq baş verəcək bədbəxtliyin qabağını alır. Su insanın taleyinə təsir edən ilahi nemətdir. İnanclarda suya müqəddəs, toxunulmaz varlıq kimi yanaşılır: Suyun müqəddəsliyi Muğan bölgəsinin "Axar suya tüpürməzlər" inancında aydın şəkildə

ifadə olunub. “Su kənarında tikilən ev bərəkətli olar” deyərlər. Su həm də aydınlıq, uğur diləmək istəyidir, səfərə çıxanın arxasınca su atırlar ki, getdiyin yolla aydınlığa çıxasan və s.

ŞƏHİDLƏR BULAĞI: 1990-cı ilin Qanlı 20 Yanvar hadisəsindən sonra Ərkivanda bulaqlar silsiləsinə qoşulan yeni, göz yaşı kimi dupduru, şəffaf, təmiz su mənbəyidir. Yoldan ötüb –keçən yol adamları maşınlarını burada saxlayırlar. Sanki hər kəs ürəyində: “yolumuza bu sərin bulaq suyundan içmədən davam etsək, günaha batarıq”, - deyir. Uzaqdan gələnlər isə bulağın sərin suyundan su qablarına doldurub özləri ilə aparırlar.

AXUND BULAĞI. Qızılakücə məhəlləsinin qurtaracağındadır. 90-cı illərədək Bahar fəslində bulağın ətrafı yamyaşıl mağaranı xatırladırdı. Yamyaşıl kollarda bülbüllər cəh-cəh vurur, təzə çiçək açmış ağaclara yaz mehi sığal çəkirdi. Bulağın gözündən su içən adama elə gəlirdi ki, onun yuxarı hissəsindəki böyürtkan kolları indicə torpaq qarışıq üçüb-töküləcək üstünə. Bəlkə, nə vaxtsa ondan əsər-əlamət qalmayacaq. Kim bilir, bəlkə də, o zaman ulu vətən göylərinə, ana torpağa və bir də qoynundan su içən adamların qulağına gileylənərək vida nəğməsini oxuyurdu Axund bulağı. Sanki hər gün, hər saat, hər dəqiqə gərəyi olduğu insanlardan gileylənirdi öz bulaq dilində...

Məhəllənin yuxarı başında Fəzil bulağı var. Su çəni olan maşınlarla suyunu daşıyıb içməli sudan

korluq çəkən Ərəb, Xırmandalı, Qarğalıq, Qədirli, Eminli, Kürdabaz və başqa Muğan kəndlərində pulla satırlar. Ərkivanda Bağı, Mirzəmməd, Şəkər, Məşkur və başqa adlarla tanınan bulaqlar da var...

ŞƏHRİYAR BULAĞI. Qarğalıq kəndinin mərkəzində 3 kilometr aralıda eini adlı yaşayış məskənində olan bulağın gözü tutulub. Şəhriyar qəbiristanlığındakı qoçheykəlli məzar daşları bu bulağın qədim dövrə aid olduğundan soraq verir. Vaxtilə bu bulağın fəvvarə vuran suyu istilə yığılarmış. Ulu keçmişimizin yadigarı olan saxsı su kəmərləri, Şəhriyar bulağı kimi çox bulaqlar əjdaha caynaqlı nəhəng traktorların, iri çalovlu ekskavatorların,dəmir dişli buldozerlərin qurbanı olub. Bulaqdan aralı korlanmış Güllügöl, Duzlugöl ətrafında qədim sənətkarların taleyinə şahid olan şirli qab qırıntıları, saxsı parçaları hər qarışda adamın rastına çıxır. 1967-ci ildə məktəblilər buradan nəhəng küpün içində dəfn olunmuş insan cəsədi tapıblar. Buranın islamaqədərki tarixi arxeoloqların diqqətini cəlb edəndən sonra arxeoloji ekspedisiyanın kiçik qrupu Şəhriyar qalasında qazıntı işləri aparmışdır. 50-ci illərdə Şəhriyarın sakinləri "perspektivsiz kənd" adlandırılan bu qədim yurd yerindən köçürülsə də, buranı bir neçə ailə tərk etmədi. 20 il öncə kəndin yaşlı sakini Əsəd kişi babası Məşədi Əsəddən eşitdiyi bir rəvayəti danışdı.

RƏVAYƏT: Deyirlər ki, qədim zamanlarda islam qoşunları burada yerli adamların ciddi müqavimətinə tuş gəliblər. Bir dəfə xilafət qoşunu Şəhriyar

bulağının ətrafında dəstəmaz alıb, namaz qılırmış. Bu elə şəhriyarlıq edən sərkərdə (Şəhriyar sözünün bir mənası da şəhərin başçısı deməkdir) öz dəstəsi ilə hucuma keçib onları qır-tök edir. Sağ qalan geri çəkilərək Şəhriyar elinə qarğış edir: Çörəyiniz didərgin düşsün, torpağınız harın qalsın!..”

Bu rəvayəti eşidəndə qədim Şəhriyar qalasının xarabalığına baxan adama elə gəlir ki, qala düyünlənmiş böyük yumruğa bənzəyirdi, gözü tutulmuş Şəhriyar bulağı da elə bil buradan köçüb gedənlərin arxasınca səslənir:

Bu yerlər qala yeri,
Bürc yeri, qala yeri.
Qiyamət o gün qopar,
El köçə, qala yeri...

Bir də o zaman üç ev bir məsciddən ibarət olan qədim yurd yerini gəzib-dolaşanda ustad Şəhriyarın köksündən qopan misralar yada düşdü: “Heydərbaba, gedənlərin gəldimi?” Bu gün Şəhriyardakı evlərin sayı artsa da, sakinləri yenə içməli su həsrəti yaşayırlar.

ŞIR-ŞIR BULAĞI. Təkkeçiddən yuxarı, İstisu yolunun üstündədir. Dağların qoynundan süzülüb gələn bulaq Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhidlərin xatirəsinə yenidən abadlaşdırılıb. Yayda buralarda qızmar cənub günəşinin nəfəsqarsalayan bürküsündən Şır-şır bulağının dişgöynədən suyundan içən kimi xilas olursan.

Şır-şır bulağı qədim zamanlarda Ucarud adlanıb. Ucarud sözü türk mənbələrində ucadan tökülən su, bulaq mənasını verir. Elə Yardımlının qədim adlarından biri də Ucarud olmuşdur.

Ela arasında Bulaq suyunun səs təqlidinə görə belə adlandırılmışdır. Şır-şır bulaq «suyu səs küylü», «səs salan bulaq» mənasındadır.

KİŞİ BULAĞI. Masallıda yaşlı nəslin dediyinə görə, ötən əsrin əvvələrində İstusu ərazisi Kişi bəy adında bir şəxsin adı ilə tanınıb. Bu bulaq da onun adı ilə tanınıb. İstisudan aşağıda Viləşçayın sahilindədir.

MİR KAZIM BULAĞI: İstisuyu elmi əsaslarla kəşf edən alim, həkim, bəstəkar, şair Mir Kazım Aslanlının adı ilə tanınıb. Son dövrdə bulağın üstündə alimin adı yazılmış lövhə naməlum səbəblərdən silinmişdir.

MƏTLƏB BULAĞI: 1962- ci ildə Masallıda 8 ay rayon partiya komitəsinin birinci katibi işləmiş Mətləb Məmmədovun adı ilə bağlıdır. Qısa müddət ərzində rayonun İstisu ərazilərini qarış-qarış gəzən katib bu bulağın ətrafını abadlaşdırıb, üstünü təmir etdirib, bulağa yol çəkdirib. O vaxtdan bura Mətləb bulağı kimi tanınıb.

Bundan başqa, rayonun Kolatan kəndində Yeddi bulaq, Xanalion kəndində Rəsulullah bulağı, Zuvandlıda Daş bulaq, Əli bulağı, Qoşa bulaq, Məmmədo-

ba kəndində Cahangir bulağı, Tüklə kəndində Nəzir bulağı, Rüdəkənarda Baba bulağı, Qızılavarda Yusifli bulağı, Xoşçobanlıda İlham bulağı (Azərbaycanın Xalq artisti mərhum İlham Əsgərovun yadigarıdı) və s. bulaqlar var.

İlləri, nəsilləri yola salmış Masallı bulaqları qədirbilənlərə qarşı həmişə səxavətli olub. Babalarımız pak suyunu içib Tanrıya şükür eləyiblər. İnsan oğluna "Sucan ömrün olsun!" – deyə alqış duası söyləyiblər. Amma o müdrik babalar bilməyiblər ki, zaman gələcək, suyun, bulağın ömrü insan ömründən də qısa olacaq. Ərkivandakı Hənifə bulağı kimi! Dərə-istil deyilən ərazidə itib-batmış Hənifə bulağı kimi çox bulaqların səmtini belə müəyyən etmək çətindir. Bəzi bulaqların suyundan istifadə olunsa da, hər biri bu gün döşütəpərli oğul istəyir ki, onun ömrünü uzatsın, ətrafını abadlaşdırsın, üstünə adını yazdırsın!

Fikrimizcə, müasir dövrdə geniş turizm potensialına malik olan Masallı üçün bu, həlli vacib məsələlərdən biridir.

Su nurdur, su həyatdır, su ümiddir, saflıqdır, təmizlikdir, paklıqdır, yaşıllıqdır, gözəllikdir.

AZ.press.AZ 06.06.2016

İ S T İ S U

(esse)

...Əsrarəngiz gözəllik güşəsi, təbiət xəzinəsi - Masallı İstisuyu!

Tanrının möcüzəsi, Yanardağın nəfəsi, keçmişin əfsanəsi - Masallı İstisuyu! Viləşçayın nəğməsi, bulaqlar silsiləsi, ruhun şəfaxanəsi - Masallı İstisuyu!

Torpağın qaynar səsi, Dəmbəlo şikəstəsi, Mir Kazım nişanəsi - Masallı İstisuyu!

...Bəli, ilin hər fəsli burda dəmirağaclar məğrurluq, palıdlar dözümlük, dağlar ucallıq, dərələr dərinlik timsallı... Cənnət misallı - gözəl Masallı!..

Ana təbiətin zəngin "memarlıq arsenalına" baxdıqca düşünürsən: Kimdir bu misilsiz gözəlliyin ustad sənətkarı və şövqlə yaradanı?! Zamanmı?! Təbiətmi?! Yoxsa, İnsanmı?! Bu gün görəsən hansı hansına daha çox möhtacdır? Təbiətmi insana, insanmı təbiətə? Hansının səxavəti tükənməzdir?..

İstisu Masallıya yeri-göyü Yaradanın əvəzsiz ərmağanı, ən qiymətli töhfəsi, səfa və ŞƏFA ocağıdır. Tarixi el-obaya məlum olmayan bu təbii sərvət və onun ətrafındakı gözəlliklər indi Azərbaycanın cənub bölgəsində turizm məkanına çevrilib.

İsti yay günlərində "Mişar", "Donuzütən", "Tava daşı", "Yanardağ", "Kişi bulağı", "Fatma nənə təndiri" və İstisu meşələrinin görməli-gəzməli yerlərində uzaqdan-yaxından gələn neçə-neçə adamla rastlaşırsan... İlin yaz-yay çağında hamı istəyir ki, dosttanışla, əziz qonağı, ailə üzvləri ilə təbiətin bu gözəl, səfalı, dilbər güşəsində istirahət etsin.

Yayda bura qədəm basanda adama elə gəlir ki, istidən qorunmaq üçün hüsnünə "tül pərdə" tutmuş qocaman dağlar da, dərin dərələr də dincəlir. Qızmar cənub günəşinin odlu nəfəsi ilə "meydan sulayan" bürküdən Şır-şır bulağın dişgöynədən suyundan içən kimi xilas olursan!.. Havası can dərmanı sayılan zümrüd rəngli meşənin qoynunda səssiz-səmirsiz çağlayan çeşmələri gördükcə, zirvəsini buludlara dirəmiş Dəmbəloya, dağların ağuşuna aldığı Viləş çaya heyranlıqla baxdıqca baxırsan...

Təkkeçiddən İstisuya cəmi iki-üç kilometrdir. Asfalt döşənmiş yol yamyaşıl ağacların "müşaiyəti ilə" dağların belinə kəmər kimi dolanıb gedir.

...Bu da İstisu! Rayon mərkəzindən on üç kilometr aralı, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə qərar tutan Dəmbəlo dağının döşündə, qədim Viləş çayın sahilində yerləşən təbii şəfa və səfa ocağı!..

Burada ana təbiətin bitib-tükənməyən saxavətinə şahid olursan!.. El-obamız təbiəti əzəldən müqəddəs bilib, yurdun bulağını, ağacını, çayını, dağını, dərəsini, yal-yamacını mahnılarda, nəğmələrdə oxşayıb, əzizləyib. Təbiətin qoynu başdan-başa ilahi incəsənətdir. Cəmiyyətdə bu ilahi gözəlliyin ahəngini duyan, zamanın və məkanın ritmini tutan mahir sənətkarlardan kimi onu firçayla, kimi poetik sözlə, kimi musiqi dili ilə improvizə edir və elə Allahın yer üzünə bəxş etdiyi bu ilahi nemətləri xalqın yaddaşında əbədiləşdirir.

Bir cox qələm sahibləri, rəssamlar burada təbiətin seyrinə dalanda qeyri-ixtiyarı: "Masallı – cənnət mi-

sallı", "Gülüstan", "Gözəllik sərgisi", "Cənnətin bir addımlığında" və s. kimi poetik ifadələr düşünüblər, İstisudan ilham alaraq gözəl şeirlər, nəğmələr, rəsm əsərləri yazıb-yaradıblar. Babək Xürrəminin, Şah İsmayılın, Vətən müharibəsində, Qarabağ uğrunda şəhid olan masallıların ruhu dolaşan bu yerlərin dağları bütövlük aşılayır, mərd igidlər kimi birbirinə həyan duran palıdları, dəmirağacları sağlamlıq, təmiz suları saflıq, təmizlik, paklıq timsalıdır.

Doğma Azərbaycan təbiətinə xususi gözəllik qatan İstisu ətrafındakı nadir dəmirağac, palıd, cökə, Eldar şamı, gur şəlalələr, buz kimi bulaqlar, sakitcə axıb Xəzərə can atan Viləş çayı, quşların xoş avazı bu yerlərin hüsnünə yar-yaraşıq verir. İstisuda əsrlərin arxasından boylanan tarixi yerlərin, eləcə də qədimdən insanların şəfa ocağı adlandırdıqları İstusuyun yaranma tarixi barədə el arasında müxtəlif rəvayətlər söylənilir.

HAŞİYƏ: Hələ inqilabdan əvvəl - çar Rusiyası zamanı bura müalicə və istirahət məkanı olub. Masallı mineral yataqlarının xəritəsi ilk dəfə 28 may 1888-ci ildə Bakı quberniyasının Əmlak Komitəsi tərəfindən çəkilib. Burada səlahiyyət hüququ Şamaxı sakini Pavel Koçaryevski adlı şəxsə verilmişdir. Sonra quberniyada yüksək vəzifədə işləyən erməni məmur İstisuyun taleyini özünün yaxın qohumu olan bir erməni məmuruna həvalə edir. Özünü ağayana aparan həmin mülkədar burada gözətçi işləyən yerli sakinlərdən birini möhkəm əzişdirir. Masallıda rus dilini mükəmməl bilən ziyalılardan biri, Çaxırlı kən-

dindən olan Mirzə Əhəd Mənsur oğlu döyülən şəxsin dilindən çar Nikolaya şikayət ərizəsi yazır. Ərizə o qədər təsirli olur ki, erməni mülkədara cinayət işi açılır. (Bu da Nikolay hökümətinin ədaləti! İndiki Rus dövləti isə Cənnət Qarabağın erməni əsarətində qalmasına var gücü ilə rəvac verir!) Masallı İstisu yerli bəylərdən birinin – Kişi bəyin nəzarətinə verilir. O vaxtlar bura gələnlər kustar üsulla ağacların qol-budaqlarından "hovuz" düzəldib, istisu vannası qəbul edərmişlər.

...Böyük Vətən müharibəsindən sonra Masalli İstisuyunun şöhrəti onun hüdudlarından uzaqlara yayılır. Zaman keçdikcə İstisu özünün böyük müalicəvi əhəmiyyəti və gözəl iqlimi ilə məşhurlaşdı. Yel, oynaq, əzələ, əsəb sistemi, göbələk kimi dəri və qadın xəstəliklərinin böyük loğmanıdır İstisu...

Mərhum alim Mir Kazım Aslanlı 1955-ci ildə burada elmi tədqiqat işi aparıb, "Masallı isti hidrogen-sulfidli sularının poliatritlərə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Xəstələr burada təkcə vanna qəbul etmək yolu ilə deyil, alimim tədqiq etdiyi "Masallı-1" mineral suyundan istifadə etməklə müalicə almağa başladılar. Bu mineral su mədə-bağırsaq pozulmaları zamanı çox gözəl fayda verirdi. 60-cı illərin ortalarında ümumittifaq əhəmiyyətli müalicəvi sanatoriya statusu adının verilməsinə nail olan. M.K. Aslanlı Dəmbəlo dağının ətəyində "Gülüstan" adında möhtəşəm kurort şəhəri yaratmaq arzusunda idi. Vaxtsız ölüm bu cafakeş alimin arzusunu yarımçıq qoysa da, bu gün burada "Gülüstan", "Nil bağı", "Dəmirağac" "Yanar-

dağ", "Cənnət bağı" "Yeddi bulaq", "Turist", "Gölüstü", "Viləş", "Turan", Ərkivan qəsəbəsi ilə İstisu arasında Avropa standartlarına uyğunlaşdırılmış "Daştvənd" istirahət bazası, və s. istirahət zonaları, "Fatimeyi-Zəhra" Şəfa sanatoriyası fəaliyət göstərir. Təbiətin bu güşəsində təzə yaranan istirahət ocaqlarında yay ayları çoxlu turistlər gəlir. Bura ölkənin hər tərəfindən və xaricdən gələn turistlərin və revmatizmdən və digər xəstəliklərdən əziyyət çəkən insanların ziyarətgahına çevrilir.

Buradakı müasir saraylara baxanda yenə Mir Kazım bəy yada düşür.

Bir çox şeirlərin, qəzəllərin "Tomris" tarixi mənzum dramının müəllifi olan M. K. Aslanlının ŞAH əsəri Masallı İstisuyu oldu. O, 12 aprel 1961-ci ildə (insanın kosmosa uçduğu gün) qələmə aldığı şeirini "Masallı İstisuyu haqqında fantaziya" adlandıraraq yazırdı:

Bilirəm gələcək elə bir zaman,
Bizim İstisu da dəyişər tamam.
Gözəl saraylara bir məkan olar,
Burda xoş günlərə hər imkan olar...

...Aradan yelqanadlı illər ötdü. Təbib-alim, bəstəkar, pedaqoq Mir Kazım bəy Aslanlı şair kimi yazdığı bu fantaziyası həkim olaraq gerçəkləşdi. Fəqət, çox təəssüflər olsun ki, bu gün Masallı İstisuyu – bu şəfa ocağının hələ ötən əsrin 50-60-ci illərində əsasını qoyan o cafakeş insanın adını daşımır!!!

İSTİSUYUN PAYIZ-QIŞ MƏNZƏRƏSİ:

... Meşələrin haylı-küylü, könül oxşayan gözəlliklərini isti yay özü ilə aparıb getdi. Çılpaqlaşan ağacların görkəmindən isə nigarançılıq yağır. Həzin meh istidən qovrulmuş yarpaqlara asta-asta tumar çəkir. Yarpaqlar kövrəkləşib, kəpənək qanadları kimi zərif olublar, payız küləyinin tumarına tab gətirməyib ovxarlanırlar. Cənub meşələrinin möcüzəsi sayılan dəmirağaclar saçına xına qoymuş təbiət gözəllərinə bənzəyir. Gözəllik burada, doğurdan da, sərhəd tanımır. Payız günəşinin qızılı rəngi Yanardağın hüsnünü nura qərq edib. Dağin dağ boyda koksündə ocaq çatıbdır. Ətəklərindən pıkkır-pıkkır qaynar sular Viləşçayın qoynuna süzülür. Təbiət payız fəslinin səhifələrini bir-bir vərəqləyir göz önündə. Şəlaləyə, durnagözlü bulaqlara, dağ çayına, yollara, çığırlara tamaşa etdikcə könül bir yerdə qərar tutmur. İstisu yolunun kənarında – ana təbiətin "memar əlləri" ilə yaranmış bir mənzərə adamı lap heyrətə gətirir. Bir cüt cavan palıd meşənin dibsizliyinə qədər gedib çatan sükutun qulağına nəğmə oxuyur. Xəlvətdə "görüşən iki sevgili..." Sanki qərinələr boyu vüsala tamarzı qalan Əsli və Kərəm burda ağac qiyafəsində nəfəs-nəfəsə dayanıb, lüt-üryan bədənlərini bir-birinə sıxıblar. İlahi, çox şükür, Təbiət Qara Keşişin tilsimini sındırdı. Bəs biz? Cəmiyyət?!

Yəqin ki, bizim qara keşişlərin tilsimini qırmağımıza və Cənnət Qarabağa qovuşmağımıza da az qalıb, lap az...

22.12. 2014

MASALLININ "SÖZ BOXÇASI"

Bu yazımı Azərbaycanın Xalq artisti İlham Əsgərovun tövsiyəsi ilə radionun "Bulaq" verilişi üçün hazırlamışdım. Unudulmaz sənətkarımızın əziz xatirəsinə və ölməz ruhuna ehtiramla oxuculara təqdim edirəm!

Nənəmin ocaqdibi söhbətlərindən:

...Uzun qış gecələri həmişə nəvələrinə keçmiş zamanlarda gah şahidi olduğu, gah da eşitdiyi maraqlı əhvalatları nəql edən Bağdagül nənəmin sinəsi el-oba söhbətləri ilə dolu idi. 1986 – cı ildə 101 yaşında ikən dünyasını dəyişdi. Ahıl yaşlarında əli işdən, qəlbi, dili şirin-şirin söhbətlərdən yorulmurdu.

Onun danışdığı əhvalatlardan biri yadımda təxminən belə qalıb:

Bir dəfə Kəbə evini ziyarətə hazırlaşan Mahmud adlı bir kişi ağbirçək anasını öz cavan ömür-gün yoldaşına əmanət edib, bərk-bərk tapşırır:

- Anamdan muğayat ol, onu sənə, səni də Allaha əmanət edirəm...

Bir-biriylə halallaşandan sonra Mahmud atına süvar olub düzəlir yola... O zamanlar müqəddəs Həcc səfəri üç- dörd aydan da çox çəkirmiş.

Qərəz kişi səfərdən qayıdanda şam vaxtıymış. Uzaqdan eşidir ki, evindən çal-çağır səsi gəlir... Yaxınlaşanda pəncərədən görür ki, anası evin ortasında həm oxuyur, həm də oynayır. Arvadı da oturub süfrənın başında, həm yeyib-içir, həm də gülə-gülə diringə çalır. Yorulub əldən düşən qaynana hərdən gəlinə yalvar-yaxar edir ki:

-Ay gəlin, insafın olsun, günahdır axı, məni mütrib kimi az oynat ortalıqda...

Qaynana çox deyir, gəlin az eşidir!

Mahmud dözmür, qapını açır, girir içəri.

Soruşur ki, bu nə həngamədir?

Daşdan səs çıxır, şirin tikəsi boğazında ilişib qalan arvadından yox!

Anası kövrəlsə də dərdini oğluna belə izhar edir:

Halım budur, ay Mahmud,
Günüm budur, ay Mahmud,
Oynadıb əppək verir...
Zülüm budur, ay Mahmud.

Sən demə gəlin evin bütün işlərini qaynanasına gördürər, üstəlik hər dəfə mütrib kimi oynadandan sonra süfrəyə əyləşməyə izn verərmiş... Bax, beləcə Həcc səfərindən qayıdan ər ailəsində gəlin-qaynana münasibətlərindən hali olur və şəriət qanunlarına uyğun olaraq öz qudurğan arvadının talağını verir...

* * *

KəndimizdəMixək nənə, Darçın xala, Məşhədi Əlheydər baba, Qulam kişi, Xanımqız nənə, Gül-

dəstə bibiqızı kimi ağbirçək və ağsaqqllar olub-olmuşlardan söhbət edəndə, Bağdagül nənəmin də çiçəyi çırtlayardı.

Əkin-biçin vaxtı oxuduqları bayatıları belə dilə gətirərdi:

İstil üstə at gedər,
At gedər, murad gedər.
Yaxşı qızın cehizi
Oğlana xalat gedər...

İstil üstə kücü var,
Kücünün 40 ucu var.
Siz sevdiz. Biz gətirdik,
Bizdə bəylər gücü var...

Masallıda bagım var,
Bagda göy yarpağım var,
Iznsiz gedən YARdan
Tazə bir sorağım var.

* * *

Aşağıdakı bayatıların müəllifi isə Mir Kazım bəy Aslanlı – Sarəngdir. 1969-cü ilin noyabrında ilk dəfə efirə çıxan "Bulaq" verilişi onun ifa etdiyi və bəstələdiyi musiqilə başlayardı.

Əzizim, ay Masallı,
Məxməri çay Masallı,
Bakıda qıs xoş keçir
Səndəsə yay Masallı...

* * *

Əzizim balabanda,
Sən şikəstə çalanda,
Mən rahat can verərdim,
Gözlərin can alanda...

* * *

Əzizim gəl asta çal,
"Şur"u döndər, "Rast"da çal,
Könül nəğmələrini
Bir sevgili dosta çal.

Müasirlərinin yaddaşında həkim, alim, Azərbaycan radiosunun qızıl fondunda lent yazıları saxlanılan Kazım Aslanlının çoxlu bayatı və holavarları qalıb:

Ho öküzüm, ho-ha-ho,
Hündür dağdı Dəmbəlo.
Uşaqlar acdı,
Ev yalavacdı
Ho, öküzüm, ho-ha-ho...

Aza qail olmayan...

"Bərəkət ondursa, onu da düzlük sevər!", "Bir tikənin qədrini bilməyən, min tikənin də qədrini bilməz!" Bir də deyərlər ki, "aza qail olmayan, çoxa

nail olmaz!”

Deyir, ötən əyyamlarda bir kişi əhli-əyalı ilə can bir qəlbdə ömür sürüb: alacağından alıb, satacağından satıb ala-babat gün-güzaran keçirirmiş.

Günlərin bir günü necə olursa kişi varlanmaq sevdasına düşür. Fikirləşir ki, əvvəl gedib bir yaxşı çins at alsın. Satacağı ayın-oyunu ata çatıb aparıb Təbriz bazarında satsın, gələndə də oradan da istədiyini alıb gətirsin. Arvadına gəyişəndən sonra kişi gedir at axtarmağa. Bu axtarış bir xeyli çəkir.

Qış ağzı mal-qara başlayır qırılmağa. Arvadı fikir götürür ki, bəs, əri evə gələndə, ona nə cavab verəcək?!

Bir gün kişi pay-piyada gəlib çıxır evinə. Arvad ərinin əlindəki təzə yüyənə baxıb, xəbər alır ki, kişi, bəs atln hanı?

Kişi buna bənd imiş kimi yüyəni saz kimi sinəsinə sıxıb deyir:

Atı aldım əstinə,
Nal çəkdirdim dəstinə.
Otuz ikicə batman,
Yük də vurdum üstünə.

Öz tamahım inan ki,
Məni müşkülə saldı.
At dözməyib çərlədi,
Yüyən əlimdə qaldı...

Bunu deyib kişi ətrafa baxır. Həyət-bacanı boş görənədə üzünü arvadına tutub xəbər alır:

- Ay arvad, bu nə olan şeydi, məni agah elə!

Arvadın da sinəsi doluydu. Aldı görək, ərinə nə dedi:

O yan, bu yan eyləmə, gəl, ay kişi,
Qəfildən dünyanın çöndü gərdişi,
Ulağın qobuda ağarır dişi,
Nə çər ürcah oldu sirri qalmadı.

Yuxuda gördüyüm tez oldu gerçək,
Qəm-qüssəm çoxalıb, gəl indi dərd çək,
Evə pasibandı, yazıq boz köpək,
Bir azar tutdu ki, diri qalmadı.

Gözüm seçmir uzaq ilən yovuğu,
Döndü əzrayıla qışın soyuğu,
Qırdı mal-qaranı, qırdı toyuğu ,
Gözəl fərələrdən biri qalmadı.

Gənə düşdü, birdən qoyun –quzuya,
Duz tapmadım dərilərin duzluyam,
Çit olmadı yorğan-döşək üzlüyəm,
Qırıldı, arağaş, iri qalmadı.

Düşdün çox meylinə, itirdin azı,
İndi qəm üstündə çalğınan sazı,
Vallah anlımıza yazılmış yazı,
Pozuldu zəbəri, ziri qalmadı.

"Allahin masalli əla..."

...Bir dəfə Bakıda yas mərasimində məclisin ruhanilərə aid güşəsində əyləşən din xadimlərinin çoxunun Masallıdan olduğunu bilən bir cavan ehtiramla baş axunda belə deyir:

- Hörmətli axund, Alla-təala da bəzi məsələlərdə tərəfkeşlik eləyib ha!

Axund soruşur ki:

- Əstəğfürüllah, o necə ola bilər ki?!

Cavan oğlan cavab verir:

- Allah-təala sizin kimi möminləri Masallıya bəxş edib, hələ üstəlik SALAMI da Masallıya verib: "Allahın Masallı Əla Muhəmmədin və Ali Muhəmməd!"

Məclisdəkilər hamısı gülüşür. Axund izah edir ki:

- Cavan oğlan, Salamda Masallı deyilmir: "Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd"deyilir. Mənası da belədir: "Allahın salamı (və ya xeyir duası) olsun Məhəmmədə və onun ailəsinə"- yəni əhli- beytinə!..

"Şahin ənamini xirdalayiram..."

Deyilənlərə görə, seybətinli xanəndə Mir İslam həm də hazırcavab və zarafatcıl bir adam kimi ad çıxarıbmış. Nəql edirlər ki, bir dəfə İran şahı

Şərqin ünlü xanəndələrini sarayına dəvət edir. Böyük Muğam dəsgahı qurdurur. Məclisə xitam veriləndə şah bütün xanəndələrə ənam verir.

Mir İslama çatanda: "Məhrəba!", "Bərəkallah!"

deməklə təşəkkürünü bildirir. Ertəsi gün bazara alışverişə çıxan Mir İslam tacirlərdən hər nə alır, pul vermir, sadəcə "Məhraba!", "Bərəkallah" deyib yola düzəlir... Nəhayət, bir nəfər tacir əsəbləşib soruşur ki, bu nə sözdür deyirsən?

Mir İslam halını pozmadan deyir:

- Dünən şahınızın mənə verdiyi ənamı xirdalayıram...

Nə isə, bu söhbət şahin qulağına çatır. Xanəndəni tutub gətirirlər saraya. Şah xəbər alır:

- Bazarda çıxartdığın nə oyundur belə?

Mir İslam deyir:

- Şah sağ olsun, dünən bütün xanəndələrə qiymətli xələtlər, ənamlar verdiniz! Mənə isə "Məhraba!", "Bərəkallah" dediniz...

Şahı gülmək tutur. Barmağından fosfor qaşlı üzüyünü çıxarıb Mir İslama hədiyyə edir. Deyilənlərə görə həmin üzük gecə ətrafa gur işıq salırmış...

Mehtər əhvalati

...Ötənlərdə Mir Cavad bəyin bir mehtəri olur. El arasında "eyibsiz gözəl olmaz" deyirlər. Taleyi bu mehtərdən eybləri əsirgəməmişdi: dili pəltək, ayağı axsaq, bir qolu şikəst, üzü çopur, başı da keçəlmiş. Bəy həmişə mehtərə zarafatla deyərmiş ki, ağa sənə bir qız alacaq, dünya gözəli!" Məxləs, bir dəfə Lənkəranda qonaq olan Cavad bəy həqiqətən də tanışlarından birinin qızına elçi düşür. Deyir ki, sənin qızını elə bir oğlana alıram ki, dünyada tayı-bərabəri

yoxdur... Allah-təala ondan bir dənə yaradıb! Nə isə...

Aldım-verdim olur. Bir gün qız adamı Masallıya – Mir Cavad bəyə qonaq gəlir. Bağçada çay süfrəsində əyləşən qonaqlara mehtər xidmət edirmiş.

Bu zaman qonaqlar soruşur ki, bəs ay Cavad bəy, bizi təzə yeznə ilə tanış etməyəcəksən? Cavad bəy qımışır:

- Bəylər, gözünüzün qarşısındakı bu adam yeznədir də!

Qonaqlar peşman olurlar. Əvvəl elə bilirlər ki, Cavad bəy zarafat edir. Dübarə soruşurlar ki:

- Bə sən deyirdin, dünyada ondan bir dənədir, tayı bərabəri yoxdur?

Cavad bəy deyir:

- Əvvəla, bu tifil də Allah bir bəndəsidir, ikincisi, bunun oxşarı olan bir adam tapsanız mən təslim, odur ki, mən sözümün ağasıyam, bəy bu adamdan dünyada bir dənədir!

"Cahanda kəllə sağ olsun..."

Masallının Ağaşbəyli kənd sakini əzcazçı Əliməmməd kişi klassik poeziyanın vurğunu imiş. Bir dəfə kolxoz bazarında Racinin:

Külahun satgilən, xərc et,
tüfeyli olma namərdə,
Cahanda kəllə sağ olsun,
külah əskik deyil mərdə

-beytini ucadan deyə-deyə gedirmiş. Birdən bəstəboy bir kişi onu saxlayıb, bədahətən belə deyir:

Bir qələt sözdür, külahun sat,
külah lazımdı hər mərdə,
Dəxi, mərdanə güşəş qıl,
girifdar olma, namərdə...

Məlum olur ki, bu misaraları deyən şəxs lerikli Molla Qələm axund imiş.

Əliməmməd kişinin atası Şeyx Həsən axund İraqın Nəcəf şəhərində ali ruhani təhsili alan və şəriət hüququnu kamil bilən alimlərdən idi. Odur ki, Molla Qələm axundu hörmət və ehtiramla evinə qonaq dəvət edir.

İtələmə, gedirəm də...

Deyir, işsiz-gücsüz bir kişi hər gün məsciddə ibadət edəndə, əllərini göyə açıb: "Ay Allah, mənə çörək yetir!" – deyə dua edərmiş. Bir gün evdən çıxanda arvadı təngə gəlib ona deyir: - Ay kişi, nə girinc-giriftar qalıbsan? Get, haranın daşını başuva salırsan sal, ancaq evə çörək gətir!".

Kişi yenə kor-peşman gəlir məscidə. Dizini yerə atıb, üzünü göyə tutub:

- İlahi, əl məndən, ətək səndən – deyir, - bura sənin evindir, vallahi, yol-yolaqda nə dilənənə çörək verən var, nə də sülənənə! Ya sən mənim başıma daş

sal, ölüm, ya da bir tikə çörək ver aparım evimə!

Elə bu vaxt məscidin kümündən qırmızı kərpic parçası düşür kişinin başına. Huşunu itirir. Özünə gəlib baş -gözünün qanını silə-silə yenə üzünü göyə tutub deyir: - Allahım, bir aydır səndən çörək istəyirəm, bir tikəsini də vermirsən, bir dəfə başıma daş sal dedim, nə tez eşitdin?!..

Qamətini düzəldib, çıxıb gedəndə ayağı ilişir döşəməyə sərilmiş xalçanın qırağına. Səntirləyib üzüqoylu sərəvəzlənir yerə. Bu dəfə üzünü göyə tutub hündürdən acıqlanır ki: - Deyirlər, böyüksən, rəhmlisən, sənsə başıma daş salıbsan, hələ bir üstəlik itələyirsən də. İtələmə, gedirim də...

Alagöz əhvalatı

Nəql edirlər mollaobalı Sahib Mahmudov kənd toyunda "Segah" oxuyurmuş. Qarşı tərəfdən – toyxana çadırının deşiyindən bir göz kirpik çalmadan heyranlıqla xanəndəyə tamaşa edirmiş. Bu baxışdan kişinin təbi çuşə gəlir,peşəsi sürücü olsa da bildiyi qəzəlləri, xalq mahnılarını bu toyda daha məharətlə ifa edir. Ən çox da dostu Əlimərdanın qəzəllərini oxuyur, "Alagöz", "Şəhla göz" "Şahanə gözlər" ifadələri ilə zəngin nə qədər gözəlləmə var, yağdırır "qaynar nöqtəyə" - çadırın deşiyindən boylanan baxışların "sahibəsinə". Oxuya-oxuya fikir verir ki, zalımın qızı hər kimdirsə, heç yerindən də qımıldanmır. Qərəz, xanəndəyə alagöz gözəli görmək marağı güc gəlir. "Gözlərinə quzu kəsim, ay ala göz!"-

deyib təsnifə xitam verir. Sonra çalğıçılara: "Əyə, siz bir oyun havası çalın, mən də çıxım, bir havamı dəyişib" O vaxtlar kişi məclislərini qadınlar-qızlar toy çadrının arxasından seyr edərdilər. Sahib özünü verir, "Alagöz" səmtə. Görür ki, həmin yer tövlədi, axura bağlanmış bir buzov dartına-dartına başını söykəyib çadıra, gözünü də həmin deşikdən zilləyib içəri... Gördüyü mənzərəyə özü də qəşş eləyir. Rəhmətlik xanəndənin "Alagöz əhvalatı" belə sona çatır.

Qibləyə düz dayan!..

Deyir günlərin bir günü raykomun birinci katibi Ələvsət Baxışov maşınla Masallıdan üzü Lənkəran istiqamətinə gedirmiş. Birdən görür ki, atını buğda zəmisində otaran bir qoca yol qırağında namaz qılır. maşını saxlatdırıb kişiyə yaxınlaşır. Təmkinini pozmadan namazın başa çatmağını gözləyir. Namazını qurtaran kimi üzünü qocaya tutub deyir:

- Ay dayı. Sən qibləyə düzgün dayanmamısan.

Qoca deyir:

- Bala, 40 ildir namaz qılıram, həmişə də qibləyə belə dayanmışam.

Raykom gülümsünüb:

- Dayi, sən qibləni bu gün səhv salmısan, -deyir və kişiyə zəmidə otlayan atı göstərir, - bax, bizim qibləmiz kimi, həm də o atın ayaqları altında taptalanan çörək də müqəddəssdir.

Qoca üzrxahlıq eləyir. Baxışov da ona birinci katib olmasını bildirmədən xüdahafizləşib yoluna davam edir.

Ya sibir görürəm, ya da qəbir...

Tuthatut zamanı qorxu –hürkü camaatınqanına o qədər işləmişdi ki, hətta müharbədən 5- 6 il ötəndən sonra da adamlar hər an sürgünə göndərilmək təlaşı ilə yaşayirdılar. Sibir sözü xalq arasında "gedər-gəlməz" mənasında ifadə olunurdi. Belə nəql edirlər ki, bizim Muğan kəndlərinin birində müharibədən şikəst qayıtmış bir nəfər aclıq illərində kolxoza sədrlik edirmiş. Təkqıc sədr özüylə cəbhədən "qənimət" gətirdiyi durbinlə kolxoz idarəsinin pəncərəsindənkəndin anbarına, fermasına və ən çox da qəbiristanlığına baxmağa vərdişkar imiş...

Günlərin bir günü sədr adəti üzrə yenə gah fermanı, gah anbarı, gah da qəbiristanlığı "seyr" edirmiş. Bu zaman kolxoza baş çəkməyə gələn raykom katibi ona yaxınlaşır. Kolxoz sədri durbinlə "nəzarətini" davam etdirə-etdirə deyir ki, bu gün hara baxıram, ya Sibir görürəm, ya da qəbir.

Birdən katib soruşur ki, bu nə sözdür, ay sədr?

Sədr dönüb katibi görür,boğazı quruyur.Qərəz, özünü ələ alıb, deyir ki, ay yoldaş katib, həmişə bizim kənd qəbristanlığında adam çox olardı. Camaat acından ölənləri dəfn edirdilər. Amma bayaqdan baxıram, deyəsən bu gün kənddə ölən yoxdur, deməli, bu adamlar ya anbarı çapıblar, ya da fermanı...

Elə bu dəmdə kəndin kuryeri tövşüyə-tövşiyə içəri girir. Təngünəs deyir ki, bəs ay sədr, camaat anbarı çapıb, buğdanı da kəl arabaları ilə Üçdaş dəyirmanına aparıblar.

Sədr deyir: -Day de ki, evin yıxıldı, o buğdanı

toxumluq saxlamışdım.

Sonra üzünü raykom katibinə tutub yazıq-yazıq dillənir, - Deyirəm axı, bayaqdan hara baxıram, ya Sibir görürəm, ya da qəbir!..

Xırmandalı

Nəql olunur ki, ötənlərdə mehribançılıqda və nəfsitoxluqda ad çıxarmış iki qardaş bu oymaqda bir əkib, bir biçir, dəni dəyirmanda bir üyüdər, bölgüyə gələndə hər kəs qədərincə götürüb "bəsimdi" deyərmiş... Günlərin bir günü qardaşlar xırmandan paylarına düşən məhsulu evlərinə aparırlarmış. Böyük qardaş düşünür ki, mən evli-eşikli adamam, güzaranım da kefimcədi. Qoy kiçik qardaşımın payı çox olsun! Bu gün-sabah ailə qurar, ehtiyacı olar... Elə bu fikirlə öz payından bir hissəsini ayırıb qatır qardaşının payına … Subay qardaş da öz-özlüyündə götür-qoy edir ki, böyük qardaşım evli-eşiklidi, bir çətən külfəti var, mənmsə nə yeyənim var, nə dağıdanım, qoy məhsulun çoxunu o aparsın! Və öz payından qatır qardaşının payına... Bu minvalla paydakı nişan hər gün pozulur. Xırmandan məhsul tükənmək bilmir. El-obaya hay düşür ki, bu qardaşların xırmanı hey aşıb-daşır, xırmanı dolu qaldı...

Sonralar bu qardaşları el arasında nişan verəndə deyərmişlər: "Xırmanıdolu" filankəslər. Əlheydər kişi deyirdi ki, bizm Xırmandalı kəndinin adı bu əhvalatdan binə tutub. ("Azıx folklor muzeyi", "Sovet kəndi" qəzeti, 26 iyul 1985)

BayMedia.az, 15.02.2016

MƏNİM BAĞDAGÜL NƏNƏM

Nənəm düz otuz il əvvəl, 101 yaşında dünyasını dəyişib, cismən axirət evinə, ruhən mənim qəlbimə köçüb. Elə buna görə də heç vaxt onun yoxluğu ilə barışa bilməmişəm. Çünki sağlığında olduğu kimi, bu otuz ildə onun mübarək ruhu həmişə mənə duaçı olub; təyyarədə, gəmidə, qatarda, maşında yol gedəndə, uzaq səfərə çıxanda, içimdən boylanıb arxamca və bənövşə ətrli səsilə: "Allah, Məhəmməd, Ya Əli!.." deyib, "Gözümün nuru, dilimin əzbəri balam, Xudəvəndi-Kərim səni darda-damanda qoymasın!" - söyləyib...

Şübhəsiz, bütün nənələr nəvələr üçün əziz-girami, sevimli və unudulmaz bir varlıqdı. Mənim Bağdagül nənəm ayrı aləm idi. Biz - nəvələr ona xətir-hörmətlə "Qoca" deyə xitab edərdik. Nənəm yazı-pozu bilməsə də, canlı öyüd-örnək məktəbi idi... Söz boxçası yay-qış el-oba deyimləri, bilməcələr, gülmə-

cələr, bayatı ilə dolu olardı. Yeni dünyaya gələn nəvə-nəticələrinə şövqlə layla çalardı...

Nehrə çalxalayanda, inək sağanda, yun didəndə, xəmir yoğuranda, kündə tutanda 60-ci illərdə populyarlıq qazanan "Ninnə, yavrum, ninnə" kərkük xalq mahnısını zümzümə edərdi. Zümzümə edə-edə gözlərindən yanağına yaş süzülərdi. Əlimə qələm alan gündən bədii-publisistik yazılarımda onun söz boxçasından çox bəhrələnmişəm... Ən çox da nənəmin ocaqdibi söhbətlərini "ipə-sapa" düzüb "Bulaq" DƏDƏyə (radioya) sovqat göndərmişəm. (Bu arada o zaman radiodan, qəzetlərdən aldığım qonorarların talonuna baxıram. Sən demə, tələbəlik illəri –"dünyanın düz və duzçörəkli çağlarında" nənəmin yaddaşını ağ kağıza köçürərək əməlli - başlı pul da qazanmışam... Allah sənə qəni-qəni rəhmət eləsin, ay nənə!)

"Eminalı qulabanı", "Halım budur ay Mahmud", "Paçadan bülöv yaxşıdır", "Hacı Nəsir anasıyam", "Gülüş gölü", "Madı qulabanı","Aza qail olmayan" və başqa məzəli söhbətlərini və əhvalatlarını dönədönə eşitmişdim, yadımda qalanları bu gün də söz vaxtına çəkəndə dost-tanışa böyük həvəslə danışıram. "Azərnur" etnoqrafik romanımda, "Ömür vağzalı" kitabımdakı "Muğan trilogiyası"na daxil etdiyim, "Qara camış", "Qızıl inək" və "Səmənd at" hekayələrimdə nənəmin dilindən eşitdiyim arxaik ifadələrdən istifadə etmişəm.

"Busağa"(astana), "nüdrətən" (arabir, az-az), "darqursax" (səbirsiz adam), "ləlöyün"(acgöz), "təvaxül"(səbr),"nodərəmət"(qəribə, naqolay, narahat və ya ipə-sapa yatmaz mənasında), "dələngavaz"

(nahamar),"dələmurd eləmək" (seçib götürmək, öz xeyrini güdmək, yararlanmaq) və s. köhnə sözlər nənəmin "kitabında" çox idi.

"Çömçəyə qail olmayan canım, indi qaşığa möhtac olmuşam", "Bəxtəvər başıma, xoş halıma!", "Babanın tüfəngini yenə aldı əlinə...", "Canavar, canavar gəl məni ye!", "Birini görüb şükür elədim, birini görüb fikir elədim" və başqa deyimlərinin nənəmin dilində öz izahı vardı. Məsələn, bizdən bir xeyli aralıda yaşayan əmilərimgilə baş çəkib evə dönəndə anam soruşardı ki, getdiyin yerdə nə var, nə yox? Cavab verərdi ki, Qəhrəman qızı, (nənəm anamı həmişə atasının adı ilə çağırardı) heç soruşma, birini görüb şükür elədim, birini görüb fikir elədim". Çox sonralar öyrəndim ki, sən demə, əmidostu dediyimiz o biri gəlinlərinin –Lətifə bacı (Aydın əmimin yoldaşı) ilə Sənəm bacının (Niftalı əmimin yoldaşı) eveşiklərindəki səliqə-sahmanı müqayisəli şəkildə nəzərdən keçirib belə deyirmiş...

Nənəm elə bil üç böyük ailənin ali məclis sədri idi. Dədəm və iki əmim həmişə işdən evə dönən kimi ona "hesabat" verərdi... Ortancıl əmim Niftalı sovxozda təhlükəsizlik mühəndisi, həm də kəndmizin tanınmış ovçularından biri idi, kiçik əmim Aydın rus dili müəllimi, bir müddət kənd sovetinin sədri olub... Adətən, şamı bizdə edib, evlərinə gedərdilər, elə olurdu ki, yubanardılar, Aydın əmim onda nənəmə zarfatla deyirdi ki, "şambalası" istəyirəm... Nənəm də deyirdi, əmim uşaqlıq xəsiyyətindən hələ də əl çəkməyib və durub qatıqdan-qaymaqdan əlinə nə düşsəydi əmim üçün gətirərdi...

Nənəm deyərdi ki, bizim Nəsir adında da bir əmimiz olub. Nəsir əmimin yaxşı səsi varmiş, çöllərdə oxuyanda səsi kəndə çatırmış... Yeniyetmə çağında tay-tuşları əmimi Gür-gür çaya atıblar ki, soyuqlasın, səsi batsın, o isə səltəlcəm olub vəfat edir. Nəsirin adını mənimlə yaşıd əmim oğluna qoyublar.

...Nənəmin Gülbədən adında yeganə qızı – yəni bibim müharibə zamanı (1941-45-ci illərdə) kolxozda briqadir olub. Özü də elə "Türək səsi"ndəki Qılınc Qurban kimi sərt imiş... Aydın əmim uşaq olanda nənəm onu beşiklə işə aparırmış. Taxıl yığımında, çəltik biçinində bibim hamı kimi öz doğma anasını yoxlayarmış, bir dəfə əmimin beşiyindən beş-altı sünbül tapıb. Bibim buna görə az qala nənəmi tribunala verə...

Bibim çox gözəl imiş... Nənəm deyirdi Qarabucaqdan gələn zənən xanəndə toyda onun şəninə belə bayatı oxuyub:

Əzizim gül bədənə,
Şeh qonub gül bədənə,
Bir dəstə gül olaydım,
Sarılaydım Gülbədənə...

Gülbədən bibim vur-tut altı ayın gəlini olub, müharibəyə gedən ərindən qara kağız alan gündən qara geyib, göy bağlayıb, amma işdən-gücdən qalmayıb və günlərin bir günü qəflətən dünyasını dəyişib. Nənəm həmişə bibimi yada salanda göz yaşı içində bu ağını deyərdi:

Bülbül gül barabarı
Ceyran çöl barabarı
Gülbədən balam ölüb
Bütün el barabarı...

Nənəmin duası:

"Bala, görüm sənin sinəndə ağ tüklər bitsin!"
Nənəmin alqışı:
"Səni verən Allaha qurban olum!"
Nənəmin qarğışı: "Görüm basaratın bağlansın!"
Dədəm hirslənəndə deyərdi:
"Torpağı sanı yaşasın, dayısı İstama çəkib!"

İstam kişi də bizim kənddə qaravolçu imiş. Həm tərs, həm də çox dindar kişiymiş. Kolxozun bağ-bostanını, anbara, xarmana yığılan məsullarını göz bəbəyi kimi qoruyarmış. Günlərin bir günü kolxoz anbarının həyətində cuvallara doldurulub bir-birinin üstünə qalaqlanmış soğanın qarovulunu çəkirmiş. Arvadı ona günorta yeməyi gətirir. İstam kişi pələmədə süfrəni açıb, bismillah edəndə görür ki, bəs arvad evdən soğan gətirməyib. Başlayır arvadını danlamağa ki, bəyəm sən bilmirsən, mən bozbaşı soğansız yeyə bilmirəm? Arvad deyir, a kişi, vallah-billah, yadımdan çıxıb, indi dünya dağılmaz ki, kolxozun bir baş soğanını götürüb, günortanı yola versən?!

İstam kişi coşur. Hikkəsindən arvadının gətirdiyi yeməyi geri qaytarır. Deyir:

-Ay filan-filanın qızı, istəyirsən yaşımın bu ahıl çağında haram yeyib, dost-düşmən yanında xar

olum? Allah-təala mənə bu bir baş soğana görə o dünyada, hökümətsə bu dünyada sorğu-sual edər!..

Mən orta məktəbdə oxuyanda nənəmi bacısı oğlu Sosialist Əməyi Qəhrəmanı, Əməkdar İnşaatçı Seyid Məhəmməd Hüseynov bir neçə dəfə Bakıdakı evinə qonaq aparmışdı. Nənəm doqquzuncu mərtəbədə, dördotaqlı geniş mənzildə yox, çıxıb küləfirəngi dediyi balkonda yatarmış. Yorğan sırımaqda, həsir toxumaqda nənəm mahir idi. Həyətimizdəki qoşa təndiri özü "inşa" etmişdi...

Namaz qılıb, oruc tutardı. 60-cı illərdə kənd soveti Leyla xanım bizə gəlib, Qara camışımızı ət planına görə rayondakı heyvan kəsilən məntəqəyə aparmaq istəyəndə, nənəm dedi, ay qızım, hesab var dinar-dinar, bəxşiş var xalvar-xalvar, mən namaz qılan, oruc tutan admam, göz görə-görə bu heyvanı bıçaq altına göndərsəm, Allah yanında böyük günah qazanaram...

Müdrik nənəm fil boyda Qara camışımızı belə xilas elədi. Yağışda-qarda mal-qaramız azıb çöldə-bayırda qalanda, nənəm narahatçılıq içində deyərdi: "Elə bil qar-yağış qarnımın içinə yağır..."

Uşaq vaxtı həyətimizdə nənəmin YUN topasını necə didib, sonra nar çubuğu ilə döyəclədiyini yaxşı xatırlayıram. İndi bəzən dərd məndə güzgülənəndə, kədər qəlbimi didəndə, dəqiqələr, saatların tanha RUHUMU döyəcləyəndə öz-özümə:

...Kədər didir qəbimi,
Nənəm yun didən kimi – *pıçıldayıram...*

Bir dəfə dədəm evə əli avtomatlı 5-6 sərhədçi əsgərlə və bir zabitlə gəldi. Nənəm tez olsun deyə, ət kotleti bişirdi, isti təndir çörəyi, motal pendiri, göy-göyərti süfrəyə qoyuldu. Onlar gedəndən sonra nənəm evin xalça-palazını həyətə çıxardı, qab-qacağı suya çəkib, salavatladı..."Ay Ədil, bunlar başqa dindəndi axı..." Dədəm gülə-gülə dedi ki: "Böyükləri Qabasaqqalovdu, müsəlmandı. Muğan yolunda sərhəd pozan adamı axtarırdılar, gördüm ac-susuzdular, gətirdim evə"

Dədəm cavan vaxtlarında tay-tuşları ilə uzaq səfərə hazırlaşırmış. Nənəm yuxu görür, "Ədil, səni and verrəm, o bir olan Allaha, getmə, bu səfərdən sənə xeyir gəlməz, əgər getsən, döşümün südünü sənə haram edərəm!" Dədəm nənəmə qulaq asır və heç hara getmir. Çox sonralar dədəm etiraf etdi ki, birlikdə səfərə getmək istədiyi adamlar Azərbaycandan çıxarkən ağır yol qəzasına düşüblər.

Nənəmin xeyir-dualarıömür ağacının barı-bəhəri idi. Ürəyindən tikan çıxaran iş görəndə deyərdi: "Bala, görüm sinəndə ağ tüklər bitsin!" Kimsənin gördüyü iş ürəyincə olmayanda: "Sən atı dalından xamutlayırsan!"-söylərdi.

Balıq buğlamasını özünəməxsus üsulla çox gözəl bişirərdi, nənəmin plovu kəndə "bənöyşə plov" kimi ad çıxarmışdı. Ahıl yaşında umac, xəmiraşı, əriştə, dovğa, əvəlik dolması, fətir, halva, Muğan çığırtması, mərciqəlyəsi, şüyüdlü paxla plov, boranı plov və başqa dadlı-tamlı biş-düşləri özü hazırlardı. Beqəfil qonaq gələndə elə bil bişirdiyi xörəyə Allah bərəkət qatardı...

90-95 yaşında 3-4 cavan gəlinin görə biləcəyi qədər ev-eşik işlərini görürdü. Nənəmin həyətimizdəki iri tut ağacının altında taxtı vardı. Bəzən saatlarla taxtında oturub fikrə gedərdi, gözləri yol çəkə-çəkə ağı deyərdi. Biz Xırmandalı yazsaq da, kəndimizin adı yaşlı adamların dilində Xarmandalı kimi tələfəüz olunurdu. Nənəmsə kəndimizin adına Harmandalı deyərdi.. Maraqlısı budur ki, "Harmandalı" qardaş Türküyədə bu gün dəbdə olan ən qədim xalq oyun havasıdır. Xırmandalı tayfalarının Anadolu və Kərkük mahalı ilə sıx bağlılığı haqqında qaynaqlarda məlumat var. Bizim kənddə məişətdə ağ neft üçün işlədilən bir şüşə qab vardı. Nənəm yaşda olanların çoxu adına "Hələbi" deyirdi. Mən "Hələbi" ifadəsinə yalnız Masallıda (bu adı da Mosulla əlaqələndirənlər az deyil) rast gəlmişəm. Təqribən 300 il əvvəl Ərdəbildən köçüb gələn bizim Muğan oymaqlarına "Şahsevən" də deyillər. Nənəmin bu fikrə öz münasibəti vardı: "Biz necə şahsevən olmuşuq ki, Muğanın ilan mələyən çöllərinə gəlib çıxmışıq? Əslində biz şahsöyənik, şahı söyüb, şaha asi olduqlarına görə ulu babalarınızı Ərdəbildən bura köçürüblər..."

Nənəm qonşu Təklə kəndinə Təkləməkan, oradakı bəzi uzaq qohumlarına Qara(y)manlı deyərdi... Masallının Muğan bölgəsində 30-cu illərdə Cəlayır adlanan inzibatı ərazinin olması da nənəmdən eşitmişəm. Hətta deyərdi ki, baban yeddipara (yəni birbirinə yaxın olan yeddi kiçik kəndi əhatə edən) Cəlayırın "ispolkomu" olub. Babam Qəhrəman Nifti oğlu Cəlayrlı kənd sovetinin sədri olanda rayon firqə ki-

mitəsinə çağırıb bir bilet verib deyirlər ki, bu gündən "Allahsızlar cəmiyyəti"nin üzvüsən. "O nə olan şeydir?" soruşanda babama izah edirlər ki, kolxozda, kənddə ateizim təbliğatı aparacaqsan, adamları başa salacaqsan ki, Allah yoxdur, əfsanədir və s.

-Siz nə danışırsız? Əstəfurullah. Mən özüm Allaha inana-inana, camaata necə deyim Allah yoxdu?

-Onda partbiletini qaytar!

Babama döş cibindən partbiletini çıxarıb, hirslı atır adamın üstünə, deyir ki, bu bir parça kağıza görə Allahımı danacağammı? Və işdən çıxır. Sən demə, babamın oruc tutub, namaz qılması barədə sovet sədri olduğu ərazidən kimsə raykoma şikayət yazıbmış.

...Uşaq vaxtı mənə deyərdi, gözümün nuru, zəmi xəndəyindən o tərəfə getmə.

Nənəmin "kitabında" zəmi xəndəyi vəhşi heyvanlarla insanlar arasında sərhəd idi. Tələbə olanda əlini qurşağına salıb mənə pul verərdi. Bir neçə aylıq qocalıq təqaüdünü yığıb saxlardı, Bakıya yola düşəndə mənə xərclik verərdi. Nənəmin pulu o qədər bərəkətli olurdu ki, imtahan sessiyasından qayıdanda evə o vaxtın "Nağıl" tortundan, "Çinar" konfetindən alardım...

Nənəm dünyasını dəyişəndə, mən Riqa şəhərində idim. O gün ruhum içimdə vurnuxurdu. Elə bil qürbətdə başımın üstündə onun mübarək ruhu qanad açmışdı. Özümü nənəm demişkən, həddən ziyadə nodərəmət hiss edirdim. O gün dədəmə teleqram göndərdim. Nənəmin kefini soruşdum. Yazdı ki, sağ-salamatçılıqdı. Mən də nənəmə yarayan buta şə-

killi on iki metrəlik (taxtalıq) donluq parça aldım. Ömrümdə ilk dəfə nənəmə öz qazancımdan hədiyyə alırdım. Elə sevinirdim ki...

Demə, evimizə dönəndə sevincimə kədər buludu çökəcəkmiş... Eynən nənəm yun didən kimi kədər qəlbimi diddi. Dədəm nənəm üçün aldığım hədiyyə ilə birlikdə məni bağrına basdı: - Nənənə görə vaysınma! Allaha xoş getməz. Aldığın bu hədiyyədən indi ruhu agah olub, sənə dua edir...

Sonra birlikdə nənəmin məzarını ziyarət etdik. Dədəm əzbərdən bildiyi "Yasin" sürəsini avazla oxudu. Mən baş daşında nənəmin doğum tarixinin düz yazılmadığını görüb məyus oldum və buna görə Kərbəlayı Aydın əmimi qınadım. Əmimsə mənə: "Doğum- ölüm iki dünya qapısıdı..." deyib sirli-soraqlı rəqəmlərin fəlsəfəsindən ətraflı söhbət açdı...

Bəli, aradan otuz il keçib. İndi nənəmin məzarının ətrafında atamın, anamın, qardaşımın, əmimin, əmidostumun və başqa qohumlarımızın baş daşları ucalır. Sanki sağlığında olduğu kimi, yenə nənəmin ətrafına yığışıb, onun şirin söhbətlərinə qulaq asırlar...

23.02.2016
"Nənəmin söz boxçası"başlığı ilə "Kredo" qəzetində (11 mart 2016. səh.6.) dərc olunub

TƏBİƏTİN İNSANLARA BARİŞ TƏKLİFİ

...El-oba böyük ruh yüksəkliyi ilə hər il martın ilk günlərindən başlayaraq güllü, butalı Novruzun pişvazına çıxmağa tədarük görür. Üzümüzə yaz nəfəsi toxunan bu nurlu səhərlərin birində baxıb görərik ki, bağ-baxçada gül-gülü çağırır, bülbül-bülbülü. Tumurcuq vurmuş ağaclar ağac, baharı ilk müjdələyən quşlar quş dili ilə Novruzun gəlişindən soraq verirlər. Yol-yolağı bürüyər yaz ətri, yasəmən qoxusu.

Qartallar zirvəyə, şəlalələr dağlara, leyləklər səmaya, baharsa azad Azərbaycana yaraşır.

...İlk dəfə 1967-ci ildə Şixəli Qurbanovun təşəbbüsüylə rəsmi "milli vətəndaşlıq pasportu" alan bu bayram doğma Azərbaycanımızın taleyinə günəş təki doğdu. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra Novruzun hər gəlişi Odlar Yurdunun adına ucalıq, əzəmətinə əzəmət, vüqarına vüqar qatdı, bayram şənlikləri təntənəli məqamlarla zənginləşdi. Artıq 25 – ci bahardır ki, Novruz xalqla dövlətin vəhdəti işığında qarşılanır; dövlət başçısı da, el aşığı da, sadə insan da ümumxalq şənliyində birlikdə iştirak edir. Qədim xalq oyunları, kosayla keçəlin məzhəkəsi, Novruz atəşfəşanlığı, xoruz döyüşü, halay qurub yallı gedənlər bahar məclislərinə ülfət gətirir, sevinc, gülüş töhfəsi bəxş edir. Deyərlər, yazda gülə-

nin ömrü də uzun olar. Bahar – ana təbiətin insanlara bərabərlik, mehribançılıq, barış təklifidir...

Haşiyə: Mənbələrdə göstərilir ki, Novruz nə bir məzhəb, nə də bir dinin bayramı deyil. Mahmud Kaşğarlının "Divan-i-Lüğəti-türk"ündə, Səlcuqlu Vəzir Nizamülmülkün "Siyasətnaməsi"ndə, Məlikşahın təqvimində, Ağqoyunlu hökmüdarı Uzun Həsənini qanunlarında, Qazi Bürhanəddinin, Səfəvi-Qızılbaş şahı Şah İsmayılın divanında türklərin yaşam tərzini, adət-ənənəsini əks etdirən Novruz bayramının ortaq türk bayramı olduğu göstərilir. Qədim dövrlərdə bu bayramın adı Novruz deyil, Tura adlanardı. Tura – Törə (törəmək) sözündən yaranıb ki, bu gün dilimizdə işlətdiyimiz Turan sözü də bu addan götürülüb. Tura yeni günün başlanğıcı kimi qeyd edildiyindən, farslar bu sözü Nov-yeni, ruz-gün ilə əvəzləyiblər. Sonralar elə bayramın adı Novruz kimi yaddaşlarda daha çox qalıb...

Artıq 25 – ci bahardır ki, üçrəngli bayrağımız allı-güllü Novruzun gözəlliyinə gözəllik qatır... Novruz abadlıq, səliqə sahman, barışıq və s. ilə yanaşı həmrəylik və SÜLH rəmzidir, bütün nəsillərdən olan insanların bir-birinə bənzərsiz etiram vədəsidir. Fəsillərin və nəsillərin görüş çağıdır. Müdrik babalar "iltəhvil saatı"ndan bir az öncə təp-təzə paltar geyinərək süfrə başına yığışan nəvələrinə öyüd verərdilər ki, bəs dədə-baba atəti var: Belə əziz axşamlarda kimsəsizləri tək qoymazlar, elə ki, NOVRUZun "topu atıldı" durun, bayram xonçasından pay götürün, gedin sonsuzlara, kimsəsiz qocalara baş çəkin! Savab qazanın, bu əziz axşamda... Bəli, əzəldən elin

gözü tərəzi, dürlü-dürlü sözü batman olub! Zarafat deyil, adı dağdan ağır ulu adət-ənənəmiz boylanır bir dünya yaşıllığın içindən. Ağsaqqallar deyərlər ki, köhnə ilim haqq-hesabını təzə ilə saxlamazlar. Beləcə ilin axır çərşənbəsinə kimi borclar ödənilərdi.

...Torpağa sonsuz sevgisi ilə cütü-xışı yaradan babalar: "Durna gəldi şuma çıx..." – deyə sumaçıxma mərasiminə səsləyərdilər əkinçiləri. Toxum səpməyi elin-obanın ən hörmətli, ayağısayalı adamlarına etibar edərdilər...

Göydən yerə nur ələndikcə, ana torpağın bahar fərəhi, sevgisi köksünə sığmaz. Bir də görərsən ki, yaz yağışı ilə yaz günəşi səmada bir möcüzə yaradıb, gəl görəsən. Qovsi-quzeh masmavi göyə qurşaq atıb. El inamına görə göy qurşağının altından keçən adam nə arzu etsə, hasil olar!.. Bir də el arasında yeddi rəngli göy qurşağına qarı nənənin örkəni, Fatma nənənin hənası da deyirlər. Novruz bayramı öynəsində elin başbilənləri göy qurşağına baxıb, nəyin bol, nəyin qıt olacağını xəbər verərdilər; qırmızı rəng arpa-buğdanın, sarı rəng darının, yaşıl rəng paxlanın rəmzi sayılırdı...

Xeyirli –bərəkətli yaz günləri evlərdə şirinçörək, şəkərbura, paxlava bişirən gəlinlərimiz, ana və nənələrimiz bir-birinə könülxoşluğuyla, qəlbaçıqlığıyla: "Toy çörəyi yapasan!", "Bayam xoncasını ilbəil artıq tutasan!"- deyə xeyir-dualar verərlər.

Bayram xonçasında yamyaşıl səməni tellənər, ətrafında rəngbərəng şamlar yandırarlar. Bu şamlar da adi şamlar sayılmaz. Arzu, sevgi, murad şamları deyərlər onlara! Hər evdə baharın ilk nemətinə - səməniyə alqış nəğmələri qoşular:

Səməni, saxla məni,
İldə göyərdərəm səni...

Bayram süfrələrinə adətə görə, gərək yeddi löyün xörək, çərəz, mer-meyvə düzülə, həyətlərdə, meydanlarda yeddi tonqal çatıla:

Ağırlığım- uğurluğum
Burda qalsın...

-deyib hoppanarlar uşaqlı-böyüklü tonqalların üstündən. (Bu gün xalqımızın nə ki, dərdi, ağrısı varsa, qoy Novruz tonqallarında alışıb yansın!)

Atıl-matıl, çərşənbə,
Bəxtim açıl, çərşənbə!

-deyərək qəlblərində gizli istək, sevgi cücərən el qızları niyyətlərinin işığında yamyaşıl sabahlara boylana-boylana qapıpusduya yollanar qonum-qonşu qapısına. Adətən üç evə baş çəkib, qapı pusarlar. Odur ki, hər evin ağbirçəyi-ağsaqqalı buyurar ki, belə əziz axşamlarda gərəkdi ki, xoş sözlər danışasan, olub-olmuşlardan məzəli söhbətləri yada salıb, deyib-güləsən...

Bayram küsülü sevməz...

Yazın gəlişinin ən ümdəsi onunla əlamətdardır ki, çoxdanın küsülüləri bir-birilə əl tutub bayramlaşar, umu-küsünü unudarlar. Babalar “Bayram küsülü

sevməz”-deyə ən yaman günün küsülülərini belə barışığa çağırar, ağbirçək nənələr də deyərlər:

Gəbənin eni qarış,
Güllü – butalı naxış.
Bayram küsülü sevməz
Qadan alım, gəl barış!

Əsrlərin sınağından çıxmış Novruz ruhlu uluca-uluca nəğmələr, bilməcələr, söyləmələr məclislərimizə şadlıq-şadyanalıq gətirər-yazın bu vədələrində. El-obada sinədəftər qocaların bayatı dolu ocaqdibi söhbətləri bayramın söz bəzəyi olar.

...Oğlan uşaqları bahar rəngli qurşaqlar atarlar evlərin qapısından. Qəlblərinin genişliyi yerə-göyə sığmayanlar qurşaq atanları sevindirər; iydə, kişmiş, badam, qoz, fındıq, rəngli yumurtalar düşər uşaqların paylarına.

Əvvəllər belə günlərdə unnuqlarda una basdırılmış yumurtaları döyüşdürərdilər. Yumurta döyüşünün bir növünə də “qatar döyüşü” deyərlər. Bu zaman adətdir ki, baxışmaz və dəyiş-düyüş etməzlər. Ən bərk yumurta səsəl adlanardı. El arasında bu günəcən sınaqlardan çıxmış mərd adama filankəs “qatardan çıxıb” deyirlər. İnsanlar arasında barişı, mehribançılığı yaradan həm də maraqlı xalq oyunları idi. “Sultanoyunu”, “Bəhməngizir”, “Əlbəndi”, “Gözbağlama”, “Təkbələncüt”, “Xan-xan” oyunu, “Beş daş”, “Dirədöymə”, “Atmindi” və s. xalq oyunları insanlarda bayram ovqatı ilə yanaşı sağlam düşüncə, möhkəm birlik yaradırdı.

Novruz Azərbaycanda və dünyada yaşayan müxtəlif millətlərin arasında birliyin və mehribanlığın möhkəmləndirilməsində, onların bir-birinə mərhəmət və diqqət göstərməsində humanizm ənənələrinə malik bayramdır.

Sevindirici haldır ki, Azərbaycanın təşəbbüsü ilə Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib, 2010-cu ilin fevralın 23-də isə BMT Baş Məclisi Şərq və Qərb mədəniyyətlərinin xüsusiyyətlərini, həmrəylik ideallarını özündə ehtiva etdiyini nəzərə alaraq, martın 21-ni "Beynəlxlaq Novruz Günü" elan edib.

Azərbaycanda qədimdən Novruz günü bütün ailə üzvlərinin birlikdə mübarək bayram süfrəsinin başına yığışması yaxşı əlamət sayılır. Son illər Novruz ərəfəsi cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum olmuş yüzlərcə məhbus əhv olunaraq, ailələri ilə birlikdə bayram sevinci yaşayırlar. Milli adət-ənənələrimizə dərin ehtirmdan irəli gələn və humanizm meyarlarına söykənən bu addımın atılması çox təqdirəlayiq haldır.

Bu milli bayram günlərində həm də bizə əziz və müqəddəs insanların, doğmalarımızın məzarını ziyarət edir, xatirələrini anır, ruhlarına dualar oxuyuruq.

Ulu Tanrıdan diləyimiz budur ki, çal-çağırlı Novruz şənliklərini tezliklə yurdumuzun Qarabağ adlı cənnət güşəsində də keçirək. Qoy əzəli torpaqlarımızda bayram tonqalları şölələnsin!

Bu gün iqdisadi böhranın çətinlikləri ilə üzləşsək də Bahar şənlikləri əhval-ruhiyyəmizə xoş ovqat qatır. Hər evə, hər ailəyə, uşaqdan –böyüyə hər bir

Azərbaycan vətəndaşına bayram ovqatı və sevinci yaşadan tonqalların BUTA şəkilli alov dilimləri də Odlar Yurdunun keçmişini, və indisini və xalqımızın sülhə, barışa, xeyirxahlığa sevgisini təcəssüm etdirir.

Qoy bu Novruzun qədəmləri uğurlu olsun! Təkrarsız sənət incimiz olan muğam festivalları Azərbaycanın musiqi beşiyi Şuşada keçirilsin! Bax, o zaman, novbəti Novruz daha əzəmətli, daha möhtəşəm, çal-çağırlı olacaq. Bu arzunu gerçəkləşdirmək üçün - Yurda sevgimizi, Ulu Novruzun bizə bəxş etdiyi milli birliyimizi əməli işlərimizlə sübut etməliyik.

Hər birinizə tükənməz yurd sevgisi, xeyir əməl və bir də Qarabağda görüşmək istəyi ilə...

Manera. az. 15-03-2016.

"İki sahil" qəzetində (2 mart 2012-ci ik səh.17)
"Novruz milli birlik bayramıdır"
başlığı ilə dərc olunub.

Elimizdən-obamızdan:

EMİNALI QULABANI

...O vaxtlar uşaqlıq dünyamızın bircə tələbi var idi: bir yerə yığışıb yoruldum deyənə kimi oynamaq! Belə vaxtlarda Bağdagül nənəm on iki taxtalıq tumanının balağını əlinə dəstələyib bizə səslənərdi:

-Ay uşaq, Eminalı qulabanına döndərmisiz ha, buranı... Bəyəm yer başınıza qəhətdi bu mahalda?

Yığışıb keçərdik başqa küçəyə. Burada da Mixək xalam başlayardı deyinməyə:

-A bala, Eminalı qulabanına döndərməyin buranı, gedin başqa yerdə oynayın!

Elə o vaxtdan fikirləşirdim ki, görəsən Eminalı kim olub belə? Yaşı səksəni haqlamış qonşumuz Məşdi Əlheydər baba xətrimi çox istəyirdi. Eminalı yurdu, Eminalı qulabanı haqqında Əlheydər babadan başqa da bir neçə ağsaqqalın –ağbirçəyin xatirəsini ipa-sapa düzüb Azərbaycan radiosnunun "Bulaq" verilişinə yolladım. Yazdıqlarım görkəmli sənətkarlarımız Məhluqə Sadıqova və Səməndər Rzayevin ifasında o qədər gözəl səsləndi ki, ertəsi gün "Araz" radiosunda "Bulaq"ın təkrarına demək olar ki, kəndin yarıbayarsı qulaq asdı...

Çox çəkmədi ki, Eminalı qulabanı haqqında ya-

zım “Çağırış” qəzetinin 23 aprel 1985-ci il sayında “El-obanın söz boxçasından” rubrikası altında dərc olundu. Aradan 32 il keçsə də Bahar bayramı ərəfəsində həmin yazının bu gün də aktuallığını nəzərə alıb oxuculara təqdim edirəm.

...Ötənlərdə bizim Masallı rayonunun Xırmandalı kəndində uşaqdan tutmuş böyüyəcən hamı Eminalı kişini yaxşı tanıyır, adını xətir-hörmətlə dilə gətirərmiş... Eminalı kişi çox şən və söhbətciıl adammış. Bu kişinin evinin günbatan tərəfində geniş meydan varmış. Necə deyərlər, lap cıdır meydanı kimi. Eminalı kişinin sağlığında yığılarmış kəndin uşağı, cavanı, qocası bura, hərə öz istədiyi kimi əylənərmiş. Bu qulabanda o vaxtlar müxtəlif xalq oyunları keçirilərmiş. “Mollamindi”, “Qayışgötürdü”, “Bəhməngizir”, “Əzzəlli”, “Atmindi”, “Gizlənpaç”, “Coz”, “Çilingağac”, “Donuzdöydü”, “Beş daş” və s.

Deyilənlərə görə ahıl vaxtlarında Məşəd Camal kişi, Məmməd kişi, Qəhrəman baba cavanlarla birlikdə “Qayışgötürdü”nü xüsusi məharətlə oynarmışlar.

Emnalı dünyadan köçəndən sonra da camaat bura yığışarmış. Qısası, kim-kimi harda itirsəymiş Eminalı qulabanında taparmış. Gün günortadan əyilən vaxt bir qonşu digərini səsləyərmiş ki: “Ə, qonşu, gəl gedək Eminalı qulabanına”. Deyilənlərə görə, bahar bayramlarında buranın başqa cəh-calalı varmış. Şirinli-noğullu bayram günləri el-oba camaatı halay vurub məzəli söhbətlər edərmişlər

Eyni kişi

Bir Eyni kişi varmış. Bu Eyni kişinin ağzında bir dənə də dişi yox imiş. Eminalı qulabanı kəndin gur yeri olduğuna görə Eyni kişi burada saqqız satarmış. Satarmış deyəndə ki, uşaqlar yumurta verib saqqız alarmışlar. Belə də olurmuş ki, uşaqlar nisyə istəyirmişlər saqqızı. Eyni kişi də verməzmiş. Uşaqlar atılıb düşə-düşə, oxuyarlarmışlar:

Allah verib Eyniyə,
Dişləri yox çeyniyə.
Saqqızı nisyə verməz,
Səhər-axşam deyniyər.

Qonaqdır axı...

Qəhrəman baba ucaboylu, enlikürək, pəhləvan cüssəli kişiymiş. Bir dəfə kəndin günbatanındakı İstilin bəndini su yarır. Bu su ilə camaat yayda kolxozun bağ-bostanını suvararmış. Qəhrəman baba bəndin qabağına torpaq tökən kimi su yuyub aparırmış. Deyirlər, axırda kişi naəlac qalıb enli kürəyini verir bəndin su yarılan hissəsinə, üzünü kəndə sarı tutur ki: "Əyə, tez olun köməyə gəlin, bəs İstildə su qalmadı heyy!.."

Günlərin bir günü kənddə Uruf adlı birinin toyu imiş. Xəbər yayılır ki, bəs Eminalı qulabanına Qara pəhləvan gəlib. Hamı axışır ora.

Pəhləvan çəkdiyi dairə-çızın içində cürbəcür fəndlər göstərir, daş atır-tutur və s. hərəkətlər edir. Lap axırda üzünü camaata tutur. Deyir ki: "Oğul istəyirəm mənlə döş-döşə gəlsin..." Yerbəyerdən dillənirlər ki, Qəhrəman girsin meydana.

Pəhləvan Qəhrəman adını eşitcək, səsini içinə salır. Fikirləşir: bu, hər kimdirsə, yəqin igidlik göstərib ki, camaat onu mənim döşümə qəhrəman deyə çıxarır.

Qəhrəman baba uzun çək-çevirdən sonra meydana atılır, bir o yana, bir bu yana, pəhləvan necə, o da elə get-gəl edir, hərbə-zorba gəlib, özün göstərir. Uzun sözün qısası, axır tutaşırlar. O, bunu, bu, onu itələyir. Birdən necə olursan Qəhrəman baba pəhləvanı qamarlayıb qaldırır başı üstə. Camaat qışqırır ki: "Ə, Qəhrəman, vur onun igid arxasını yerə! Ə, Qəhrəman, götür onun qoparağını!.."

Qəhrəman baba bir yandan fənd bilmir, bir yandan da görür ki, yox, bu heç kişilikdən deyil, qonağı el içində pərt eləmək igidə yaraşmaz.

Deyir, ay camaat, heç utanmırsız? Pəhləvan olanda, nə olar balam, heç biriniz demirsiz ki, ha, bu axı qonaqdı. Qonağa da hörmət borcumuzdu –deyə pəhləvanı endirir boynundan aşağı...

Sübhan kişi

Allah rəhmət eləsin, qonşumuz Sübhan kişiyə! Mixək xalamın əri idi. Müharibədən yaralı gəlsə də, sağlam və uzun ömür sürdü. Deyilənlərə görə onun belə uzun ömür sürməsinin bir səbəbi də uzun müddət kolxozda kuryer işləməyi olub. Kişi bircə saatın

içində pay-piyada üç kəndi- Ərəbi, Hacıtəpəni və Xırmandalını ələk-vələk eləyərmiş...

Hə, günlərin bir günü kolxoz sədrinin oğlu dünyaya gəlir. Sədr Sübhana tapşırıq verir ki, get filankəsləri tap göndər idarəyə, bizə də get, öyrən gör, uşağın adını nə qoyublar...

Sübhan kişi gəlir əvvəl sədrgilə, uşağın adını öyrənir. Ordan da yollanır sədrin tapşırdığı adamların dalınca... Eminalı qulabanına çatanda Sübhan kişi görür ki camaat burda çal-çağırdadır. Başını bir az qarışdırıb, dönür kolxoz idarəsinə.

Sədr soruşur ki, bəs uşağın adını nə qoyublar? Sübhan kişi tutulur. Deyir:

-Ay sədir, hirslənmə, vallah, uşağın adı Eminalı qulabanına kimi dilimin lap ucundaydı e...

* * *

...Hə, Eminalı qulabanı ilə bağlı şirin söhbətlər, məzəli əhvalatlar çox olub. Deyilənlərə görə bu qulabanda çal-çağır səsi qanlı-qadalı Böyük Vətən müharibəsinədək davam edib. Axırıncı dəfə burada cəbhələrdən qara kağız almış anaların acı naləsi, ağısı eşidilib...

P. S: Hə, əziz oxucular, yazın gəlişi, ilaxır çərşənbələr, Novruz bayramı həm də keçmişi yada salıb adət-ənənələrimizi, əzizlərimizi xatırlamaqla əlamətdardı. Qoy ilin bu əziz günlərdə bayaram süfrəsindəki şirin, dadlı nemətlər kimi, şirin xatirələr də ömrünüzə yar-yaraşıq verib, təravət qatsın!

Hamınıza yamyaşıl işıqlı günlər arzusu ilə

"Manera. az" 3.03.2016.

BAMƏZƏ CƏLAL

Ötənlərdə bizim Xırmandalı kəndində Calal adında bamәzə bir kişi vardı. Allah qəni-qəni rəhmət eləsin, uşaqdan tutmuş böyüyəcən hamının rəğbətini qazanmışdı. El arasında ona Usta Cəlal, ovçu Cəlal, hətta həkim Cəlal da deyərdilər. Həkim deyəndə ki, adi kəlbətinlə yaşlı adamların xəstə dişlərini çəkərdi. Amma onu el-obada ən çox məşhur eləyən şən zarafatları və məzəli lətifələri idi.

Bu gün də Calalı xatirələrdə yaşadan onun sağlığında elədiyi bamәzə söhbətləri və dildə-ağızda gəzən sərgüzəştləridi...

Bu yaxınlarda Bilgəhdə Cəlalın qardaşı oğlu, Masallı rayon İH başçısının Xırmandalı ərazi nümayəndəsi Məhərrəm İbrahimovla görüşdük. Əmisini yada saldıq, ondan görüb-eşitdiyimiz məzəli əhvalatlarını bir-birimizə danışıb xeyli güldük. Məhərrəmin atası rəhmətlik Muştuluq kişi də təbiətcə qardaşı Calal kimi çox məzəli adam idi.

...Cəlal kişi 1963 –cü ildə bizim evi tikib. Həmin ev indi də durur. O vaxt mənim 5 yaşım vardı. Nənəm hər kəlməbaşı Cəlala "Başına dönüm, ağrın ürəyimə, qadan-bəlan mənə gəlsin" deyərdi. Uşaqdım deyə, Cəlalın dədəmlə xalaoğlu olduqlarının o qədər də fərqində deyildim. Hörgü işlərini görə-görə yoldan ötənlərlə zarafat edər, ərki çatanlara söz atıb, sataşardı. Calalın "Ov əhvalatı"nı, Mirvarı arvad, Minəş nənə, İntizar qarı, talış qonağı, ərəbli Habillə zarafatlarını və başqa sərgüzəştlərini ipə-sapa düzsən, böyük dastan yaranar.

Universitetin jurnalistika fakültəsində tələbə olduğum vədələrdə qələmə aldığım "Ov əhvalatı" Azərbaycan radiosunun "Bulaq" verilişində görkəmli sənətkarlarımız Məhliqə Sadıqova və Səməndər Rzayevin ifasında səsləndirilib. Az sonra həmin əhvalat Masallı rayonunda həftədə 3 dəfə 15 min tirajla nəşr olunan "Çağırış" qəzetinin 17 noyabr 1983-cü il sayında, "El-obanın söz boxçası" rubrikası altında dərc olundu.

Necə deyərlər, söz vaxtına çəkər, nöqtəsinə - vergülünə əl vurmadan həmin söyləməni sizlərə ərmağan edirəm, buyurun tanış olun!

Belə nəql edirlər ki, günlərin bir günü Cəlal vacib işdən ötrü rayon mərkəzinə gəlir. İşi düzəlir, ya düzəlmir, fikirli-fikirli daxil olur çayxanalardan birinə... Qərəz, Calalın əyləşdiyi mizin arxasında iki nəfər şəxs ov barəsində söhbət edirmiş. Biri deyirmiş: "Ə, vallah mənim quş ovlamağıma söz ola bilməz, seçib göydə quşun ancaq kökünü vurram..." Sözünü qurtarmamış, o biri deyir ki, "Sən hələ məni demir-

sən, durnanı gözündən vuranlardanam". Ov söhbətini eşitcək, Cəlalın çiçəyi çırtlayır, kefi durulur. Üzünü cavanlara tutub:

-Kəndimizdə bir ovçu var, onu da yaxşı tərif eləyirlər. Ova getmək istəsəniz yönünüzü bizim kəndə salın, Calalı soruşun. Məncə, ovunuz uğurlu olar – deyir. Sonra da əlavə edir ki, yaraqlı-yasaqlı gəlin ha!..

Qış ağzı Cəlalgilin qapısına iki nəfər gəlir. Cəlal ova getmək məqamında ovçuların əyin-başına baxır, ürəyində düşünür ki, bunlar ovçuya heç oxşamırlar. ...Səhərin gözü açılanda ovçular "Qırx bərə" deyilən yerdə görüşürlər. Özündən deyən ovçuların biri iki-üç sığırçın quşu, o biri heç nə ovlamayıbmış. Çox çəkmir ki, Cəlal on-on beş cüt yaşılbaşı qoyur ortalığa. Qonaqlardan biri təəccüblə deyir:

-Bizi agah elə, bu nə işdi? İkimiz heç nə vura bilmədik, sən isə...

Cəlalın hərdən bala-bala deməyi də varmış. Tüfəngin qundağını saz kimi sıxır sinəsinə, qonaqlara üz tutub görək nə deyib:

Ay ovdan dəm vurub, ova gələnlər,
Öyünmək igidin xoşuna gəlməz.
Ovçu şikar ovlar, ördək, qaz vurar,
Sizin tək sığırçın quşuna gəlməz.

Ovçu muştağıdı quş avazının,
Tapsa şikarını çəkər nazını,
Səslər qatarıyla Quba qazını,
Əbəs güllə atmaq huşuna gəlməz.
Qonağa qurbandı quşlar sayıynan,

Evə qayıdarsız siz dost payıynan,
Sizin tək yaraqsız ovçu sayılan,
Calalın bir daha tuşuna gəlməz.

"Çağırış" qəzeti, 17 noyabr 1983-cü il.

“MARAQLI ƏHVALATLAR” SİLSİLƏSİNDƏN

Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar Tofiq Bakıxanov hər il yayda Bilgəh kardioloji sanatoriyasında istirahət edir. 86 yaşı olmasına baxmayaraq Milli Yaradıcılıq Akademiyasının professoru hər gün 5-6 saat yeni proqram üzərində işləyir. Bəzən həmsöhbət olduğu adamlara sənət dostları, ustadları, atası Əhməd Bakıxanov haqqında maraqlı xatirələr danışır. Onun dadlı-duzlu söhbətlərində Üzeyir bəy, Qara Qarayev, Niyazi, Səid Rüstəmov, Cövdət Hacıyev, Ağasi Məşədibəyov, Gülağa Məmmədov və başqa məşhur şəxsiyyətlərin zarafatları, atmacaları bir sözlə maraqlı əhvalatları yer alır. “Bu danışdığınız əhvalatları nə əcəb qələmə almırsınız?” - deyə soruşanda, cavab verdi ki, Rusiyada “Sənət adamları da gülür...” adlı bir kitab nəşr olunub. Düşünürəm ki, bizim sənətkarların da maraqlı əhvalatlarını qələmə almaq olar...”Tofiq müəllimdən icazə alıb, onun Azərbaycan Xalq Çalğı Alətləri

Orkestrinin bədii rəhbəri və dirijoru, bəstəkar – pedaqoq Səid Rüstəmovla bağlı danışdığı əhvalatlardan ikisini qələmə aldım.

"600 dəfə öpürəm..."

Bir dəfə tanınmış Azərbaycan bəstəkarı Cövdət Hacıyev Səid müəllimdən 600 manat borc alır. Bu borc məsələsindən Cövdət Hacıyevin həyat yoldaşı, Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Dövlət Rəqs ansamblının qrupunun rəhbəri, tanınmış rəqqasə Əminə Dilbazinin də xəbəri varmış. Bir müddət keçir. Bir-birindən gözəl müsiqi əsərləri yaradan Cövdət Hacıyev Səid müəllimin borcunu qaytarmağı "unudur". Səid Rüstəmov da nədənsə borc məsələsini açıb-ağartmaq istəmir. Nəhayət, Azərbaycan musiqi mədəniyyətinin inkişafi və təbliğindəki xidmətlərinə görə Cövdət Hacıyevə SSRİ Dövlət mükafatı veriləndə, Səid Rüstəmov ona belə məzmundə təbrik teleqramı göndərir: "Çövdət, səni bağrıma basıb, 600 dəfə öpürəm..." TeleqramıCövdət Hacıyevlə birlikdə oxuyan Əminə xanım, ona: "Tez apar Səid müəllimin 600 manatın qaytar!" – deyir.

"Elə bilin ki, hesabı siz verdiniz!"

Səid Rüstəmov başda olmaqla bir-neçə sənət adamları köhnə İnturistin restoranında yeyib-içirmişlər. Bu zaman restorana gələn və qonşu masalardan birinə yaxınlaşan Gülağa Məmmədovu gör-

cək Səid müəllim ərklə onu da öz məclisinə dəvət edir.Gülağa Məmmədov oturub, bir-iki tikə yeyəndən sonra Səid müəllimdən i5-10 dəqiqəlik icazə alıb məclisi tərk edir. Sən demə, Səid müəllimin eviİnturistə yaxın imiş. Gülağa Məmmədov gəlib Səid müəllimgilin mənzilinin qapısını döyür.Həyat yoldaşı Bikə xanım qapını açır. Gülağa Məmmədov deyir ki, Bikə xanım, Səid müəllimə təcili 300 manat pul lazımdır. Bikə xanım da deyilən məbləği gətirib verir Gülağa Məmmədova. O da tez qayıdır İnturistə. Səid müəllimin masasına xidmət edən ofisianta hesabı ödəyib, keçib sakitcə oturur. Məclis başa çatandaSəid Rüstəmov ofisiantı çağırıb hesabı soruşur. O da deyir ki, bəs, Səid müəllim, hesab çatıb! Səid Rüstəmov dərhal xəbər alır ki, bəs hesabı kim ödəyib? Ofisiant deyir ki. Gülağa müəllim.

Səid müəllim başını bulayıb deyir: "Gülağa, bu nə xəcalətdir verirsən? Səni qonaq kimi masaya mən dəvət etdim axı..." Gülağa Məmmədov cavab verir ki, Səid müəllim, xəcalətli düşməniniz olsun, elə bilin hesabı elə siz özünüz verdiniz!

O gün evə gələn kimi, Bikə xanım soruşur ki, bəs Gülağa Məmmədov 300 manat pulu sənə verdi?

Səid müəllimi o dəqiqə Gülağa Məmmədovun sözünü xatırlayır: " Elə bilin ki, hesabı siz özünüz verdiniz!"

08.08.2016. Bilgəh.

MİRCƏFƏR BAĞIROV: “KİM ORUC TUTUB?”

Bu əhvalatı mənə 80 yaşlı Rəşid kişi danışdı. Ramazana kimi onunla səhər gəzintisinə çıxardıq. Rəşid kişi gəzə-gəzə keçmişi xatırlayır, görüb-eşitdiklərindən ən maraqlılarını nəql etməyi çox xoşlayırdı. Bir gün orucluqdan söz düşəndə dedi:

- Söz vaxtına çəkər, Bakıda yayın oğlan çağı idi. Ramazan ayı yenicə başlamışdı. Mircəfər Bağırovun rəhbərlik etdiyi o çağlar dini ayinləri açıq-aşkar icra etmək qorxulu əməl sayılırdı. İmanlı adamlar gizlincə oruc tutar, bəzən həyatları bahasına olsa da, Allah qarşısında öz borclarını yerinə yetirərdilər.

Bir dəfə Mircəfər Bağırov Mərkəzi Komitəyə yaxın küçədən ötüb-keçirmiş. Görür ki, yola isti asfalt çəkən fəhlələrdən dörd-beş nəfəri nəhəng bir ağacın kölgəsində sərinlənir. Yaxınlaşıb soruşur ki, oruc tutubsunuz?

Fəhlələrin matı-qutu quruyur, heç birindən səs çıxmır. Ortaboylu, hərbi geyimli, eynəkli rəhbər təkrar amiranə səslənir: “Kim oruc tutub?”. Və bu dəfə zəhmli baxışlarla sanki onları bir-bir “sorğu-sual” edir.

Kimi lal-dinməz başını bulayır, kimi yavaşdan “yox” deyir. Yalnız bir nəfər özündə cürət tapıb cavab verir ki, “yoldaş Bağırov, mən orucam...”.

Bağırov ona “maşına otur!” deyir. Qara “ZİM”in arxasınca boylanan fəhlələr oruc olduğunu etiraf edən iş yoldaşlarının halına acıyırlar: “Bədbəxtin ev ünvanını da bilmirik ki, ailəsinə xəbər çatdıraq... İftara yolunu gözləməsinlər...”.

...İndiki Yaşıl Teatrın ərazisində o zaman Mərkəzi Komitənin ərzaq anbarları yerləşərdi. Bağırov maşını birbaşa anbarın həyətinə sürdürür. Oruc tutan fəhləni anbara nəzarət edən zabitə göstərib deyir:

- Bu adama bir aylıq hər növ ərzaqdan verin. Özünü də maşınla evinə aparın, bir də ona oruc olduğuna görə iki həftəlik istirahəti üçün icazə kağızı yazın!..

Bağırovun əmri dərhal icra olunur. Fəhləni ərzaq kisələri yüklənmiş “poluturka” maşınla evinə aparırlar... O gün ev sahibi iftar süfrəsinə yaxın qonşularını da dəvət edir.

İki həftədən sonra iş yoldaşları onu sağ-salamat görəndə gözlərinə inanmırlar:

- Ə, biz neçə gündür, sənin halına vaysınırdıq ki, yazıq, heç nədən öz dilinin bəlasına düşdü... Elə bildik Bağırovun əmriylə səni “gedər-gəlməzə” yolladılar...

Bağırovun mərhəmətini görən fəhlə yoldaşlarına belə cavab verir:

- Orucluq sahibi hamınıza zamin dursun! Allahdan gizlin olmayan, bəndədən də gizlin qalmaz! Düzü, yoldaş Mircəfər Bağırov həm də səxavətli, əliaçıq, fəqir-füqaraya mərhəmət edən adamdı...

Beləcə başına gələnləri iş yoldaşlarına danışır.

Rəhbərin iş yoldaşlarına necə qayğı göstərdiyini

eşidən fəhlələr Orucluq ayı çıxana qədər Allaha dua edirlər ki, kaş Mircəfər Bağırov bir də onlara yaxınlaşıb soruşaydı: "Kim oruc tutub?".

P. S: Oruc ağızla söhbətinə xitam verən Rəşid kişi bildirdi ki, həmin fəhlələrin biri ilə illər sonra müalicə olunduğu xəstəxanada tanış olub... Mənə nəql elədiyi bu əhvalatı onun dilindən eşidib. Mən də sizinlə paylaşdım.

Allah orucunuzu qəbul etsin!

Modern. az24.06.2015.

“Qəlbimizi şumlayan dərdlər” silsiləsindən:

SƏNƏT və ƏDAVƏT
(esse)

1982-ci ildə İrəvan Xalq Təsərrüfatı İnstitutunun nəzdində fəaliyyət göstərən ixtisasartırma kursunda olarkən bizi Matenadaran muzeyinə və “soyqırım” abidəsinə ekskursiyaya apardılar. Kursda bizdən – Azərbaycandan gedən iyirmidən çox əmanət işçısından başqa gürcülər, abxazlar, ruslar da var idi. Məhz elə SSRİ-də xalqar dostluğunun çiçəkləndiyi, Kremlin ABŞ-la qoç-qoç oynadığı, necə deyərlər, büro-büro dövründə “soyqıqırm” iddasıyla dünyaya haray-həşir salan ermənilər Azərbaycanın qədim şəhəri İrəvanda bu Memorial Kompleksi yararatmaqla qarşısıalınmaz məkrli missiyalarına rəvac vermişdilər.

1965-ci il aprelin 23-də uydurma “erməni soyqırımı”nın 50 illiyi Ermənistanda qeyd edilməsi soydaşlarımızın öz ata-baba torpaqlarında yenidən sıxışdırılmasına səbəb olan güclü amillərdən biri oldu.

Bəli, düz 52 il əvvəl əsası qoyulan Memorial Kompleks hiyləgər erməni millətçilərinin Avropa və Amerikada himayədar axtarmaq ŞANSI və gələcəkdə onların qoltuğuna sığınaraq "əldə edəcəkləri qələbələrin" qarantı ilə yanaşı dünya miqyasında antitürk təbliğatının bariz təcəssümü oldu. Memorial Kompleksdə hər gün müəyyən pauzalarla “mətəm” müsiqisinə bənzər qəmli melodiya səsləndirilir...

Bizi bura ixtisasartırma kursunda adına "müəllim" dediyimiz erməni "ziyalıları" gətirmişdi.

..Aradan 35 il keçir, indi həmin qəmli melodiyanı xatırlayanda istər-istəməz yadıma Cəlil Məmmədquluzadənin "Kamança" əsəri düşür...

1920-ci ildə Şuşada qələma aldığı "Kamança" əsərində erməni Baxşının çaldığı dərdli-yanıqlı təranələr türkoğlu Qəhrəman yüzbaşının içindəki intiqam, QİSAS alovlarını söndürürüb, ürəyini yumşaltdığı kimi, uydurma erməni soyqırım memorial kompleks abidəsinin önündə baş əyən xristian, eləcə də bəzi müsəlman (yeri gəlmişkən, Livan qondarma soyqırımı tanıyan yeganə müsəlman ölkəsidi) dövlət başçılarının, baş nazirlərinin, diplomatlarının qəlbində həmin QƏMLİ musiqi "əzabkeş" ermənilərin "halına" yazığı gəlmək, rəhm etmək hissləri aşılıyır...

"Kamança"da Şirzadı öldürən Vartanın törəməsi, Xankəndində dünyaya gələn Zori Balayan "Ocaq" kitabı iki xalq arasında ocaq qaladı. Bu ocaq Mirzə Cəlinin 60 il öncə "Kamança" ilə söndürdüyü ədavət ocağı idi.

Mirzə Cəlilin "Kamança"sından 72 il sonra Xocalıdakı soyqırımı törədən bəlkə Qəhrəman yüzbaşının illər öncə güzəşt ediyi erməni Baxşının nəvə-nəticələriydi?! Çünki "Kamança" əsərində müəllif şəhid anası Zeynəbin dili ilə erməni Baxşıya belə deyir və bizlərə xəbərdarlıq edirdi ki: "Vallah, fürsət tapsan sən də haman müsəlman qanına yerikləyən ermənilərin birisən!"

Amma Xocalıya qədər ermənilər hər il aprelin 23-24-də Azərbaycan türklərini öldürmək üçün fürsət

axtarırdılar. Və biz Zeynəb ANAnın o müdrik xəbərdarlığını kamançaya, saza, zurnaya, balabana, qaboya qulaq asa-asa qulaqardı elədik.1967-ci ilin aprelində Xankəndidə bir neçə azərbaycanlını qətlə yetirilməsi faktı belə başbilənlərimiz ört-basdır elədilər. (Budurmu uzaqgörənlik siyasəti?)

Erməni qəddarlığına qarşı kini-kudurəti dayandıran, Qəhrəman yüzbaşının qəlbində humanist duyğular yaradan "Kamança"nın yazıldığından bu gün 97 il ötür. Deyirəm, xalqımız son zamanlar musiqiyə – xüsusilə, muğama çox qulaq asır. Telekanallar, radiolar səslənən nəğmələr ermənin DAĞ basdığı yaralı ruhumuza güya məlhəm qoyur, bizə bəşəri sevginin ləzzətini dadızdırır və s. Doğurdanmı, sənət ədavəti ortadan qaldırır? Yaxşı, əgər belədirsəŞ niyə onda adına sənət dediyimiz DÜNYANIN gözəl MUSİQİ nümunələri ermənin, ATƏT-in Minsk qrupunun (fransız-rus-amerkalı) həmsədrinin qəlbində humanist duyğuları oyadıb, ayağa qaldırmır?

P.S: Bəzən neft buruqlarına baxa-baxa düşünürəm: Alman faşizmü üzərində BÖYÜK QƏLƏBƏdə və Avropanın böyük şəhərlərini faşizm işğalından azad edilməsində möhtəşəm rol oyanayan Azərbaycan neftindən bu gün gen-bol bəhrələnən dünya dövlətləri görəsən Qarabağın işğal altında qalmasını necə "həzm" edir? Eh... Qəlbimizi şumlayan belə dərdlər silsiləsi bitib tükənən deyil...

BayMedia az. 24 aprel 2017,
Müstəqil. az 23 oktyabr 2017.

YADDAŞIMIN NUR HEYKƏLİ

Mirzə Nəzir müəllimin xatirəsinə

Ağac öz kökləri ilə torpağın qoynunda möhkəmləndiyi kimi, insan da yaxşı əməlləri ilə özündən sonra gələn nəsillərin yaddaşında yaşayır. Belə bir deyim var; İNSAN haqqında xatirələr yaşadıqca insan özü də yaşayır. Mirzə Nəzir müəllim (ona müasirləri belə müraciət edirdilər-N.Ə.) görkəmiylə birlikdə, yerişi, duruşu, danışığı ilə mənim yaddaşıma nur heykəli kimi əbədi həkk olub!

Hər dəfə adı çəkiləndə, müəllim peşəsindən söz düşəndə onun işıqlı, nurlu siması gözlərim önündə canlanır...

Mirzə Nəzir müəllim o klassik pedaqoqlardan idi ki, öz ziyası, nuru ilə təkcə dərs dediyi şagirdlərinin ömür yollarına deyil, mənsub olduğu elin-obanın, cəmiyyətin yoluna işıq saçırdı.

Ötən əsrin 80-ci illərinin sonu olardı. "Çağırış" qəzetində çalışırdım. Pedaksiyadan mənə qocaman maarif xadimi Nəzirməmməd Məmmədəliyevdən (1896-1989) müsahibə almaq tapşırılmışdı. Yaşadığı ünvana yollandım. Mirzə Nəzir müəllim söhbət

zamanı gözlərimin önündə təkcə pedaqoji fəaliyyətə başladığı 20-ci illərin deyil, 30-cu, 40-cı, 50-ci illərin Masallısının mənzərəsini canlandırdı.

1924-cü ildə dərs dediyi tanınmış şagirdlərindən Hacıtəpəli Zəbi Quliyevin, Çaxırlı kəndindən olan Əlisa Mirzə Əhəd oğlunun, qarğalıqlı Qaraxan kişinin və başqalarının adlarını çəkdi. 1932-ci ilin mayında rayonda nəşrə başlayan "Yeni həyat" qəzetinin cəmiyyətdə doğurduğu xoş əhval-ruhiyyədən maraqlı söhbətlər danışdı. Və etiraf edim ki, o zaman dediklərinin hamısını qələmə ala bilmədim. Çünki 37-ci illərdə repressiyaya qurbanları və İkinci Cahan savaşında ön cəbhədə həlak olan bacarıqlı, istedadlı şagirdlərini xatırlayarkən çox kövrəldi... Onun zahiri və daxili mədəniyyətində nəciblik, dürüstlük, sadəlik nümunəsi kimi əxlaqi keyfiyyətlərin şahidi oldum. O gün 93 yaşlı Mirzə Nəzir müəllimin nurani gözlərində bir müəllim ömründən minlərlə insanın taleyinə düşən işığı gördüm...

Sovetlər dövrü ateist bir cəmiyyət olmasina baxmayaraq müəllimlik müqəddəs bir peşə kimi qəbul olunmuşdu. O dönəmin, elə bizim də nəsillərin şahidi olduğu elə mərhələsi olub ki, müəllimlərə mələk kimi, Allah kimi baxmışıq..

Çox təəssüf ki, illər ötüb keçdikcə, MÜƏLLİMLİK peşə müqəddəsliyini, müəllim isə ideal İNSAN, mələk statusunu itirməyə başladı.

Rus ədəbi tənqidçisi V.Belinski təbirincə desək, tərbiyə böyük işdir, onunla insanın taleyi həll olunur...

Məncə, Mirzə Nəzir müəllim kimi pedaqoqlar öz zamanında insanı kamilliyə çatdırmaq məqsədi gü-

dən bu şərəfli sənətin əsl mahiyyətini başa düşürdülər. Ona görə də müəllim adının, nüfuzunun keşiyində məsuliyyətlə dayanırdılar.

Müəllim - məgər bu ad bizim çoxumuzu öz cazibəsində saxlamayıb?! Axı bu ad şəxsən bizim dövrün şagirdlərinə ata qədər, ana qədər doğma olub! Lap kiçik yaşlarımızdan qəlbimizdə hamıya tanış bir arzu olub: müəllimlərimizə oxşamaq!

Mirzə Nəzir kimi müəllimlərin timsalında müəllimi günəşə, könüllərin bağbanına, xəyal-arzu astronomuna, qəlb memarına bənzətmişik. Həyatını dəyərli müəllimlik peşəsinə həsr edən bələləri yaşlı nəslin nümayəndələri kimi öz təcrübəsini gənc nəslə veriblər.

...Mirzə Nəzir müəllim dünyasını dəyişəndən çox-çox sonra mən onun övladları ilə tanış oldum. Və onların hər birininin danışığında, davranışında o unudulmaz insanın nişanələrini gördüm.

Dünyadan köçmüş müəllimlərin xatirəsini əziz tutmaq hər birimizin mənəvi borcudur. Mirzə Nəzir müəllimin xatirəsinə həsr olunmuş "Masallının ilk əməkdar müəllimi" kitabının öz övladları tərəfindən nəşrə hazırlanması mənim yadıma şair Əli Kərimin "İnsan dünyaya bənzər - Səfərdədir əbədi" misralarını saldı.

...Mənə elə gəlir Mirzə Nəzir müəllim də səfərdədir. Xatirəsi övladlarına, keçmiş şagirdlərinə mənən güc verir, qüvvə verir...

Tanrıdan o əziz müəllimin, gözəl İNSANIN ruhuna həmişə şadlıq diləyirəm.

Müstəqil. az 03 oktyabr 2017.

ÖLMƏZLİK ÖLÜMDƏN SONRA YAŞAMAQ BACARIĞIDIR!

(Dünyadan vaxtsız köçən dostumuz Rövşən Əmədovun xatirəsinə)

...Yenə vaxtsız ölüm BAŞ rolda öz peşəkarlığını göstərdi. Yenə qəfil AYRILIQ qəm karvanına bələdçi oldu... İÇ dünyamızı titrədib, qulaqlarımızda aramsızca səslənən ağılar, səssiz göz yaşları, qəmli baxışlar üstümüzə daha bir DOST itkisi ələdi...

Həmişə görüşəndə çöhrəsindən təbəssüm əskik olmayan, dost gəlişinə sevinən Rövşənin ad gününə bircə gün qalmışdı. Fəqət qohum-qardaşına, dost-tanışına "Əlvida!" söyləməyə belə ƏCƏL ona macal vermədi! O gün Rövşənin beşiyinin yırğalandığı

Masallıya da, məzarının qazıldığı Bilgəhə də yağış yağdı...

Görəsən doğurdanmı, yağış yağanda "Göy ağlayır", günəş çıxanda "gülür"?! Təbiətin RUHU ilə işim yoxdur, amma cəmiyyət həyatında və bu dünyada hərəmiz qismətimizə Tanrı tərəfindən yazılmış bir ömür payı yaşayırıq. Kimi qısa, kimi uzun ömür sürür! Amma ömür uzunluğu ilə yox, əhəmiyyəti ilə ölçülür, deyiblər. Bir də deyirlər ki, ÖMÜR YARIMÇIQ qalmır!..

Nədənsə bu payızın çişkin yağışı, xəzan çağı , səmada köç edən durna qatarı rəssam dostumuz Ehtiramın çəkdiyi ötən illərin payız tablolarına bənzəmirdi... Rövşənin üç mərasimində məzarını qucaqlayan qardaşının hıçqırıqları, bir cüt boynubükük bənövşə kimi oğlanları Elnurla Elmarın qəmli baxışları, qəbiristanlığın ölü sükutunu pozan "Yasin" surəsinin avazla oxunuşu, başsağlığına gələnlərin üz-gözlərində həkk olunmuş əbədi ayrılığın şəkilləri bu payız günü ruhumuza ağrı kimi hopdu...

Yaşasaydı Rövşəni bu adamların çoxu ad günü münasibətilə təbrik edəcəkdilər! Təbrik üçün təmtaraqlı söz deməyi bacaranlar, indi dərin hüzn içində Rövşənin əzizlərinə təsəlli üçün, təskinlikverici söz tapıb deməyə çətinlik çəkirlər sanki... Ad günü ərəfəsində Rövşənin dünyasını dəyişməsi hamımızı mat qoyub, sarsıtmışdı... Yolboyu payız küləyinin "dilində" də sanki bu kəlmələr səslənir:

Bu dünya bazarında
Ömürdən ucuz nə var?!
Nəfəs-Can arasında
Bircə AN məsafə var...

Görəsən niyə insan oğlu ömrü yarı olmamaş, hələ canı suluykən, çevrəsində bir qoşun cəngavər dost-tanışı ola-ola ölümün qarşısında aciz olur? Ölüm haqq olsa da, görəsən doğma adamın itkisi niyə bu qədər ağrı lı, qeyri-təbii görünür?

Qələm dostumuz Damət Salmanoğlu demişkən, elə Rövşənin verdiyi sualların da çoxu cavabsız, arzuları isə yarımçıq qaldı. Yəqin ki, hər gün sahilində gəzib-dolaşdığı mavi dəniz də qəribsəyir onun üçün!..

"İnsanın xarakteri onun taleyini müəyyənləşdirir" Filosoflardan hansısa bu kəlamı elə bil Rövşən üçün demişdi. Heç vaxt taleyindən və səhhətindən gileylənməzdi... Xarakterinə nabələd adama ilk anda elə gəlirdi ki, o, yetmədiyinə daş atıb, yetənə sataşır... El arasında beləsinə "məzələnir" də deyirlər. Amma Rövşən zarafatları ilə dost məclisində şux əhval-ruhiyyə yaradırdı. Bizə, bir neçə saatlıq da olsa, iş, ailə, məişət qayğılarını unutdururdu.

Rövşən öz ailəsinə vurğun sadə və zəhmətkeş insan idi. Övladlarına ali təhsil vermək , onların ailə qurub, ev-eşik sahibi olmaları üçün yorulmaq bilmədən min bir zəhmətə qatlaşırdı...

Məncə, VARLIQ bu dünyada hər şeyə qadir olmaq, YOXLUQ isə hər şeyi itirmək anlamına gəlmir. Bütün dostlarımız kimi Rövşənin də yox-

luğunda XATİRƏLƏRİMİZ xərcləndikcə tükənmyən, zənginləşən sərmayə kimidir.

Əgər xatirə keçmisin həqiqəti, ümid isə gələcəyin xəyalıdırsa... onda ÜMİD edirəm ki, Elnurla Elmarın yaxşı əməlləri atalarının, xatirəsi bizə əziz olan dostumuz Rövşənin yarımçıq qalmış ömrünün davamı olacaq!..

Ruhuna ehtiramla 24.10.2017.
Persona. az 25.10.2017
Azpress. AZ 25. 10.2017

RƏSSAMIN PORTRET CİZGİLƏRİ

İstedadlı fırça ustası Ehtiram haqqında çoxdan bəri yazmaq istədiyim bu yazını Böyük Oktyabr Sosialist İnqilabının 100 illiyi günündə - 7 noyabrda tamamlayacağımı heç düşünmürdüm, bilmirəm bu, təsadüfdür, ya yox?

Amma istər böyük olsun, istər kiçik, heç bir İNQİLABIN söz ilə portretini çəkməyə çalışdığım rəssam dostumuz Ehtirama da, mənə də dəxli yox-dur... Hərçənd ki, mən zamanın gedişini, məkanın durumunu "idarə" edən müqəddəs 7 rəqəmini çox sevirəm, Ehtiramınsa çəkdiyi rəsmlərin ölkəmizin hüdudlarından uzaqlarda sərgilənməsi əyalət rəssamı üçün elə inqilab kimi bir şeydir!..

Tanrının lütvü ilə Ehtirama (Məmmədov Ehtiram Arif oğluna –N.Ə.) bəxş olunan yaradıcı RUH və İSTEDAD həm də bir insan ömrünün, bəxtinin naxşıdır. Əlahəzrət Zamanın və Yaradanın yaratdıqlarının şəklini ağ kətan parçaya köçürmək istəyi Ehtiramın qəlbində uşaq yaşlarında yuva salıb. Öncəqala kənd məktəbinin ikinci sinfində oxuyarkən onun rəsm çəkmək həvəsinə Mətləb müəllim qol-qanad verib.

Və bu həvəs beşinci sinifdə Ehtiramı Masallı şəhər pionerlər evində fəaliyyət göstərən rəssamlıq dərnəyinə aparıb. Dərnəkdə təhsil aldığı müddətdə çəkdiyi rəsmlər Ehtirama respublika uşaq sərgilərində uğurlar qazandırıb. O vaxtlar ilk əl işləri "Azərbaycan pioneri" qəzetində, "Göyərcin" jurnalında dərc olunanda, respublika televiziyasının "İşıqfor" və "Bacarıqlı əllər" verlislərində göstəriləndə, məktəb yoldaşları, valideynləri və muəllimləri onu təbrik edərdilər...

Əlbəttə, rəssamlıq dərnəyində ilk muəllimi Yusif Şəmiyev öz şagirdinin uğurlarına hamıdan çox sevinib, gələcəyinə böyük ümid bəsləyirdi. Ukraynada məktəblilərin Beynəlxalq sərgisində nümayiş olunan rəsmlərinə görə fəxri fərmanla yanaşı, Ehtirama fırça dəsti, boyalar və rəngli mənzərə fotoları hədiyyə edildi. Bu uğuru onu hədsiz dərəcədə sevindirir və rəssamlıq sənətinin incəliklərini öyrənməyə ruhlandırırdı. Ehtiramın rəssamlıq dərnəyində son illər muəllimi Fərahim Zeynalov olub. (Fərahim Zeynalov hazırda Respublikanın əməkdar rəssamı, ADPU - nun "Rəsm, heykəlta-

raşlıq və boyakarlıq" kafedrasının müdiridir.- N.Ə.) Ehtiram dediyinə görə Fərahim müəllimdən rəssamlıq sənəti ilə bağlı çox şey öyrənib.

HAŞİYƏ: Sənətşünasların fikrincə, əsas əlamətləri obrazlıq, emosionallıq olan rəssamlıq ideya və mövzunun, süjet və xarakterlərin vəhdətinə əsaslanır. Bədii obrazın bu komponentləri rəsm, kompozisiya, kolorit, işıq-kölgə, perspektiv, ritm kimi təsvir və ifadə vasitələri ilə konkretləşdirilir.

...1980-1984 -ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində professional rəssamlıq təhsili alan Ehtiramın rəsm əsərlərindən biri SSRI-nin 60-illik yubileyində (1982-ci ildə) 2-ci mukafata layiq gorulüb. 1983-cü ildə Almaniyada keçirilən Azərbaycan mədəniyyəti günlərində keramika üzərində kompozisiya işi xarici ölkədə ona ilk uğur gətirib. Deyir: "Mənə 1800 pybl pul mukafati da verdilər.O zaman həmişə valideynindən pul alan tələbə üçün bu böyük məbləğ idi. Fəxrlə evə 1500 rubl gətirdim..."

Rayonda rəsm emalatxanasında işlədiyi dövrdə ən çox əmək qəhrəmanlarının portretlərini çəkən Ehtiramın qrafika işləri "Çağırış", "Azərbaycan gəncləri", "Sovet kəndi" və digər qəzetlərin mədəniyyət səhifələrində dərc olunurdu. Etiraf edir ki, bu zəhmətin qarşılığında heç ona cüzi qonarar da vermirdilər. O isə yorulmaq bilmədən böyük həvəslə işləyirdi. Masallıda rəssamliq emalatxanası ləğv olunandan sonra Ehtiram bir müddət rayon təhsil işçiləri evində rəssamlıq dərnəyinə rəhbərlik edir.

1979-cu ildən fəaliyyət göstərən Masallı rayon İncəsənət Məktəbində 2006-ci ildə Rəssamlıq şöbəsi yaradıldı. Burada əsasən rəsm, rəngkarlıq, kompozisiya dərsləri keçirilir. Şagirdlər daha çox natrümort, portret və mənzərə janrında kompozisiyalar yaradırlar. Ehtiram öz şagirdlərinə rəssamlığın sirrlərini, xüsusilə, insan fiqurunu daha da dərindən öyrətmək üçün əlava olaraq plastik anatomiya, heykəltaraşlıq, təsviri incəsənət tarixindən də dərslər keçir. Bu illər ərzində onun şagirdləri Bakıda, Oğuzda, Naxçıvanda, Şirvanda, Gəncədə, Şəkidə, Lənkəranda keçirilən sərgilərdə uğurlar qazanıb, mükafatlara layiq görülüblər.

Xaraktercə rəssam Ehtiram və müəllim Ehtiram vətəndaş Ehtiramdan heç fərqlənmir. Tanınmış rəssam Rakif Ismayılovun təbirincə desək, "Ehtiram nəinki peşəkar rəssamdı,həm də çox gözəl insandır. Onun rəng koloriti də özü kimi mülayimdir". Bəli, Ehtiramın xarici görünüşündəki təmkin, sərbəstlik hər şeydən əvvəl onun daxili harmoniyasından irəli gəlir.

Ehtiram deyir ki, rəssamlıq insanın mənəvi aləmindəki duyğuları cəmiyyətlə bölüşməyin ən maraqlı və ən gözəl yoludur.

Yəqin ki, Yardımlı şəhərində böyük həcmdə qızılı alkoponla hazırlanmış "Əsgər anası" kompazisiyasını görənlərin çoxu onun müəllifinin Ehtiram Məmmədov olduğunu bilmir. Monumental geniş divar rəsmində əsgər oğlu qucağında keçinmiş ana təsvir olunub. Yeganə oğlunu itirmiş ana dərd

içində səssiz-səmirsiz oturub, baxışları ilə bu dünyada ədalətsiz müharibə törədənləri qınayır.

2011-ci ildə respublika və beynəlxalq sərgilərində qazandığı uğurlarına görə Azərbaycan Rəssamlar Ittifaqına uzv seçilməsi Ehtiramın yaradıcılığı üçün böyük impuls verdi və onun əsərlərinin coğrafiyası getdikcə genişləndi. 2013-cü ildə Türkiyənin İzmir şəhərində oğlu Turalın da əl islərinin nümayiş olunduğu sərgiyə gedə bilməsə də, bu il Almaniyanın Leverkuzen şəhərində keçirilən "Portret Ustalarının Yarışında Ehtiramın əsərləri bir dəfə 3-cü, iki dəfə 2-ci, iki dəfə 1-ci mükafata layiq görüldü. O, dəfələrlə Misir, Slovakiya, Rusiya, Fransa kimi ölkələrdə keçirilən peşəkar rəssamların Beynəlxalq simpoziumuna dəvətlər alıb.

Peşəkarlıq baxımından əsərdən-əsərə püxtələşən Ehtiram yaratdığı saysız-hesabsız tablolalar vasitəsilə rəssamlığın təbiətlə cəmiyyət, cəmiyyətlə mənəviyyat arasında körpü salan sənət olduğunu təsdiqləyir. Rəssam üçün diqqətini cəlb edən ən xırda bir detal da böyük estetik məna daşıyır.

…Bəzən rəssamın hər bir əsərini onun öz iç dünyasına açıan pəncərəyə bənzədirlər. Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin təbirincə desək, hər dəfə rəssam rənglərin təsiredici gücünü artırmaq üçün ona iç dünyasınından gələn işıq qatır, onu hamıya ruha qıda verə biləcək mənəvi qaynağa çevirir.

Ehtiram da iç dünyasından gələn sevgi fonunda öz fırçası ilə doğma yurdumuzun insanı heyrətləndirən təbiət gözəlliklərini- füsünkar İstisu mən-

zərələrini, Viləşçay lövhələrini, Yanardağın yamyaşıl yamaclarını, zümrüd meşələrini, Şır-şır bulaqlarını, kənd mənzərələrini gözlərimiz önündə canlandırır. Obrazlaşan bu əsərlərində sanki donmuş zamanın özü də hərəkətdədir. Bir an adam duyğular aləminə varır, düşüncələrə dalır.

Bir fırça ustası kimi Ehtiram Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü, "incəsənətin səlahiyyətli səfiri" adlandırılan, dövrümüzün məşhur azərbaycanlı rəssamı Tahir Salahovu sevir. Deyir ki, "Bakı – neftçi əməyinin romantikasıdır" söyləyən Tahir Salahov Azərbaycan rəssamlıq sənətinə əvəzsiz töhfələr verib, onun yaratdığı monumental əsərlər təkcə incəsənət nümayəndələrinin deyil, sadə insanların da diqqətini cəlb edir..

Ehtiramın portretlər qalereyasında xalq qəhrəmanı Koroğlunun, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun obrazları xüsusi yer tutur. Vaxtilə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş "Aşıq Atabala" portretində sənətkarla sazın və doğma təbiətin obrazı bir vəhdətdə təqdim olunur.

Ehtiramın elə rəsmləri var ki, sanki dil açıb adamla danışir. Qarışıq texnikadan istifadə etdiyi "Qəm dünyası" rəsmi öz süjet xətti, emosional təsir gücü, fəlsəfi məzmunu ilə çox düşündürücü əsərdir. Sanki qəmi sifətində iç dünyasının xəritəsi kimi cızılan kişi ömrün acı xatirələrini ciyərlərinə sümürdüyü siqaretin tüstüsündə boğmaq istəyir, fəqət dərdini danışa bilməyən bu insanın qeyri-

məchul nöqtəyə dikilmiş gözlərində güzgülənən KƏDƏRİN ağırlığı tam çılpaqlığı ilə görünür.

Ehtiramın tamaşaçıları dərin düşünməyə sövq edən mənalı mövzu seçimi çoxdur. Fırça ustasının internetdə paylaşdığı yağlı boya ilə dağ döşündə təsvir etdiyi çox gözəl göl mənzərəsinə heyran olan Öztürk soyadlı virtual tamaşaçı rəssamdan onun əlini öpməyə belə izn istəyir: "Yeşil başlı ördek olsam, dalsam şu göle, avcı olup beni avlarmısın?.. Varsam senin kapına elin öpmeye hörmetlik verirmisin?"

Bir çox qrafika , quaş, akvarel və sadə karandaşla işlədiyi rəsm əsərlərində Ehtiram qara rəngin üstün çalarlarlarından məharətlə istifadə edərək, tamaşaçıda bu rəngin zülmət, hüzr, ölüm, ağrı-acı rəmzi olmadığı barədə çox AYDIN təsəvvür və yddaqalan xoş təəssürat yaradır.

Onun "Şəhid anası", "Tənha ev", "Öncəqala yolu", "Qəbələ payızı" "İstanbul sahilində", "Masal-

lı lövhələri" silsiləsindən olan tabloları da gerçəkçiliyə səmimi yaradıcılıq münasibətindən və realist baxışlarından qaynaqlanır.

Ehtiram yaradıcılığında portret janrına da üstünlük verir. Rəssam Türkiyə dövlətinin qurucusu və ilk prezidenti Mustafa Atatürkü, dünyaşöhrətli rəssam Toğrul Nərimanbəyovu Səttar Bəhlulzadəni, gürcü rəssamı Zurab Seretelini, rus rəssamı İlya Qlazunovu, xalqımızın ölməz sənətkarları Səməndər Rzayevi, Həsən Məmmədovu, görkəmli alim Lütvi Zadəni, müasirlərimizdən xalq artisti Alim Qasımovu, yazici –dramaturq Firuz Mustafanı, şairlərdən Ayaz Arabaçını, Damət Salmanoğlunu, Nuranə Nuru, bəstəçi-müğənni, yazıçı Zəka Vilayətoğlunu və başqalarını portretlər qalereyasında obrazlaşdırmağa ustalıqla nail olmuşdur.

Ehtiramın portretlər qalereyasından söz düşmüşkən, maraqlı bir əhvalat xatırladım:

Deyir, Pablo Pikasso Parisdə Gerturuda Stayn adlı Amerika yazıçısının portretini işləyirmiş. O dönəmdə gənc rəssamın maddi durumu o qədər də ürəkaçan deyilmiş. Əlinə pul düşən kimi portreti tamamlamadan vətəni İspaniyaya gedir… Bir müddətdən sonra Parisdəki emalatxanasına dönən Pikasso həmin portreti tamamlayır. Lakin amerikalı yazıçı rəssamın işindən narazı qalır. Pikasso onun məyus olduğunu görüb deyir ki, narahat olmayın, vaxt gələcək siz bu portretə oxşayacaqsınız!

Doğrudan da, sənətşünasların yazdığına görə, 7-8 ildən sonra Gertruda Stayn Pikassonun çəkdiyi

portretinə oxşayır. Və illər keçdikcə bu oxşarlıq daha da artır.

Ehtiramın fırçasından yenicə çıxan öz portretimi görəndə, ilk anda onu bəyənib-bəyənməməyim barədə qəti fikir deyə bilmirdim. Sonra düşündüm ki, gec-tez mən də Ehtiramın həm zahirən, həm də mənən bu portretdə obrazlı şəkildə əbədiləşdirdiyi yazıçıya oxşayacam!..

Sonda bir önəmli və həlli vacib olan məsələni bildirim ki, əsərlərinin uğur qazandığı bir çox sərgilərə dəvət alsa da, Azərbaycanı təmsil edən bir rəssam kimi Ehtiramın həmin sərgilərdə iştirakına əlaqədar təşkilatlar tərəfindən dəstək verilməməsi təəssüf hissi doğurur.

Belə sərgilərdən biri də (1-12 noyabr 2017-ci ildə) İstanbulda Türkiyənin 20-dən çox tanınmış rəssamının qatıldığı "Nəfəs" adlı satış sərgisidir. Onu da qeyd edim ki, Ehtiram Azərbaycandan bu sərgiyə dəvət alan yeganə rəssamdır. Əminəm ki, özü iştirak etməsə də, 4 əsərinin nümayiş etdirildiyi satış sərgisi rəssam Ehtiram Arif oğluna daha bir uğur qazandıracaq!..

Və sonda arzum, istəyim budur ki, fırça ustasının yaxın gələcəkdə Bakıda fərdi sərgisi açılsın, eyni zamanda seçilmiş sənət əsərlərindən ibarət kitab-albomu nəfis şəkildə işıq üzü görsün!

Ehtiramın sənətinə ehtiramla

7 noyabr 2017-ci il.
Persona. az 07. 11.2017
Manevr. az 12.11.2017

HAQQ-ƏDALƏT SORAĞINDA

(Yazıçı Qafar Cəfərlinin
özü və əsərləri haqqında)

2017-nın yubilyarlarındandır. 60 yaşı tamam olub. Bu mübarək yaşı isə əliboş yola salmayıb. Oxucular onu dedektiv janrda yazdığı kitablarından, tamaşaçılar isə "İzi itməyən cinayətlər", "Günəşim ol" seriallarından yaxşı tanıyırlar.

Bu il 60 yaşını arxada qoyan dostum, müharibə və polis veteranı, polkovnik-leytenant Qafar Cəfərlinin "Günahsız mələk", "Əlvida həyat", "Xeyirlə şərin qovuşduğu gün" povestlərini oxuyandan sonra bu qənaətə gəldim ki, dedektiv janrda yazılmış

kitabların sosial yükü, mənəvi - tərbiyəvi əhəmiyyəti və maarifçilik dəyəri heç də digər ədəbi-bədii əsərlərdən az deyil.

Müəllifin 2014-cü ildə işıq üzü görmüş "Əməliyyatçı" kitabı kimi yuxarıda adları qeyd olunan povestlərinin də mövzusu demək olar ki, real həyatdan götürülmüşdür. Bu povestlərdə hər hansı cinayətin sadəcə xronikası sadalanmır, həm də oxucunu həyəcanda saxlayan süjet xətti ilə yanaşı, psixoloji məqamlarla zəngin olan maraqlı epizodlar bədii dildə, obrazlı şəkildə təsvir olunur. Qafarın ustalıqla sujet qurmağı, ictimai həyatın tipik hadisələrini canlandırmaq bacarığı ilk növbədə onun oxucunu ram etmək, düşündürmək, şər qüvvələrlə mübarizə aparmaq istəyindən qaynaqlanır və qələmə aldığı əsərlərində buna nail olur. Müəllif şəxsi müşahidələrinin məhsulu olan dedektiv əsərlərində mənfiliyin, tamahkarlığın törətdiyi eybəcərliklərindən qorunmaq üçün İslam dininin əxlaqi-mənəvi dəyərlərini önə çəkir. Baş qəhrəman Əli Zaminlinin istər zərəçəkənlərlə, istər cinayətdə şübhəli şəxslərlə dialoqlarında peşəsinə sonsuz məhəbbəti, zabit şərəfinə yüksək dəyəri müsəlman təəssübkeşliyi ilə paralellik təşkil edir.

Burada dünya şöhrətli dedektiv ustası Çingiz Abdullayevin müsahibələrinin birində tanınmış yazıçı Con Markdan gətirdiyi bir misalın "yalnış" olduğunu diqqətə çatdırmaq istəyirəm. Con Mark deyir ki, müsəlman olan yazıçı ümumiyyətlə dedektiv yaza bilməz. "Ona görə ki, onların dini (İslam-red.) irrosional dindi. Xristianların dini rasionaldı.

Şəkil çəkib konkret göstərirlər ki, bax bu İsa peyğəmbərdi, bu isə iblisdir". Çingiz Abdullayevin fikrincə: "Bizdə bu belə deyil. Bizdə Allah ürəyimizdədir. Biz ya inanırıq, ya inanmırıq. …Mən oxunmağımı təkcə dedektivlə əlaqələndirməzdim. Görünür, kitablarımda nəyəsə toxuna bilirəm, nəsə alınır. Dedektiv yazıçıları çoxdur. Görünür ki, mən oxucularıma nəsə verə bilirəm…"

Azərbaycan ədəbiyyatında yazıçı Cəmşid Əmirov dedektiv janrın əsasını qoydu, hüquq elmləri doktoru Çingiz Abdullayev isə xarici dillərə tərcümə olunan saysız-hesabsız kitabları ilə sübut etdi ki, müsəlman yazıçı həm də siyasi dedektiv janrında xristian yazarlardan da gözəl əsərlər yazmağa qadirdir.

Təbii ki, dedektiv janrda yazmaq üçün hər hansı müəllifdə yazıçılıq istedadı ilə yanaşı, dedektivlik qabiliyyətinin də olmasını əsas şərt kimi düşünənlər az deyil. Əlbəttə, bu fikri dedektiv janrda yazılan bütün əsərlərə şamil etmək olmaz. Lakin bu bir həqiqətdir ki, təxəyyülün məhsulu olsa belə, həm ədəbiyyatda, həm də kinoda dedektiv janrda yaranan əsərlər hər zaman oxucuların, tamaşaçıların diqqətini cəlb edir… Şübhəsiz, bu janrın qısqanclıq doğuracaq qədər belə populyar olmasının əsas səbəblərindən biri də çağdaş dünyamızın ən çox kriminal proseslərlə gündəmə gəlməsidir.

Bəşər yaranandan bəri cəmiyyət həyatında bu və ya digər şəkildə ağlagəlməz cinayətlər baş verir. Müstəqillik epoxası - Azərbaycan cəmiyyətini zamanın sərt və saysız-hesabsız təzadlı sınaqları ilə üzüzə qoydu; torpaq, yurd itkisiylə yanaşı milli şüuru-

muzda xərçəng xəstəliyi kimi şaxələnən bir çox qəbahətlər silsiləsi "bəxş etdi".

Qafar Cəfərlinin oxuculara təqdim olunan yeni kitabında oğruların və canilərin qorxusundan çarpayı dustağı olan yeniyetmə Sevdanın iztirabları, Mərcan nənənin qatillərinin uzun müddət azadlıqda gəzməsi, "istəsəniz canini çoxdan tutardız. Bilmək olmaz, bəlkə də tutub buraxmısız! Beləsini az görməmişik... Mənim heç birinizə etibarım qalmayıb" deyə fəryad edən Maralın polisə inamsızlığı, "hər sahədə olduğu kimi polislərin içində də nankor, şərəfsiz olanı var. Ancaq belə ağır ittihamları hamısına şamil etmək də insafdan deyil" deyə bu inamsızlığı öz əməli ilə aradan qaldıran rəis müavini Əli Zaminlinin fədakarlığı, "uşaqlarım milyoner balası olduğundan müharibəyə getmədilər" desə də, əslində ailəsinə sosial yardım ala bilməyən Qarabağ müharibəsinin veteranı, ruhi xəstə Şərifin oyuncaq qumbara ilə haqqsızlığa, süründürməçiliyə, laqeydliyə "qiyam" etməsi ("Günahsız mələk"), atası Ruslan Vüqarlının, anası Fatimə Xoşbəxtin bədbəxtliyinə və ailə faciəsinə səbəb olan Rufatın narkomaniyaya qurşanması "mexanizmi" ("Əlvida həyat"), iş adamı Kamal Əlibəylinin oğlu Turalın cinayətkar dəstə tərəfindən oğurlanması, bu oğurluqda doğma qardaşının iştirakçı olması ("Xeyirlə şərin qovuşduğu gün") və başqa epizodlar məhz müasir dövrümüzün reallığını dolğun əks etdirir.

Həyat həqiqəti müəllifin kitaba daxil etdiyi bütün povestlərinin başlıca xüsusiyyətidir. Dedektiv əsərlər üçün ənənəvi olan ədalətin qanunsuzluqla toqquşması, cinayət əməlləri və onların üzə çıxması

məsələsi Qafar Cəfərlinin hər üç povestində mükəmməl şəkildə qoyulub.

Yazıçının hər fəsilə və bölümlərə epiqraf olaraq sevib-seçdiyi maraqlı aforizmlər, hikmətli sözlər əsərdə cərayan edən hadisələrin məzmunu ilə səsləşir. Bu povestlərdə obrazlar qalereyası da rəngarəngliyi ilə seçilir. Müəllif mənfi personajların dili ilə cinayətkar aləmin jarqonlarından yerli-yerində istifadə edir, onların davranışını, maddi nemətlər naminə özlərinin mənəviyyat "itkinliyinin" bəlasına mübtəla olduqlarını açıb-göstərir...

Qafar Cəfərlinin həm "Əməliyyatçı", həm də yeni kitabında cərgələnmiş povestlərin mövzusu müxtəlif olsa da, humanist dəyərlərə sadiq olan peşəkar polis zabiti Əli Zaminli haqqında davamlı bir epopeyanı xatırladır. Oxucu şübhə etmir ki, Əli Zaminli obrazı elə müəllifin öz prototipidir. Baş qəhrəmanın şəxsi duyğuları, düşüncələri, ailə qayğıları, adamlara, ətraf mühitə, sevdiyi peşəyə münasibəti ilə tanış olan oxucu hüquq-mühafizə orqanlarında belə peşəkarların olduğuna şübhə etmir. Əli Zaminlinin ictimaiyyətlə əlaqəsi, hətta cinayətin açılmasında sadə adamlara arxalanması, rayon tədbirlərində narkomaniya ilə bağlı mühazirəsi, tələbələrlə görüşü, yerli hakimiyyət orqanları tərəfindən sürüdürməçiliyə məruz qalan müharibə veteranına kömək etməsi və s. müsbət keyfiyyətləri müəllifin yazı manerasında qanun keşiyində dayanan peşəkar polislərin xalq arasında nüfuzunu artırmağa xidmət edən ştirixlərdi.

Bir neçə kəlmə də iyirmi ildən çox tanıdığım qələm dostum Qafar Cəfərli haqqında yazmaq istə-

yirim. Mətbuat səhifələrində hələ orta məktəb illərində publisistik və kiçik həcmli bədii yazıları ilə çıxış edən Qafar jurnalist olmaq arzusunda olub. ADU-nun filologiya fakültəsində qiyabi yolla təhsil ala-ala Lənkəran rayon radio verilişləri redaksiyasında bir müddət əməkdaşlıq edəndən sonra ordu sıralarına çağrılıb. Donetsk Vilayət Hərbi Prokurorluğunda köməkçi-əsgər kimi xidmət edərkən hüquqşünas olmaq arzusuna düşüb. Elə bu istəklədə ordudan tərxis olunandan sonra təhsilini ADU-nun hüquq fakültəsinin əyani şöbəsində davam etdirərək 1983-cü ildə hüquqşünas ixtisası alıb. Otuz ilə yaxın Daxili İşlər Nazirliyi sistemində müxtəlif vəzifələrdə çalışıb.

Dağlıq Qarabağ hadisələri başlananda Qafar bölgənin bütün rayonlarında xidməti ezamiyyətlərdə olmuş, həm polis, həm də vətəndaşlıq borcunu yerinə yetirib. "Mübariz" keşikdə" qəzetində haqqında çoxlu sayda məqalələr və özünün yazıları dərc olunub. Polis polkovnik - leytenantı rütbəsində təqaüdə çıxandan sonra "Cənub" televiziya şirkəti ilə əməkdaşlıq etməyə başlayan Qafarın son iki-üç ildə "Region" TV-nin sifarişi və dəstəyi ilə müəllifi olduğu povestləri əsasında "İzi itməyən cinayətlər" layihəsi üzrə dedektiv filmlər çəkilib. Bu günə kimi on altı povesti əsasında çəkilmiş seriallarda əsas rollardan birini- polis rəisini Qafar özü canlandırıb. Tamaşaçılar onu həm də "Günəşim ol" serialında peşəkar aktyorlar kimi oynadığı Aslan rolundan çox yaxşı tanıyırlar.

Onu da qeyd edim ki, Qafar ziyalı ailəsində boya-başa çatıb. Uzun illər pedaqoji sahədə fəaliyyət göstərən atası İltifat Qafar oğlu da bədii yaradıcılıqla məşğul olmuş, 2007-ci ildə "İlahi, fürsət ver" şeirlər kitabı işıq üzü görmüşdür.

Xəfiyyə ədəbiyyatına töhvələr verən qələm dostum Qafar Cəfərli həm də qayğıkeş ailə başçısıdır, hazırda təqaüddə olan ömür gün yoldaşı Gülmirə xanım uzun illər pedaqoji sahədə çalışıb. Ailənin üç qızı və böyük oğlu ali təhsillidir. Qızı Afaq və oğlu Əlizamin Cəfərli ali məktəbi fərqlənmə diplomu ilə bitirmişlər. Hazırda Norveçdə Oslo Universitetinin magistraturasında təhsil alan Əlizamin 2005-ci ildə Yunanıstanda keçirilən məktəblilər arasında şahmat üzrə dünya çempionatının qalibi olmuşdur. Qafarın kiçik oğlu Rövşən isə Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin ikinci kurs tələbəsidir.

Qafarın həyat tərzinə bələd olan dost kimi bir məqama da toxunmağı vacib bilirəm. Təbiət aşiqi olan dedektiv yazarın bir xobbisi də arıçılıqdır. Uzun illərdir ki, həyətində bal arısı ailəsi saxlayır. Atası dünyasını dəyişəndən sonra arılara özü qulluq edir. Arı pətəyini "gözəl memarlıq əsəri" adlandıran Qafar altı il əvvəl arı ailələri olan yeşiklərin içində təmizlik işləri apararkən ilahi bir möcüzə ilə rastlaşıb. Çərçivələrinin birinin kənarında xalq arasında vərəmum adlanan qətranla və pətəkdə ərəb əlifbası ilə "Allah","Bismillahİ" sözü yazılmışdı. Uşaqlıq çağlarından ərəb - fars dilində yazıb-oxumağı bilsə də Qafar həmin yazıların fotoşəklini

çəkərək əvvəlcə din xadiminə göstərib. Sonra ANS, ATV, Lider, Cənub və sair televiziya kanallarıda bu ilahi möcüzə göstərildi və Qafar arılar barədə maraqı çıxışlar etdi. Qafar həmin çərçivəni indi də evində saxlayır.

Qafar həm də gözəl müsahibdir. Dedektiv əsərlərindən söz düşəndə deyir: "Polisdə işlədiyim müddətdə arada vaxt tapıb bədii yaradıcılıqla da məşğul olurdum. Gördüyüm, iştirakçısı olduğum və eşitdiyim hadisələrlə bağlı apardığım mütəmadi qeydlər sonra bir çox povestlərin mövzusuna çevrildi. Dedektiv yazılarıma və hal-hazırda "Cənub" televiziyası ilə əməkdaşlığıma görə ilk növbədə hüquqşümas olmağıma və DaxİIi İslər Nazirliyinin sistemində səmərəli xidmətimə borcluyam".

Onu da qeyd edim ki, dünyanın sivil ölkələrdində, o cümlədən Rusiyada korrupsiyaya qurşanmış polislər, prokurorluq işçiləri haqda dəfələrlə əsərlər yazılıb, teleseriallar çəkilib. Rus yazıçısı Pavel Astaxov «Reyder» əsərində biznesmenlərdən tutmuş, məhkəmə hakimləri, qubernatorlar, təhlükəsizlik xidməti əməkdaşları, hətta prezident də daxil olmaqla bu problemləri daha qabarıq şəkildə qələmə alıb. Korrupsiyadan sonra bu gün Rusiya hakimiyyətini ən çox narahat edən reyderçilikdir. "Reyder" əsərində bu ədalətsizliyə qarşı qanunu əlində bayraq tutan vəkil mübarizə aparır. Sözsüz ki, bu da yazıçının əvvələr vəkil olmasından irəli gəlir.

Reyder - qəsb etmə mexanizmidir (ingiliscə raider – basqın edib ələ keçirmək deməkdir). Biznes

aləmində hər hansı güc və səlahiyyət sahibi vətəndaşın, şirkət sahibinin, mülküyyətçinin iradəsini nəzərə almadan onun əmlakını nəzarət altına alır, faktiki olaraq oranı ələ keçirir. Hələ XX əsrin əvvəllərində ABŞ-da Rokfeller ailəsi bu üsuldan "uğurla" istifadə edib milyader olmuşdu.

Azərbaycanda reyderçilik əməllərini ifşa edən dedektiv əsərləri araya-ərsəyə gətirib, filmlər çəkmək çətin də olsa, ən azından bunu xəfiyyə ədəbiyyatında bədii təxəyyülün məhsulu kimi qələmə almaq olar. Bu, mənim Qafara və dedektiv əsərlər yazan yazıçı həmkarlarıma həm bir oxucu istəyimdir.

Sonda qələm dostumu səssiz –səmirsiz yola saldığı 60 illik yubileyini bir daha səmimi qəlbdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Persona az. 29.11.2017.

Müsahibə:

Nurəddin ƏDİLOĞLU: "Gələcəyin keçmişdən yaxşı olacağına inam ilbəil azalır..."

"Dünyanı bir qütbünün digər bir qütbü üzərində hegomonçuluğu bəşəriyyəti fəlakətə, üçüncu CAHAN savaşına sürükləyir... Insan sevinci-nəşəsiylə, əzab və iztirabları ilə hardasa dünya ilə eyniləşir... Məncə, cəmiyyət həyatının tərəqqisi də, tənəzzülü də əxlaqla bağlıdır..." söyləyən yazıçı – jurnalıst Nurəddin Ədiloğluyla çoxdan müsahibə almaq fikrim vardı. Onunla iş yerində, AYB-dəki tədbirlərdə, təbiət qoynunda dəfələrlə görüşmüşük. Müxtəlif mövzulardan danışsaq da yaradıcılığı barədə ad günü ərəfəsində ilk dəfə söhbət açdıq.

Z.V: *Mən sizi öncə imzanızdan tanımışam. Amma Nurəddin Ədiloğlu kimi yox, Nurəddin Muğanlı kimi. Necə oldu ki, Muğanlını Ədiloğluyla əvəzləmək qərarına gəldiniz?*

N.Ə: (gülümsünür) Əvvala, gəl bir-birimizə sən deyə müraciət edək, "siz" "sən"dən, "mən"dən çox uzaqdı... Əslində "Ədiloğlu" "Muğanlı"dan daha öncə "dünyaya gəlib". Publisistik yazılarım, "Tok Qafar" adlı ilk hekayəm ötən əsrin 70- 80-ci illərində Masallının "Çağırış" qəzetində bu imzayla çıxıb, eyni zamanda radionun "Bulaq" verilişində bölgəmizin ağsaqqal və ağbirçəklərin yaddaşından qələmə aldığım xalq yaradıcılığı nümunələri dinləyicilərə Ədiloğlu imzasıyla təqdim olunurdu. Muğanlı isə rəsmi soyadımdır. Bu soyadı götürməyimin maraqlı tarixçəsi var. Həkim, alim, şair, bəstəkar Mirkazım bəy Aslanlı - Sarəng barədə səninlə çox söhbətimiz olub. Bax, o, 12 aprel 1961-cı ildə (yəni mənim 3 yaşımda) Yuri Qaqarin kosmosa uçan gün nəzmlə "Masallının İstisuyu haqqında fantaziya" yazırb. Öncəgörmə qabiliyyəti olan insan kimi deyib ki, "İstusu" Gülüstan adlı kurort şəhərciyinə dönəcək, bir muğanlı oğlan bir gün məzarım üstünə gələcək və dost kimi məni yad eləyəcək!.. Bu misraları oxuyanda tələbəydim. Sağlığında kitabı işıq üzü görməyən Sarəngin yaddaşlardan və arxivindən topladığım şeir və qəzəllərini "Elə baxma, lalə" kitabında nəşr etdirdim, rayonda 80 iilik yubleyini keçirdim. Sarəngin 100 illiyinə həsr olunmuş "Məni tərk etmə" filmində Muğanlı soyadını necə rəsmiləşdirdiyimdən bəhs etmişəm. Axı o zaman soyad dəyişdirmək, "ov"dan, "yev"dən imtina etmək müşkül məsələ idi. Bir halda ki, söz imzadan düşdü, onu da deyim, təbiətcə utancaq oduğumdan ilk mətbu yazım 1975-ci ilin mayında - orta məktəbin yuxarı sinifdə

oxuduğum vaxt Qorxmaz adlı kiçik qardaşımın imzasıyla rayon qəzetində dərc olunub. İndi bəzən Azərnur təxəllüsünə də "sığınıram". Bu, ən çox sevdiyim ədəbi qəhrəmanımın adıdır.

Z.V: *Bu günəcən çoxsaylı hekayələr, publisistik yazılar, povest və romanlar yazmısan. Bunların hansı sənin yaradıcılığında mühüm yer tutur?*

N.Ə: Hekayələrimdən "Sel", publisistik yazılarımdan "Mənim Bağdagül nənəm", povestlərimdən "Adəm və Həvva", romanlarımdan "Azərnur" ("Qanlı ocaq"). Amma yaxşı bilirsən ki, qələm əhlinin bütün yazılarının arxasında zəhməti, əziyyəti, yaradıcılıq əzmi dayanır. "Ədəbiyyat" qəzetində dərc olunan "Sel" haqqında şair Hikmət Məlikzadə yazmışdı ki, "Sel" Nurəddin Ədiloğlunun yaradıcılıq dünyasını arxası ilə aparan LOKOMATİVDİR. Bu üsyankar "maşın"ın dispetçeri vicdandır." Yaxud, "Mənim Bağdagül nənəm" ədəbi saytlarda və "Kredo" qəzetində oxuyanlar etiraf edirlər ki, yazı onları həm uşaqlıq çağlarına aparıb, həm də öz nənələrini xatırlayıblar. "Adəm və Həvva" kino-povesti müasir çağımızdan, cənnət Qarabağdan didərgin düşmüş gənc ər-arvadın taleyindən bəhs edir. "Azərnur"da isə insanın özündənkənar baş verən hadisələrin onun mənəvi dünyası ilə ruhi və məntiqi bağlılığını magik realizm üslübu ilə təsvir etməyə çalışmışam. Fəlsəfə elmlər doktoru, professor Rahid Uluselin təbirincə desəm, romanda bir obanın taleyində Planet əxlaqının yetişməsinə baxılır.

Z.V: *Birdən-birə belə irihəcimli roman yazmaq üçün yəqin çox mənbələrə müraciət etmisən, səhv*

etmirəmsə, bu əsərin məzmunu ilə Xəlil Rza Ulutürk də tanış imiş...

N.Ə. Həyatımda ilk dəfə 14 yaşımda qonşu kəndə iki, kəndimizdə bir nəfərin ov tüfəngi ilə qətlə yetirilməsi məni çox sarsıtdı. "İnsan ovçuları" adlı uzun bir əhvalt yazmağa başladım, 10-cu sinifi bitirəndə isə 3 məktəb yoldaşımın qəfil ölümü ruhumu silkələdi, onlardan biri qız idi və özünü yandıraraq intihar etmişdi. 96 səhifəlik şagird dəftərində "Yandırılmış ürəklər" kino-povestini yazdım. Leninqraddа hərbi xidmət zamanı biz əsgərlər kazarmada olmayanda əşyalarımıza "baxış" keçirən alay komandiri əmr edir ki, kimin nə artıq kağız-kuğuzu var yandırılsin. Beləcə "İnsan ovçuları" daha bir azğın "ovçunun" hədəfinə tuş gəldi. Təzədən bərpa etməyə çalışsam da, bir şey alınmadı. "Yandırılmış ürəklər"in əlyazmasını "Dağlarda döyüş" bədii filminin ssenari müəllifi rəhmətlik Əhmədağa Muğanlı oxuyub dedi: "Qəm-kədər motivi çoxdur, yəqin sən ya hind yazıçılarının, ya da filmlərinin təsiri altındasan". Sonra Əfqanstandan tabutu gətirilmiş, az sonra sağ qayıdan əsgərin taleyindən bəhs edən "Yaralı qu quşları" yazım da yarımçıq qaldı. Nəhayət, qürbətdə-Riqa şəhərində ilk variantını "Məsləк" adlandırdığım "Azərnuru" yazdım. Geri dönəndə birbaşa AYB-nin (o vaxt Azərbaycan Yazıçılar İttifaqı adlanırdı) sədri yazıçı Anarın qəbulunda oldum, o, bir abzas oxuyandan sonra rəhmətlik Yusif Səmədoğluna zəng etdi. O vaxt "Azərbaycan" jurnalının nəsr şöbəsinin müdiri Mövlüd Süleymanlı, tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri Vaqif Yusifli əsəri

oxudular. Mövlud müəllim obrazların adını dəyişməyi məsləhət bildi. Azadlıq mücahidi Xəlil Rza Ulutürkü isə evində ziyarət etdim, əməliyyat olunmuşdu, əsərin məzmununu danışdım. Dedi: "Oğul, beynumin gücü qalmayıb, özün iki vərəqlik ön söz yaz gətir imaza edim". Yazmadım. (Çox sonralar eşitdim ki, gənc müəlliflərin çoxu ilk kitablarına yazdığı ön sözü aparıb görkəmli şair və yazıçılara imzaladırmış) Onu da deyim ki, romandakı Ulutürk obrazı elə Xəlil bəyin prototipidir.

Əsərdə Zərdüşt fəlsəfəsinə, "xeyir fikir, xeyir söz, xeyir əməl" triadasına müraciət etməyim isə 80- illərdə unutanlığımızın müsibətlərə yol açmasından irəli gəlirdi. Zərdüştün bəzi mənbələrdə Muğanda doğulduğu yazılsa da, onu Avropada "şərqin doğduğu amma qərbin oğulluğa götürdüyü" böyük zəka sahibi adlandırırlar. Riqada bir kilsə kitabxanasında fransız dilində 18 - ci əsrdə nəşr olunmuş "Alimlər məcmuəsi" jurnalında onun haqqında geniş məqaləyə rast gəldim.

23 il əvvəl 3000 tirajla nəşr olunan kitabın bir hissəsinin satışını o vaxtkı "Azərkitab" təşkil etdi. Kinorecissor Rövşən Almuradlı ilə tanış olanda dedi ki, sponsor olsa, "Azərnur"un motivləri əsasında sanballı film çəkə bilərəm. Müəllifin öz kitabı barədə fikir deməsi gülünc şeydir. AYB-də "Qara sarmaşıq" romanımın təqdimat mərasimində çağdaş Azərbaycan ədəbi tənqidinin cəfakeşi Vaqif Yusifli "Azərnur"un stilistikasından söz salanda, bir oxucu təklif etdi ki, əsər latın qrafikasıı ilə nəşr olunsa yaxşı olar! Mən də öz vəsaitimlə "Azərnur"u yenidən 500 tiraja nəşr etdirdim.

Z.V: *Bədii yaradıcılığına ədəbi-tənqidin münasibəti necədir?*

N.Ə. Bilirsən Zəka, bu gün bəşəriyyəti idarə edən sistemin özü maddi maraqlar üzərində qurulub. Çox təəssüf ki, təmannalı münasibətlər ədəbiyyata, incəsənətə də sirayət edib. Xalq şairi Sabir Rüstəmxanlı Mətbuat və İnformasiya naziri olanda "Azərnur"u oxudu və mənim yazıçılar birliyinə üzv olmağa zəmanət verdi, üstəlik kitabımın satış üçün"Azərkitab"a verilmisinə kömək etdi. Elm və ədəbiyyat xadimləri, bir çox ədəbiyyatşünas alimlər, professorlar, o cümlədən Rahid Ulusel, Nizaməddin Şəmsizadə, İsmayıl Vəliyev, Fərahim Sadıqov, Zeydulla Ağayev, Vaqif Yusifli, Aqşin Babayev, tarixçi – alim Əjdər Fərzəli, qocaman pedaqoq, nasir Əhməd Səmədli, şair-publisistlərdən Əli Mahmud, Hikmət Məlikzadə, Əli Nəcəfxanlı, Elsevər Məsim, yazıçı Qorxmaz Abdulla və başqaları yaradıcılığım haqqında məqalələr yazıblar.

Üzünü görmədiyim, tanımadığım alimlərdən də kitablarım haqqında yazanlar olub. Məsələn, Filologiya elmləri doktoru Səlidə Şərifova "Çağdaş Azərbaycan posmodern romanı" kitabında yazır: "2008-ci ildə Bakıda Nurəddin Ədiloğlunun döyüş meydanlarının «qaynar nöqtə»lərindəki əməliyyatlarından, keçən əsrin coşqun 90-ci illərinin Bakıda baş verən siyasi proseslərindən bəhs edən «Qara sarmaşıq» (2008) romanı nəşr edilmişdir. Müəllif dağıdılmış siyasi prosesin xronologiyasına əsaslanır. Maraqlıdır ki, N. Ədiloğlu siyasi intiriqalardan əziyyət çəkən və mübarizə aparan xalq obrazını yaratmağa

nail olur. (“Çağdaş Azərbaycan postmodern romanı” Bakı, «Elm və təhsil»,2015, səh 33)Mən 2011-ci ildə bu yazının rus variantını Moskvada nəşr olunan jurnalının elektron saytında təsadüfən oxudum və bir –iki dəfə minnətdarlığımı bildirmək üçün Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna getdim. Dedilər Salidə xanım Moskvaya gedib. Arxivimdə Məmmədağa Sulatanov, Qəmərşah Cavadov, Vaqif Yusifli, Əsgər Zahidov kimi tanınmış alim və professorlardan aldığım məktular durur. Rayonda yaşayanda çap olunmamış kitablarımın əlyazmasını 30-40 adam oxuyub məktubla fikir bildirərdilər. İndi adam inana bilmir ki, ədəbiyyata belə maraqlı bir dövr olub. Gələcəyin keçmişdən yaxşı olacağına inam ilbəil azalır. İndiki PUL zamanəsində yalnızşit və bayağı reklamla “məhşurlaşmaq” mümkündür... Sovet dönəmində mən dəfələrlə təmannasız televiziyaya və radioya dəvət olunmuşam. Qəzetlərdə dərc olunan, “Bulaq”da gedən yazılarıma görə qonorar almışam. Amma indi bir də görürsən ki, zəng edirlər ki, sizi canlı yayına dəvət edirik, imkanınız olsa, verilişə sponsor qismində pul yardımı edin! Belə olanda təbii ki, veriliş dəvət olunanın pulu nəzərə alınacaq, yazdığı yox! Ona görə bu gün ədəbiyyata biznesdən gələnlər daha çox tanınır, nəinki ömrü boyu özünü ədəbiyyata həsr edənlər.

Z. V: *Görkəmli tənqidçi Vaqif Yusifli “Qara sarmaşıq” romanın haqqında yazdığı “Sözün müharibə rəngi” məqaləsində qeyd edir ki, Nurəddin Ədiloğlu ədəbiyyata publisistikanın qanadlarında gəlib. Bildiyimə görə, publisistik üslubun xüsusiyyətlərindən bi-*

ri də müxtəlif emosiyaların əks etdirilməsidir. Şəxsi peşəkarlıq olmadan bu sahədə uğur mümkün deyil...

N.Ə. Bəli, publisistika termini uzun müddət sosial ədəbiyyat mənasında işlənib. "İctimai" anlam daşıyan publisistika sonralar həyatı doğru-düzgün əks etdirən jurnalistika janrı adlandırıldı. Mən 42 ildir ki, bu missiyanı yerinə yetirirəm. Emosiyaların əks etdirilməsini dedin, 1992-ci ildə Daxili İşlər naziri İsgəndər Həmidovun başçılığı ilə cənub bölgəsində aparılan "subtropik əməliyyatı" barədə "Millət" qəzetində yazdığım "Davam edir 37", 1993-də Ə. Hümmətovun özbaşınalığından bəhs edən "Arxadan vurduğu zərbəyə görə mükafat umanlar" məqalələrimə görə təqiblərə də məruz qaldım, hətta o vaxt yazıma görə "Millət" qəzetinin redaksiyasına şəxsən İsgəndər Həmidovun hücum çəkməsi barədə qəzetin növbəti sayında yazı da dərc olundu... İsti aşıma soyuq su calayan kəskin publisistik yazılarım çox olub. Mən o yazıları qələmə alanda düşünmürdüm bir vaxt gələcək jurnalistlərə tutalım, fəxri adlar və ya pulsuz mənzil veriləcək...

1995-ci ildən fəaliyyəti dayanana kimi baş redaktoru olduğum "Masallı" qəzetinin layiq görüldüyü "Regionda ən mübariz qəzet" diplomunu və mükafatını 1998-ci ildə RUH Jurnalistləri Müdafiə Komitəsinin sədri Əflatun Amaşov şəxsən özü ilk dəfə mənə təqdim edib. KİV-də dərc olunan yazılarıma görə pul mükafatları, diplomlar və fəxri fərmanlarla təltif olunmuşam. Yazıçı kimi də bir il (2012-də) prezident mükafatı almışam. Amma çox istərdim ki, 42 illik jurnalistlik faliyyətimə görə mənim

də adım bu il Milli Mətbuat günü mənzil alacaq həmkarlarımın siyahısında olsun.

Z.V: *Bir yazıçı kimi kriminal aləmin məşhurlarının həyatından kitab və bir çox yazıların da müəllifisən. Hansı maraqdan səndə bu sahəyə müraciət etmək zərurəti yarandı?*

N.Ə: Əvvala onu deyim ki, heç vaxt "qanuni oğrular" barədə nə kitab, nə də məqalə yazmaq fikrində olmuşam. Rövşən haqqında "Məni ədalətlə mühakimə edin" adlı ilk yazım 1996-cı ildə "Avrasiya" qəzetində dərc olub, onda mən həmin qəzetin cənub bölgəsi üzrə təmsilçisi idim. Aradan 20 il keçəndən sonra onun haqqında "Uzaq səfərə çıxıram..." essem saytlarda yayımlandı. Yəni bir saytın verdiyi yazım bir-neçə sayt verdi, Hətta o yazını 47 mindən çox adam oxudu. "Masallı Mamed" kitabımda "Cənub şikəstəsi" adlandırdığım ikinci kitab Rövşən Lənkaranski haqqında yazımla başlanır. Mən onunla şəxsən iki dəfə Masallı Mamedin 40 və il mərasimlərində görüşmüşəm. Hətta il mərasimində Mamed haqqında yazdığım kitabı əlində tutmuşdu. Amma demədim ki, o kitabı və 21 yaşı olanda onun haqqında ilk dəfə mən yazmışam. Mamed də, Rövşən də qısa ömür yaşasalar da cəsarətləri ilə dillərdə əzbər olan ad qazandılar. Onu da deyim ki, Mamedlə Masallıda vaxtilə Cəfər Cabbarlının adını daşıyan küçədə yaşamışıq. Kim inanardı ki, qorxmazlığı, təəssübkeşliyi, qeyrəti, dürüstlüyü gənclik yaşından onu həbsxanaya gətirib çıxaracaq. O həmişə "Mənim bir adım var, onu da mənə atam İsgəndər verib!" deyə "qanuni oğru" adından dəfələrlə imtina etmişdi.

Amma görünür, bu da onun taleyinə yazılmışdı. Və ən qəribəsi də budur ki, Mamedin ana babası Abdulbağı kişi də dürüstlüyünə görə vaxtilə həbs olunmuşdu.

Bir dəfə Rafiq Tağıyla bir dəfə küçədə rastlaşdım. Mənə dedi ki, sən həbsxanada olmusan? "Yox" dedim... Dedi Mamedin zindan həyatın elə yazıbsan ki, elə bildim həbsxanada olmusan. Mamed üçün həbsxana dünyayn ən böyük qiraətxanası idi. Mənim 2-3 kitabımı oxumuşdu. Həbsxana hücrəsində fikir verdim ki, Bjezinskinin "Böyük şahmat taxtası" kitabını oxuyur. Şəxsən Dostoyevskini, Tolstoyu oxumağı o, mənə tövsiyyə etmişdi. Hətta "Bakı açıq şəhirdi" romanımı tənqid də etmişdi. Orta təhsili olsa da, onu mənsub olduğu aləmdə "Akademik" çağırırdılar.

Z.V: *Bu günki ədəbiyyatımızın durumu sizi qane edirmi?*

N.Ə: İspan yazıçısı Anna Mariya Matutenin "Biz ona görə yazmağa başladıq ki, narazıydıq..." fikrinin görünür, bizim yaşadığımız cəmiyyətə dəxli yoxmuş. "Ədəbiyyat" qəzetinin apardığı sorğuda təqribən belə sual verilmişdi. "Azərbaycan ədəbiyyatını dünya üçün maraqlı səviyyəyə qaldırmaqdan ötrü qarşımıza hansı hədəfləri qoymalıyıq?" Cavabımı "bir az sərt" adlandırıb, qəzetdə dərc etmədilər. Əgər bir qələm sahibinə Allah verən istedadın 95 faizini məişət qayğısı gəmirirsə o nə etməlidir?

Biz həmişə fəxrlə deyirik ki, XII əsrdə Azərbaycan ədəbiyyatı bütövlükdə Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının inkişafına güclü təsir göstər-

mişdir. Gəlin görək bu çağımız üçün belə fikiri deyə bilərikmi? Əlbəttə, yox! Qısası, indiki çağda ədəbiyyatın dünyada təbliğinə dövlət dəstəyi fondu olmalıdır. Şəxsən mən istərdim, müharibə mövzusunda yazdığım "Qara sarmaşıq", "Azərnur" romanlarım, "Adəm və Həvva" povestim əcnəbi dillərdən birinə tərcümə olunsun. Amma indiki zamanda yazıçıya əsərini nəşr etdirmək, təbliğ etmək, üstəlik xarici dilə çevitdirmək maliyyə vəsaiti ilə başa gəlir.Tutalım, ömrünü kirayədə keçirən, gecə-gündüz məişət qayğıları ilə yaşayan qələm sahibi dünya səviyyəsinə çıxarılacaq əsərini necə əcnəbi dilə tərcümə etdirsin?

Mən inanmıram ki, tutalım, Latviyada hansısa yazıçısa maddi durumuna görə dövlət məmurundan asılı vəziyyətə düşsün. Və məcburiyyət qarşısında qələmin istiqamətini dəyişsin! Fikrimcə, ədabiyyatın siyasətlə ortaq heç nəyi ola da bilməz. İstər şərq olsun, istər qərb hegomonçuluq, mənəm-mənəmlik ədəbiyyatın da səviyyəsini aşağı salmağa xidmət edir. Nəticədə kiməsə xoş gəlmək üçün yazılan və təmtəraqlı təqdimat mərasimləri keçirilən kitablar ədəbiyyatdan daha çox reklam plakatına bənzəyir. Dünya şöhrətli Çingiz Aytmatov deyirdi ki, "Ta qədimdən bu günə kimi insanı fərdi keyfiyyətlərdən məhrum etmək imperiya, imperialistlər və hegomonçuluq iddasında olanların məqsədi olmuşdur"Dolanışıq naminə indiki zamanda doğma balasını özgəyə satan anayla və ya böyrəyinin birinə müştəri axtaran adamla əlyazmasını qoltuğuna vurub, hərraca çıxaran müəllif suç ortağı olsa da, eyni iztirabı yaşayırlar…

Z.V: *Ədəbi janrlardan hansında yazmaq sənə maraqlı və rahatdır?*

N.Ə: İnan ki, ədəbiyyatın bütün janrlarında yazmışam, fantastik qarabasmadan tutmuş pritçaya qədər... "Şəhidlər anası" adlı dram əsərim 1994-cü ildən bəri dəfələrlə xalq teatrının səhnəsində qoyulub. Ana rolunu ilk dəfə Lənkəran Dram teatrının aktirisası, xalq artisti Böyükxanım Əliyeva oynayıb.

Gülməli də olsa bir ara istədim ki, özüm "Ləvəngi" janrı yaradam. Bir halda ki, ədəbi mətn mənəvi qidadı, niyə də olmasın? Məsələn, 3 - 4 janrı bir yerə qatıb-qarışdırıb, yeni janr yaratmaq olar. Bədii yazılarımda nənəmin deyimlərindən çox bəhrələnmiəm...101 yaşında dünyasını dəyişdi. Ailədə, quhum-əqraba arasında sülhün dayağı idi, nənəm. Yazı-pozu bilməsə də öz "əxalaq kodeksi" vardı. Rəhmətlik canlı Akademiya idi... Bişirdiyi xörəklər kimi, ocaqdibi söhbətləri də dadlı-ləzzətli idi. İndi qələm "işləməyəndə" deyirəm ki: "Kədər didir qəlbimi, nənəm yun didən kimi..."

Janrından, həcmindən asılı olmayaraq bütün yazılarımda zorakılığa, mənəvi terrorra, haqqsızlığa etiraz edirəm: Sarəngdən yazdığım kitabda da, dünyadan vaxtsız köçən professor Zeydulla Ağayev, xalq artisti İlham Əsgərov haqqında yazdığım esselərimdə də...

İnsan öz ömür binasının memarıdır, deyirlər. Şəxsiyyət kimi biz özümüz-özümüzü yaradırıq. Və nə yazıq ki, bir-birini istər cismən, istər mənən məhv edən də canlı insanlardı. Əsəbi, gərgin yaşadığımız müasir dövrü qınayırıq, Yer kürəsinin aqibəti irqindən-dinindən aslı olmayaraq hamını narahat etməlidir. Bəşər

müharibə qorxusu, terror təlaşı keçirir. Bir ailənin dərdi bir elin, bir elin faciəsi bir xalqın, bir xalqın faciəsi dünyanın faciəsinə çevrilir. Dostsyevski deyirdi ki, xalqın içindəki çirkabı xalqa şamil etmək olmaz! Bir də yekunda onu deyim ki, yazıçıyaşadığı cəmiyyətin reallığını olduğu kimi yazmırsa, mühitin ruhunu təhrif edirsə, o artıq ədəbiyyat yox, tok-şou yaradır.

Z.V. *Sirr deyilsə,hansı əsər üzərində işləyirsən?*

N.Ə. Çoxdandı iki roman başlamışam, biiri "Qaçaq Mozu"du. 55 illiyimin qeyd olunduğu məclisdə xalq şairi Sabir Rüstəmxanlı mənə ötən əsrdə cənub zonasda xalq arasında nüfuz qazanmış qaçaqların həyatından roman yazmağı tövsiyə etdi. Qaçaq Mozu sənin rəhmətlik dostun xalq artisti İlham Əsgərovun kəndi Xoşçobanlıdan olub. İkincisi, şərti adını "Qatil roman" qoyduğum əsərdi. Adından məlumdur ki, roman yazıçının qatili olur... Filosof dostum Rahid Ulusel demişkən,söz də gərək qaranquş yuvaya oturduğu kimi ürəyə gələ... Allah möhlət versə, məişət qayğıları imkan, inşallah yarımçıq yazıları tamamlaram. Bir arzum da 60 illik yubileyimə son iki ildə yazdığım hekayələri toplayıb kitab nəşr etdirməkdir.

Z.V:*Müsahibəyə görə sağ ol, səni ad günün münasibətilə qələm dostlarımız və oxucular adından təbrik edirəm.*

N.Ə: Sağ ol, sənə də, məni təbrik edən və etmyən bütün dostlara və oxuculara öz minnətdarlığımı bildirirəm.

Söhbətləşdi: Zəka Vilayətoğlu,

"Persona.az." 31.01.2017.

JURNALİST ÖMRÜNÜN HƏYƏCANLI ANLARI:

1992 -93-cü və 2017 – ci ilin qızmar yayı...

... 25 il öncə, yayın bu qızmar vədələrində Daxili İşlər Nazirliyi Cənub bölgəsində banditizmə və narkomaniyaya qarşı irimiqyaslı əməliyyat tədbiri həyata keçirdi. O vaxtki daxili işlər naziri İsgəndər Həmidovun şəxsən özünün rəhbərlik etdiyi bu "mübarizə tədbiri" xalq arasında "oblava", bir çox KİV-də isə "Subtropik əməliyyatı" adlandırılırdı. Bu əməliyyat zamanı Astarada, Lənkəranda və Masallıda günahlı-günahsız vətəndaşlar döyülüb-təhqir edildi, yüzdən çox ticarət işçisinin, imkanlı şəxslərin pul-parası əlindən alındı. Çayxanalarda, küçələrdə, bazarlarda, yaşayış binalarının yaxınlığında yerli-yersiz güllələr atıldı, yaralananlar oldu. Gözlərinin qarşısında valideynin döyülməsinə tab gətirməyən azyaşlı uşaq koma vəziyyətinə düşdü. Evlərdə axtarış apararkən məişət əşyaların dağıdılmasına etiraz edən qız-gəlinlər "əməliyyatçılar" tərəfindən söyüşlərə məruz qaldılar. Astarada bir yaşayış bir evi dağıdıldı. Hər üç rayonda neçə-neçə milis işçisi sorğu-sualsız vəzifəsindən kənarlaşdırıldı. Daxili işlər nazirinə uzaq qohumluğu çatan Masallı milis şöbəsinin rəisi polkovnik Vaqif Kərimov "subtropik əməliyyatına" etiraz əlaməti olaraq vəzifəsindən istefa verdi və s. və i.

O vaxtlar "Millət" qəzetində çalışırdım. Əməliyyat barədə ətraflı yazım və Lənkəran şəhər sovetinin deputatı Fərəhim Səmədovdan aldığım müsahibə qəzetin 29 iyul 1992-ci il tarixli sayında "Davam edir 37..." (Yaxud "Tanrı Bozqurda kömək olsun") sərlövhəsi ilə dərc olundu. Həmin gün redaksiyadakı əməkdaşlarla xüdahafizləşib rayona yola düşmək üçün liftlə nəşriyyatın birinci mərtəbəsinə endim. Bu zaman daxili işlər naziri İsgəndər Həmidaov və ətrafında 3-4 Bozqurdla rastlaşıdım. İsgəndər bəy mülki geyimdə idi, pencəyini qolunun üstünə atmışdı. Nədənsə onu mülki geyimdə görəndə jurnalist Ənvər Börüsoyu xatırladım. (Ənvərlə sonralar "Avrasiya" qəzetində çalışmışıq) Düşünürdüm ki, Ənvər də general qiyafəsi geyinsəydi, eynən İsgəndər bəyə oxşayardı. Özü də təkcə xarici görünüşləri deyil, boyları, çəkiləri də demək olar ki, eyni idi...

O gün İsgəndər bəy Bozqurdlarla liftə minib yuxarı qalxanda mən nəşriyyatın qabağında onların gəldiyi iki ağ "Mersedes" maşına baxırdım. Bu maşınlar o zaman DİN-ə təzə gətirilmişdi. Birdən yuxarıdan hay-küy qopdu. Kimsə dedi ki, görəsən İsgəndər bəy bu dəfə hansı jurnalisti döyməyə gəlib? O vaxtlar Rauf Mirqədirovla Zərdüşt Əlizadə yazılarına görə onun qəzəbinə gəlmişdilər. Eşidəndə ki, səs 7-ci mərtəbədən - "Millət"in redaksiyasından gəlir, mən necə deyəllər, "fitimi" anladım. Bir az öncə Bozqurdların boy-buxununa baxanda qürur hissi keçirmişdim. İndi isə İsgəndər bəyin bircə əmri ilə istənilən jurnalisti xəsətəxanalıq etməyə qadir olan o Bozqurdların qoçu obrazı canlandı gözlərim

önümdə. (Belə bazburutdu cavanlara bizim tərəflərdə ayıboğan deyirlər)

Az sonra nazirin "Davam edir 37.." məqaləsinin müəllifini axtardığını eşidən kimi dərhal avtovağzala yolllandım. O vaxt "Millət"in baş redaktoru Vilayət Quliyev idi. (Hazırda Azərbaycanın Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri-N.Ə) Deyilənlərə görə, İsgəndər bəyin Vilayət müəllimlə arası olmadığı üçün onunla da haqq-hesab çəkməyə gəlibmiş. Xoşbəxtlikdən o an baş redaktor da redaksiyada olmayıb...

Nə isə... 01.08.1992-ci il tarixli sayında "Millət" qəzeti "Nazirin etirazı" adlı belə açıqlama verdi: "Qəzetimizin ötən sayında "Davam edir 37..."sərlövhəli yazı dərc edilmişdi. Elə həmən gün respublika daxili işlər naziri İsgəndər bəy Həmidov şəxsən redaksiyaya gəlib məqaləyə qəti və bir qədər də əsəbi halda etirazını bildirdi. Biz İsgəndər bəyə xatırlatdıq ki, qəzet müstəqildir, hadisələrə obyektivlik baxımından yanaşır, heç bir qərəzli mövqe tutmur. Əgər Respublika Daxili İşlər Nazirliyi məqalədə göstərilən faktları əsaslı dəlillərlə rəsmi olaraq təkzib edərsə, biz onu məmnuniyyətlə qəzetdə dərc etməyə hazırıq"

Şübhəsiz ki, "bir qədər də əsəbi halda" ifadəsi sadəcə olaraq nazirin qəzəbini söndürmək üçün yazılmışdı. Əslində rəhmətlik Zöhrab Əmirxanlı (o vaxt "Millət"də işləyirdi) mənə yarızarafat, yarıciddi deyirdi ki, anan namaz üstəymiş o anda, əgər redaksiyada olsaydın, İsgəndər bəy qəzəbindən səni 7-ci mərtəbədən üzü aşağı atardı...

Bu əhvalatdan bir il sonra "Arxandan vurduğu zərbəyə görə "mükafat" umanlar" yaxud federativləşmə astanası... ("Millət" qəzeti, 15.07.1993, № 75 (167)tiraj 28.306.) bir səhifəlik yazımda özünü Lənkaran şəhərində elan etdiyi Talış-Muğan Respublikasının Ali Baş komandanı kimi təqdim edən Ə. Hümmətovun Masallıdakı özbaşınalıqlarından bəhs olunurdu.

Həmin il Aşura günü 1 iyula təsadüf edirdi. Masallıda adamların əksəriyyəti Allahın evi sayılan şəhər cümə məscidinə toplaşmışdılar. Əli silahlı hümmətovçular Masallı İcra hakimiyyətini ələ keçirmişdilər. İyulun 8-də cənub bölgəsində ilk dəfə Masallıda TMR-ə qarşı etiraz nümayişi başladı, İH binasını ələ keçirmiş hərbçilər dinc əhaliyə xəbərdarlıq atəşi açdı. Bu zaman fasada toxunan güllələr vahiməli ölüm "qəhqəhəsi" qopararaq istiqamətini dəyişib iki nəfəri yaraladı. Dəniz kimi kükrəyən camaat: "Gedin bu güllələri QARABAĞDA ermənilərə atın!.." deyərək hümmətovçu əsgərləri tərki-silah elədi. Təqribən iki saatdan sonra Göytəpə və Lənkəran istiqamətindən içi əsgərlərələ dolu maşınlar, bir BTR və tank İH binasını yenidən mühasirəyə aldi, havaya güllələr atıldı... Dişinə qədər silahlanmış hümmətovçu əsgərlər "işğal etdikləri" Masallıda yenidən meydan sulamağa başladılar.

...O günlər əli silahlı bu əsgərlərdən VƏTƏN kömək diləyirdi. Ağdam cəbhəsindən həyacanlı xəbərlər gəlirdi. Cənub bölgəsində hamı narahat idi: - Azərbaycan parçalanmamalıdır!..

Rayon ictimaiyyətinin qondarma TMR-ə qarşı

etirazı barədə məqaləm "Millət" qəzetində dərc olunandan sonra hümmətovçuların təqiblərinə məruz qaldım. Onlar həbs etdikləri adamları Sarı adasına aparırdılar. Vaqif Səfərov adlı həmyerlimin köməyi ilə rayondan çıxıb bir müddət Bakıda qalmalı oldum.

Peşə fəaliyyətimdə həyacan keçirdiym məqamlar təkcə bu iki yazıyla bağlı deyil! "7 milyona satılmış azadlıq" , "Masallıda Kosovo böhranı", "Paqonlu qatillər cəzasına catacaqmı?", "Qatilini axtaran ruh", "Polis it qatili axtarır", "Rusiyalı "generalın" Masallı sərgüzəştləri" və s. yazılarım mənə həyacanlı, təqib və təhdid dolu anlar yaşadsa da, jurnalist olmağıma heç vaxt təəssüf etməmişəm. 42 ildə yalnız 2 dəfə - "Şah qanun deyil, qanun şahdır", "Keçmiş polis Ərəbzəngi rolunda" yazılarıma görə prokurorluq və məhkəmə orqanlarına şikayət olunub və hər iki şikayətə ədalətli şəkildə baxılıb... Yalnız bir yazıma görə ölümlə təhdid olunmuşam, bu barədə "Cənub şikəstəsi" kitabımda (Bakı,"Qanun" nəşriyyatı, 2012) ətraflı bəhs etmişəm.

7 ilə yaxın baş redaktoru olduğum "Masallı" qəzeti 1998-c ilin nəticələrinə görə RUH Jurnalistləri Müdafiə Komitəsinin "İlin ən mübariz əyalət qəzeti" mükafatının qalibi diplomuna və xatirə hədiyyəsinə layiq görülüb. Onu da qeyd edim ki, tənqidi yazılarıma görə rayon rəhbərliyi mənə yer vermədiyindən, yaşadığım mənzil həm də qəzetin ünvanı olub!..

2013 – cü ildə Azərbaycan mediasında səmərəli fəaliyyətimə və 55 illik yubileyimə görə Mətbuat Şurasının diplomu ilə təltif edilmişəm.

Düzü, uzun illər mətbuatla nəfəs alıb, canını təhlükə qarşısında qoyan peşəkar jurnalistlərin diqqətdən kənar qalması, vaxtilə İ.Həmidovun "subtropik əməliyyatı"nı tərifləyən, Azərbaycanı parçalamağa cəhd edən Ə.Hümmətovu qəhrəman adlandıran, qara polkovnikləri, boynuyoğun generalları mediada piar edənlər "müxbirlik vəsiqəsindən", "press-kartlardan" qazanc mənbəyi kimi bəhrələnməsi ürək ağrıdan hallar idi. Peşə etikasına məhəl qoymayan beləri "jurnalist" qiyafəsində "gözə" girib, "reketçilik" edərək özlərinə konfort şərait qurublar, maşın, ev, bağ alıblar. Ölkədə senzura ləğv olunandan sonra beləri yağışdan sonra əmələ gələn göbələklər kimi artıb-çoxalmışdı.

Məhz Mətbuat Şurasının, az sonra Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da belə bir zərurətdən irəli gəldi. Əgər Mətbuat Şurasının fəaliyyətinə jurnalist adına xələl gətirən, mediada qərəzli mövqe tutan, reketçiliklə məşğul olanlara qarşı mübariz daxildirsə, KİVDF-nin başlıca məqsədlərindən biri də jurnalistlərin sosial müdafiəsini gücləndirməkdir. Son illər hər iki yeni qurumun bu sahədə uğurlu fəaliyyətlərinin şahidi olmuşuq.

...Yazımın sərlövəsini "1992 - 93-cü və 2017-ci ilin qızmar yayı..." qoymağım sizə qəribə görünməsin. Etiraf edim ki, aradan 25 il ötəndən sonra yenə yayın bu qızmar günləri həyacan keçirirəm. Amma bu həyacanın adı da, ünvanı da tamam başqadır! Şübhəsiz ki, bu həyacanı jurnalistlər üçün nəzərdə tutulan mənzillərin bölgüsü ərəfəsində mənim kimi

yüzlərlə qələm sahibi keçirir. Çünki mənzil üçün müraciət edən jurnalistlərin sayı mövcud mənzillərin sayından qat-qat çoxdur. Mətbuat Şurası İdarə heyətinin üzvü, Əməkdar jurnalist Vüqar Rəhimzadə demişkən: "***Evi olan da, olmayan da ev istəyir, amma ədalətlilik prinsipini itirmək olmaz. İlk növbədə həqiqi ehtiyacı olanlar nəzərə alınmalıdır...***"

...Bəli, 60 yaşımın ərəfəsində, həyacan içində ümid edirəm ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının media bölümünə rəhbərlik edən şöbəsi başda olmaqla, həm MŞ –nin, həm KİVDF-nin, həm də Milli Televiziya və Radio Şurasının ədalətli və şəffaf seçimi əsasında 22 iyil MİLLİ MƏTBUAT GÜNÜ TALE İLAHƏSİ mənzilə həqiqi ehtiyacı olan çox jurnalist ailələrinin üzünə güləcək!..

Az.press.az 3.07.2017

Nurəddin Ədiloğlu

1958-ci il fevralın 1-də Masallı rayonunun Xırmandalı kəndində anadan olub. 1975-ci ildən dövrü mətbuatda publisistik və bədii yazıları ilə çıxış edir. 1984-cü ildə ADU-nun (indiki BDU-nun) jurnalistika fakültəsini bitirib. "Tok Qafar" adlı ilk hekayəsi vaxtilə Masallıda çıxan "Çağırış" qəzetində dərc olunub. Gənclər təşkilatında, Rayon İcraiyyə Komitəsində, rayon qəzetində, İcra Hakimiyyəti aparatında müxtəlif vəzifələrdə çalışıb.1999-2004-cü illərdə Masallı şəhər Bələdiyyəsinin üzvü və katibi olub.

90-cı illərdə "Millət", "Avrasiya", "Hüriyyət" qəzetlərinin cənub bölgəsi üzrə müxbiri işləyib. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 1995-2002-ci illərdə "Masallı" müstəqil qəzetinin baş redaktoru vəzifəsində çalışıb. Qəzet 1998-ci ildə Milli Mətbuat günü "RUH" Jurnalistləri Müdafiə Komitəsinin "Ən mübaruz əyalət qəzeti" mükafatına və diplomuna layiq görülüb. 1 fevral 2013-cü ildə "Azərbaycan mediasında səmərəli fəaliyyətinə və anadan olmasının 55 illik yubileyinə görə" Azərbaycan Mətbuat Şurasının diplomu ilə təltif edilib.

Onun təşəbbüsü və ssenarisi əsasında 1992-ci ildə şair, alim, həkim, müəllim və bəstəkar Mir Kazım Aslanlı–Sarəngin Masallıda 80 illik yubileyi təntənə ilə qeyd olunub. İştirakı ilə hazırlanan "Sarəng ömrünün hekayətləri" adlı ədəbi-musiqili veriliş Azərbaycan radiosunun qızıl fonduna daxil edilib. "Sarəng -ruhun gözəlliyi" məqləsi ingilis, rus, türk dillərində Türkiyədə nəşr edilən "World of Azerbaijan" ("Azərbaycan dünyası") dərgisində dərc olunub (dekabr 2012, səh 80-85).

Povest və hekayələri "Azərbaycan", "Ulduz", "Şəfəq", "Söz", "Mars", "Yurd", "Xəzan" ədəbi-bədii jurnallarında, "Ədəbiyyat qəzeti", "Mədəniyyət", "Sənət qəzeti", "Tac",

"Kredo", "Ocaq", "Kaspi", "525-ci qəzet", "Ədəbiyyat naminə", "Sözün işığı" və s. qəzetlərdə dərc olunub.

Mətbuat Şurasının "Qarabağ mövzusunun və Xocalı soyqırımının mediada təbliğinə dəstək" müsabiqəsində "Dünyanın eşitmədiyi haray" yazısına görə pul mükafatı ilə təltif olunub. "Qızıl Qələm" media mükafatı laureatıdır. Doğulduğu bölgənin ağsaqqal və ağbirçəklərinin yaddaşından qələmə aldığı folklor nümunələri Azərbaycan radiosunun "Bulaq" verilişində səsləndirilib.

"Rabitə dünyası" (1998), "Masallı XX əsrdə" (2000), "Seyid Sadıq" (2002) sənədli filimlərinin ssenari müəllifi və rejissorudur. İstedadlı rejissor Elçin Cahangirlinin "Susmuş vicdan" (2010-2012) serialında 41, 42, 43-cü seriyaların ssenari müəlliflərindən və "Sevginin göz yaşları" teleserialının redaktorlarından biridir.

Xocalı faciəsinə həsr etdiyi "Şəhidlər anası" pyesi 1994-2002-ci illərdə Xalq Teatrının səhnəsində dəfələrlə tamaşaya qoyulub, 2017-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində oynalınıb və II Respublika Xalq Teatrları Festivalının diplomları ilə təltif olunub.

2004-cü ildən Bakı şəhərində yaşayır. 2004-2008-ci illər "Mars" ədəbi-bədii jurnalında məsul redaktor, 2005-2008-ci illər "Qarabağa aparan yol" qəzetinin baş redaktor müavini, eyni zamanda "Humanitar", "Yeni dirçəliş" qəzetlərinin əməkdaşı işləyib. Hazırda "YURD" ədəbi-bədii, elmi-publisistik jurnalında nəsr şöbəsinin müdiridir. 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 2016-cı ildən İLESAM-ın (Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyi) üzvüdür. 20-dən çox bədii və publisistik kitabın müəllifidir.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz: Zamanın yaddaş kodları
(professor Qulu Məhərrəmli).....3
Vətən aşiqi (esse) 10
Dəniz,vətən,mən (esse).....17
"Günəş ləkə götürməz".....26
Mətbuat tariximizdən səhifələr.....33
M. Soltan kim olub?!.....46
Ustadını yad etmək ibadətdir.....52
"Rüşvət alsaydım, Zəbi Quliyev olmazdım..."....58
Qaçaq Mozu 64
Ənvər Paşanın adaşı (ssenari).....71
Ölüm haqq olsa da... 78
Xalq artisti İlham Əsgərov haqqında xatirə-esse.....85
Novruz Xoşbəxt.....92
Qəribin bənzəri... 97
"Dost gedib, özümə gələ bilmirəm..."....102
Türkün nəhəng oğlu.....110
Sabir bulağı.....112
Bizim Musa müəllim.....121
Sözün Məftunu 127

Zamanə dərvişi.....135
"Yaxşı"lara ünvan Əli.....143
"Məni ayaqlarım yox, gəzdirən sözüm imiş..."....149
Bəşəri xəcalət.....155
Sülh savaşçısı.....162
"İlahi, sən mənə yiyə durmadın..."....167
Masallı bulaqları 171
İstisu (esse) 180
Masallının "söz boxçası" 186
Mənim Bağdagül nənəm 200
Təbiətin insanlara barış təklifi.....210
Eminalı qulabanı 217
Bamәzə Cəlal 222
"Maraqlı əhvalatlar" silsiləsindən.....226
Mircəfər Bağırov: "Kim oruc tutub?".....229
Sənət və ədavət (esse) 232
Yaddaşımın nur heykəli 235
Ölməzlik ölümdən sonra yaşamaq bacarığıdır.....238
Rəssamın portret cizgiləri.....242
Haqq-ədalət sorağında 251
Müsahibə 260
Jurnalist ömrünün həyəcanlı anları.....273